# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# OTUZ ÜÇÜNCÜ KİTAB

## SENTYABR 2008 - NOYABR 2008

AZƏRNƏŞR
BAKI - 2016

# İLHAM
# ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2016

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2016, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində 2008-ci ilin oktyabrında Azərbaycanın tarixində əlamətdar hadisə – prezident seçkilərində digər namizədlərdən daha çox xalqın dəstəyini qazanmış İlham Əliyevin Heydər Əliyev sarayında andiçmə mərasimindəki nitqi, növbəti illərdə qarşıda duran məsələlərə dair çıxışları yer almışdır.

Kitabda, həmçinin dövlət başçısının bölgələrə səfərləri, regionların sosial-iqtisadi inkişaf proqramının həyata keçirilməsilə əlaqədar ölkənin sosial, iqtisadi, kənd təsərrüfatı və mədəni cəhətdən inkişafına həsr olunmuş nitqləri, ictimaiyyətin nümayəndələri ilə görüşlərinə, səfər etdiyi bölgələrdə bir sıra orta məktəblərin, zavodların, sənaye müəssisələrinin açılışında iştirakına dair müzakirələri və bir çox digər sənədlər də dərc edilmişdir.

**İSBN 978-9952-8100-7-3**

$$\text{Я}\ \frac{0801000000}{\text{M} - 651(07) - 2016}$$

**ББК - 32**

© Azərnəşr, 2016

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAX, AĞSTAFA VƏ TOVUZ RAYONLARINA SƏFƏRİ

*24 sentyabr 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 24-də qərb bölgəsinə səfərə getmişdir.*

*Əvvəlcə Qazax şəhərinə gələn dövlətimizin başçısı Heydər parkında ümummilli liderin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.*

*Prezident parkda aparılmış abadlıq-quruculuq işləri ilə tanış oldu. Məlumat verildi ki, Heydər Əliyev Elm Mərkəzinin yerləşdiyi parkda genişləndirmə işləri aparılmış, yaşıllıq zolağı salınmış, dekorativ kollar və güllər əkilmişdir. İndi bura qazaxlıların sevimli istirahət yerlərindən biridir.*

## Heydər Əliyev
## Elm Mərkəzinin açılışı mərasimi

*Sentyabrın 24-də Qazax şəhərində Heydər Əliyev Elm Mərkəzinin açılışı olmuşdur.*

*Prezident İlham Əliyev açılışı bildirən rəmzi lenti kəsdi.*

*Orijinal formalı geniş binada ümummilli liderin həyat və fəaliyyətini əks etdirən böyük ekspozisiya salonu vardır. Qazaxlılar xalqımızın dahi oğlunun, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusunun xatirəsini əziz tuturlar. Hələ ötən əsrin 70-ci illərində Heydər Əliyevin Qazaxa səfərləri bu rayonun həyatında silinməz izlər buraxmışdır. Mərkəzdə o dövrdən yadigar olan fotolar, habelə ümummilli liderin 1998-ci ildə prezident seçkiləri ərəfəsində rayona səfərlərini və*

*ictimaiyyətlə görüşlərini əks etdirən fotoşəkillər böyük maraq doğurur. Çox az sayda ölkədə olan, yalnız əlin toxunması ilə idarə edilən Ubiq`Window sistemi qurulmuşdur. Bu qurğunun köməyi ilə fotoşəkillər, video görüntülər və mətnlər vasitəsilə ulu öndərin həyat və fəaliyyəti barədə məlumat almaq mümkündür. Eyni zamanda, kitabxana, kompyuter kursları da yaradılmışdır. Burada elmi araşdırmalar aparılacaq, gənclər ulu öndərin zəngin irsini öyrənəcəklər.*

*Burada Qafqazda yeganə olan planetari qurulmuşdur. Onun yerləşdiyi salon kürə formalıdır. Salonun tam 180 dərəcə səthi ekran rolunu oynayır. Xüsusi qurğu vasitəsilə həmin ekranda qalaktikalar, günəş sistemi, planetlər və sair göstərilir. Prezident İlham Əliyev fotoşəkillərə və eksponatlara, ekranda nümayiş etdirilən səma cismlərinə baxdı, Elm Mərkəzindəki funksional əlaqə studiyasında bir neçə rayon məktəbləri ilə monitor vasitəsilə birbaşa əlaqəyə girdi.*

**İ l h a m Ə l i y e v:** Salam uşaqlar, necəsiniz?

**U ş a q l a r:** Salam. Yaxşıyıq.

**İ l h a m Ə l i y e v:** Mən sizi salamlayıram və yeni dərs ilinin başlanması münasibətilə sizi təbrik edirəm.

**U ş a q l a r:** Cənab Prezident, çox sağ olun, təşəkkür edirik.

**İ l h a m Ə l i y e v:** Siz yaxşı oxumalısınız, savadlı, bilikli olmalısınız. Azərbaycanın gələcəyi sizinlə bağlı olacaqdır. Azərbaycanda təhsilin səviyyəsinin qaldırılması üçün dövlət çox işlər görür. Yeni məktəblər tikilir, təhsilin keyfiyyəti artır. Artıq burada ən müasir informasiya-kommunikasiya texnologiyaları tətbiq olunur. Mən çox şadam ki, bu gün Qazaxda Heydər Əliyev Elm Mərkəzində belə gözəl avadanlıq qurulubdur və 9 məktəbdə eyni avadanlıq var. Biz bir-birimizi görürük, söhbət edirik. Mən çox şadam ki, Azərbaycanda bu sahədə çox böyük işlər görülür.

Bütün uşaqlar kompyuteri, yeni texnologiyaları bilməlidirlər və bütün müasir, mütərəqqi təcrübə Azərbaycanda tətbiq olunmalıdır. İlk növbədə, təhsil sahəsində. Çünki ölkənin gələcəyi təhsilin səviyyəsindən asılıdır. Mən bu gün sizə uğurlar

arzulayıram. Arzu edirəm ki, siz yaxşı oxuyasınız və böyüyəndə Azərbaycan üçün çox dəyərli vətəndaşlar olasınız.

**R a u f  H ü s e y n o v** (*Qazax Rayon İcra Hakimiyyətinin başçısı*): Cənab Prezident, şagirdlər Sizə öz suallarını çatdırmaq istəyirlər.

**Ş a g i r d:** Möhtərəm cənab Prezident, şairlər diyarı Qazax mahalına xoş gəlmisiniz. İlk növbədə, rayonumuza təşrif buyurduğunuza və «Vətən sərhəddən başlayır» prinsipinə sadiq qalıb, sərhəd rayonlarının, eləcə də Qazaxın abadlaşdırılmasına, yeni məktəblərin tikintisinə görə Sizə dərin təşəkkürümüzü bildiririk. Bu gün məktəbimizin şagirdləri adından demək istəyirəm ki, əvvəllər orta məktəbi əla qiymətlərlə başa vuran şagirdlərə qızıl və gümüş medallar verilərdi. O ənənənin bərpa olunması mümkündürmü?

**İ l h a m  Ə l i y e v:** Bilirsiniz, keçmişdə müxtəlif ənənələr olmuşdur. Biz bütün ənənələrə gərək bugünkü Azərbaycanın reallığına nə dərəcədə cavab verib-verməmək baxımından yanaşaq. Əlbəttə ki, məktəbdə yaxşı qiymətlərlə oxuyan şagirdlər daha da böyük üstünlüklərə malik olmalıdırlar. Bildiyiniz kimi, indi Milli Məclisdə təhsil haqqında qanun müzakirə olunur. Düzdür, bu müzakirə çox uzandı. Amma geniş müzakirə aparılır və yəqin ki, lazım olan bütün tədbirlər bu qanunda öz əksini tapacaqdır. Mən çox istəyirəm ki, şagirdlər çox bilikli olsunlar və onların ibtidai və orta təhsili yüksək səviyyədə olsun ki, gələcəkdə müxtəlif sahələrdə çox uğurla işləsinlər. Hər bir gənc öz doğulduğu rayonun inkişafına öz töhfəsini versin. Son illər ərzində Qazax rayonunda çox böyük işlər görülüb və yeni müəssisələr açılıbdır. Keçən il çox gözəl olimpiya kompleksi açılmışdır, onun açılışında bərabər iştirak etmişdik. Bu gün bir neçə dəqiqədən sonra müasir Müalicə-Diaqnostika Mərkəzinin açılışında iştirak edəcəyəm. Yəni həm tibbi xidmət, həm təhsil, həm infrastruktur, həm də yeni müəssisələr, yeni iş yerləri – Azərbaycanın bütün rayonları bax, bu istiqamətdə inkişaf edir. Biz məsələlərə kompleks şəkildə yanaşırıq. Əlbəttə ki, təhsil məsələlərinin ön planda olması Azərbaycanın dövlət siyasətinin təzahürüdür. Bizim bütün gələcək uğurlarımız bugünkü gənclərin fəaliyyətindən asılıdır.

Mən sizi bir daha həm salamlayıram, həm də yeni dərs ilinin başlanması münasibətilə təbrik edirəm. Tövsiyə edirəm ki, yaxşı oxuyasınız və bilikli mütəxəssislər olasınız. Sağ olun.

**Ş a g i r d l ə r:** Cənab Prezident, təşəkkür edirik.

*Sonra dövlətimizin başçısı Elmi Mərkəzinin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

## RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*Qazax rayonu*

*24 sentyabr 2008-ci il*

*Sentyabrın 24-də Azərbaycan prezidenti İlham Əliyev Elm Mərkəzinin qarşısındakı parkda rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

*Azərbaycan Yazıçılar Birliyi Qazax bölməsinin rəhbəri şair Barat Vüsal dövlətimizin başçısını salamlayaraq dedi:*

– Cənab Prezident, bu gün Qazaxda geniş quruculuq işləri, sürətli inkişaf, yeniləşmə gedir. Bu bizi çox sevindirir və qarşısında dayandığımız, açılışında iştirak etdiyimiz Heydər Əliyev Elm Mərkəzi, eləcə də bu gün açılışı olacaq Müalicə-Diaqnostika Mərkəzi buna sübutdur. Bundan əvvəl Qazaxda Olimpiya İdman Kompleksi istifadəyə verilmiş, çoxlu işçi qüvvəsi tələb olunan sement zavodu tikilmiş, xalqın istirahət yerinə çevrilmiş Heydər Əliyev parkı, Mütəfəkkirlər parkı salınmış, tariximizə məhəbbətin nişanəsi olan Dədə Qorqud abidə kompleksi yaradılmışdır. Bu nəyi göstərir?! Onu göstərir ki, ulu öndərimiz Heydər Əliyevin xətti uğurla davam etdirilir. Bu bizi çox sevindirir.

Hörmətli Prezident, Sizin belə bir sözünüz var: «Biz gərək bütün şəhərlərimizi yeniləşdirək». Siz yeniləşməni sevirsiniz – yeniləşmə, yeniləşmə, daim yeniləşmə Sizin amalınızdır. Bu gün Qazaxda gedən yeniləşmə də bunu sübut edir. Sizin Qazax haqqında çox maraqlı fikirləriniz var. Onlardan birini xatırlatmaq istəyirəm: «Qazax Azərbaycanın paytaxtdan uzaq ən ucqar rayonlarından biridir. Ona görə də oraya xüsusi diqqət və qayğı göstərilməlidir». Biz qazaxlılar bunu hər dəqiqə, hər an

hiss edirik. Qazaxda böyük yeniləşmə, inkişaf gedir. Ölkədə maliyyə kapitalı insan kapitalına çevrilir. Həqiqətən də, inkişafın yolu budur. Dünya təcrübəsi də bunu göstərir.

YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, xalqımızın sevimlisi Mehriban xanım Əliyeva da çox böyük işlər görür. Biz minnətdarlığımızı buradan ona çatdırırıq. Yeni məktəblərin açılmasında, səhiyyə ocaqlarının tikilməsində, ümumiyyətlə, Azərbaycanda gedən abadlıq və quruculuq işlərində bir silahdaş, məsləkdaş kimi, onun Sizin yanınızda olmasını çox bəyənirik.

Ulu öndər rayonumuza çox böyük diqqət və qayğı ilə yanaşırdı, insanlara yüksək qiymət verirdi. Ulu öndər Qazağı necə sevirdisə, Siz də elə sevirsiniz.

Bu gün dünyanın hər yerində Azərbaycan bayrağı dalğalanır, ölkədə sabitlik hökm sürür, dinamik inkişaf var, iqtisadiyyatımız sürətlə inkişaf edir, ölkənin müdafiə qabiliyyəti artır. Buna hər birimiz sevinirik. Sağ olun.

**İ l h a m Ə l i y e v:** Mən sizi ürəkdən salamlayıram. Yenidən Qazaxda olmağımdan da çox şadam. Hər dəfə buraya gələndə, yenilikləri görəndə mən çox sevinirəm. Siz düz söyləyirsiniz, mənim istəyim odur ki, bütün ölkəmiz yeniləşsin, müasirləşsin, ancaq öz tarixi simasını saxlamaq şərti ilə. Biz Qazağın timsalında bunları görürük. Mən son 5 il ərzində beşinci dəfədir Qazaxdayam. Hər dəfə gələndə yeniliklər görürəm. Bax, indi açılışında iştirak edəcəyimiz yeni müasir Müalicə-Diaqnostika Mərkəzi ən yüksək dünya standartlarına cavab verir. Yəni dünyada, ən inkişaf etmiş ölkələrdə, şəhərlərdə hansı avadanlıq varsa, burada da var. Rayonun parkları, binaları, körpüləri, Olimpiya İdman Kompleksi, yəni bütün bunlar rayonun inkişafına, insanların daha da yaxşı yaşamasına xidmət edir. Həm iqtisadi məsələlər həll olunur, iş yerləri açılır, həm sosial məsələlər həllini tapır – məktəb, xəstəxanalar tikilir və sair, həm də gözəllik, abadlıq yaradılır. Siz də bu yeri yaxşı xatırlayırsınız, mən də yaxşı xatırlayıram. İlk dəfə 10 il əvvəl burada olmuşam. Görürsünüz, necə gözəl

park yaradılıbdır. Əvvəl park yaradıldı, ondan sonra ulu öndərin abidəsi qoyuldu, bu dəfə də Elm Mərkəzinin açılışında iştirak edirik. Burada quraşdırılan texnika Azərbaycanın başqa heç bir yerində yoxdur. Siz onu bilirsiniz.

Azərbaycanın uğurlu inkişafı bax, bu yolla getməlidir və bu yolla gedir: hər bir rayonun inkişafı, hər bir kəndin abadlaşması. Əlbəttə, mən o sözləri yaxşı xatırlayıram, paytaxtdan uzaqda yerləşən rayonlara ən böyük diqqət göstərilməlidir, xüsusilə sərhəd rayonlarına. Qazax həm sərhəd rayonudur, həm də Bakıdan ən uzaqda yerləşən rayondur. Burada abadlıq, quruculuq, inkişaf sürətlə gedəndə, deməli, bu, bütün Azərbaycanı əhatə edir. Hər bir rayonda özünəməxsus olan inkişaf var. Hər bir rayonda xüsusi proqramlar var və regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası, demək olar ki, başa çatıbdır. Beşillik proqram başa çatıbdır. Orada nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapıbdır. Növbəti 5 il üçün yeni proqram hazırlanacaq və orada daha geniş işlər nəzərdə tutulur.

İndi Qazağı Bakı ilə birləşdirən avtomobil yolunun, demək olar ki, böyük hissəsi tikilib, az hissəsi qalıbdır. Yəni bütün bunlar rayonun inkişafına, hər bir vətəndaşın yaxşı yaşamasına xidmət edir. Bizim vətəndaşlar bu gün yaxşı yaşamalıdır. Bilirsiniz ki, keçmişdə, Sovet İttifaqı zamanında deyirdilər ki, gəlin əziyyət çəkək, nə vaxtsa parlaq gələcək olacaqdır. Əlbəttə, biz öz strategiyamızı uzunmüddətli əsaslarla qurmuşuq. Ancaq mən istəyirəm ki, Azərbaycan vətəndaşları bu gün yaxşı yaşasınlar. Bax, bu gün gözəl tibbi xidmətdən istifadə etsinlər, uşaqlar yaxşı məktəblərdə oxusunlar, insanlar yaxşı işlə təmin olunsunlar, yaxşı maaş alsınlar. Bütün bu istiqamətlərdə bizim proqramlarımız var və onların təməlində iqtisadi islahatlar durur. Çünki bu olmasa, bunların heç birini etmək mümkün olmayacaq.

Əgər vaxtilə ulu öndər Heydər Əliyev tərəfindən neft strategiyası həyata keçirilməyə başlamasaydı, indi Neft Şirkətinin imkanı olmayacaqdı ki, belə gözəl bina tiksin, avadanlıqla təchiz etsin. Yəni bütün bunlar bir-biri ilə bağlı olan

məsələlərdir. Bizim bugünkü uğurlarımızın təməli 10–15 il bundan əvvəl qoyulmuşdur. Biz yeni çağırışlara hazır olmaqla bu siyasəti davam etdiririk və Azərbaycanın hər bir bölgəsini müasirləşdiririk. İnfrastruktur, sosial, iqtisadi, sənaye və humanitar məsələlərin həlli – bütün bunlar kompleks şəkildə, əlbəttə, ölkənin uğurlu inkişafını təmin edəcəkdir. Bütün bunlara nail olmaq üçün ölkədə sabitlik, əmin-amanlıq necə varsa, elə də davam edəcəkdir. Xüsusilə indiki zamanədə dünyada gedən proseslər artıq əvvəlki illərdən daha fərqlidir. Dünyada beynəlxalq davranış qaydaları bəzi hallarda pozulur. Beynəlxalq hüquq normalarına əməl edilmir. Yəni biz növbəti bir tarixi mərhələyə qədəm qoyuruq. Biz möhkəm olmalıyıq – həm müdafiə gücümüzdə, həm sabitlikdə, həm də inkişafda.

Azərbaycan özünü təmin edən ölkədir, başqa ölkələrin yardımından asılı deyildir. İstər iqtisadi baxımdan, istərsə də siyasi baxımdan biz Azərbaycan xalqının iradəsinə əsaslanaraq müstəqil siyasət aparırıq. Müstəqil siyasət ən düzgün siyasətdir. Çünki bu siyasət öz xalqının maraqlarına xidmət edir. Belə olan halda, ölkə daha da güclənir. Bu gün Azərbaycan dünyada ən sürətlə inkişaf edən ölkədir. Bunu həm biz deyirik, həm də bütün beynəlxalq maliyyə qurumları və sair deyir. 4 il ərzində biz iqtisadi inkişaf baxımından birinci yerdəyik. Bu, böyük məsələdir. Biz artıq buna bir növ öyrəşmişik. Hamıya da elə gəlir ki, belə də olmalıdır. Amma belə olmaya da bilərdi. Bugünkü reallıqların təməlində, bir daha deyirəm ki, 10–15 il əvvəl başlanmış islahatlar və indiki uğurlu inkişafımız, konkret proqramlar və xalqla iqtidar arasında birliyin olması dayanır. Bu amillər birlikdə bugünkü inkişafı təmin edir. Biz Qazax rayonunun timsalında bunu görürük. Rayon necə gözəlləşir, abadlaşır, burada necə gözəl binalar tikilir. Mən şübhə etmirəm ki, növbəti illərdə biz bu siyasətlə ölkəmizi daha da hərtərəfli inkişaf etdirəcəyik.

Mən bu işlərdə sizə və bütün qazaxlılara uğurlar arzulayıram
.

***

*Azərbaycanın güləş üzrə yeniyetmələrdən ibarət yığma komandasının Baş məşqçisi Firdovsi Umudov idmançılara yaradılan şəraitə görə dövlətimizin başçısına təşəkkür etdi və bildirdi ki, rəhbərlik etdiyi komanda Avropa çempionatına hazırlıq prosesini Qazax Olimpiya İdman Kompleksində keçmişdir. Bu da bölgələrdə idmanın inkişaf səviyyəsindən xəbər verir.*

*Sonra prezident İlham Əliyevə rayon ictimaiyyəti adından xatirə hədiyyəsi, Qazaxda görülən abadlıq-quruculuq işlərini əks etdirən fotoalbom hədiyyə olundu.*

## Müalicə-Diaqnostika Mərkəzinin açılışı

*Sentyabrın 24-də Qazaxda Müalicə-Diaqnostika Mərkəzinin açılışı olmuşdur.*

*Tibb işçiləri mərasimdə iştirak etmək üçün buraya gələn prezident İlham Əliyevi səmimiyyətlə qarşıladılar.*

*Dövlətimizin başçısı mərkəzin işçilərinə müraciətlə dedi:*

– Qazax Müalicə-Diaqnostika Mərkəzinin açılışı münasibətilə sizi təbrik edirəm. İndi iştirak edəcəyəm və baxacağam, amma bilirəm ki, burada ən gözəl avadanlıqlar quraşdırılıb, ən gözəl şərait var. Həm xarici görünüşü gözəldir, həm də avadanlığı, bütün təchizatı ən müasir standartlara uyğundur. Yəni burada ən yüksək tibbi xidmət almaq mümkündür və əminəm ki, insanlarımız bu sağlamlıq ocağından istifadə edəcəklər. Həkimlər də onlara yaxşı baxmalı, yaxşı xidmət göstərməlidirlər. Əminəm ki, belə gözəl şəraitdə işləmək də çox xoş olacaqdır.

*Tibb işçiləri ölkəmizin prezidentinə təşəkkürlərini bildirdilər.*

*Sonra dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi, mərkəzlə tanış oldu.*

*Təməli 2005-ci ilin oktyabrında prezidentin Qazağa səfəri zamanı qoyulan bu mərkəz Dövlət Neft Şirkətinin vəsaiti*

*hesabına tikilmişdir. Dövlətimizin başçısı ötən il bu rayona səfəri zamanı tikinti işlərinin gedişi ilə maraqlanmış, müvafiq tapşırıq və tövsiyələrini vermişdi.*

*Ümumi sahəsi 9500 kvadratmetr olan yaraşıqlı üçmərtəbəli bina iki hektarlıq ərazidə yerləşir. Həyatdə geniş yaşıllıq zolağı salınmış, xəstələrin istirahəti üçün lazımi şərait yaradılmışdır. Binanın birinci mərtəbəsində təcili yardım, hemodializ, şüa-diaqnostika, kompyuter tomoqrafiyası şöbələri yerləşir.*

*Şüa-diaqnostika şöbəsi ilə yaxından tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, mərkəzdə quraşdırılan bütün tibb aparatları, avadanlıqlar xaricdə istehsal olunmuşdur. Bunlar xəstələrin daha müasir üsullarla müayinəsinə imkan verəcək, onların müalicə üçün paytaxta və başqa yerlərə getməsinə ehtiyac qalmayacaqdır.*

*Dövlətimizin başçısı ikinci mərtəbədə yerləşən palatalarda yaradılan şəraitlə də tanış oldu, üçüncü mərtəbədəki cərrahiyyə blokuna baxdı. Burada ən müasir avadanlıqlar quraşdırılmışdır. Reanimasiya və terapiya şöbələri də bu mərtəbədə yerləşir. Müalicə-Diaqnostika Mərkəzinin ayrıca patoloji anatomiya korpusu, 40 nəfərlik yeməkxanası da vardır. Mərkəzdə 270-ə yaxın tibbi heyət çalışacaqdır. Qazax Müalicə-Diaqnostika Mərkəzinin xidmətindən təkcə bu bölgənin sakinləri deyil, qonşu Gürcüstanda yaşayan azərbaycanlılar da istifadə edə biləcəklər.*

*Yeni müalicə ocağında yaradılan şəraiti yüksək qiymətləndirən prezident İlham Əliyev tibb işçilərini bir daha təbrik etdi, onlarla xatirə şəkli çəkdirdi.*

*Dövlətimizin başçısı Azərbaycanda səhiyyəyə göstərilən qayğının bundan sonra da davam etdiriləcəyini vurğulayaraq bir daha dedi ki, mərkəz yüksək dünya standartlarına cavab verir. Binanın həm xarici görünüşü gözəldir, həm də ən müasir avadanlıq, bütün şərait var. Bu belə də olmalıdır. Hər bir rayonda belə gözəl binalar, xəstəxanalar olmalıdır.*

**Qazax Dövlət Rəsm Qalereyasının açılışı mərasimi**

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 24-də Qazax Dövlət Rəsm Qalereyasının açılışında iştirak etmişdir.*

*Burada Azərbaycan rəssamlarının 373 əsəri toplanmışdır. Qalereyanın əsası 1986-cı ildə qoyulsa da, binada yalnız bu il yenidənqurma işləri aparılmış, şəhərin yaraşıqlı memarlıq nümunələrindən birinə çevrilmişdir.*

*Dövlət başçısına məlumat verildi ki, sərgi salonunda 62 rəsm əsəri nümayiş etdirilir. Onların bir qismi Rəssamlar İttifaqının hədiyyəsidir. Tanınmış yerli fırça ustaları Nəcməddin Hüseynovun və Alyoş Abdullayevin əsərləri qalereyanın qiymətli eksponatlarından sayılır. Azərbaycanın Xalq rəssamı Toğrul Nərimanbəyovun əsərinin isə ekspozisiyada xüsusi yeri var. Qalereyada uşaq rəsm dərnəyi də fəaliyyət göstərir.*

## AĞSTAFADA HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*24 sentyabr 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 24-də Qazax rayonuna səfərini başa çatdıraraq Ağstafaya gəlmişdir.*

*Həmin gün Ağstafa şəhərində Heydər Əliyev Mərkəzinin açılışı oldu. Açılış mərasiminə gələn dövlətimizin başçısı əvvəlcə ulu öndər Heydər Əliyevin mərkəzin həyatində ucaldılmış abidəsi önünə gül dəstəsi qoydu. Abidənin müəllifi Xalq rəssamı, akademik Ömər Eldarovdur.*

*Prezident İlham Əliyev mərkəzin açılışını bildirən lenti kəsdi.*

*Mərkəzin tikintisinə bu ilin martında başlanılmışdır. 3,7 hektar ərazidə Heydər Əliyev Muzeyi, 450 yerlik konsert salonu, 20 və 50 yerlik konfrans salonları, kino salonu, elektron kitabxana, linqafon və internet otaqları, sərgi salonu vardır. Açıq havada tədbirlər keçirmək üçün də şərait yaradılmışdır. Məktəblilər burada təşkil ediləcək internet və xarici dil kurslarında məşğul olacaqlar.*

*Bir-birinə bitişik 3 korpusdan ibarət tikintinin sifarişçisi Heydər Əliyev Fondu, podratçı isə «Akkord» şirkətlər qrupudur.*

*Mərkəzin həyəti Hollandiyadan gətirilmiş gül və ağac kolları ilə bəzədilmişdir. Burada quraşdırılan fəvvarə həyətə xüsusi gözəllik verir.*

*Dövlətimizin başçısı Heydər Əliyev Muzeyi, konfrans salonları, elektron kitabxana, linqafon və internet kabinetləri ilə tanış oldu.*

*Mərkəzlə tanışlıqdan sonra prezident İlham Əliyev burada rayon veteranları ilə görüşüb söhbət etdi.*

**M ə m m ə d  M ə s m ə l i y e v:** (*Rayon Ağsaqqallar Şurasının sədri)*: Cənab Prezident, Ağstafa rayonuna xoş gəlmisiniz! Son illərdə respublikamızda böyük işlər görülmüşdür. Hər yerdə abadlıq işləri gedir, məktəblər, yeni xəstəxanalar tikilir. O cümlədən Ağstafa rayonunda da yaxşı işlər görülmüşdür. Heydər Əliyev Fondunun hesabına rayonda 3 məktəb tikilibdir, bu mərkəz də həmin fondun hesabına tikilib. Bir azdan tikiş fabrikinin açılış mərasimində də olacaqsınız. Mən deyərdim ki, son illərdə respublikada işsizliyin aradan qaldırılması, 700 min nəfərin işlə təmin olunması üçün görülən işlər həmin fabrikdə 1000 nəfərlik iş yerinin açılması ilə yekunlaşır. Ona görə Sizə uğurlar, uzun ömür, cansağlığı arzu edirəm. Bu bizim xalqımızın müvəffəqiyyətidir, Azərbaycan xalqının rifahının yaxşılaşmasıdır.

**İ l h a m  Ə l i y e v:** Sağ olun, təşəkkür edirəm. Mən də sizi bu gözəl mərkəzin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Doğrudan da Mərkəzin həm xarici görünüşü, həm də daxili tərtibatı çox gözəldir. Misal üçün, muzeydə olan fotoşəkillər çox nadir şəkillərdir. Hətta mən dedim ki, onlardan bəzilərini Bakıya, Heydər Əliyev Fonduna göndərsinlər. Çünki o şəkillər müxtəlif vaxtlarda çəkilib və ola bilsin ki, bəziləri fondun arxivində yoxdur.

Burada həm böyük, həm kiçik iclas zalları, uşaqlar üçün dərnək, rəssamlıq dərnəyi, rəsm qalereyası, kompyuter otağı, xarici dilləri öyrənmək üçün linqafon otağı var. Yəni, sözün əsl mənasında, mərkəzdir və ətrafı da çox gözəldir. Əlbəttə ki, siz yəqin yaxşı xatırlayırsınız, burada heç nə yox idi. İndi gözəl park salınıb, fəvvarələr, oturacaqlar var, insanlar həm dincələ bilərlər, həm də vaxtlarını səmərəli keçirə bilərlər. Gənclər də gəlib burada elektron kitabxana vasitəsilə dünyanın bütün kitabxanalarına daxil ola bilərlər. Yəni bu Mərkəzin çox böyük mənası var və mən şadam ki, məhz Ağstafa rayonunda belə gözəl Mərkəzin tikintisinə nail ola bilmişik. Bu mərkəzin fəaliyyəti Ağstafa rayonunun inkişafına da böyük kömək

göstərəcəkdir. Çünki gənclər bilikli, savadlı olmalıdırlar. Bütün rayonlarımızda yeni tikilən obyektlər müasir olmalıdır.

**M ə m m ə d  M ə s m ə l i y e v:** Bu işlər Sizin fəaliyyətiniz nəticəsində görülübdür. Mərkəzdəki 500 nəfərlik zal Heydər Əliyev sarayının beşdə bir hissəsi qədərdir.

**İ l h a m  Ə l i y e v:** Dörddə bir hissəsi, o, 2000 nəfərlikdir!

Burada müxtəlif tədbirlər keçirmək olar. Ən yüksək səviyyədə tikilibdir. İndi tikiş fabrikinə gedib baxacağam.

**M ə m m ə d  M ə s m ə l i y e v:** 1000 nəfər işləyəcək.

**İ l h a m  Ə l i y e v:** Bəli! Mən bilirəm, onun şəkillərini görmüşəm. Böyük istehsal sahələri var. Orada bildiyimə görə, xüsusilə qadınlar işləyəcəklər. Bu da çox vacibdir.

**M ə m m ə d  M ə s m ə l i y e v:** Yeni parklar, xiyabanlar salınır. Burada ulu öndərin büstü var. Heydər Əliyev bizim rayonda çox olubdur. Mən onun dövründə Mərkəzi Komitənin Bürosu tərəfindən vəzifəyə təsdiq olunmuşdum. Həmin dövrdə «Xalqlar dostluğu» ordeni, müxtəlif medallarla təltif edilmişəm. Mən vaxtında Heydər Əliyevə öz minnətdarlığımı bildirmişəm. Onunla uzun müddət işləmişik. Yaxşı da işləmişik. Bunlar hamısı onun gördüyü işlərin davamıdır. Elə-belə, boş yerdən yaranmayıbdır.

Heydər Əliyevin fəaliyyəti nəticəsində görülmüş işlərdir ki, bu gün də Siz davam etdirirsiniz. Fəxr edirik ki, Heydər Əliyevin Sizin kimi davamçısı var.

**İ l h a m  Ə l i y e v:** Keçən əsrin 70-ci illərində Azərbaycanın uğurlu inkişafının təməli qoyulmuşdur. Buradakı fotoşəkillər də göstərir ki, nə qədər böyük işlər görülübdür. Demək olar ki, Azərbaycan yenidən tikilib. Amma 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində vəziyyət dəyişdi. Azərbaycan iqtisadiyyatı da bərbad vəziyyətə düşdü, sənayedə tənəzzül, böhran başlandı. Həm də vətəndaş müharibəsi. Azərbaycan müstəqilliyə qovuşanda keçmiş Sovet İttifaqı respublikaları arasında ən ağır vəziyyətdə idi. Amma ondan sonra yenə də Heydər Əliyevin səyləri nəticəsində 1993-cü ildən 2003-cü ilə qədər inkişaf dövrü olmuşdur. Azərbaycan yenə ayağa qalxdı,

islahatları başladı və bütün rayonlarda işlər görülməyə başlandı. O ki qaldı son 5 il ərzindəki görülən işlərə, o barədə mən çox danışmaq istəmirəm. Hər halda çalışacağam ki, bütün rayonlarda inkişaf, abadlıq, quruculuq olsun, məktəblər, xəstəxanalar, belə gözəl mərkəzlər, sənaye müəssisələri tikilsin, iş yerləri açılsın. Azərbaycanda son 5 il ərzində 700 mindən artıq iş yeri açılıb və onlardan təxminən 550 mini daimi iş yerləridir. Bu çox vacibdir. Hər yerdə yeni fabriklər, zavodlar, müəssisələr yaradılır, yollar çəkilir. Misal üçün, Bakı– Qazax–Ağstafa yolu.

**Məmməd Məsməliyev:** Bakıda olmuşam, gözəl yol infrastrukturu yaradılır, tıxaclar aradan qaldırılır.

**İlham Əliyev:** Bakı da öz yerində. Bakı paytaxtdır, onun böyük potensialı var. Bakı, əlbəttə ki, gözəl şəhərdir, daha da gözəlləşir. Əsas Bakıdan uzaqda yerləşən rayonların inkişafına diqqət göstərməliyik. Sərhəd rayonlarına ilk növbədə, o cümlədən Ağstafa rayonuna. Mən çox şadam ki, burada işlər yaxşı gedir və yəqin son aylar ərzində böyük dəyişikliklər hiss edirsiniz. 6 aya tikiş fabriki tikilibdir. Növbəti illərdə işlər daha da sürətlə gedəcəkdir. Sizə yeni uğurlar və cansağlığı arzulayıram! Sağ olun.

**Yasəmən Məmmədova** (*Prezident təqaüdçüsü*): Xoş gəlmisiniz, Allah Sizə cansağlığı versin, ailəliklə xoşbəxt olun! Heydər Əliyevin qoyduğu yolu belə davam etdirin. Çox sağ olun, minnətdarıq! Bütün cavanlar, qocalar, veteranlar – hamımız Sizə cansağlığı, uzun ömür arzulayırıq.

## Yeni tikiş fabrikinin açılışı mərasimi

*Sentyabrın 24-də prezident İlham Əliyev «Akkord» şirkətlər qrupunun Ağstafadakı tikiş fabrikinin açılışı mərasimində iştirak etmişdir.*

*Müəssisənin kollektivi dövlətimizin başçısını böyük hörmətlə qarşıladı.*

*Almaniya və Türkiyədən gətirilmiş müasir avadanlıqlar quraşdırıldığı fabrikdə uşaq, qadın və kişi paltarları, idman*

*geyimləri, iş paltarları tikilir. Orta aylıq əməkhaqqı 300–350 manat təşkil edir.*

*İlkin mərhələdə 1000 nəfər işçi cəlb olunmuşdur. Ayda 80 min geyim istehsal edəcək fabrikdə gələcəkdə 1500 nəfər işləyəcəkdir. Fabrikin yataqxanası və yeməkxanası da var. Bu, «Akkord»un ikinci tikiş fabrikidir. Digəri Qaradağ rayonunun Lökbatan qəsəbəsindədir.*

*Dövlətimizin başçısı istehsal sahələrini gəzdi, avadanlıqla, müəssisənin iş prinsipi ilə tanış oldu, hazır məhsul nümunələrinə baxdı.*

*Prezident İlham Əliyev fabriklə tanışlıqdan sonra işçiləri təbrik edərək dedi ki, burada işləmək üçün çox gözəl şərait yaradılmışdır. Ən müasir avadanlıqlar quraşdırılmışdır. Əminəm ki, siz səmərəli işləyəcək və Azərbaycanın bütün regionlarının, o cümlədən Ağstafa rayonunun inkişafına öz töhfənizi verəcəksiniz. Bu müəssisələr rayonda güclü iqtisadi və sənaye potensialı yaradır. Siz burada çox yaxşı məhsullar istehsal edəcəksiniz. Sizi təbrik edir və uğurlar arzulayıram.*

## ZƏRİFƏ ƏLİYEVA PARKI İLƏ TANIŞLIQ

*24 sentyabr 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev həmin gün Ağstafadan Tovuz rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Tovuz şəhərində salınmış akademik Zərifə Əliyeva adına parkla tanış oldu, görkəmli oftalmoloq-alimin abidəsi önünə gül dəstəsi qoydu. Tovuz şəhərindəki keçmiş mədəniyyət və istirahət parkı yenidən qurulduqdan sonra rayon ictimaiyyətinin arzusuna uyğun olaraq, ona akademik Zərifə Əliyevanın adı verilmişdir. Ümumi sahəsi 1,2 hektar olan parkda müasir üslubda şəlalə, fəvvarələr, yay teatrı var. Parkda çoxlu ağac və gül kolları əkilmiş, yaraşıqlı oturacaqlar qoyulmuş, işıqlandırılma sistemi müasirləşdirilmişdir.*

*Prezident İlham Əliyev parkı gəzdi və burada səliqə-sahmanın, sakinlərin istirahəti üçün gözəl şəraitin yaradıldığını vurğuladı.*

### Heydər Əliyevin abidəsini ziyarət

*Sentyabrın 24-də prezident İlham Əliyev Tovuz şəhərinin mərkəzində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoymuşdur.*

*Dövlətimizin başçısına bu ərazidə, habelə rayonda görülən quruculuq-abadlıq işləri barədə məlumat verildi.*

## Heydər Əliyev Muzeyinin açılışı mərasimi

*Həmin gün dövlət başçısı Tovuz şəhərində Heydər Əliyev Muzeyinin açılışında da iştirak etmişdir. Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi və muzeylə tanış oldu.*

*İkimərtəbəli, öz görkəmi ilə şəhərin mərkəzi meydanına xüsusi yaraşıq verən binanın ümumi sahəsi 200 kvadratmetrdən çoxdur.*

*Muzeydə ümummilli lider Heydər Əliyevin həyatının müxtəlif dövrlərini, eləcə də Tovuz rayonuna səfərlərini və keçirdiyi görüşləri əks etdirən fotoşəkillər, dahi şəxsiyyətə həsr olunmuş kitablar toplanmışdır. Burada ulu öndərin büstü də qoyulmuşdur.*

*Prezident İlham Əliyev muzeyin Xatirə kitabına ürək sözlərini yazdı.*

## RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*Tovuz rayonu*

*24 sentyabr 2008-ci il*

*Prezident İlham Əliyev sentyabrın 24-də Tovuz şəhərində Heydər Əliyev Muzeyinin qarşısındakı meydanda rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

*Rayonun ziyalıları adından çıxış edən həkim Nəsib Nağıyev dövlətimizin başçısına müraciətlə dedi:*

– Cənab Prezident, icazə verin, Tovuz camaatı adından Sizi salamlayım. «Xoş gəlmisiniz!» deyim, qədəmləriniz uğurlu olsun. Ulu öndərimiz Heydər Əliyev dörd dəfə burada olmuş, həmişə bizim rayonu diqqət mərkəzində saxlamışdır. Onun cavan, gümrah və prezidentlik dövrlərini görmüşəm. Mənim 72 yaşım var, ulu öndərin rayonumuza dörd səfərində onunla görüşmüşəm. Allah ona qəni-qəni rəhmət eləsin. O bizə diqqət və qayğı göstərmiş, çox iş görmüşdür. Hamısını saymaqla qurtarmaz. Təkcə onu deyim ki, bu rayonda 14 iri emal zavodu tikdirib istifadəyə vermişdi. Siz də onun yolunu uğurla davam etdirirsiniz. Siz keçən il mayın 30-da Tovuza gəldiniz, Olimpiya İdman Kompleksinin təməlqoyma mərasimində iştirak etdiniz. İndi o kompleks tikilib qurtarmaq üzrədir, işlər çox yaxşı gedir. Bundan başqa, Siz tovuzlulara söz vermişdiniz ki, Müalicə-Diaqnostika Mərkəzi tikiləcəkdir. Bu gün onun inşası üçün xeyir-duanızı verəcəksiniz. Siz Tovuzun abadlaşdırılması və quruculuq işlərinə başlanması barədə də tapşırıq vermişdiniz. Ötən səfərinizdən az vaxt keçməsinə baxmayaraq, Tovuz öz görkəmini dəyişmiş, yeniləşmişdir. Bütün yollar, küçələr, prospektlər yenidən quruldu, parklar salındı, fəvvarələr

yaradıldı. Baxanda görürsən ki, Tovuz həmin Tovuz deyil, hər yan gül-çiçək içərisindədir. Tovuzda iş yerləri açılır və bu, davam edir. Biz bunların hamısına görə minnətdarıq.

Cənab Prezident, Tovuz camaatı çox yüksək əhval-ruhiyyədədir. Mən hamımızın adından Sizə bir daha təşəkkürümü bildirirəm. Sizi özümüzə arxa bilirik. Sizə, ailənizə, övladlarınıza cansağlığı arzu edirəm. Canınız sağ olsun, möhkəm olsun və Heydər Əliyev siyasətini davam etdirin.

Sağ olun.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Mən hələ 5 il öncə demişdim ki, bütün sahələrdə Heydər Əliyevin siyasətini davam etdirəcəyəm. Çalışmışam ki, Azərbaycanın hərtərəfli inkişafı üçün yüksək səviyyədə xidmət edim. Çox şadam ki, bütün bölgələrimizdə böyük quruculuq işləri aparılır, həmçinin Tovuz rayonunda da. Siz bunu daha yaxşı bilirsiniz, bu dəyişiklikləri görürsünüz. Rayon gözəlləşir, abadlaşır, yeni müəssisələr yaradılır, Olimpiya İdman Kompleksi tikilir, bu gün Müalicə-Diaqnostika Mərkəzinin təməlini qoyacağıq. İş yerləri açılır, abadlıq işləri görülür, yeni parklar salınır. Gözəl Heydər Əliyev Muzeyi yaradılıb, məktəblər tikilir, yollar salınır. Yəni insanların rahatlığı və rayonun inkişafı üçün bütün bu tədbirlər kompleks şəkildə görülür: həm infrastruktur layihələri, həm biznesin, özəl sektorun inkişafı üçün lazım olan tədbirlər, kənd təsərrüfatının inkişafı üçün qəbul edilmiş qərarlar, güzəştli şərtlərlə kreditlərin verilməsi, yanacağın yarı qiymətə, gübrənin güzəştli şərtlərlə verilməsi. Keçən ilin və bu ilin iqtisadi göstəricilərində görürük ki, bunun nə dərəcədə böyük təsiri olmuşdur.

Azərbaycanın iqtisadiyyatı kənd təsərrüfatı, istehsal, ərazi imkanları baxımından çox böyük çəkiyə malik olmasa da, biz elə etməliyik ki, qeyri-neft sektorunun inkişafı daha da sürətlə getsin. Xüsusilə bölgələrdə. Rayonlarda olan infrastruktur, şərait, xidmət, təhsil, səhiyyə ocaqlarının səviyyəsi ən yüksək dünya səviyyəsində olsun. Bax, mənim istəyim də, tələbim də budur. Mən görəndə ki, işlər bu tələblərə uyğun şəkildə aparılır, çox sevinirəm. Çünki biz elə etməliyik ki, Azərbaycan

vətəndaşları yaxşı şəraitdə yaşasınlar, yaxşı işlə təmin olunsunlar, uşaqlar yaxşı məktəblərdə oxusunlar, xəstələr yaxşı tibbi xidmət alsınlar.

Bildiyiniz kimi, Azərbaycanda çox güclü sosial siyasət aparılır. Biz Azərbaycanda bazar iqtisadiyyatı prinsiplərini tam şəkildə tətbiq etmişik. Bu gün iqtisadiyyatımızın 84 faizi özəl sektorun payına düşür. 17 il bundan əvvəl özəl sektor Azərbaycanda qeyri-qanuni vəziyyətdə fəaliyyət göstərirdi. Amma bu gün iqtisadiyyatımızın əsas hissəsi özəl sektorun hesabına formalaşıbdır. Bu da çox yüksək göstəricidir. Biz bütün iqtisadi islahatları cəsarətlə aparırıq. Təsadüfi deyil ki, Dünya Bankı və Beynəlxalq Valyuta Fondu Azərbaycanı bu il dünyanın birinci islahatçı ölkəsi kimi qəbul etdi və bunu bəyan etdi. Bütün bu işlər ümumi siyasət nəticəsində baş verir. Həm iqtisadi islahatlar, həm də siyasi islahatlar aparılır. Azərbaycanda açıq cəmiyyət formalaşıbdır. Demokratiyanın inkişafı çox sürətlə gedir. Bütün demokratik ölkələrə xas olan əlamətlər Azərbaycanda da mövcuddur. İnsanlar təhlükəsizlik, sabitlik şəraitində yaşayırlar və bu sabitlik olmasaydı, heç bir inkişafdan söhbət gedə bilməzdi. Çünki biz tarixi də bilirik, yaxın tarixi də yaxşı izləyirik və görürük ki, sabitlik pozulanda inkişaf dayanır. Nə yerli, nə də xarici sərmayələr qoyulur, daha çox ölkədən sərmayə çıxır və bunun nəticəsində iqtisadi problemlər yaranır.

Ona görə bir daha demək istəyirəm ki, biz bütün bu işləri düşünülmüş və mərkəzləşdirilmiş qaydada aparırıq – həm iqtisadi, siyasi, sosial məsələlərin həlli, həm də regionlarda infrastrukturun yaranması. Yolların salınması, elektrik stansiyaları, ölkənin hərtərəfli inkişafı üçün lazım olan infrastruktur, əlbəttə ki, insanların rahatlığı lazım olan əsas amillərdir.

Mən demişəm, bir də demək istəyirəm ki, Azərbaycan vətəndaşları bu gün yaxşı yaşamalıdırlar. Əvvəllər, Sovet İttifaqı zamanında gələcək naminə işləyirdilər. Biz də gələcək naminə işləyirik və əvvəlki illərdə təməlini qoyduğumuz işlər Azərbaycanın gələcəyini təmin edəcəkdir. Ancaq gələcəklə

bərabər, indi yaşayan insanlar – həm yaşlı nəsil, həm cavanlar, həm də uşaqlar, yeniyetmələr bu gün də bunun bəhrəsini görməlidirlər. Bunu etmək üçün çox güclü sosial siyasət və iqtisadi islahatlar aparılmalıdır.

Son 5 ildə bizim dövlət büdcəmiz 10 dəfədən çox artıbdır. Heç bir başqa ölkədə belə artım sürəti yoxdur. Məlumatlar təqdim olunubdur, gələn ilin dövlət büdcəsi təxminən 14-15 milyard dollar səviyyəsində olacaqdır. 2003-cü ilin dövlət büdcəsi 1 milyard 200 milyon dollar idi. Bizim neft fondumuzda 10 milyard dollardan çox vəsait vardır. Ölkəmizin ümumi valyuta ehtiyatları 17 milyard dollardır. Bu, dünya miqyasında çox böyük bir göstəricidir. Biz bu vəsaitdən çox səmərəli şəkildə istifadə edirik və bu vəsaitin istifadə olunmasında hər bir vətəndaş iştirak edir. Necə?! Belə ki, bütün bu xərclər Milli Məclis tərəfindən təsdiq olunur. Hər bir vətəndaş isə Milli Məclisdəki nümayəndələrinin vasitəsi ilə bu işlərdə iştirak edir.

Neftdən gələn bütün gəlirlər şəffaf toplanılır. Keçən il Birləşmiş Millətlər Təşkilatı Azərbaycan Dövlət Neft Fonduna şəffaflığa görə mükafat təqdim edibdir. Bu nə deməkdir?! Bu bizim gördüyümüz işlərə verilən qiymətdir. Birləşmiş Millətlər Təşkilatı dünyanın bir nömrəli təşkilatıdır. Dünya Bankı, Beynəlxalq Valyuta Fondu dünyanın bir nömrəli maliyyə qurumlarıdır. Onların Azərbaycana verdiyi qiymət önəm daşıyır.

O ki qaldı bəzi süni şəkildə yaradılmış qeyri-hökumət təşkilatlarına, onlar vaxtaşırı bəzi reytinqləri dərc edirlər. Bu ancaq siyasi konyunktura, siyasi sifarişlərdir. Azərbaycan indi bölgədə böyük mövqelərə malikdir. Bizim həm öz təbii resurslarımız var, həm də təbii resursların istənilən istiqamətə nəqli üçün əvəzolunmaz rolumuz vardır. Şübhə yox ki, bizim önəmimiz artdıqca, bizə olan diqqət də artır. Edilən təzyiqlərin sayı da arta bilərdi, amma artmadı. Çünki mənası yoxdur. Bəzi hallarda belə qeyri cidd-cəhdlərin üzə çıxmasının təməlində məhz bu amillər dayanır ki, Azərbaycan hansı yolla inkişaf

edəcək, Azərbaycanın gələcək istiqaməti hansı tərəfə olacaqdır. Amma bizim üçün, Azərbaycan xalqı üçün, Azərbaycan iqtidarı üçün belə sual yoxdur.

Azərbaycanın inkişafı Azərbaycan xalqının milli maraqlarına əsaslanır. Bizim maraqlarımıza nə cavab verirsə, o da olacaqdır, nə cavab vermirsə, o da olmayacaqdır. Biz bütün ölkələrlə qarşılıqlı hörmət, bir-birimizin işinə qarışmamaq və qarşılıqlı maraqlar əsasında münasibətlər qururuq.

Biz dünya birliyinin layiqli üzvüyük və əlbəttə, istəyirik ki, bütün ölkələrlə münasibətlərimiz yaxşı olsun. Amma bu münasibətlər bərabər əsaslarda qurulmalıdır. Biz artıq həm bölgə miqyasında, həm də Avropa qitəsində özümüzə layiq yerimizi tuta bilmişik. Biz öz iqtisadi potensialımıza arxalanırıq, başqa yerdən yardım gözləmirik, almamışıq da. Bizim ən ağır dövrümüzdə, torpaqlarımız işğal altına düşəndə, soydaşlarımız qaçqın, köçkün vəziyyətinə düşəndə biz heç yerdən heç bir yardım almamışıq. Baxmayaraq ki, çətin vəziyyət idi, yalnız öz gücümüzə arxalanaraq bu vəziyyətdən çıxdıq. XX əsrin 90-cı illərinin ortalarında bizim imkanlarımız çox məhdud idi. O vaxt ulu öndər tərəfindən hazırlanmış neft strategiyası yeni icra olunmağa başlamışdı. Nə kəmərlərimiz var idi, nə də hasilatımız. Ölkədə vəziyyət də o qədər sabit deyildi, iqtisadiyyat dağılmışdı, sənaye dayanmışdı. Belə ağır bir şəraitdə Heydər Əliyevin fəaliyyəti Azərbaycanı ağır vəziyyətdən çıxardı.

Bu gün isə bizim qarşımızda bütün yollar açıqdır, yolumuz dövlətçilik, müstəqillik, azərbaycançılıq yoludur. Xalqın təhlükəsizlik şəraitində yaşaması, bütün bölgələrin inkişafı, Azərbaycan dövlətinin inkişafı əsas məqsəddir. Necə ki, güclü Azərbaycan dövləti hər bir bölgə üçün vacib amildir, bölgələrin, xüsusilə paytaxtdan uzaqda yerləşən sərhəd bölgələrinin inkişafı da həm dövlətçiliyi möhkəmləndirir, həm də bizim potensialımızı göstərir.

Tovuzun Azərbaycanın inkişafında çox böyük rolu var, böyük potensiala malikdir. Mən çox sevinirəm ki, burada işlər

sürətlə gedir. Mən buraya keçən il gəlmişdim, ondan əvvəl də olmuşdum və bu dəyişiklikləri görürəm. Siz də görürsünüz, amma siz burada yaşayırsınız və buna tez öyrəşirsiniz. Tovuz rayonuna bundan sonra da gələcəyəm, idman kompleksinin, xəstəxananın, başqa obyektlərin açılışları olacaqdır. Belə gözəl anları bərabər qeyd edəcəyik.

Sizə bir daha uğurlar, cansağlığı arzulayıram.

## İdman kompleksinin tikintisi ilə tanışlıq

*Ölkə başçısı İlham Əliyev sentyabrın 24-də Tovuz şəhərində idman kompleksinin tikintisi ilə tanış olmuşdur.*

*5,5 hektar sahədə yerləşəcək kompleksdə böyük idman salonu, üzgüçülük hovuzu, futbol, voleybol, basketbol meydançaları, tennis kortu, məşq otaqları, kottеclər və mehmanxana tikiləcəkdir. Burada beynəlxalq yarışların keçirilməsi üçün də şərait yaradılacaqdır. Gələn il istifadəyə verilməsi nəzərdə tutulan idman qurğusunun sifarişçisi Gənclər və İdman Nazirliyidir.*

*Prezident İlham Əliyev kompleksin xarici görünüşünün yüksək səviyyədə olması, tikinti işlərinin keyfiyyətlə aparılması ilə bağlı tövsiyə və tapşırıqlarını verdi.*

## Karvansara tipli qala kompleksinin tikintisi ilə tanışlıq

*Prezident İlham Əliyev sentyabrın 24-də Tovuz şəhərinin girəcəyində turizm marşrutuna daxil edilmək məqsədi ilə qədim memarlıq üslubunda tikilmiş karvansara tipli qala kompleksi ilə tanış olmuşdur.*

*Üçmərtəbəli kompleksin ümumi sahəsi 1560 kvadratmetrdir. Kompleks şəhərə gələn qonaqları və turistləri ətraflı məlumatlandırmaq baxımından və gəzintisi üçün çox maraqlıdır. Burada qədim zamanlardan bəri bu ərazidə yaşayan insanların istifadə etdiyi məişət əşyaları toplanmışdır.*

*Prezident İlham Əliyev qalanın içərisini gəzdi, 1813–28, 1918–20-ci illərə və müasir dövrə aid xəritələrə baxdı. Dövlətimizin başçısına məlumat verildi ki, kompleks rayon ərazisindəki eramızdan əvvəl 1-ci minilliyə aid edilən Torpaqqalanın, IV əsrə aid Şəmşədil qalasının və VI əsrə aid Köhnəqala abidələrinin rəmzi bərpasıdır.*

*Prezident İlham Əliyev Tovuzun qədim tarixi və zəngin təbiəti olduğunu vurğulayaraq dedi ki, burada turizmin inkişafı üçün şərait yaradılması zəruridir.*

*Dövlətimizin başçısı qalanın önündə xatirə şəkli çəkdirdi.*

## Müalicə-Diaqnostika Mərkəzinin təməlqoyma mərasimi

*Sentyabrın 24-də Tovuz şəhərində Müalicə-Diaqnostika Mərkəzinin təməli qoyulmuşdur.*

*İnşaatçılar prezident İlham Əliyevi hərarətlə qarşıladılar. Dövlətimizin başçısı mərkəzin baş planı və fotoşəkilləri ilə tanış oldu.*

*Dövlət Neft Şirkətinin vəsaiti hesabına, təxminən iki hektar ərazidə tikiləcək mərkəzin üçmərtəbəli binasında laboratoriya, qəbul, şüa-diaqnostika şöbələri, poliklinika, stasionar travmatologiya və homodializ şöbələri, cərrahiyyə bloku, anesteziologiya və reanimasiya şöbələri yerləşəcəkdir. Mərkəzin elektrik enerjisi ilə təminatı üçün yardımçı stansiyası, habelə yeməkxanası, ehtiyat su anbarı da olacaqdır. Tikinti işlərinin iki il müddətinə başa çatdırılması nəzərdə tutulur. Yeni tibb ocağı ən müasir avadanlıqla təchiz olunacaqdır. Həkimlər üçün ayrıca yaşayış binası da tikiləcəkdir. Yerli kadrların hazırlanması üçün Türkiyədən mütəxəssislər dəvət olunacaq və onlar da bu binada yaşayacaqlar.*

*Burada qərb bölgəsi üçün kardiocərrahiyyə mərkəzi fəaliyyət göstərəcəkdir. Hazırda ölkəmizin digər rayonlarındakı müalicə-diaqnostika mərkəzlərində açıq ürək əməliyyatları*

*aparılsa da, ayrıca kardiocərrahiyyə mərkəzləri Tovuzda və Cəlilabadda yaradılacaqdır.*

*Prezident İlham Əliyev Azərbaycanın bütün bölgələrində müalicə-diaqnostika mərkəzlərinin tikildiyini xatırlatdı və müasir standartlara cavab verən bu tibb müəssisələrində istənilən xəstəliyin birinci mərhələdə müayinəsinin mümkün olacağını vurğuladı. Bildirdi ki, bu rayondan da insanlar digər şəhərlərə getməyəcək, elə Tovuzda müalicə üçün hər cür şərait yaradılacaqdır.*

*Sonra dövlətimizin başçısı gilizi təmələ qoyaraq beton qarışığı tökdü və inşaatçıları təbrik etdi, Müalicə-Diaqnostika Mərkəzinin tikintisinin vaxtında və keyfiyyətlə başa çatdırılması ilə bağlı tapşırıqlarını verdi.*

*Bununla da prezident İlham Əliyevin Tovuz rayonuna səfəri başa çatdı.*

## GƏNCƏ ŞƏHƏRİNDƏ VƏ KÜRDƏMİR RAYONUNDA MÜALİCƏ-DİAQNOSTİKA MƏRKƏZLƏRİNİN AÇILIŞI MƏRASİMİ

*24 sentyabr 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 24-də Tovuzdan Gəncə şəhərinə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Müalicə-Diaqnostika Mərkəzinin açılışında iştirak etdi. Mərasimə toplaşan səhiyyə işçiləri və Mərkəzin əməkdaşları Prezidenti səmimiyyətlə qarşıladılar.*

*Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi, ayrı-ayrı mərtəbələrdə yerləşən qəbul, şüa-diaqnostika, hemodializ şöbələri, konsultativ-diaqnostik poliklinika, inzibati şöbə və konfrans salonu, cərrahiyyə, anesteziologiya və reanimasiya şöbələri ilə tanış oldu.*

*Təməli 2005-ci ilin oktyabrında prezident İlham Əliyev tərəfindən qoyulmuş səhiyyə ocağının tikintisində 200-dən çox fəhlə çalışmışdır. Tikintidə Türkiyə, Çin, Yunanıstan və Hindistandan gətirilmiş materiallardan da istifadə edilmişdir. Dördmərtəbəli binanın foyesində ulu öndər Heydər Əliyevin ölkəmizdə səhiyyənin inkişafındakı xidmətlərini əks etdirən guşə yaradılmışdır. Almaniya, Türkiyə, Yaponiya və digər ölkələrdən gətirilmiş müasir avadanlıqlar keyfiyyətli müayinə və müalicə, mürəkkəb cərrahiyyə əməliyyatları aparmağa imkan verir.*

*Prezident İlham Əliyev Mərkəzin əməkdaşları ilə görüşüb söhbət etdi.*

**İlham Əliyev:** Mən bu gözəl, müasir xəstəxananın açılışı münasibətilə sizi təbrik edirəm. Burada çox gözəl şərait var, avadanlıq var. Demək olar ki, dünyanın ən qabaqcıl texnologiyaları burada tətbiq olunmuşdur. Həkimlər üçün yaxşı şərait vardır. Mən əminəm ki, Müalicə-Diaqnostika

Mərkəzindən səmərəli istifadə edəcəksiniz. Bu həm Gəncə üçün, həm də ətraf rayonlar üçün böyük töhfədir. İnsanların sağlamlığı ən əsas məsələdir.

Ümumiyyətlə, sosial məsələlər səhiyyə, təhsil məsələləri, humanitar məsələlər uğurla həll olunur. Gəncə şəhərində də yaxşı nəticələr var. Mərkəzin həm xarici görünüşü, həm də daxili tərtibatı çox gözəldir. Bir sözlə, dünyada ən yüksək səviyyə nədirsə, burada var. Sizə uğurlar arzulayıram. Xəstələrə yaxşı xidmət göstərin. Əminəm ki, burada işləmək sizin üçün də xoş olacaqdır.

**X a l i d ə S a d ı q o v a** (*həkim*): Cənab Prezident, çox sağ olun. Biz də Sizə səhiyyə işçiləri adından təşəkkür edirik, dərin minnətdarlığımızı bildiririk. Bu Müalicə-Diaqnostika Mərkəzi Sizin Gəncəyə göstərdiyiniz böyük qayğı və diqqətin növbəti nümunəsidir. Çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Yadımdadır, biz bu diaqnostika mərkəzinin təməlini 2005-ci ildə birlikdə qoymuşduq. Bu gün açılışında da birlikdə iştirak edirik. Tikinti isə 2006-cı ildə başlamışdı, iki ilə, qısa müddət ərzində tikilmişdir. Sağ olun, təbrik edirəm.

### Şah Abbas məscidinin təmirdən sonra açılışı mərasimi

*Sentyabrın 24-də prezident İlham Əliyev bərpa və təmir işlərindən sonra Gəncədəki Şah Abbas məscidi ilə tanış olmuşdur. Bu cümə məscidi 1606-cı ildə memar Şeyx Bəhaəddinin layihəsi əsasında tikilmişdir. 2008-ci ildə prezident İlham Əliyevin təşəbbüsü ilə məsciddə bərpa və təmir işləri aparılmışdır. Dövlət tərəfindən qorunan abidə indi yeni görkəm almışdır.*

*Dövlətimizin başçısına məlumat verildi ki, məscidin tarixində ilk dəfədir ki, belə əsaslı təmir-bərpa işləri aparılmış, ətraf ərazidə abadlıq işləri görülmüş, səliqə-sahman yaradılmışdır. Bərpaçılar Gəncədəki «Karvansaray» və «Çökək hamam» kimi maddi mədəniyyət incilərimizin də müəllifi olan memar Şeyx Bəhaəddinin bu möhtəşəm yadigarının əvvəlki*

*görkəminə qaytarılması və daha da gözəlləşdirilməsi üçün əllərindən gələni əsirgəməmişlər. Təmir-bərpa işləri zamanı keyfiyyətli tikinti materiallarından istifadə olunmuşdur. Məscidin döşəməsinə salınan xalça Türkiyədə xüsusi sifariş əsasında toxunmuşdur. Burada dini ayinləri icra etmək üçün hər cür şərait yaradılmışdır.*

*Azərbaycanda ən böyük məscid günbəzlərindən sayılan Şah Abbas məscidinin günbəzinə daxildən incə xətlə müqəddəs Qurani-Kərimdən ayə yazılmışdır.*

*Prezident İlham Əliyev aparılmış təmir-bərpa işlərinin səviyyəsindən razılığını bildirdi, ölkəmizdə vicdan azadlığına, dini-mənəvi dəyərlərə mühüm önəm verildiyini söylədi, dindarlara ən xoş arzularını çatdırdı.*

*Dövlətimizin başçısına Quran hədiyyə olundu.*

## Heydər Əliyevin abidəsini ziyarət

*Prezident İlham Əliyev sentyabrın 24-də Gəncə şəhərinin Heydər Əliyev adına mərkəzi meydanında ulu öndərin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.*

*Dövlətimizin başçısına meydanda aparılmış yenidənqurma işləri barədə məlumat verildi. Gəncə Şəhər İcra Hakimiyyətinin qarşısında yerləşən meydanın sahəsi 22 min kvadratmetrdir. Həmin sahənin 12 min kvadratmetrinə qranit döşənmişdir. İcra hakimiyyəti binasının fasadı da yeni görkəm almış, Azərbaycanın və Gəncənin gerbləri vurulmuşdur. Ətrafda salınmış yaşıllıqlar və çəmənlik meydana xüsusi yaraşıq verir. Azərbaycanda ilk musiqili fəvvarə də məhz burada quraşdırılmışdır. İşıqlandırma sistemi Rusiya və Azərbaycan istehsalıdır. Klassik üslubu ilə diqqəti cəlb edən yaraşıqlı işıq dirəkləri xüsusi sifariş əsasında respublikamızda hazırlanmışdır. Heydər Əliyev Muzeyinin də yerləşdiyi bu məkan gəncəlilərin və şəhərin qonaqlarının əsas gəzinti guşələrindən biridir.*

## GƏNCƏ İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*Gəncə*

*24 sentyabr 2008-ci il*

*Sentyabrın 24-də Azərbaycan prezidenti İlham Əliyev Gəncədə şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.*

*Gəncə şəhər təhsil idarəsinin metodik mərkəzinin direktoru Afaq Əliyeva dövlətimizin başçısını salamlayaraq dedi:*

– Cənab Prezident, Sizi Gəncədə görmək bizim üçün çox sevindirici bir haldır. Gəncəyə, gəncəlilərə göstərdiyiniz qayğı və diqqətin nəticəsidir ki, bu gün şəhər belə inkişaf edir, gözəlləşir. Sizin hər gəlişiniz, verdiyiniz göstərişlər, tapşırıqlar sayəsində Gəncəmiz günü-gündən abadlaşır. Gəncəmiz öz tarixi yaddaşını qoruyub saxlayaraq müasirləşir.

Sizin bugünkü gəlişiniz təşəbbüskarı olduğunuz Şəhər gününə təsadüf edir. Məhz Sizin tapşırığınızla bərpa edilən Gəncə darvazalarının açarını Sizə təqdim etmək istəyirəm. Bu açar Gəncə Regional Elm Mərkəzinin sənətkarları tərəfindən qədim eskizlər əsasında hazırlanmışdır. Bu əslində təkcə Gəncə darvazalarının açarı deyil, gəncəlilərin qəlbinin açarıdır.

**İ l h a m  Ə l i y e v:** Təşəkkür edirəm. Mən sizi Gəncə Şəhər günü münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Dünən, bu gün Gəncədə bayramdır. Bu gözəl bayram bütün şəhər sakinləri üçün də çox xoş bir hadisədir. Biz bu bayramı iki il bundan əvvəl qeyd etməyə başlamışıq və artıq gözəl ənənəyə çevrilibdir. Siz dediyiniz kimi, qədim Gəncə müasirləşir, gəncləşir, yeniləşir, çox böyük abadlıq işləri aparılır, böyük sosial əhəmiyyətli obyektlər tikilir.

Mən bu gün Müalicə-Diaqnostika Mərkəzinin açılışında iştirak etmişəm. 3 il bundan əvvəl o gözəl binanın təməli qoyulmuşdu. Bu gün isə Gəncədə ən müasir standartlara cavab verən Müalicə-Diaqnostika Mərkəzi fəaliyyətdədir. Orada quraşdırılmış avadanlıqlar dünyanın ən yüksək standartlarına uyğundur. Orada hər şey – ən qabaqcıl tibbi avadanlıqlar, ləvazimatlar var və ən yüksək tibbi xidmət göstəriləcəkdir.

Bu meydan da gözəlləşibdir. Yeni binalar, yeni küçələr salınır. Gəncə çox dolğun həyat sürür. Belə də olmalıdır. Qədim şəhərdir, Azərbaycan tarixində çox böyük rolu olmuşdur, bu gün də var. Mən istəyirəm ki, burada işlər yüksək səviyyədə aparılsın. Biz bunu görürük, siz gəncəlilər də bunu gündəlik həyatda görürsünüz. Həm iqtisadi, həm də sosial məsələlər həll olunur, sənaye müəssisələri, məktəblər, xəstəxanalar tikilir, şəhər təsərrüfatı üçün lazım olan bütün tədbirlər görülmüşdür. Şəhər daha da gözəlləşir.

Mən son illər ərzində bir neçə dəfə Gəncədə olmuşam. Hər dəfə burada yenilikləri görəndə ürəyim sevinir. Əminəm ki, bu sizi də sevindirir və Gəncənin sakinləri kimi, siz də şəhərin inkişafı üçün böyük əmək sərf edirsiniz. Yəni bu bizim hamımızın işidir. Hər bir rayonun, hər bir şəhərin gözəlləşməsi, abadlaşması orada yaşayan sakinlərin əməyidir. İndi Azərbaycanda çox böyük quruculuq işləri aparılır. Əlbəttə ki, düzgün qərarlar verilir, proqramlar tərtib olunur. Amma o proqramları icra edən bölgələrdə yaşayan insanlardır, yerli icra hakimiyyəti orqanlarıdır, fəallardır, adi vətəndaşlardır. Onların fəaliyyəti olmasa, heç bir proqramı icra etmək mümkün olmayacaqdır. Bütün o proqramlar kağız üzərində qalacaqdır. Azərbaycanda isə bütövlükdə gözəl ab-hava hökm sürür və düzgün qərarlar, onların vaxtlı-vaxtında icrası və bütün fəalların bu işlərdə iştirakı sizin üçün belə gözəl şərait yaradır.

Ölkə inkişaf edir, irəliyə gedir, iqtisadi, siyasi gücünü artırır. Heç kimə sirr deyil, hamı bunu etiraf edir ki, Azərbaycan bölgədə aparıcı ölkədir. Bu bölgədə gedən proseslərə təsir imkanlarımız artır. Biz yeni təşəbbüslər – iqtisadi, regional,

siyasi xarakter daşıyan təşəbbüslər irəli sürürük. Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik olan ölkə kimi, artıq öz yerini tutubdur və hamı bununla hesablaşmağa məcburdur.

Biz isə istəyirik ki, öz müstəqilliyimizi möhkəmləndirək. Azərbaycanda insanların yaşayış səviyyəsi artsın, onlar sabitlik, təhlükəsizlik şəraitində yaşasınlar. Belə olan halda, istənilən məsələ öz həllini tapacaqdır. Harada sabitlik, təhlükəsizlik var, orada inkişaf da olur. Biz bu inkişafı bütün bölgələrimizin timsalında görürük. Bax, mən bu gün səhər Qazaxda idim, orada Müalicə-Diaqnostika Mərkəzinin açılışında iştirak edirdim. Ondan sonra Ağstafa rayonunda böyük tikiş fabriki açıldı. Min nəfər işçisi olan fabrikdir. Bu hər bir böyük ölkə üçün çox önəmli sənaye obyektidir. Ondan sonra Tovuz rayonunda gedən abadlıq-quruculuq işləri ilə tanış olmuşam. Orada da böyük işlər görülür. İndi Gəncədəyəm, sonra başqa yerlərdə olacağam. İnfrastruktur obyektləri, sosial məsələlərin həlli, yeni sənaye müəssisələri, sahibkarlığın inkişafı – bu hər bir yerdə var. Beləliklə, Azərbaycanın bölgələrinin canlanması prosesi gedir.

5 il bundan əvvəl bu proqrama başlamışıq. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı 2004-cü ilin əvvəlində qəbul edilmişdir və uğurla başa çatır. Orada nəzərdə tutulmuş bütün müddəalar və nəzərdə tutulmamış məsələlərin böyük əksəriyyəti həll olundu. Biz növbəti illərə də, necə deyərlər, eyni yanaşma ilə gedirik. Hər bir bölgə, şəhər, rayon üzrə xüsusi fəaliyyət planı hazırlamışıq və bu plan əsasında irəliyə gedəcəyik.

Mən çox şadam ki, Azərbaycanın ikinci şəhəri olan qədim Gəncə çiçəklənmə dövrünü yaşayır. Əminəm ki, bundan sonra Gəncənin, bu gözəl şəhərin inkişafında həm siz fəal iştirak edəcəksiniz, həm mən öz səylərimi göstərəcəyəm. Bu müştərək səylər hesabına Gəncə daha da gözəlləşəcəkdir. Artıq deyə bilərəm ki, Gəncə regional müstəvidə öz yerini tutan bir şəhərdir. Burada istənilən regional paytaxta xas olan bütün şərait var. Bəlkə bəzi hallarda daha da yuxarı səviyyədədir. Ən

müasir aeroport var, Bakıdan sonra ikinci aeroportdur. Ən müasir Müalicə-Diaqnostika Mərkəzi var, heç bəzi inkişaf etmiş ölkələrdə belə şərait yoxdur. Ən gözəl yollar, xüsusilə Bakı–Gəncə yolu tikilir. Mən gedib inşaat işlərinə baxacağam. Ən yaxşı tibb müəssisələri, təhsil ocaqları var, parklar, xiyabanlar salınır, yeni binalar, yaşayış binaları tikilir. Bakıdan sonra ilk dəfə belə bina Gəncədə tikilir. Bu nəyi göstərir?! Bu onu göstərir ki, burada insanların imkanı var ki, o mənzillərdə yaşasın. Belə inkişaf sürətlə gedəcəkdir.

Mən bilirəm ki, müxtəlif banklar, müxtəlif beynəlxalq şirkətlər Gəncədə öz filiallarını açmaq istəyirlər. Məşhur olan ticarət zənginləri Gəncəyə gəlmək istəyir. Aeroport yolunda yeni müasir ticarət mərkəzləri tikilir. Bütün bu işlər müasir xarakter daşıyır. Əlbəttə, Azərbaycanın bütün inkişaf əlamətlərini izah etmək üçün çox vaxt gedər. Əsas belə demək olar ki, öz tarixi köklərimizə əsaslanaraq müasirliyə doğru gedirik. Azərbaycanın timsalında müasirlik o demək deyil ki, biz öz keçmişimizi unudaq, ancaq hansısa müasir təcrübəni tətbiq edək. Biz o təcrübəni tətbiq etməliyik ki, milli adət-ənənəmizə, mənəvi dəyərlərimizə uyğun olsun. Öz mənliyimizi, tarixi keçmişimizi saxlamaqla ən mütərəqqi, bizə uyğun beynəlxalq təcrübəni gətirməliyik və bunu edirik. Mən əminəm ki, gələcək illərdə bütün istədiyimizə nail olacağıq.

Sizi bu gözəl bayram münasibətilə və qarşıdan gələn Ramazan bayramı münasibətilə bir daha təbrik etmək istəyirəm. Arzu edirəm ki, Gəncə həmişə olduğu kimi, gözəl şəhər kimi qalsın və inkişaf etsin.

Sağ olun.

## Ucar–Yevlax avtomobil yolunun tikintisi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 24-də Gəncədən Kürdəmir rayonuna gələrkən İpək Yolunun bir hissəsi olan Ucar–Yevlax avtomobil yolunun tikintisinin gedişi ilə tanış olmuşdur.*

*Nəqliyyat naziri Ziya Məmmədov və «Azəryolservis» ASC-nin sədri Cavid Qurbanov məlumat verdilər ki, 53 kilometrlik bu yolun tikintisinə keçən ilin aprelindən başlanılmışdır. İlin sonunadək yolun 40 kilometrinin başa çatdırılması, gələn il isə tam istifadəyə verilməsi planlaşdırılır. Yolun 44 kilometrinin eni 15 metr, qalan hissəsinin eni isə 27 metr olacaqdır. Burada bir neçə körpü, o cümlədən Kür çayı üzərində 2 körpü salınacaqdır. Yolboyu 70 ədəd suötürücü, 4 yerdə mal-qara keçidi tikiləcəkdir. Əsas tikinti işlərini Türkiyənin «Polad Yol Yapı» şirkəti yerinə yetirir. Layihənin smeta dəyəri təqribən 49,6 milyon ABŞ dollarıdır.*

*Prezident İlham Əliyev yolun əsas texniki göstəriciləri ilə maraqlandı, inşaatçılarla görüşdü, onlara bu magistral yolun dünya standartlarına uyğun tikilməsi ilə bağlı tövsiyə və tapşırıqlarını verdi.*

## KÜRDƏMİRDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*24 sentyabr 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 24-də Kürdəmir rayonuna gəlmişdir. Dövlətimizin başçısı əvvəlcə Heydər parkında ulu öndərin heykəlini ziyarət edərək önünə gül dəstəsi qoydu.*

### Gənclərə yeni hədiyyə

*Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etdikdən sonra Heydər parkında yerləşən Gənclər evinin açılışında iştirak edərək rəmzi açılışı bildirən lenti kəsmişdir.*

*Prezidentə məlumat verildi ki, burada kürdəmirli gənclərin asudə vaxtlarının səmərəli keçməsi və idmanla məşğul olması üçün bütün imkanlar vardır. Yeniyetmələr üçün müxtəlif stolüstü idman yarışları təşkil olunur, onlar internetə qoşulmuş kompyuterlərdən istifadə edirlər.*

*Burada ulu öndər Heydər Əliyevin gənclərə göstərdiyi diqqət və qayğını əks etdirən fotoguşə də yaradılmışdır.*

*Dövlətimizin başçısı gənclərə dövlət qayğısının gələcəkdə də davam etdiriləcəyini bildirdi.*

## KÜRDƏMİR OLİMPİYA İDMAN KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*Kürdəmir*

*24 sentyabr 2008-ci il*

*Kompleksin qarşısına toplaşan rayon sakinləri, eləcə də Pekin Olimpiya oyunlarında ölkəmizi təmsil edən idmançılar prezident İlham Əliyevi hərarətlə qarşıladılar.*

*Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi.*

*Kompleksin təməli 2005-ci ilin oktyabrında, prezidentin Kürdəmirə səfəri zamanı qoyulmuşdu. Burada respublika və beynəlxalq səviyyəli yarışların keçirilməsi üçün gözəl şərait yaradılmışdır. 5,5 hektar ərazidə yerləşən bu idman qurğusu həm də şəhərə xüsusi yaraşıq verir.*

*Prezident İlham Əliyev kompleksin ərazisini gəzdi, futbol, voleybol, basketbol meydançalarına, məşq otaqlarına, habelə ulu öndər Heydər Əliyevin ölkəmizdə idmanın inkişafına və idmançılara diqqət və qayğısından bəhs edən fotostendə baxdı. Sonra böyük idman salonunda yeniyetmələrdən ibarət mini futbol komandasının, gənc həndbolçuların oyunlarını izlədi, Pekin Olimpiadasının iştirakçıları ilə görüşdü.*

*Dövlətimizin başçısı Olimpiya İdman Kompleksi ilə tanışlıqdan sonra rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İlham Əliyev:** Sizi çox gözəl Olimpiya İdman Kompleksinin açılışı münasibətilə təbrik edirəm. Bu çox gözəl idman qurğusudur. Mənim yadımdadır ki, 3 il bundan əvvəl bu kompleksin təməlini qoyduq. O vaxt burada heç nə yox idi, boş bir yer idi. Amma indi gözəl park, gözəl olimpiya kompleksi, açıq meydançalar var. Gördüyünüz kimi, uşaqlar burada məşq edirlər, idmanla məşğul olurlar, bu çox sevindirici haldır. Yəni

Kürdəmirə layiq olan bir idman qurğusudur. Mən əminəm ki, buradan uşaqlar, yeniyetmələr, gənclər və böyüklər, necə deyərlər, yaşlı nəsil də istifadə edəcəkdir. Çünki burada həm idman qurğusu, həm də müxtəlif trenajorlar var. Buradan həm idmançılar, həm də rayon sakinləri istifadə etməlidirlər. Sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm.

**O q t a y  B a b a y e v** (*rayon ağsaqqalı, ziyalı*): Cənab Prezident, Sizi Kürdəmir rayonunun bütün ziyalıları, ağsaqqalları, sakinləri adından salamlayıram. Kürdəmirə xoş gəlmisiniz, səfa gətirmisiniz. Sizin hər bir gəlişiniz rayona yenilik, tərəqqi, inkişaf gətirir. Siz özünüz də bu gün bunun əyani surətdə şahidi oldunuz.

Biz kürdəmirlilər, bütün respublika əhalisi neçə gündür televiziya ekranlarından Sizin rayonlara, regionlara səfərlərinizi izləyirik. Getdiyiniz rayonlarda aeroport, stadion, parklar açılır. Özü də bu verilişlərə təkcə Azərbaycan baxmır, bütün dünya baxır. Demək, Azərbaycan çox nəhəng addımlarla irəliləyir, tərəqqi edir, çiçəklənir, tikinti-abadlıq işləri geniş vüsət alır. Şübhəsiz, bütün bunlar rayonumuzun əhalisində, respublikamızın ziyalılarında böyük ruh yüksəkliyi yaradır. Biz qürur, iftixar hissləri keçiririk.

Cənab Prezident, biz bunun hamısını mərhum prezidentimiz Heydər Əliyevin siyasi xəttinin, ideyalarının təntənəsi hesab edirik. Çünki Heydər Əliyevin Azərbaycana rəhbərlik dövrü xalqımızın, tariximizin ən şərəfli, ən unudulmaz səhifəsidir. Heydər Əliyev Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin beşiyi başında duraraq ölkəmizə rəhbərlik missiyasını düz 34 il öz qüdrətli çiyinlərində XX əsrdən XXI əsrə apardı. Ürəyini məşəl edərək xalqın yoluna işıq saldı. Dünyada çox böyük şəxsiyyətlər olubdur. Çox vaxt onları Heydər Əliyevlə müqayisə edirlər. Amma mən elə bir prezident görməmişəm ki, o, həyatdan gedəndən, dünyasını dəyişəndən sonra onun adına təkcə ölkəsində yox, bütün dünyada bu qədər abidə ucaldılsın, xiyabanlar, muzeylər yaradılsın və xatirəsi anılsın. Siz Türkiyədə, Gürcüstanda, Müstəqil Dövlətlər Birliyi məkanında,

Avropada olanda Heydər Əliyevin abidəsini ziyarət edirsiniz. Bu hələ heç bir dövlət başçısına müyəssər olmamışdır. Ona görə bir daha təkrar edirəm ki, biz ziyalılar onunla fəxr edirik.

Cənab Prezident, yaxşı xatırlayırsınız, düzgün qeyd etdiyiniz kimi, 2005-ci ilin 6 oktyabrında Siz Milli Məclisə seçkilər ərəfəsində Kürdəmirdə oldunuz və Heydər Əliyevin abidəsinin, Heydər Əliyev Muzeyinin açılış mərasimlərində iştirak etdiniz. Siz orada proqram xarakterli çıxış etdiniz və o çıxışınızda rayonda gedən tikinti-abadlıq işlərini yüksək qiymətləndirdiniz. Rayon sakinlərinin, rayon icra hakimiyyəti başçısının işlərinə müsbət qiymət verdiniz. Siz bu rayondan cəmi 3 ildir getmisiniz. Lakin rayonda görülmüş işlərin əhatəsi 15–20 ilə bərabərdir.

Sizə deyim ki, qısa müddət ərzində rayonda 22 məktəb binası və korpusu tikilmişdir. Yəni 6 min şagird üçün sinif otaqları inşa olunmuşdur. Təkcə builki dərs ilində ən müasir standartlara cavab verən 5 məktəb binası istifadəyə verilmiş, hər cür əyani vasitələrlə, kompyuterlərlə təchiz olunmuşdur. Bu nəinki rayonumuzun, respublikamızın tarixində misli görünməmiş böyük bir hadisədir. Bütün bunlar bizi böyük qələbəyə, yeni nailiyyətlərə daha da ruhlandırır.

Siz Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı Dövlət Proqramını qəbul etdiniz. Mənim imkanım olsa, bu proqramı qızıl hərflərlə Azərbaycan xalqının tarixinə yazaram. Azərbaycanda belə bir proqramın qəbulundan sonra bütün respublika yeniləşmiş, tikinti-abadlıq işləri böyük miqyas almış, Azərbaycanın sosial-iqtisadi qüdrəti, beynəlxalq nüfuzu yüksəlmiş, xalqın rifah halı yaxşılaşmışdır Bu proqram ona görə baş tutur ki, cənab Prezident, Siz onun yerinə yetirilməsini izləmək üçün rayonlarda olursunuz. Hətta elə rayon var ki, 3 dəfə olmusunuz. Gedib görürsünüz və əgər o sənədin icrasında bir boşluq varsa, problem varsa, Bakıya qayıdandan sonra dərhal sərəncam verirsiniz. Bizim rayon haqqında da belə oldu.

O vaxt buradakı açılış mərasimindən sonra Siz Sabirabadda geniş müşavirə keçirdiniz. Bizim icra hakimiyyətinin başçısı o

müşavirədə iştirak etdi, çıxışında su, nəqliyyat məsələləri haqqında təklif irəli sürdü. Siz onun çıxışına dərhal reaksiya verdiniz və Bakıya qayıdan kimi, nəinki Kürdəmir haqqında, həm də Sabirabad, Saatlı haqqında xüsusi sərəncam imzaladınız. 40–50 il su görməyən Kürdəmirə keçən ilin dekabrında İsmayıllı rayonunun Külüllü kəndindən bulaq suyu gəldi. 40–42 dərəcə isti olan rayonda bulaq suyunun ləzzətini ancaq onu içən kürdəmirlilər bilər. Nəinki suya, digər məsələlərə görə də Sizə, Heydər Əliyev ailəsinə, ulu öndərə o qədər böyük məhəbbətimiz, hörmətimiz var ki, inanın, bunu izah etməyə, deməyə mənim nə qüdrətim, nə sözüm çatır. Sizə rayonda çox böyük, hədsiz məhəbbət və hörmət vardır.

Siz daim xalqın, kütlənin içində olursunuz.

Siz 2009–2013-cü illər üçün yeni Dövlət Proqramının hazırlanması barədə tapşırıq vermisiniz.

**İ l h a m Ə l i y e v:** Bəli, hazırlanır.

**O q t a y B a b a y e v:** Azərbaycan daha qüdrətli, daha gözəl olacaqdır. Azərbaycan indi də, gələcəkdə də bütün Şərq, deyərdim ki, Avropa üçün də nümunəvi bir respublika olacaqdır.

**İ l h a m Ə l i y e v:** Sağ olun, xoş sözlərinizə görə təşəkkür edirəm. Mən çox şadam ki, bu gözəl Olimpiya İdman Kompleksinin açılışında yenidən sizinlə bərabər Kürdəmirdəyəm. Bu bizim birgə gördüyümüz işlərin əyani sübutudur. 3 il bundan əvvəl kompleksin təməli qoyuldu. Bu gün isə gözəl idman qurğusu istifadəyə verilir. Siz qeyd etdiniz ki, son 3 il ərzində Kürdəmirdə çox böyük işlər görülübdür. Böyük abadlıq, quruculuq işləri, məktəb tikintisi, sosial obyektlərin, yeni sənaye sahələrinin işə düşməsi – bütün bunlar Azərbaycanı gücləndirir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının əsas məqsədi məhz bundan ibarətdir.

Mən xatırlayıram, biz proqramı 2004-cü ilin fevral ayında rəsmən qəbul etdik. Əlbəttə, mən o vaxt bu proqramın üzərində çox işləmişdim və bilirdim ki, biz onu icra edəcəyik. Bəzi fikirlər var idi ki, bu, sadəcə olaraq, növbəti yeni bir niyyət

proqramıdır. Orada müəyyən tədbirlər göstərilir, ancaq onların bir hissəsi çətin ki, yerinə yetirilsin. Amma proqramda göstərilən bütün məsələlər yerinə yetirildi və ondan əlavə, 2004-cü ildə proqramda nəzərdə tutulmamış bir çox obyektlər işə düşdü: aeroportlar, xəstəxanalar, idman qurğuları, yollar. Bakı–Kürdəmir yolu ən yüksək dünya səviyyəsindədir. Bu yol Gəncəyə qədər davam edir və Gəncə–Qazax avtomobil yolu artıq hazırdır. Bütün istiqamətlərdə yollar çəkilir, bütün bölgələrdə quruculuq-abadlıq işləri aparılır.

İşsizlik məsələsi ən çətin məsələdir. Bütün postsovet məkanı üçün ən böyük problem işsizlik, yoxsulluqdur. Biz, demək olar ki, işsizliyin böyük hissəsini aradan götürmüşük. Bu gün işləmək istəyən iş tapar. 700 mindən çox yeni iş yeri açılmışdır, onlardan 600 minə qədəri daimi iş yerləridir. Bu gün Azərbaycana işləmək üçün başqa ölkələrdən işçi qüvvəsi gəlir. Bu nəyi göstərir?! Onu göstərir ki, artıq Azərbaycanda işsizlik problemi yoxdur. Digər tərəfdən, nəyə görə gəlirlər?! Çünki bilirlər ki, Azərbaycan inkişaf edən ölkədir, Azərbaycanda sabitlik, əmin-amanlıq var, tolerantlıq, başqa millətlərə qarşı xoş münasibət var və ölkənin ümumi inkişafı buna gətirib çıxarır. Yəni biz bu gözəl hadisələri bütün bölgələrdə görürük. Hər bir yerdə, hər bir rayonda inkişaf gedir və bu işlər əhali tərəfindən çox bəyənilir, dəstəklənir. Bizim insanlarımız bütün bu işlərin ən fəal iştirakçılarıdır. Əgər yerlərdə insanlar bu işlərlə məşğul olmasaydılar, bizim bütün proqramlarımız kağız üzərində qalacaqdı. Bizim uğurumuzun əsas səbəbi ondan ibarətdir ki, düzgün qərarlar qəbul edilir, nəzarət güclüdür və yerlərdə qərarlar icra olunur.

Əlbəttə ki, bütün bu işləri görmək üçün bizim maddi imkanlarımız artır. Əgər bu olmasaydı, biz buna nail ola bilməzdik. Bizim dövlət büdcəmiz son 5 il ərzində 10 dəfədən çox artıbdır. Valyuta ehtiyatlarımız, sosial məsələlərin həllinə ayrılmış vəsait, maaşlar, pensiyalar artıbdır. İqtisadi artım baxımından Azərbaycan ardıcıl 4 il dünya miqyasında birinci yerdədir. Bu reallıqdır, faktdır, statistikadır. Biz bunu həm iqtisadi göstəricilərdə, həm də gündəlik həyatda görürük.

Bizim ölkəmiz yeniləşir, yenidən qurulur. Siz ulu öndər Heydər Əliyevin Azərbaycan xalqına xidmətlərini qeyd etdiniz. Hamımız – siz də, mən də yaxşı xatırlayırıq ki, XX əsrin 70–80-ci illərində o, nə qədər böyük işlər görübdür. O vaxt hakimiyyətə gələndə ən geridə qalmış respublika Azərbaycan idi. O, 1982-ci ildə Azərbaycandan Moskvaya gedəndə isə Azərbaycan ən qabaqcıl respublika idi. Tarix yenə təkrarlandı. Azərbaycan müstəqillik ərəfəsində, əfsuslar olsun ki, çox ağır vəziyyətə düşmüşdü. Nəyə görə?! Çünki Azərbaycana rəhbərlik edən insanlar öz vəzifə borclarını yerinə yetirə bilməmişlər. Bəziləri xəyanət ediblər, bəziləri sadəcə olaraq, işin öhdəsindən gələ bilməmişlər.

1988-ci ildən yavaş-yavaş bütün iqtisadiyyat, sənaye, kənd təsərrüfatı tənəzzülə uğradı, tamamilə məhv olundu. Antialkoqol kampaniyası aparılmışdı, bütün üzüm bağları dağıdıldı. Nə üçün Azərbaycanda dağıdıldı?! Üzüm istehsalı Gürcüstanda, Ukraynada, Moldovada, Ermənistanda da var idi. Orada niyə üzüm bağlarına dəymədilər, bunları məhz Azərbaycanda qırdılar?! Çünki həm Sovet İttifaqının o illərdəki mərkəzi hökumətinin Azərbaycana münasibəti mənfi idi, həm də yerli rəhbərlər Azərbaycanın maraqlarını qoruya bilməmişlər. Müstəqillik əldə ediləndə ən ağır vəziyyətdə yenə Azərbaycan oldu. Ermənistanın işğalı, torpaqlarımızın işğal altına düşməsi, vətəndaş müharibəsi və demək olar ki, iqtisadi iflic. Əgər belə davam etsəydi, ümumiyyətlə, ölkəmizin gələcəyi sual altında ola bilərdi.

Yenə Azərbaycan xalqı öz müdrikliyini göstərdi, 1993-cü ildə Heydər Əliyevi hakimiyyətə dəvət etdi. Nə baş verdi? Bütün xoşagəlməz məsələlərə tədricən son qoyuldu, sabitlik yarandı. Qanunsuz dəstələr, silahlı birləşmələr Azərbaycana meydan oxuyurdu – hamısı zərərsizləşdirildi, sabitlik yarandı və inkişaf dövrü başladı. 1993–2003-cü illər inkişaf dövrüdür. Bütün ağır problemlər həll olunmağa başlamışdı – sabitlik, yenilik və müasirlik.

Son dövr, 2003–2008-ci illər isə sadəcə olaraq, 1993–2003-cü illərin məntiqi davamıdır. Bizim həm iqtisadi imkanlarımız artır, həm də bölgədə mövqeyimiz daha da güclənir. Biz, Azərbaycan istənilən məsələni həll edə bilərik. Biz öz gücümüzə, öz maliyyə imkanlarımıza arxalanaraq bunları xalq üçün edirik. Azərbaycan xalqı yaxşı yaşamalıdır – bütün rayonlarda, hər bir kənddə.

Siz çox düzgün qeyd etdiniz, növbəti, 2009–2013-cü illər üçün regional inkişaf proqramı hazırlanır. O proqramda bütün qalan, bu günə qədər həll olunmamış məsələlər öz həllini tapacaqdır. Hər bir rayon üzrə, hər bir kənd üzrə.

Bizim əldə etdiyimiz nailiyyətlər artıq bütün dünya tərəfindən qəbul edilir. Azərbaycan nəinki bu bölgənin lider dövlətidir, Azərbaycan həm də dünya üçün çox önəmli ölkəyə çevrilir. Biz Avropanın enerji təhlükəsizliyi məsələlərinə öz töhfəmizi veririk. Bizim iştirakımız olmadan nəhəng qlobal layihələr icra oluna bilməz. Bölgədə gedən proseslər, bölgədəki vəziyyət, sabitlik bir çox hallarda bizim fəaliyyətimizdən, təşəbbüslərimizdən və siyasətimizdən asılıdır. Əlbəttə, bu bizim hamımızı sevindirir. Hər bir vətəndaş sevinir ki, onun dövləti güclənir, onun dövlətinin hörməti artır, imkanları artır. Həm beynəlxalq müstəvidə, həm ölkə daxilində. Bax, bu gözəl Olimpiya İdman Kompleksi sadəcə olaraq, son illər ərzində görülən işlərin kiçik bir nümunəsidir. Belə komplekslər Azərbaycanın müxtəlif bölgələrində tikilibdir.

İndi mən Kürdəmir rayonunda yeni konserv zavodunun açılışına gedəcəyəm. Eşitdiyimə görə, o da böyük bir sənaye müəssisəsidir. Belə müəssisələr həm yeni iş yerləri, həm yerli istehsal, həm də idxaldan asılılığın azaldılması deməkdir. Statistik məlumata görə, biz bu gün özümüzü ərzaq məhsulları ilə təxminən 90–95 faiz təmin edirik. Siz yaxşı xatırlayırsınız, sovet vaxtında vahid kənd təsərrüfatı kompleksi mövcud idi. Burada pambıq əkilirdi, üzüm əkilirdi. Rusiyadan buraya yağ, ət və başqa ərzaq məhsulları gətirilirdi. Amma indi özümüz-özümüzü təmin edirik. Təkcə taxılda idxaldan asılılığımız bir az çox idi. Əlavə tədbirlər gördük – güzəştli şərtlərlə gübrənin

verilməsi, yanacağın verilməsi nəticəsində bu il 400 min ton artıq taxıl yığılıbdır. Yenə əlavə tədbirlər görülür, yeni anbarlar tikiləcək, «Aqroservis», «Aqrolizinq» güzəştli şərtlərlə fermerlərə gübrə verəcək. Onun pulunun cəmi 30 faizini ödəyəcəklər, yanacağın isə 50 faizini. Biz istehsalı stimullaşdırırıq ki, istehsal daha da çox olsun, idxaldan asılılıq daha da azalsın və beləliklə, Azərbaycan ərzaq təhlükəsizliyini təmin etsin. Belə olan halda, biz uzunmüddətli, dayanıqlı inkişafa nail olacağıq. Neft-qaz amilindən asılılıq olmayacaqdır. Mən həmişə demişəm, bunlar bizə Allah tərəfindən verilən böyük sərvətdir. Biz onlardan səmərəli istifadə etməliyik və edirik. Ancaq elə olmamalıdır ki, bizim neftimiz, qazımız var, gəlin heç nə etməyək, oturaq və təkcə o pullarımızdan istifadə edək. Yox, biz gərək onu qoyaq kənara, işləyək, qeyri-neft sektorunu, kənd təsərrüfatını, yerli sənayeni inkişaf etdirək və bütün sosial infrastrukturu yeniləşdirək.

Mənim heç şübhəm yoxdur ki, bizim gələcək inkişafımız da uğurlu olacaqdır. Buna nail olmaq üçün bütün zəruri amillər var: sabitlik, inkişaf, konkret proqramlar, sosial siyasət, xalq tərəfindən bizim bütün təşəbbüslərimizə müsbət yanaşma və dəstək. Əgər bu dəstək olmasaydı, biz heç nəyə nail ola bilməzdik. Uzaq və yaxın tarix göstərir – harada ki, xalqla iqtidar arasında birlik yoxdur, orada heç bir iş görülə bilmir. Daim böhranlı vəziyyət, daim qarşıdurma, daim qarşılıqlı ittihamlar olur. Biz görürük ətrafda nələr baş verir. Bizim uğurumuzun əsas səbəbi odur ki, xalqla iqtidar arasında birlik var. Bax, siz qeyd edirsiniz ki, mən rayonlarda tez-tez oluram. Bəli, gedirəm ki, xalqla bir yerdə olum. Çünki mən sizə xidmət edirəm. 5 il bundan əvvəl bu vəzifəyə o məqsədlə gəlmişəm ki, sizə xidmət edim. Bu mənim vəzifə borcumdur. Mən çalışıram ki, vəzifə borcumu ləyaqətlə yerinə yetirim və sizi əmin etmək istəyirəm ki, gələcəkdə də biz çox görüşəcəyik. Kürdəmir rayonunun inkişafı üçün əlavə tədbirlər görüləcəkdir. Belə gözəl açılışlarda biz birlikdə hələ çox iştirak edəcəyik.

Mən sizə cansağlığı arzulayıram. Arzu edirəm ki, Kürdəmir rayonunun inkişafı bundan sonra da sürətlə getsin. Sağ olun.

## Yeni emal müəssisəsinin açılışı mərasimi

*Sentyabrın 24-də Kürdəmir rayonunda «Qelios» Məhdud Məsuliyyətli Cəmiyyətinin şərab, şirə istehsalı kombinatı istifadəyə verilmişdir.*

*Prezident İlham Əliyev bu münasibətlə keçirilən mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısı açılışı bildirən lenti kəsdi və düyməni basaraq müəssisəni işə saldı. Hazırda burada 150 nəfər çalışır. Müəssisədə quraşdırılmış avadanlıq İtaliya istehsalıdır. İstehsal olunan məhsullar İSO və HAS sertifikatlarına layiq görülmüşdür. İşçilərin orta əməkhaqqı minimum 250 manat təşkil edir. Kombinat tam gücü ilə işləyəndə ildə 20 min ton məhsul istehsal edəcək, burada 650 nəfər çalışacaqdır.*

*Kombinatın üzüm, nar və digər meyvələr yetişdirilən bağları var və gələcəkdə onların sahəsi genişləndiriləcəkdir.*

*Prezident İlham Əliyev müəssisənin nar qəbulu məntəqəsinə baxdı, yerli məhsulların xarici bazarlara çıxarılmasının əhəmiyyətini vurğuladı, ölkəmizdə özəl sektorun inkişafına hər cür şəraitin yaradıldığını bildirdi.*

## Dairəvi avtomobil yolunun açılışı mərasimi

*Sentyabrın 24-də Kürdəmir dairəvi avtomobil yolunun açılışı olmuşdur.*

*Bura toplaşan inşaatçılar prezident İlham Əliyevi səmimiyyətlə qarşıladılar.*

*Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi, yolun texniki-iqtisadi göstəriciləri ilə tanış oldu.*

*Nəqliyyat naziri Ziya Məmmədov layihə üzrə görülən işlər barədə məlumat verdi. Bildirildi ki, podratçı İtaliyanın «Todini Spa» şirkəti, məsləhətçi isə «Scott Vilson» şirkətidir. Layihənin*

*dəyəri 9,1 milyon ABŞ dolları təşkil edir. Yolun ümumi uzunluğu 10 kilometr, eni isə 15 metrdir. İkizolaqlı yol boyunca 44 ədəd suötürücü, 2 mal-qara keçidi tikilmişdir.*

*Prezident İlham Əliyev yolun müasir tələblər səviyyəsində tikildiyini söylədi, inşaatçıları təbrik edərək onlara uğurlar arzuladı.*

*Bununla da prezident İlham Əliyevin Kürdəmir rayonuna səfəri başa çatdı.*

## QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNDƏ MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR SÜFRƏSİ MƏRASİMİ

*25 sentyabr 2008-ci il*

*Sentyabrın 25-də Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Hacı Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açmışdır.*

*Azərbaycan prezidenti İlham Əliyev iftar mərasimində çıxış etmişdir.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli şeyx həzrətləri!

Hörmətli din xadimləri!

Hörmətli xanımlar və cənablar!

Ramazan ayında bizim görüşlərimiz çox gözəl ənənəyə çevrilibdir. Biz hər il burada yığışırıq, birlikdə iftar açırıq və ürək sözlərimizi ifadə edirik. Bu gün mənim ünvanıma deyilən bütün xoş sözlərə görə, şeyx həzrətləri, sizə və bizim dostlarımıza öz minnətdarlığımı bildirmək istəyirəm. Bütün Azərbaycan xalqını əmin etmək istəyirəm ki, mən bundan sonra da çalışacağam ki, Azərbaycan xalqına, doğma Vətənimə ləyaqətlə xidmət edim.

Bildiyiniz kimi, Azərbaycan öz dövlət müstəqilliyini bərpa edəndə bizim ölkəmiz ən çətin, ən ağır vəziyyətdə idi. Müstəqillik illəri Azərbaycan üçün sınaq illəri olmuşdur. Azərbaycan xalqı sübut etdi ki, özü öz müqəddəratını müəyyən edə bilər, özü seçdiyi yolla uğurla gedə bilər və qarşıda duran problemlərin həlli işində çox uğurlu addımlar ata bilər. Nəzərə alsaq ki, müstəqillik əldə olunanda bizim həm siyasi, həm də

iqtisadi vəziyyətimiz çox ağır idi, sonrakı illər ərzində əldə edilmiş nailiyyətlər doğrudan da çox böyükdür.

O da sirr deyil ki, bizim müstəqilliyimizin əsası məhz 1993-cü ildə qoyulmuşdur. Düzdür, 1991-ci ildən Azərbaycan müstəqil ölkə kimi yaşayırdı. Ancaq müstəqilliyimizin ilk illəri faktiki olaraq Azərbaycanın gələcək müstəqil həyatını şübhə altına salmışdı. Çünki ölkədə yaranmış vəziyyət – daxili çəkişmələr, vətəndaş müharibəsi, torpaqlarımızın itirilməsi və iqtisadi iflic, demək olar ki, ölkənin gələcəyini qeyri-müəyyən etmişdi. 1993-cü ildə xalqın istəyi və tələbi ilə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra vəziyyət sabitləşdi və biz o ildən bu günə qədər, sözün əsl mənasında, inkişaf dövrünü yaşayırıq. Bu da asan olmamışdır, çətin, keşməkeşli olmuşdur. Bu dövr ərzində həm müstəqilliyimizə zərbələr vuruldu, həm də sabitliyin pozulması istiqamətində addımlar atıldı, təxribatlar törədildi. Ancaq Azərbaycan dövləti və dövlətin rəhbəri öz müdrik siyasəti ilə bütün çətinlikləri aradan qaldırdı və indi biz dünyada böyük hörmətə malik ölkəyik.

Biz daxildə mövcud olan problemlərin həllində uğurlu addımlar atırıq və bunun nəticələrini bütün istiqamətlərdə görürük. Mən bu barədə çox danışmaq istəmirəm. Hesab edirəm ki, Azərbaycanın əldə etdiyi nailiyyətlər hər şeyi hər bir sözdən daha yaxşı göstərir.

Son 5 ildə mən ölkənin problemlərinin həlli işində öz səylərimi göstərmişəm. Prezident kimi, çalışmışam ki, bütün istiqamətlərdə, bütün sahələrdə olan problemləri biz tezliklə həll edək. Azərbaycanda inkişafın sürəti, demək olar ki, bu amildən asılıdır. Mən çox istəyirdim və bu gün də istəyirəm ki, ölkə qarşısında duran problemlər tezliklə həll olunsun, Azərbaycan xalqı yaxşı yaşasın. Biz buna layiqik. Biz onilliklər ərzində, əsrlər boyu başqa ölkələrin tərkibində yaşamışıq. Biz böyük xalqıq, amma çox qısa tarixi bir dövr ərzində öz dövlətimiz olmuşdur. Son bir neçə yüzilliklər ərzində bizim müstəqil yaşamaq imkanımız olmamışdır. Buna baxmayaraq, biz öz milli mənsubiyyətimizi, milli ruhumuzu saxlaya bilmişik. Şübhəsiz

ki, bu işdə əsas rolu bizim mənəvi dəyərlərimiz, ənənələrimiz, bizim dinimiz, ana dilimiz oynamışdır. Bütün bu amillər azərbaycanlıları bir millət kimi qorudu. Biz müstəqil həyata başlayanda bu müstəqilliyi möhkəm əsaslar üzərində qururduq və bu gün onu möhkəmləndiririk.

Ona görə mən bir daha demək istəyirəm ki, Azərbaycanın qarşısında duran problemlər tezliklə həll olunmalıdır. Azərbaycan inkişaf etmiş ölkəyə çevrilməlidir. Azərbaycanda insanlar rahat, firavan, rifah içində yaşamalıdır. Bunun üçün biz hər şeyi edirik. Ölkədə sabitlik qorunub saxlanılır, Azərbaycanda həm iqtisadi, həm də sosialyönümlü layihələr uğurla icra olunur. Qəbul edilmiş bütün proqramlar vaxtlı-vaxtında icra edilir. Son 5 il ərzində elə hal olmamışdır ki, hansısa vəd verilsin, yaxud da məsələ qarşıya qoyulsun, ancaq həll olunmasın. Bütün proqramlar konkret xarakter daşıyır və hər bir proqramın arxasında konkret icra mexanizmləri, maliyyə resursları və düşünülmüş strateji xətt dayanır. Belə olan halda, əlbəttə, ölkənin uğurları olacaqdır.

Ölkəmiz iqtisadi inkişaf baxımından 4 il ərzində dünya miqyasında birinci yerdədir. Digər göstəricilərimiz onu deməyə əsas verir ki, biz düzgün istiqamətdə inkişaf edirik. Azərbaycan xalqını narahat edən bütün problemlər həll olunur. Mənim 5 il bundan əvvəl qoyduğum məqsəd bundan ibarət olmuşdur. Problemlər var, onlar həll edilməlidir və onlar həll olunur.

Mən şübhə etmirəm ki, Azərbaycanda yaranmış bu gözəl ictimai-siyasi vəziyyət növbəti illərdə də davam edəcək və öz təsirini göstərəcəkdir. Bizim başladığımız layihələrin bir hissəsi növbəti illərdə başa çatacaqdır. Onların bəhrəsini növbəti illərdə görəcəyik. Ancaq artıq bu gün tam qətiyyətlə demək olar ki, Azərbaycanın uğurlu inkişafı artıq reallıqdır, faktdır. Bunu Azərbaycan xalqı və bütün dünya görür.

Prezident kimi, mənim üçün ilk növbədə Azərbaycan xalqının maraqları böyük önəm daşıyır. Mən çalışmışam və bundan sonra da çalışacağam ki, Azərbaycan xalqının maraqlarını tam şəkildə müdafiə edək, qoruyaq, Azərbaycan

dövlətinin mövqelərini möhkəmləndirək. Azərbaycan yaşadığımız bölgənin inkişafı üçün, regional əməkdaşlığın dərinləşməsi üçün və bölgədə sabitliyin bərqərar olunması üçün öz önəmli töhfəsini verir. Biz bütün dövrlərdə bu işlərdə fəal iştirak edirdik və Azərbaycan bölgədə sabitləşdirici amil kimi daim mövcud idi. Əlbəttə ki, böhranlı şəraitdə bu özünü daha da qabarıq büruzə verir. Dinc vəziyyətdə, yəni rahat şəraitdə, əlbəttə ki, bütün məsələləri çox asanlıqla həll etmək mümkündür. Kiməsə elə gələ bilər ki, bu işlər təbii xarakter daşıyır. Ancaq başqa cür də ola bilər. Azərbaycan başqa istiqamətdə inkişaf edə bilər. Bizim strateji seçimimiz, 1993-cü ildə müəyyən edilmiş siyasi strateji xətt ən düzgün xətdir və bütün faktiki addımlarımız, siyasi təşəbbüslərimiz bir məqsədi güdürdü ki, Azərbaycanın dövlətçiliyi möhkəmlənsin, müstəqilliyi əbədi, dönməz olsun. Azərbaycanda vətəndaşlar yaxşı yaşasınlar və Azərbaycan öz daxili imkanlarından istifadə edərək güclü dövlətə çevrilsin. Bu işdə biz qarşıya qoyduğumuz bütün vəzifələri uğurla icra etmişik.

Bu gün bir daha demək istəyirəm, nəinki ölkə daxilində, həmçinin bölgədə Azərbaycanın təsir imkanları artır. Biz bu imkanlardan səmərəli şəkildə istifadə edirik. Bizim bütün təşəbbüslərimiz – istər siyasi, istər iqtisadi, istər enerji, istər nəqliyyat və istərsə də başqa sahələrdəki təşəbbüslərimiz regional əməkdaşlığa yönəldilibdir. Bölgədə sülhün, əmin-amanlığın, təhlükəsizliyin təmin olunmasına və möhkəmlənməsinə yönəldilibdir. Yəni, bizim təşəbbüslərimiz xoşməramlı təşəbbüslərdir.

Mən qətiyyətlə deyə bilərəm ki, növbəti illərdə Azərbaycanın bölgədəki nüfuzu, mövqeyi və rolu artacaqdır. Bu həm böyük üstünlükdür, həm də böyük məsuliyyətdir. Yəni bölgədə gedən hadisələrə bizim təsir imkanlarımız artdıqca, məsuliyyətimiz də artır. Biz istər daxili siyasətdə, istərsə də xarici siyasətdə bütün addımları böyük məsuliyyət hissi ilə atırıq. Xarici siyasətimiz daxili siyasəti tamamlayır. Xarici siyasət Azərbaycanın dünyadakı mövqelərinin möhkəmlənməsinə xidmət edir. Daxili siyasətdə atılan addımlar – həm

iqtisadi islahatlar, həm sosial məsələlərin həlli, həm də bütövlükdə ictimai-siyasi vəziyyətin sabitliyi Azərbaycan cəmiyyətinin inkişafına yönəldilibdir.

Azərbaycan milli və dini dözümlülük baxımından nümunə ölkə kimi göstərilir. Bu reallıqdır və Azərbaycan xalqı tərəfindən yaradılıbdır. Bu sahədə həm dövlət siyasəti çox güclüdür və birmənalıdır, həm də Azərbaycanda yaşayan insanların duyğuları çox təmizdir.

Azərbaycanda bütün insanlar, bütün millətlərin, dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Azərbaycanda heç vaxt milli, yaxud da dini zəmində nəinki qarşıdurma, heç anlaşılmazlıq da olmamışdır, olmamalıdır və əminəm ki, olmayacaqdır. Bu, bütün başqa amillərlə yanaşı, ölkəmizin uğurlu inkişafını təmin edən amildir. Yəni bizdə həm ictimai-siyasi vəziyyət sabitdir, həm təhlükəsizlik tədbirləri yüksək səviyyədə təmin olunur, həm də iqtisadi islahatlar uğurla icra edilir. Bildiyiniz kimi, Dünya Bankı və Beynəlxalq Valyuta Fondu Azərbaycanı bir nömrəli islahatçı ölkə kimi qiymətləndirmişdir. Bu, böyük qiymətdir və bu qiymət dünyanın ən böyük beynəlxalq maliyyə qurumları tərəfindən verilibdir. Bu, kimliyi bəlli olmayan hansısa təşkilatın, yaxud da qeyri-dövlət təşkilatının rəyi deyil. Bu, ciddi beynəlxalq maliyyə qurumlarının verdiyi qiymətdir.

Biz gələcək illərdə bütün istiqamətlərdə öz səylərimizi davam etdirəcəyik. Azərbaycanda ictimai-siyasi vəziyyət sabit olaraq qalacaqdır. Azərbaycanda demokratiyanın inkişafı istiqamətində mühüm addımlar atılacaqdır. Deyə bilərəm ki, bu gün biz bu istiqamətdə böyük nailiyyətləri əldə etmişik. Azərbaycanda təhlükəsizlik tədbirləri görüləcək, iqtisadi islahatlar, sosial proqramların icrası davam etdiriləcəkdir. Növbəti illərdə böyük infrastruktur layihələri gözlənilir. Bizim maliyyə imkanlarımız artır. Növbəti ilin dövlət büdcəsi təxminən 15 milyard dollar həcmində olacaqdır. Bu, son 5-6 il ərzində misli görünməmiş bir irəliləyişdir. Dövlət xərclərimiz

10 dəfədən çox artır. Bunun nəticəsi olaraq bütün layihələr uğurla icra edilir.

Bir daha demək istəyirəm ki, biz öz gücümüzə arxalanırıq və öz gücümüzdən səmərəli istifadə edirik. Bütün bu işlər Azərbaycan xalqının dəstəyi sayəsində görülür. Yəni bizim bütün uğurlarımız Azərbaycan xalqının uğurlarıdır. Əgər xalq bizim təşəbbüslərimizi dəstəkləməsəydi, onların heç biri yerinə yetirilə bilməzdi. Bir sözlə, mən gələcək illərə böyük nikbinlik hissi ilə baxıram və bilirəm ki, Azərbaycanın çox parlaq, bundan da gözəl gələcəyi olacaqdır. Bizim nəzərdə tutduğumuz işlərin bir hissəsi icra olunub, bir hissəsi icra edilir, amma böyük hissəsi gələcəkdədir. Mən tam əminliklə deyə bilərəm ki, Azərbaycan inkişaf etmiş ölkələrin sırasına daxil olacaqdır. Bizdə iqtisadi, siyasi, sosial və digər sahələrdə bütün meyarlar dünyanın ən inkişaf etmiş ölkələrinin meyarlarına bərabər olacaqdır. Belə olan halda, ölkəmizin uzunmüddətli inkişafı təmin olunacaq və Azərbaycan uğurla irəliyə gedəcəkdir.

Biz müqəddəs Ramazan bayramı ərəfəsindəyik, bir neçə gündən sonra bu gözəl bayramı qeyd edəcəyik. Bu gözəl bayram Azərbaycan xalqının qəlbində daim yaşamışdır. Düzdür, müstəqillikdən əvvəl biz bu bayramı, sadəcə olaraq, evlərdə qeyd edirdik. Ancaq yenə də bu, həmişə azərbaycanlılar üçün çox əziz, doğma bayram olmuşdur.

Bu gözəl bayram ərəfəsində bütün Azərbaycan xalqına xoşbəxtlik, cansağlığı, yeni-yeni uğurlar arzulayıram. Doğma Vətənimizə yeni nailiyyətlər arzulayıram.

Sağ olun.

## RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ SƏDR MÜAVİNİ SVETLANA ORLOVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 sentyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Rusiya Federal Məclisi Federasiya Şurasının sədr müavini Svetlana Orlovanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Svetlana Orlova ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə genişləndiyini, Azərbaycan qadınlarının III qurultayında iştirak etmək üçün ölkəmizə səfərindən məmnunluğunu vurğuladı. Qonaq Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva ilə görüşü zamanı qadın problemləri, elm, təhsil və digər sahələrdə görülən işlərlə bağlı səmərəli fikir mübadiləsi apardığını bildirdi. S.Orlova fondun təşəbbüsü ilə ölkəmizdə yüzlərlə yeni məktəb binasının inşa olunmasının çox önəmli olduğunu dedi.*

*Dövlətimizin başçısı Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Azərbaycan qadınlarının III qurultayının əhəmiyyətinə toxunan prezident İlham Əliyev son illər ölkəmizdə qadın problemləri, elm və təhsil sahələri ilə bağlı çox böyük işlərin görüldüyünü bildirdi.*

*Dövlətimizin başçısı qonağın ölkəmizə bu səfərinin Azərbaycan–Rusiya münasibətlərinin daha da genişlənməsinə töhfə verəcəyinə əminliyini söylədi.*

## TÜRKİYƏNİN ƏDLİYYƏ NAZİRİ MEHMET ƏLİ ŞAHİN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 sentyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Türkiyənin Ədliyyə naziri Mehmet Əli Şahini qəbul etmişdir.*

*Mehmet Əli Şahin 2006-cı ildə Azərbaycana ilk səfərini və prezident İlham Əliyevlə görüşünü məmnunluqla xatırlatdı. O, iki ölkənin Ədliyyə nazirlikləri arasında sıx əlaqələr qurulduğunu bildirdi, bu əlaqələrin daha da möhkəmlənməsi üçün qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyətini vurğuladı.*

*Dövlətimizin başçısı Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə sürətlə inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev Ədliyyə nazirlikləri arasında əlaqələrin genişlənməsinin əhəmiyyətindən danışaraq əminliklə bildirdi ki, bu səfər həm nazirliklərin əməkdaşlığının, həm də ölkələrimizin ümumi əlaqələrinin daha da möhkəmlənməsinə öz töhfəsini verəcəkdir.*

## AZƏRBAYCAN QADINLARININ III QURULTAYININ İŞTİRAKÇILARINA

Hörmətli qurultay nümayəndələri!

Əziz xanımlar!

Sizi – Azərbaycan qadınlarının III qurultayının iştirakçılarını səmimi-qəlbdən salamlayır, hamınıza cansağlığı, səadət və işlərinizdə uğurlar arzu edirəm.

Adət-ənənələrimizin yaşadılması və nəsildən-nəsilə çatdırılması yolunda Azərbaycan qadını daim müdriklik, fədakarlıq və təmkinlilik nümayiş etdirmişdir. O, bütün dövrlərdə xalqımıza xas yüksək milli-mənəvi dəyərləri qoruyub saxlamış, torpağa, əməyə, ailəyə möhkəm bağlılıq aşılayaraq, gənclərin milli məfkurə ruhunda tərbiyəsinə var qüvvə və bacarığını sərf etmişdir. Çoxəsrlik tariximizdə görkəmli şəxsiyyətlər Azərbaycan qadınının zərifliyi və gözəlliyi, mərdliyi və sədaqəti, ağlı və zəkasından bəhs etmişlər. Xanımlarımızın mənəvi saflığı, daxili aləminin zənginliyi fəxr etdiyimiz söz-sənət abidələrimizdə də dolğun əks olunmuşdur.

Ötən əsrin əvvəllərində hüquq və azadlıqlarının tam təmin edilməsinə nail olan Azərbaycan qadını cəmiyyətimizin bərabərhüquqlu üzvünə çevrilmiş və ölkəmizin inkişaf prosesinə dəyərli töhfələr vermişdir. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasından sonra cərəyan edən mürəkkəb ictimai-siyasi proseslərdə böyük itki və sarsıntılara məruz qalan, ölkəmizin suverenliyi və ərazi bütövlüyü naminə qurbanlar verən qadınlarımız bu gün də istiqlaliyyət ideallarına sadiqlik nümayiş etdirərək, milli dövlət quruculuğu işinə ləyaqətlə xidmət göstərirlər. Onların müxtəlif sahələrdə əldə etdikləri müvəffəqiyyətlər təqdirəlayiqdir.

Azərbaycan qadınlarının bilik, qabiliyyət və işgüzarlığının dinamik inkişaf edən ölkəmizin qazandığı nailiyyətlərində

mühüm rolu vardır. Respublikamızda bərqərar olan demokratik mühit Azərbaycan qadınının zəngin potensialının gerçəkləşdirilməsi üçün əlverişli zəmin yaratmışdır.

Azərbaycan dövlətinin qadınlarla bağlı həyata keçirdiyi siyasət hər cür ayrı-seçkiliyi aradan qaldıraraq, qadınların bərabər hüquqlarını və bərabər imkanlarını təmin etməyə yönəlmişdir. Ümidvaram ki, qurultayda qəbul olunan qərarlar bu siyasətin daha da təkmilləşdirilməsinə xidmət edəcəkdir.

Əminəm ki, qurultayınız geniş və səmərəli müzakirələr aparacaq, cəmiyyətimizi düşündürən problemlərin həlli istiqamətində tövsiyələr formalaşdıracaq və qadınlarımızın fəallığının artmasına təkan verərək, onları yeni nailiyyətlərə ruhlandıracaqdır.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 sentyabr 2008-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SAATLI VƏ SABİRABAD RAYONLARINA SƏFƏRİ

*26 sentyabr 2008-ci il*

*Sentyabrın 26-da Saatlıya gələn Azərbaycan prezidenti İlham Əliyev şəhərin mərkəzindəki Heydər Əliyev adına mədəniyyət və istirahət parkında ulu öndərin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.*

*Prezidentə park barədə məlumat verildi ki, sahəsi 5,6 hektar olan parkın ərazisində milli memarlıq üslubunda tikilmiş Heydər Əliyev Muzeyi, Yeni Azərbaycan Partiyası rayon təşkilatının binası, rəsm qalereyası yerləşir. Burada 15 metr hündürlükdə ölkəmizin Dövlət bayrağı dalğalanır, genişekranlı monitor qoyulmuş, uşaq əyləncə və istirahət mərkəzi yaradılmış, yaraşıqlı fəvvarə inşa edilmişdir.*

*Müxtəlif xidmət obyektləri olan parkda əhalinin istirahəti üçün guşələr yaradılmış, rahat oturacaqlar qoyulmuş, dekorativ ağaclar, gül-çiçək əkilmiş, müasir işıqlandırma sistemi qurulmuşdur. Parkdakı xidmət işlərinə 35 nəfər daimi işə cəlb olunmuşdur.*

### Heydər Əliyev Muzeyinin açılışı mərasimi

*Sentyabrın 26-da prezident İlham Əliyev Saatlı şəhərində Heydər Əliyev Muzeyinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi, muzeylə tanış oldu.*

*Milli memarlıq üslubunda tikilmiş, sahəsi 223 kvadratmetr olan muzeyin ekspozisiya salonunun 8 bölməsində ulu öndərin həyat və fəaliyyətinin bütün dövrlərini əks etdirən 219 eksponat, o cümlədən fotoşəkillər, kitablar, müxtəlif sənədlər*

*toplanmışdır. Ümummilli liderin müxtəlif dövrlərdə Saatlı rayonuna səfərlərinə və keçirdiyi görüşlərə dair fotoşəkillər diqqəti cəlb edir.*

*Prezident İlham Əliyev muzeyin Xatirə kitabına ürək sözlərini yazdı.*

## RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*26 sentyabr 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 26-da muzeylə tanışlıqdan sonra Saatlı rayonu ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.*

*Səməd Vurğun adına 1 nömrəli şəhər orta məktəbinin direktoru, əməkdar müəllim Oqtay Məmmədov dövlətimizin başçısına müraciətlə dedi:*

– Hörmətli cənab Prezident!

Sizin səfərinizi çoxdan gözləyirdik. Bu gün Saatlı camaatının sevincinin həddi-hüdudu yoxdur. Ona görə ki, ulu öndərimizin layiqli davamçısı onları ziyarətə gəlmişdir. Respublikamızın bütün bölgələri kimi, Saatlı rayonu da gündən-günə inkişaf edir, abadlaşır və gözəlləşir. Sizin diqqət və qayğınıza insanlar öz zəhmətləri ilə cavab verməyə çalışırlar. Belə ki, rayonumuzda gedən abadlıq işlərində onlar özləri heç bir dəvət, çağırış olmadan iştirak edirlər.

Cənab Prezident, son vaxtlar 8 kəndimizdə Araz və Kür çaylarından götürülən lilli suların təmizlənməsi məqsədilə sudurulducu qurğular quraşdırılmışdır. Daha 10 kənddə də belə qurğular istifadəyə veriləcəkdir. Buna görə bütün Saatlı camaatı adından minnətdarlığımızı bildirirəm. Bütün rayonlarda olmusunuz. İnsanlarla xoş ünsiyyətiniz hamını doğmalaşdırıbdır. Siz insanların ürəyindəsiniz. Xalqımız Sizi özünə arxa, dayaq hesab edir.

Bu gün respublikamız sabitlik şəraitində yaşayır, ab-hava yaxşıdır. Ölkəmiz inkişaf edir, iqtisadi artım cəhətdən dünyanın lider ölkəsinə çevrilmişdir. Bu Sizin diqqətinizin, daxili və xarici siyasətinizin nəticəsidir. Allah Sizə yar olsun.

Əziz Prezidentimiz, Siz ulu öndərimiz Heydər Əliyevin yolunu davam etdirirsiniz. Çalışırsınız ki, respublikamız dünya miqyasında ən şöhrətli, qüdrətli dövlətə çevrilsin. Əlbəttə, proqramlarınız çoxdur, biz bunu bilirik. Sizə bu yolda müvəffəqiyyətlər arzulayıram. Allah Sizə kömək olsun. Biz insanlara da ömür versin ki, Sizin gələcək işlərinizi görək və qürur hissi keçirək.

**İ l h a m Ə l i y e v:** Təşəkkür edirəm. Sizin hamınızı ürəkdən salamlayıram. Mən çoxdan istəyirdim Saatlıya gəlim. Düzdür, keçən əsrin 70–80-ci, 90-cı illərində ulu öndərlə bərabər burada çox olmuşam. Bu dəfə prezident kimi gəlmişəm ki, sizinlə görüşüm və rayonun inkişafı üçün lazım olan əlavə tədbirlər haqqında danışaq. Mən rayonun inkişafı üçün çox vacib qərarların qəbul edilməsinə nail olmuşam. Siz qeyd etdiniz ki, içməli suyun təmizlənməsi məsələləri həll olunur. Bu çox vacib məsələdir. Çünki uzun illər insanlar bu imkandan məhrum idi. Bu gün görülmüş tədbirlər nəticəsində və quraşdırılmış xüsusi təmizləyici qurğular hesabına insanlar təmiz su ilə təmin olunurlar. Bu hələ birinci mərhələdir. Biz növbəti mərhələdə əlavə kəndləri təmiz su ilə təmin edəcəyik.

Bütövlükdə, görülən və görüləcək tədbirlər nəticəsində 500 min insan ən keyfiyyətli təmiz su ilə təmin olunacaqdır. Bu, insanların sağlamlığı deməkdir. O deməkdir ki, insanlar yaxşı su içəcəklər. Bütün başqa sosial məsələlərin həlli işində ölkədə, o cümlədən Saatlı rayonunda əməli-praktiki işlər görülür və mən istəyirəm ki, bu işlər gələcəkdə daha da sürətlə görülsün. Həm təhsillə, səhiyyə sisteminin təkmilləşməsi ilə bağlı məsələlər, həm də Azərbaycanda insanları narahat edən bütün problemlər həll olunmalıdır. Biz bunu kompleks şəkildə aparırıq. Bilirsiniz ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı uğurla icra edilir və orada Saatlı rayonunun inkişafı üçün tədbirlər nəzərdə tutulmuşdur. Mən əminəm ki, növbəti 5 il ərzində görüləcək işlər haqqında siz öz təkliflərinizi hazırlamısınız. Biz onları alacağıq, bir hissəsi alınıbdır və növbəti beşillik proqramın bütün parametrləri indi müzakirə

edilir. Hər bir rayon, hər bir kənd üçün xüsusi tədbirlər planı hazırlanacaqdır. Çünki düzdür, Azərbaycanın iqtisadiyyatı sürətlə artır. Sizin qeyd etdiyiniz kimi, biz son 4 il ərzində dünya miqyasında birinci yerdəyik və bunun nəticələrini abadlaşan şəhərlərdə, yeni infrastruktur layihələrində, insanların həyat səviyyəsinin yaxşılaşmasında görürük.

Ancaq biz elə etməliyik ki, bütün rayonların potensialı tam şəkildə işə düşsün, ondan tam şəkildə istifadə olunsun. Əlbəttə, rayonlarda qeyri-neft sektorunun inkişafına böyük diqqət göstərilir. Ulu öndər tərəfindən əsası qoyulmuş və bu gün uğurla davam etdirilən enerji siyasətimiz bizim xoşbəxt gələcəyimizi təmin edəcəkdir. Biz maliyyə baxımından korluq çəkməyəcəyik. Ancaq əsas vəzifə ondan ibarətdir ki, hər bir bölgənin potensialından səmərəli istifadə olunsun. Biz kənd təsərrüfatına, emal müəssisələrinin yaradılması işlərinə və sosial məsələlərin həllinə böyük diqqət göstəririk.

Saatlının da çox böyük potensialı var. Burada kənd təsərrüfatının inkişafı üçün yaxşı imkanlar var. Əlbəttə, biz bunu stimullaşdırmalıyıq. Son illər ərzində aparılmış islahatlar, keçən əsrin 90-cı illərinin ortalarında ulu öndər tərəfindən qəbul edilmiş qərarlar, kəndlilərin vergilərdən azad olunması və onlara güzəştli şərtlərlə kreditlərin verilməsi məsələləri bu gün öz bəhrəsini verir. Əlavə tədbirlər görülür və görüləcəkdir. Bu tədbirlər nəticəsində Azərbaycan özünü ərzaq məhsulları ilə tam şəkildə təmin etməlidir. Bu, indiyədək Azərbaycanın tarixində heç vaxt olmamışdır.

Görürəm ki, bu görüşdə yaşlı nəslin nümayəndələri iştirak edir. Siz yaxşı bilirsiniz ki, Sovet İttifaqı zamanında Azərbaycana ərzaq məhsullarının böyük hissəsi başqa respublikalardan gətirilirdi. Azərbaycan isə istehsal etdiyi məhsulları başqa respublikalara göndərirdi. Ancaq indi belədir ki, biz ərzaq təhlükəsizliyi məsələlərimizi özümüz həll etməliyik. Azərbaycan bütün ərzaq məhsullarını özü istehsal, emal etməlidir. Beləliklə, həm yeni iş yerləri açılacaq, həm yerli istehsal yaranacaq və həm də ərzaq təhlükəsizliyi məsələləri

həll olunacaqdır. Bu hər bir ölkənin təhlükəsizliyi üçün vacib olan məsələdir.

Bizim təbii ehtiyatlarımız var, neftimiz, qazımız var və neft strategiyamız uğurla icra edilir. Yəni biz bu baxımdan heç kimdən asılı deyilik. Dünyanın əksər ölkələri enerji məsələlərində idxaldan asılıdır. Azərbaycan bundan asılı deyildir. Bizim çox gözəl iqlimimiz, təbii şəraitimiz var. Kənd təsərrüfatının inkişafı üçün bütün lazımi imkanlar var, çox istedadlı insanlar var. Biz resurslarımızı tam şəkildə işə salmalıyıq, onlardan istifadə etməliyik və əminəm ki, bütün bu məsələlər növbəti 5 il ərzində öz həllini tapacaqdır.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının uğurla icra olunması onu göstərir ki, qəbul edilmiş bütün qərarlar vaxtlı-vaxtında yerinə yetirilir. Əminəm ki, növbəti 5 ildə bütün ölkədə, o cümlədən Saatlı rayonunda yeni böyük layihələr icra olunacaqdır. Ona görə mən çox istəyirəm ki, rayonun bütün problemləri – həm sosial, həm iqtisadi, həm də sənayenin inkişafı ilə bağlı olan problemləri öz həllini tapsın. Biz rayondan gələn bütün təklifləri təhlil edib növbəti beşillik proqrama daxil etsək, belə olan halda, bütün problemlər həll olunacaqdır. Bilirsiniz ki, mən bölgələrdə tez-tez oluram, çalışıram ki, bütün rayonlarda olum. Bəzi rayonlara əvvəllər getmişəm, bəzi rayonlara getməyə imkan olmayıbdır. Saatlı rayonuna da çoxdan gəlmək istəyirdim. Ancaq imkan olmamışdır. Bu gün mən çox şadam ki, sizinlə birlikdəyəm. Bu gözəl gündə burada həm Heydər Əliyev Muzeyinin açılışında iştirak edirik, həm də sizinlə söhbət edirik. Çox istərdim ki, sizi narahat edən məsələlər haqqında – rayonda əlavə hansı işlər görülməlidir, hansı çatışmazlıqlar var, biz haraya daha çox diqqət göstərməliyik – danışaq. Mənim rayonlara səfərlərimin əsas məqsədi bundan ibarətdir. Bir tərəfdən, görülən işlər haqqında məlumat alıram, öz gözümlə hər şeyi görürəm, qəbul olunmuş qərarların necə icra edilməsi ilə tanış oluram. Digər tərəfdən, ən önəmlisi isə öyrənirəm ki, biz növbəti illərdə nə etməliyik. Əlbəttə, biz indi sosial-iqtisadi inkişaf, sənayenin

inkişafı ilə bağlı vacib qərarları qəbul edirik. Ancaq siz – yerlərdə, bölgələrdə yaşayan insanlar daha yaxşı bilirsiniz ki, hansı problemlər var, əlavə nə edilməlidir.

Bu gün Azərbaycanın iqtisadi imkanları belədir ki, biz istənilən məsələni həll edə bilərik. Biz son 5 il ərzində dövlət büdcəmizi 10 dəfədən çox artırmışıq. 2009-cu ilin dövlət büdcəsi müzakirə olunur, Milli Məclisə təqdim ediləcəkdir. Bizim dövlət xərclərimiz, ümumi icmal büdcənin xərcləri 18 milyard dollar olacaqdır. Amma 2003-cü ildə cəmi 1,2 milyard dollar idi.

Onu demək istəyirəm ki, imkan var, vəsait də var və biz heç kimdən, nə xarici kredit təşkilatlarından, nə də başqa ölkələrdən asılı deyilik. Sadəcə olaraq, bu vəsaitdən səmərəli istifadə etməliyik, insanları narahat edən problemləri aradan qaldırmalıyıq, investisiya qoyuluşu üçün şərait yaratmalıyıq və rayon əhalisini narahat edən əsas məsələləri aşkar etməliyik. Bax, belə yanaşma bizim qarşımızda duran bütün məsələlərin həllini təmin edəcəkdir. Mən bu yaxınlarda həm icra hakimiyyətinin başçısını vəzifəyə təyin etmişəm və göstəriş vermişəm ki, fəal işləsin. İnsanlarla ünsiyyətdə olsun, insanların problemlərini həll etsin. Həm də ki, rayonun fəalları bu işdə öz sözünü deməlidirlər. İndi siz mənə deyin ki, Saatlı rayonunun inkişafı üçün əlavə nə lazımdır, hansı məsələ narahat edir insanları?

**Gülhüseyn Əhmədov** (Milli Məclisin deputatı): Cənab Prezident, burada əsas içməli su problemdir. Düzdür, Siz göstəriş vermisiniz, siyahıya salınıbdır. Ancaq insanlar hələ kanal suyu içirlər.

**Siraqəddin Cabbarov** (*Saatlı Rayon İcra Hakimiyyətinin başçısı*): Cənab Prezident, Dövlət Proqramına uyğun olaraq, 22 kənddə təmizləyici qurğunun qoyulması nəzərdə tutulubdur.

**İlham Əliyev:** Artıq neçə kənddə təmizləyici qurğu quraşdırılıbdır?

**Siraqəddin Cabbarov:** 8 kənddə 60 kubmetrlik həcmi olan qurğu quraşdırılıbdır.

**İlham Əliyev:** Yəqin ki, insanlar bunun yaxşı nəticəsini görürlər. İndi o qurğulardan əlavə nə qədər qoyulmalıdır ki, biz su problemini tam şəkildə həll edək?

**Siraqəddin Cabbarov:** Cənab Prezident, rayonun 44 kəndi var. Dövlət Proqramına uyğun olaraq, 22 kənddə quraşdırılacaqdır.

**İlham Əliyev:** Siyahıda 22 kənd var, bəs qalan kəndlər?

**Siraqəddin Cabbarov:** Elə yer var ki, iki kənd bir qurğu ilə təmin olunur. Qurğular İsrail istehsalıdır və çox yaxşıdır.

**İlham Əliyev:** Mən vəzifə qoymuşam ki, biz bu məsələni tezliklə həll edək. Çünki bəzi hallarda bizim qəbul etdiyimiz proqramların icrası uzanır. Mən hesab edirəm ki, biz hər şeyi qısa müddət ərzində görməliyik. İçməli su insanları narahat edən əsas məsələdir. Biz bunu həll edəcəyik.

**Siraqəddin Cabbarov:** Cənab Prezident, hazırda 4 kənddə qurğu quraşdırılıb, hazır vəziyyətdədir.

**İlham Əliyev:** Burada yeni müəssisələrin yaradılması, investisiya qoyuluşu, özəl sektorun inkişafı ilə bağlı hansı tədbirlər görülür?

**Gülhüseyn Əhmədov:** Cənab Prezident, Siz regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramını təsdiq edəndən sonra Saatlı rayonuna gəlmişdiniz. Rayonun Əlisoltanlı kəndində yeni gözəl fabrik tikilir. Keçən əsrin 80-ci illərindən yarımçıq qalmışdı. İş adamları indi bu fabriki gözəl düzəldirlər. Bu gün açılışında iştirak edəcəyiniz biyan zavodu tikilibdir. Son illərdə Sizin göstərişinizlə bir neçə pambıq zavodu tikilmişdir. Bu rayonda ən əsası su problemidir.

**Siraqəddin Cabbarov:** Cənab Prezident, bununla əlaqədar layihə işlənilir.

**İlham Əliyev:** Layihə işlənilir?

**Siraqəddin Cabbarov:** Bəli.

**İ l h a m Ə l i y e v:** Zeynal, nədir bu məsələ, həlli nə yerdədir?

**Z e y n a l N a ğ d ə l i y e v** (*Prezidentin İcra Aparatının regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri*): Cənab Prezident, burada suvarma suyuna da ehtiyac var. Kür çayından öz axarı ilə kanalın çəkilməsinə ehtiyac vardır.

**İ l h a m Ə l i y e v:** Bu məsələ ilə kim məşğuldur?

**S i r a q ə d d i n C a b b a r o v:** Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti.

**İ l h a m Ə l i y e v:** Bu problemin həlli indi bütün ölkə üçün çox vacibdir. Biz son illər ərzində enerji problemini həll etmişik. İndi elektrik enerjisi ilə problem olmamalıdır. Saatlı rayonunda necədir?

**S i r a q ə d d i n C a b b a r o v:** Normaldır, əhali elektrik enerjisi ilə təminatdan razıdır.

**İ l h a m Ə l i y e v:** Bir neçə elektrik stansiyası tikilib, elektrik xətləri çəkilibdir. Biz enerji gücümüzü xeyli artırmışıq. İndi bütün rayonlara qaz xətləri çəkilir. Düzdür, hələ ki, rayonların bütün məntəqələrinə qaz vermək mümkün deyil. Rayon mərkəzlərinə və ətraf kəndlərə verilir. Burada da belədir?

**S i r a q ə d d i n C a b b a r o v:** Bəli, cənab Prezident.

**İ l h a m Ə l i y e v:** Növbəti illərdə daha çox kəndlər təchiz olunacaqdır. Ağdamın Quzanlı və Füzulinin Horadiz qəsəbələrinə qaz xətləri çəkilib və yaxın zamanlarda qaz veriləcəkdir. Beləliklə, bütün rayonlar – əlbəttə, işğal edilmiş rayonlar istisna olmaqla – qazla təmin edilir. İndi yollar çəkilir. Öncə magistral yollar, sonra şəhərlərarası yollar çəkilməlidir. Mən gələndə gördüm ki, magistral yoldan bu tərəfə gələn yol bərbad vəziyyətdədir. İndi əsas istiqamətlərdə yollar çəkilir. Bakıdan Qazağa qədər, Bakıdan Xaçmaza, Qusara və Rusiya sərhədinə qədər, İran sərhədinə qədər işlər başlayıbdır. Amma şəhərlərarası yollar da böyük əhəmiyyət kəsb edir. Buradakı yolun təmiri, yenidən qurulması çox vacibdir. Ona görə bütün

məsələlərin kompleks şəkildə həll olunması vacibdir: infrastruktur, yol, elektrik xətləri, qaz xətləri və içməli su məsələsi. Növbəti 5 il ərzində içməli su və suvarma suyu məsələləri prioritet olacaqdır. Çünki bu, böyük vəsait tələb edir. Biz bu işləri həm özümüz görürük, həm də Dünya Bankı ilə birlikdə görürük. Milyardlarla dollar vəsait tələb olunur. Bizim iqtisadi imkanlarımız hələ son illər yaranmağa başlayıbdır. Nəyin hesabına?! Ulu öndərin neft strategiyasının hesabına. Əgər bu olmasaydı, biz vəsaiti haradan götürəcəkdik? Heç yerdən! Bax, bu uzaqgörənlik, müdriklik, ulu öndərin Azərbaycan xalqına xidmətləri həmişə – bu gün və gələcəkdə Azərbaycanın inkişafına təkan verəcəkdir.

Ona görə mən müvafiq göstərişlər vermişəm və bir neçə dəfə içməli su ilə əlaqədar xüsusi müşavirələr keçirmişəm. Çünki su həm insanların sağlamlığı üçün, həm də kənd təsərrüfatının və bölgələrin inkişafı üçün vacibdir. Əminəm ki, növbəti illərdə bunları həll edəcəyik. Hər halda, regionların inkişafına dair beşillik proqramda nəzərdə tutulacaq və həll olunacaqdır. Amma biz elə etməliyik ki, bunu daha qısa müddət ərzində həll edək, 5 il uzanmasın.

Əlbəttə, hər bir rayonda abadlıq işləri görülməli, gözəl parklar, küçələr salınmalı, insanların istirahəti üçün lazım olan bütün şərait yaradılmalıdır. Saatlının inkişafı üçün əlavə vəsaitin ayrılması da nəzərdə tutulacaqdır. Bakıya gedən kimi göstəriş verəcəyəm ki, burada işlər daha da sürətlə getsin.

**Siraqəddin Cabbarov:** Cənab Prezident, Sizin tapşırığınızla vəsait ayrılıbdır. Ucqar kəndlər, əsasən axıska türkləri yaşayan kənddən şəhər istiqamətinə bir kilometr asfalt döşənmişdir. İlin sonuna 10 kilometr yol asfaltlanacaqdır. Qalan 20 kilometrin isə asfaltlanması növbəti investisiya proqramına salınmışdır.

**İlham Əliyev:** Bunları siz özünüz edirsiniz, amma şəhərlərarası yollarla Nəqliyyat Nazirliyi məşğuldur. Onlara tapşırıq verəcəyəm ki, Saatlıya gələn yola diqqət göstərsinlər və bu yol yaxşı səviyyədə olsun.

**G ü l h ü s e y n  Ə h m ə d o v:** Cənab Prezident, Saatlı çox şoran yer olub, buradakı ağaclar 1970-ci ildən sonra əmələ gəlibdir. Ulu öndər o vaxt meliorasiya və digər məsələlərlə bağlı göstərişlər verdikdən sonra.

**S i r a q ə d d i n  C a b b a r o v:** Gələn il üçün də geniş proqram nəzərdə tutulmuşdur.

**İ l h a m  Ə l i y e v:** Bu işlər bütün bölgələrdə davam edir, ağaclar əkilir. Mən xüsusi göstəriş vermişəm ki, bütün yolların kənarında ağaclar əkilsin. İndi gələndə görürəm ki, əkilən ağaclar artıq böyüyür. Hər yerdə ağac əkilməlidir. Əlbəttə, bu həm gözəllikdir, həm də sağlamlıqdır. Həm Bakıda, həm də rayonlarda bu işlər sürətlə getməlidir.

Sağ olun.

## Zərifə Əliyeva parkı ilə tanışlıq

*Sentyabrın 26-da Saatlı rayonunda görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyeva adına mədəniyyət və istirahət parkı istifadəyə verilmişdir.*

*Prezident İlham Əliyev akademik Zərifə xanım Əliyevanın parkda ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.*

*Dövlətimizin başçısı parkla tanış oldu. Bildirildi ki, 2,3 hektar sahəsi olan yeni istirahət guşəsi şəhid ailələri, müharibə əlilləri üçün tikilmiş 32 mənzilli binanın, habelə yaşayış massivinin yaxınlığında yerləşir. Dekorativ ağaclar, gül kolları əkilmiş parkdakı müasir fəvvarələr buraya xüsusi yaraşıq verir. Parkın ərazisində istirahət və gəzinti guşələri yaradılmış, çoxlu oturacaq qoyulmuş, gözoxşayan işıqlandırılma sistemi qurulmuşdur.*

*Dövlətimizin başçısı burada görülmüş işləri yüksək qiymətləndirdi və sakinlərin istirahəti üçün gözəl şəraitin yaradıldığını bildirdi.*

## Biyan məhsulları zavodunun açılışı mərasimi

*Prezident İlham Əliyev sentyabrın 26-da Saatlı rayonunda biyan məhsulları istehsalı zavodunun istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı əsas istehsal sexində düyməni basaraq, müəssisəni işə saldı. Rayonun Gomuşçu kəndi ərazisində yerləşən zavodun smeta dəyəri 6,5 milyon manatdır. İndiyədək 5 milyon manat sərmayə qoyulmaqla 6 sex, dəyirman, qurutma məntəqələri, anbarlar, ofis binası, mehmanxana və sair tikilmişdir. Zavodun istehsal gücü ildə 200 min ton yaş biyanı emal etməyə imkan verəcəkdir. Burada biyan tableti, biyan turşusu və biyan balı (ekstratı) istehsal olunacaqdır. Hazırda zavodda 450 nəfərə yaxın işçi çalışır, gələcəkdə tam gücü ilə işlədikdə isə bu rəqəm 1500-ə çatacaqdır. Zavodda Almaniya, İtaliya, İran və Çin istehsalı olan avadanlıqlar quraşdırılmışdır.*

*Dövlətimizin başçısı ayrı-ayrı istehsal sahələrini gəzdi, istehsal prosesini izlədi, biyan turşusu sexində düyməni basaraq onu işə saldı. Prezidentə məlumat verildi ki, dünyada Amerika və Çindən sonra belə zavod Azərbaycanda tikilmişdir. Biyan məhsullarına dünya bazarında tələbat böyükdür və zavod gəlirlə işləyəcəkdir. Digər rayonlarda xammal qəbulu məntəqələri yaradılacaq və zavod onlardan biyan qəbul edəcəkdir.*

*Prezident İlham Əliyev belə əhəmiyyətli zavodun fəaliyyətinə uğurlar arzuladı və onun məhsullarının Azərbaycan markası altında xarici bazara çıxarılmasını yüksək qiymətləndirdi və bu müəssisəni özəl sektorun inkişafına göstərilən qayğının nümunəsi kimi dəyərləndirdi.*

## SABİRABAD RAYONUNDA ULU ÖNDƏRİN ABİDƏSİNİ ZİYARƏT

*26 sentyabr 2008-ci il*

*Prezident İlham Əliyev sentyabrın 26-da Sabirabada gəlmişdir. Dövlət başçısı şəhərin mərkəzindəki ümummilli lider Heydər Əliyev adına mədəniyyət və istirahət parkına gəldi, ulu öndərin abidəsinin önünə gül dəstəsi qoydu.*

*Dövlətimizin başçısına parkda aparılan abadlıq işləri barədə məlumat verildi. Bildirildi ki, 3,3 hektar ərazisi olan bu istirahət parkında gözoxşayan səliqə-sahman yaradılmış, müasir tipli fəvvarələr quraşdırılmışdır.*

## Heydər Əliyev Muzeyinin açılışı mərasimi

*Sentyabrın 26-da Sabirabad şəhərində Heydər Əliyev Muzeyinin açılışı olmuşdur. Prezident İlham Əliyev bu münasibətlə keçirilən mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısı rəmzi açılışı bildirən qırmızı lenti kəsdi və muzeylə tanış oldu.*

*Tikintisinə 2007-ci ildə başlanılmış binanın sahəsi 480 kvadratmetrdən çoxdur. Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilmiş muzeyin yeddi bölməsində ümummilli liderin həyat və fəaliyyətinə dair fotoşəkillər, müxtəlif kitablar nümayiş etdirilir. Ulu öndərin XX əsrin 70-ci illərində, eləcə də müstəqillik dövründə Sabirabad rayonuna çoxsaylı səfərlərini, keçirdiyi görüşləri əks etdirən fotoşəkillər xüsusi maraq doğurur. Muzeydə konfrans salonu, kompyuter otağı da vardır.*

*Prezident İlham Əliyev muzeyin Xatirə kitabına ürək sözlərini yazdı.*

## Alkapon və lift zavodları ilə tanışlıq

*Prezident İlham Əliyev sentyabrın 26-da Sabirabadda «Qafqaz AKP» Məhdud Məsuliyyətli Cəmiyyətin Alkapon müəssisəsində oldu.*

*Rayonun Qalaqayın kəndində sahibkar tərəfindən tikilmiş zavodda müxtəlif növ alüminium kompozit paneli istehsal edilir. Avadanlıq Çindən gətirilmişdir. Tikintisinə 4,6 milyon manat vəsait sərf olunmuş zavodda indi 52 nəfər işləyir. Müəssisə tam gücü ilə işlədikdə burada 120 nəfər çalışacaqdır.*

*Dövlətimizin başçısı ayrı-ayrı sexlərdə istehsal prosesini izlədi, hazır məhsul nümunələrinə baxdı.*

*Prezident İlham Əliyev Qalaqayın kəndində tikilmiş daha bir müəssisə – «Qafqaz MTZ» Məhdud Məsuliyyətli Cəmiyyətin lift zavodu ilə də tanış oldu.*

*Bu zavodda yükqaldırma gücü 400 kiloqramdan 5 tonadək olan sərnişin və yük liftləri (ildə 5 min ədəd) istehsal olunacaqdır. Hazırda müəssisədə 165 nəfər işləyir. Gələcəkdə işçilərin sayı 3200 nəfərə çatacaqdır. Müəssisənin tikintisinə 9 milyon manat sərmayə qoyulmuşdur.*

*Dövlətimizin başçısı liftin ayrı-ayrı hissələrinin yığıldığı sexləri gəzdi, müxtəlif sərnişin və yük liftlərinin nümunələri ilə tanış oldu.*

*Ölkəmizdə hazırda liftə böyük tələbat olduğundan gələcəkdə zavodun istehsal gücü daha da artırılacaqdır. Burada istehsal edilən liftlər köhnə və yeni tikilən yaşayış evlərində, qeyri-yaşayış binalarında və başqa yerlərdə quraşdırılacaqdır.*

## Gənclər evinin təmirdən sonra açılışı mərasimi

*Sentyabrın 26-da Sabirabad şəhərində Gənclər evinin əsaslı təmirdən sonra açılışı olmuşdur.*

*Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi və Gənclər evi ilə tanış oldu.*

*Gənclər evinin ikimərtəbəli binasında konfrans salonu, komyuter otağı, elektron kitabxana, dərnəklər və vətənpərvərlik mövzusunda dərslərin keçirilməsi üçün otaqlar vardır. Binanın təmirinə 1,9 milyon manat vəsait sərf olunmuşdur. Gənclər evində 30 nəfər işlə təmin edilmişdir.*

*Prezident İlham Əliyev burada Heydər Əliyev irsinin öyrənilməsi məqsədilə yaradılmış elektron kitabxanaya, konfrans salonuna, kompyuter otağına və internet-kluba baxdı. Bildirildi ki, burada marketinq və menecment, bank işi, xarici dil, dizayn və arxitektura, stilist kursları təşkil edilmiş, rəsm, şahmat və dama dərnəkləri fəaliyyət göstərir. Bir sözlə, gənclərin asudə vaxtının səmərəli keçirilməsi üçün gözəl şərait yaradılmışdır.*

## Olimpiya İdman Kompleksinin açılışı mərasimi

*Sentyabrın 26-da Azərbaycan prezidenti İlham Əliyevin iştirakı ilə Sabirabad Olimpiya İdman Kompleksinin açılış mərasimi olmuşdur.*

*Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi.*

*İndiyədək ölkədə sayca 16-cı olan bu kompleks Qalaqayın kəndində inşa edilmişdir. 4 hektar ərazidə yerləşən kompleks universal idman salonu, üzgüçülük hovuzu, süni örtüklü futbol, voleybol və basketbol meydançalarından, mehmanxana və 3 kottecdən ibarətdir. Tikintiyə 8,3 milyon manat vəsait xərclənmişdir. Kompleksdə ulu öndərin idmana qayğısını əks etdirən fotoguşə də yaradılmışdır.*

*Burada 50 nəfər işlə təmin edilmişdir. Prezident kompleksla ətraflı tanış oldu, mini-futbol yarışını izlədi.*

*Dövlətimizin başçısı kompleksin xarici görünüşünün və daxili tərtibatının yüksək səviyyədə olduğunu vurğuladı, bu idman qurğusunun istifadəyə verilməsinin rayonda gənclərin idmana axınını sürətləndirəcəyini, gənclərin sağlam böyüməsinə təkan verəcəyini bildirdi.*

# RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*26 sentyabr 2008-ci il*

*Prezident İlham Əliyev sentyabrın 26-da Olimpiya İdman Kompleksinin qarşısında Sabirabad rayonu ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.*

**İ l h a m Ə l i y e v:** Mən Olimpiya İdman Kompleksinin açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm. Biz 3 il bundan əvvəl bu kompleksin təməlini bərabər qoyduq. Bu gün isə bu gözəl binalar tikilib, istifadəyə verilir. Həm üzgüçülük hovuzu, idman zalları, həm də açıq meydançalar, mehmanxana – yəni bu ərazidə böyük idman, əyləncə və turizm mərkəzi yaradılıbdır. Çox şadam ki, biz bu gözəl kompleksin açılışını bərabər qeyd edirik. Əminəm ki, bu kompleksdən həm idmançılar, uşaqlar, yeniyetmələr istifadə edəcəklər, həm də yaşlı nəsil istifadə edə bilər. Burada insanların sağlamlığının möhkəmləndirməsi üçün bütün şərait var. Bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm.

**Z ə m i n ə A s l a n o v a** (*Prezident təqaüdçüsü, Sosialist Əməyi Qəhrəmanı*): Sabirabad bayram içərisindədir. Çoxdan səbirsizliklə gözlədiyimiz əziz Prezidentimiz bu gün bizimlədir. İcazə verin, mən bütün sabirabadlılar adından, şəxsən öz adımdan Sizə salamımızı yetirim. Rayonumuza xoş gəlmisiniz!

**İ l h a m Ə l i y e v:** Sağ olun.

**Z ə m i n ə A s l a n o v a:** Əziz Prezidentimiz, Siz gözəl bir ailədə böyüyüb, tərbiyə almısınız. Ulu öndərimizin ruhu şad olsun ki, Sizin kimi gözəl, işgüzar, bacarıqlı övladını öz xalqına, Azərbaycan xalqına bəxş edibdir. Allah ona qəni-qəni rəhmət eləsin. Ruhu şad olsun, qəbri nurla dolsun!

Hörmətli Prezidentimiz, Siz həqiqətən son 5 ildə respublikamızda misli görünməmiş işlər görmüsünüz. Bunu tək mən

demirəm, bütün xalq deyir və bütün dünya görür. Bizim belə bir gözəl el məsəlimiz var: «Görünən dağa bələdçi lazım deyil». Sizin 5 il ərzində respublikamızda gördüyünüz işləri sadalamağa aylarla vaxt lazımdır. Hamısı göz qabağındadır. Respublikamızda görülən işləri bizim Sabirabad rayonunun misalında Siz öz gözünüzlə görürsünüz. Doğrudan da Sabirabad son illərdə tikinti meydançasını xatırladır. Rayonda abadlıq, quruculuq işləri çox sürətlə davam edir. Artıq Sabirabad şəhəri Muğanın mərkəzi hesab olunur.

Hörmətli Prezidentimiz, Siz xalqımızın qayğısına qalırsınız. Siz nə qədər insana Prezident təqaüdü verirsiniz. Mən də Prezident təqaüdü alıram, Allah canınızı sağ eləsin. O cümlədən əmək haqlarının, müavinətlərin, pensiyaların artırılması – bunlar hamısı Sizin xalqımıza olan diqqətinizin nəticəsidir. Sizə cansağlığı arzulayırıq.

Siz Sabirabad rayonunda camaatın içdiyi su ilə də maraqlanırsınız. Mən bunu camaatın adından deməyə bilmərəm. Biz həmişə Kür çayından istifadə etmişik. Düzdür, bulanıq da olsa, çox dadlı, bərəkətli sudur. Son vaxtlar Sizin tapşırığınız, göstərişiniz əsasında xüsusi qurğular quraşdırılıb və bundan 6 kənddə istifadə olunur. Bu iş sürətlə davam etdirilir.

Hörmətli Prezidentimiz, Mehriban xanım Sizinlə bahəm çalışır. Bu, qadınlar üçün də fəxrdir. Mehriban xanım bütün Azərbaycan qadınlarını nəinki respublikamızda, xaricdə də təmsil edir. Biz onunla fəxr edirik. Onun mədəniyyət, maarif, səhiyyə sahəsinin inkişafında xidmətləri olduqca çoxdur. İstərdik ki, bizim salamlarımızı, minnətdarlığımızı ona çatdırasınız.

**İlham Əliyev:** Bu gün Azərbaycanda qadınların qurultayıdır.

**Zəminə Aslanova:** Bəli, bilirik. Biz həmişə Sizi televiziya vasitəsilə izləyirik. İndi həm gözəl aydır, həm də gözəl gündür. Siz axşam iftar süfrəsində idiniz. Hamımız, sabirabadlılar baxırdıq, Siz orada çıxış etdiniz, cansağlığı arzuladınız. Bu gözəl bayram münasibətilə sabirabadlılar adından və

şəxsən öz adımdan Sizi təbrik edirəm. Həmişə belə gözəl bayramlarda iştirak edəsiniz.

Siz bilirsiniz ki, ulu öndərimiz 14 dəfə Sabirabadda olmuşdur. O hamını çox istəyirdi, amma Sabirabadı və Sabirabad camaatını lap çox sevirdi. Çox istəməsəydi, bizim rayona 14 dəfə gəlməzdi. Camaatla görüşür, təsərrüfatlarda olurdu. Rayonumuzda olan bu gözəl abadlıq işləri ondan bizə yadigardır. Sosialist Əməyi Qəhrəmanı kimi yüksək fəxri adı, onun medalını mənə o təqdim etmişdir. Ömrüm boyu ona, onun ruhuna borcluyam.

İnşallah, Prezidentimiz gələn dəfə gələndə bundan da gözəl tikintilərin, işlərin şahidi olsun, sevinsin. Allah Sizə cansağlığı versin.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Xoş sözlərinizə görə təşəkkür edirəm.

Mən də bundan sonra əlimdən gələni edəcəyəm ki, Azərbaycan daha da çiçəklənsin, daha da inkişaf etsin və biz qarşımıza qoyduğumuz bütün məqsədlərə çataq. Bunu etmək üçün bütün imkanlar var. Siz ulu öndər Heydər Əliyevin Sabirabada, sabirabadlılara olan münasibətini qeyd etdiniz. Bu həqiqətən belə idi. Mən onun səfərlərini xatırlayıram. Bəzi hallarda məni də özü ilə gətirərdi Sabirabada. Sabirabadın inkişafına onun çox böyük töhfəsi olmuşdur.

Bu gün Sabirabad yeni dövrünü yaşayır. Mən 3 il bundan əvvəl gəlmişdim, bu kompleksin təməlinin qoyulmasında iştirak edirdik. Bu 3 il ərzində çox böyük dəyişikliklər olub, çox böyük quruculuq, abadlıq işləri aparılır, sosial obyektlər, yeni müəssisələr tikilir, iş yerləri açılır, şəhər abadlaşır. Necə ki, keçən əsrin 70-ci illərində Sabirabad çox böyük inkişaf yolu keçmişdi və burada həm sənayenin, həm kənd təsərrüfatının inkişafı, həm də sosial obyektlərin tikintisi geniş vüsət almışdı. İndi yenidən o həyata dönür.

Hamımız yaxşı xatırlayırıq ki, ulu öndər Heydər Əliyev Azərbaycandan Moskvaya gedəndən sonra burada işlər yavaş-yavaş tənəzzülə doğru getməyə başladı və nəticədə də Azərbaycan

müstəqilliyi əldə edəndə ən ağır vəziyyətdə olan ölkə idi. Həm daxili çəkişmələr, həm böhranlı vəziyyət, iqtisadi böhran, sənaye faktiki olaraq dayanmışdı. O günləri hamımız yaxşı xatırlayırıq. Ümumiyyətlə, Azərbaycanın müstəqil yaşaması məsələsi sual altında idi. Azərbaycan müstəqil ölkə kimi yaşaya biləcək, yoxsa yox – XX əsrin 90-cı illərinin əvvəllərində yaşanmış çətin dövr belə fikirləşməyə böyük əsas verirdi.

Ancaq ulu öndər Heydər Əliyevin siyasəti və onun bu gün davam etdirilməsi nəticəsində Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkə, Bakı ən gözəl şəhərlərdən biridir. Gələcəkdə Bakının bütün infrastruktur məsələlərinin həlli daha da sürətlə gedəcəkdir. Həm tarixi binalar bərpa olunur, onlar öz ilkin görkəminə qayıdır, həm də şəhər üçün lazım olan bütün yeni infrastruktur obyektləri yaradılır.

Təkcə Bakıdan söhbət getmir. 5 il bundan əvvəl bəyan etmişdim ki, əsas vəzifəm bölgələrin inkişafıdır. O vaxt seçki-qabağı görüşlərdə demişdim ki, əgər Azərbaycan xalqı mənə etimad göstərsə, söz verirəm ki, növbəti 5 il ərzində 600 min iş yeri açılacaqdır. Onda bunu bəziləri şüar kimi qəbul etdilər. Bəziləri şübhə ilə yanaşdılar. Amma mən bilirdim ki, bu mümkündür. Bilirdim ki, bunu etmək üçün biz gərək ciddi işləyək, konkret proqramlar tərtib edib, onları icra edək. Bu gün, 5 ildən sonra Azərbaycanda 700 mindən çox yeni iş yeri açılmışdır. Bütün bölgələrdə canlanma gedir. Kənd təsərrüfatı inkişaf edir, yeni müəssisələr, sənaye obyektləri tikilir, investisiyalar qoyulur. Yəni biz bütün bunları birlikdə etmişik. Bunların hamısının təməlində Heydər Əliyev siyasəti dayanır, bütün bunlar o siyasətin təntənəsidir. Əgər o olmasaydı, əgər Azərbaycanda sabitlik olmasaydı və gözəl ictimai-siyasi vəziyyət olmasaydı, bunları görmək mümkün olmazdı. Heç kim buraya vəsait qoymazdı və yerli sahibkarlar da gedib başqa ölkələrə vəsait qoyacaqdılar.

İndi yerli sahibkarlıq yaranır və möhkəmlənir. Bunun müxtəlif səbəbləri var. İlk növbədə, əlbəttə, liberal iqtisadi islahatlar, Azərbaycanın dünya iqtisadiyyatına qovuşması, digər

tərəfdən, dövlət dəstəyi – həm siyasi, həm də maddi dəstək. Hər il güzəştli şərtlərlə 100 milyon dollar həcmində kreditlər verilir. Kənd təsərrüfatının inkişafı üçün əlavə tədbirlər görülür. Güzəştli şərtlərlə gübrə, yanacaq verilir, yollar çəkilir, infrastruktur layihələri və dövlət tərəfindən icra olunan layihələr həyata keçirilir.

İndi Azərbaycanda ən böyük investor Azərbaycan dövlətidir. Əvvəllər biz xarici investisiyalardan asılı idik. Gözləyirdik və cəlb edirdik ki, gəlin Azərbaycana vəsait qoyun. Mən xatırlayıram, ulu öndər Heydər Əliyev bütün xarici səfərlərdə xarici firmalarla, böyük şirkətlərlə görüşlər keçirirdi və onları inandırırdı ki, gəlin Azərbaycana vəsait qoyun. O vaxt ona nail ola bildi. Halbuki Azərbaycana vəsait qoymaq onda riskli bir iş idi. Mən də 2004–2005-ci illərdə bütün xarici səfərlərimdə iş adamları ilə, firmalarla görüşürdüm, onları cəlb edirdim. İndi də gəlsələr, əlbəttə ki, şad olarıq. Amma o dövr keçdi. İndi bizə öz imkanlarımız şərait yaradır ki, özümüz istənilən sahəyə investisiya qoyaq.

Keçən il ilk dəfə olaraq yerli sərmayələr xarici sərmayələri üstələmişdir. Bu il təkcə dövlət investisiya xərcləri 5 milyard dollardır. Gələn il təxminən 6-7 milyard dollar olacaqdır. Azərbaycan öz imkanlarından istifadə edir. Bu investisiyalar insanları narahat edən əsas məsələlərin həllinə yönəldilir. Yollar, elektrik xətləri, qaz xətləri, su təchizatı. Siz qeyd etdiniz, Sabirabadda artıq modul tipli təmizləyici qurğular quraşdırılmışdır. Təkcə burada deyil, başqa rayonlarda da quraşdırılmışdır. Nə üçün?! İnsanlar təmiz su içsinlər.

Siz tamamilə haqlısınız, Kür suyu çox gözəl sudur. Onun tərkibində insanın sağlamlığı üçün yaxşı maddələr var. Ancaq o təmizlənməlidir. İndi biz bu qurğuları gətirməklə, onları quraşdırmaqla bu məsələni həll edirik. Əminəm ki, biz 2009–2010-cu illərdə bu problemlə üzləşən bütün kəndlərdə bu proqramı tam şəkildə icra edəcəyik. İnsanların sağlamlığı və həyatının keyfiyyəti əsas sosial məsələdir.

Sağlamlıq, təhsil, infrastruktur layihələri, iqtisadiyyatın, sənayenin inkişafı – bax, bütün bu paralel proqramlar bir-birini tamamlayır və bizim ölkəmizin uğurlu inkişafını təmin edir. Mən heç şübhə etmirəm ki, biz növbəti illərdə daha da sürətlə inkişaf edəcəyik. Azərbaycanın inkişafı uzunmüddətli olacaqdır.

Biz 4 il əvvəl dünya miqyasında ilk dəfə idi ki, iqtisadi artım baxımından birinci ölkə olduq. Bəziləri fikirləşirdilər ki, bu, təsadüfi xarakter daşıyır. Sonra növbəti ildə də oldu, ondan sonra növbəti ildə də oldu və artıq 4 il ardıcıllıqla – bu il 5 il olacaqdır – Azərbaycan iqtisadi artım baxımından birinci yerdədir. Sonra bəzi bədxahlar deyirdilər ki, Azərbaycanda neft hasil olunur. Neft başqa ölkələrdə də hasil olunur. Yəni bu, təkcə neft amilindən asılı deyil, köklü iqtisadi islahatlardan, ciddi proqramlardan asılıdır. Təsadüfi deyil ki, Azərbaycan Dünya Bankı tərəfindən bu il bir nömrəli islahatçı ölkə kimi qiymətləndirildi. Yəni bunun neftlə heç bir əlaqəsi yoxdur. Səbəbi – aparilan ciddi siyasətdir, həm siyasi, həm iqtisadi islahatlar, sosial məsələlərin həllidir.

Gələcək illərdə bütün bu müsbət meyillər güclənəcəkdir. Bölgələrin inkişafı üçün əlavə tədbirlər görüləcəkdir. Əlavə kreditlər, investisiyalar olacaq ki, Azərbaycan öz potensialından tam şəkildə istifadə etsin. Kənd təsərrüfatı inkişaf etsin. Bu, ulu öndər Heydər Əliyevin siyasətidir. Onun bizə qoyduğu yoldur. Biz bu yolla gedirik. Bu, ən düzgün yoldur və bu yolda heç kim bizə nə maneçilik törədə, nə də bizi bu yoldan döndərə bilməz.

Biz Ramazan bayramı ərəfəsindəyik. Bir neçə gündən sonra bu bayramı qeyd edəcəyik. Bütün Azərbaycan xalqını bu gözəl bayram münasibətilə bir daha təbrik edirəm. Bütün sabirabadlıları təbrik edirəm. Sizə cansağlığı arzulayıram.

Sağ olun.

## «Aqrolizinq» müəssisəsi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 26-da Sabirabad rayonunun Bulaqlı kəndində yaradılmış «Aqrolizinq servis» müəssisəsi ilə tanış olmuşdur.*

*Xatirladaq ki, dövlətimizin başçısının təşəbbüsü ilə yaradılmış «Aqrolizinq» Səhmdar Cəmiyyəti fermerlərin maşın və texnika ilə təmin edilməsində mühüm rol oynayır. 2005-ci ildən bəri cəmiyyət dövlət büdcəsindən ayrılmış vəsait hesabına güzəştli şərtlərlə torpaq sahiblərinə 565 taxılyığan kombayn, 1778 traktor, 120 ekskovator, 21 texniki avadanlıq, 4396 digər kənd təsərrüfatı maşınları, 161 min ton mineral gübrə vermişdir.*

*Bulaqlı kəndində yaradılmış bu müəssisə də yerli fermerlərin işini xeyli asanlaşdırır.*

*Prezident İlham Əliyev müəssisə ilə yaxından tanış oldu, yeni alınmış texnikaya baxdı.*

*Məlumat verildi ki, «Aqrolizinq servis»in inzibati binası, texnikanın saxlanması üçün parkı və təmir sexləri inşa edilmişdir. İndiyədək 158 adda texnika alınmışdır. Bunlar kənd təsərrüfatının müxtəlif sahələri ilə məşğul olan fermerlərə sərfəli şərtlərlə veriləcəkdir.*

*Prezident İlham Əliyev ölkəmizdə kəndli fermer təsərrüfatlarının, özəl sektorun inkişafına dövlət tərəfindən qayğının bundan sonra da davam etdiriləcəyini bildirdi.*

* * *

*Bununla da Prezidentin bölgəyə səfəri başa çatdı.*

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif ölkələrində yaşayan bütün soydaşlarımızı müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

İlahi hikmətlər xəzinəsi Qurani-Kərimin nazil olduğu Ramazan ayı insanların qəlbini və təfəkkürünü nurlandıran, onları əmin-amanlığa, vəhdətə, əxlaqi saflığa dəvət edən mübarək aylardandır. Müsəlmanlar bu ayda Allah qarşısında vicdani borcunu yerinə yetirmək fürsəti əldə edir, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının, mənəvi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar.

Orucluğun sınaqlarından alnıaçıq çıxan mömin vətəndaşlarımız Ramazan günlərini qürur hissləri ilə yola salır, bayram sevinci yaşayırlar. Hər yerdə xalqımızın və dövlətimizin firavanlığı üçün dualar edilir, şəhidlərimizin ruhuna dualar oxunur. Bütün xeyirxah niyyətlərə qoşularaq, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəman övladlarımızın xatirəsini böyük ehtiramla yad edir, Allahdan onlara rəhmət, ailələrinə səbir diləyirəm.

Əziz bacı və qardaşlarım!

Hər il Azərbaycanda fərəh və könül xoşluğuyla keçirilən orucluq xalqımızın milli-mənəvi dəyərlərinə sadiqliyini nümayiş etdirir, birlik və həmrəyliyin, dostluq və qardaşlıq münasibətlərinin təntənəsinə çevrilir. Bu əziz bayram günlərində bir daha hər birinizi səmimi-qəlbdən təbrik edir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

*Allah orucunuzu qəbul etsin!*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 sentyabr 2008-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASI PROKURORLUQ ORQANLARININ ƏMƏKDAŞLARINA

Hörmətli prokurorluq əməkdaşları və veteranları!

Sizi Azərbaycan Prokurorluğunun yaradılmasının 90 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

1918-ci il oktyabrın 1-də Azərbaycan Demokratik Respublikası Nazirlər Şurasının qərarı ilə əsası qoyulmuş milli prokurorluq orqanları mürəkkəb, eyni zamanda, şərəfli inkişaf yolu keçmişlər. Xalq Cümhuriyyətinin süqutundan sonrakı 70 il ərzində Azərbaycan Prokurorluğu Sovet İttifaqının dövlət siyasətini həyata keçirməsinə baxmayaraq, təşkilati cəhətdən mühüm dövlət strukturu kimi təşəkkül tapmış, milli kadrlarımız böyük təcrübə və yüksək peşə hazırlığı əldə etmişlər.

Dövlət müstəqilliyimiz bərpa edildikdən sonra Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün doğurduğu siyasi-iqtisadi tənəzzül, separatist meyillərin güclənməsi və səriştəsiz idarəçilik dövrünü yaşayan dövlətimiz vətəndaş müharibəsi, müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdi. Yalnız ümummilli liderimiz Heydər Əliyevin xalqın tələbi ilə siyasi hakimiyyətə qayıtmasından sonra həyata keçirilən təxirəsalınmaz və qətiyyətli tədbirlər nəticəsində ölkəmizdə dövlət çevrilişləri cəhdləri, vətəndaş müharibəsi və separatizm təhlükəsi aradan qaldırılmış, cinayətkarlığa qarşı barışmaz mübarizə elan edilməklə dayanıqlı ictimai-siyasi sabitlik təmin edilmiş, demokratik hüquqi dövlət quruculuğu prosesinə başlanılmışdır.

Zamanın ruhuna, yeni siyasi, iqtisadi, sosial reallıqlara uyğun olaraq, ölkəmizdə prokurorluq orqanlarının statusunda və fəaliyyətində köklü dəyişikliklər baş vermiş, kadr siyasətində ciddi dönüşün yaradılması və şəffaflığın təmin edilməsi, elmi-texniki nailiyyətlərin tətbiqi, maddi-texniki bazanın və əməkdaşların sosial

müdafiəsinin gücləndirilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. Son illər prokurorluqda sağlam iş mühitinin yaradılması üçün ciddi işlər görülmüş, dövlətçilik, qanunçuluq prinsipləri ön plana çəkilmiş, cəmiyyətimizdə prokurorluğa ictimai etimad artmış, yüksəlmişdir. Prokurorluq orqanlarında yeniləşmə prosesi gedir, gənc kadrlar işə qəbul edilir, vəzifədə irəli çəkilir. Bu proseslər dövlət tərəfindən dəstəklənir.

Demokratik cəmiyyətimizdə prokurorluğa xas olan funksiyaları yerinə yetirərkən cəmiyyətimizin və dövlətimizin maraqlarının qorunmasında prinsipiallıq və peşəkarlıq nümayiş etdirilir, cinayətkarlıqla mübarizədə, qanunçuluğun təmin edilməsində və hüquq sisteminin inkişafında əhəmiyyətli rol oynayırlar. Prokurorluğun bu xidmətlərini və keçdiyi tarixi yolu nəzərə alaraq, ümummilli lider Heydər Əliyev hər il oktyabrın 1-ni Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü elan etmişdir.

Hazırda prokurorluq orqanlarının qarşısında mühüm vəzifələr durur. Əsas məqsədimiz – prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi və dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə, yüksək nəzəri biliklərə malik yeni nəsil formalaşdırmaqdır. Əminəm ki, Azərbaycan Respublikası Prokurorluğu bu məqsədə çatmaq üçün səylərini davam etdirəcək və qarşısında qoyulan vəzifələri layiqincə yerinə yetirəcəkdir.

Hörmətli prokurorluq əməkdaşları və veteranları!

Sizi bir daha 90 illik yubileyiniz münasibətilə təbrik edir və hər birinizə şərəfli işinizdə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 sentyabr 2008-ci il*

**AZƏRBAYCANIN YƏHUDİ İCMASINA**

Hörmətli həmvətənlər!

Sizi yəhudi xalqının qədim milli mərasimlərindən olan Roş-Ha-Şana – Yeni il bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Yüz illərdir ölkəmizdə məskunlaşan və buranı özünə doğma vətən bilən yəhudilər Azərbaycanda heç vaxt antisemitizmə və ayrı-seçkiliyə məruz qalmamış, tarixən xalqlar arasında dostluq və qardaşlıq münasibətlərinin, etnik-dini tolerantlığın hökm sürdüyü çoxmillətli cəmiyyətimizdə əmin-amanlıq şəraitində yaşayaraq dil və mədəniyyətlərini, milli-mənəvi adət-ənənələrini günümüzəcən qoruyub saxlamışlar.

Məmnuniyyət hissi ilə qeyd etmək istərdim ki, yəhudi icması bu gün də müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi, elmi-mədəni həyatında yaxından iştirak edir, dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsində, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində vətəndaşlıq borcunu layiqincə yerinə yetirir.

Hər il təntənə ilə qeyd etdiyiniz Roş-Ha-Şana yeniləşmə, xoş müjdələr, mənəvi saflıq bayramıdır. Bu əziz gün münasibətilə bir daha hamınıza xoşbəxtlik, ailələrinizə sevinc və səadət arzulayıram.

*Bayramınız mübarək olsun!*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 sentyabr 2008-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞİMAL BÖLGƏSİNƏ SƏFƏRİ

*27 sentyabr 2008-ci il*

### Bakı – Quba – Rusiya sərhədi avtomobil yolunun tikintisi ilə tanışlıq

*Prezident İlham Əliyev sentyabrın 27-də Bakı–Quba–Rusiya sərhədi avtomobil magistralının tikintisi ilə tanış olmuşdur.*

*Bakını ölkənin şimal regionları və Rusiya sərhədi ilə birləşdirən yolun yenidən qurulması üç mərhələdə aparılır. Birinci mərhələyə daxil olan Bakı–Sumqayıt yolu ötən ay istifadəyə verilmişdir. Növbəti iki mərhələdə tikinti-quraşdırma işləri davam etdirilir.*

*Prezident İlham Əliyev şimal bölgəsinə səfərə gedərkən magistralın 109-cu kilometrində tikinti işlərinin gedişi ilə maraqlandı. Dövlətimizin başçısına məlumat verildi ki, beynəlxalq əhəmiyyətli bu yol ən müasir texnologiyalar əsasında qurulur. Magistralın 16–134-cü kilometri beton örtükdən ibarət olacaqdır. Yolun keçdiyi istiqamətdə yaşayış massivlərinin çoxluğu infrastrukturda əvvəlki vəziyyətə nisbətən ciddi dəyişikliklər edilməsi zərurəti yaratmışdır. Yolda 21 körpü və yolötürücü, 10 qovşaq, 15 mal-qara keçidi, 150 müxtəlif ölçülü suötürücü olacaqdır. «Akkord» şirkətlər qrupu yolun vaxtında istifadəyə verilməsi üçün geniş yol çəkilişi strukturu yaratmışdır. İlkin prosesdə yolun çəkilişinə əcnəbilər də cəlb olunmuşdur. Bütövlükdə tikintidə üç növbədə 7 min işçi çalışır, 3 minədək texnika işləyir.*

*Magistralın 31–114-cü kilometrində yol 4 hərəkət zolaqlı olacaqdır. Bu sahədə işlərin 80 faizi yerinə yetirilmişdir. Bu istiqamətdə 2 hərəkət zolaqlı asfalt-beton örtüklü yol da salınır. Körpülər üçün beton dirəkləri və suötürücü borularını şirkət*

*özü istehsal edir. Beton işlərinin həcmi 1,2 milyon kubmetrdir. Yolda istifadə olunan betonun hazırlanması üçün ərazidə 15 zavod yaradılmışdır.*

*Yolun beton örtüyü ilə maraqlanan dövlət başçısına məlumat verildi ki, bu magistralda ağır tonnajlı yük maşınlarının çox hərəkət edəcəyini nəzərə alaraq, 28 santimetr qalınlığında beton döşənir.*

*Prezident İlham Əliyev işlərin yüksək səviyyədə görülməsi ilə bağlı tövsiyələrini verdi.*

## Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət

*Əvvəlcə Qubaya gələn dövlətimizin başçısı şəhərin mərkəzində salınmış Heydər Əliyev parkında ulu öndərin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.*

*Sonra burada rayon ictimaiyyətinin nümayəndələri ilə görüş oldu.*

## RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*27 sentyabr 2008-ci il*

**H ə s ə n  G ü n ə ş l i** *(Quba Rayon Ağsaqqallar Şurasının sədri)*: Hörmətli Prezident, icazə verin, Sizi Quba camaatı adından salamlayım və «Qubaya xoş gəlmisiniz!» deyim. Sizin son günlər regionlara səfərlərinizi çox izləyirik. Böyük ruh yüksəkliyi ilə o səfərlərə baxırıq, regionlarımızın gözəlliyi, onların bir-birindən yaraşıqlı olması bizi sevindirir. Bütün bunlar Sizin əməyinizin nəticəsidir. Biz Sizə çox dərin təşəkkürümüzü bildiririk.

Bildirmək istəyirik ki, Quba son illər böyüyür, tikilir, gözəlləşir. Qubada diaqnostika mərkəzinin istifadəyə verilməsinə az qalıb, son tamamlanma işləri gedir. 50-yə yaxın yeni tipli məktəblər tikilib. Biz Sizə təşəkkür edirik, Mehriban xanıma təşəkkür edirik. Bu məktəblərin tikintisində Mehriban xanımın böyük zəhməti var. Sizə cansağlığı arzulayırıq. Bu əziz günlərdə uca Allahdan Sizə, ailənizə, bütün millətimizə uzun ömür, cansağlığı, xoşbəxtlik arzulayırıq. Çox sağ olun.

**İ l h a m  Ə l i y e v:** Mən sizi qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik etmək istəyirəm, sizə cansağlığı, bütün qubalılara xoşbəxtlik arzulayıram.

Bütün bölgələr inkişaf edir və hər bir yerdə böyük işlər görülür. O cümlədən Quba rayonunda. Mən Bakıdan buraya gələrkən yeni yolun tikintisi ilə də maraqlandım. Hesab edirəm ki, ilin sonuna qədər bu yol tam hazır vəziyyətə düşəcəkdir və əlbəttə, bütün bu zonanın inkişafına çox böyük təkan verəcəkdir. Çünki hər bir yerin inkişafı üçün yol əsas faktdır. Bu da adi yol deyil. Dünyada ən qabaqcıl texnologiyalar tətbiq olunan beton yoldur. İnşaatçıların verdiyi vədlərə görə, bu

yolun zəmanəti 30 ildir və bu müddətdə əsaslı təmirsiz xidmət göstərəcəkdir. İlk dəfə olaraq bölgələrə beton yolu çəkilir. Bundan əvvəl ancaq Bakı–aeroport yolu beton örtüklü idi. Bu dəfə isə Bakıdan Qubaya, Qusara və sərhədə qədər çəkilir. Mən şübhə etmirəm ki, bu yolun tikintisi nəticəsində bölgənin inkişafı daha da sürətlə gedəcək, daha çox investisiyalar qoyulacaq, iş adamları daha da çox fəallıq göstərəcəklər.

Qubanın çox gözəl təbii şəraiti, gözəl iqlimi, gözəl təbiəti var. Burada turizmin inkişafı üçün çox yaxşı şərait var. Bilirəm ki, bu istiqamətdə müəyyən işlər görülür. Ancaq daha da böyük işlər ən müasir səviyyədə görülməlidir.

Birinci böyük turizm kompleksi 2003-cü ildə tikilmişdir. Olimpiya İdman Kompleksinin yanında mehmanxana və kotteclər tikilmişdir. Bu gün o mərkəz turizm məqsədləri üçün də xidmət göstərir. Bilirəm ki, başqa yerlərdə də buna bənzər mərkəzlər tikilib, ancaq Qubanın şəraitinə uyğun daha da gözəl binalar tikilməlidir.

Kənd təsərrüfatının inkişafı üçün çox yaxşı, əlverişli imkanlar var və dövlət öz tərəfindən bu sahənin inkişafı üçün tədbirlər görür. Bildiyiniz kimi, həm kreditlər verilir, həm texnika alınır və kəndlilərə güzəştlər edilir. Növbəti illərdə bu daha da böyük həcmdə olacaqdır. Bölgələrin sosial-iqtisadi inkişafı Dövlət Proqramının uğurlu icrası və başa çatması onu göstərir ki, bizim bütün addımlarımız düzgün istiqamətdə atılıbdır. 5 il ərzində proqram icra olunub və 5 il ərzində bütün bölgələrdə böyük nailiyyətlər var.

Əlbəttə, problemlər də qalır və biz müxtəlif sahələrdə olan problemlərin həlli ilə məşğuluq. Mənim bölgələrə səfərlərimin əsas məqsədi ondan ibarətdir ki, mövcud olan problemləri aradan qaldıraq: insanları nə narahat edir, hansı məsələ öz həllini tapmalıdır, hansı məsələyə biz daha da çox diqqət göstərməliyik və onları necə həll edək?! Məsələlərin həlli üçün indi çox işlək mexanizmlər var – həm dövlət proqramları, həm dövlət investisiyaları, sahibkarlığa dəstək. Bütün bunlar, ümumiyyətlə, hər bir ölkənin inkişafını təmin edir. Dövlət öz

tərəfindən infrastruktur layihələrini icra etməlidir. Elektrik stansiyaları tikməli, yollar, qaz, su xətləri çəkməli, digər tərəfdən, özəl sektora maddi dəstək göstərməlidir, yaxşı şərait yaratmalıdır. Qalan işlər isə indi özəl sektorun boynuna düşür. Çünki bizim iqtisadiyyatımızın artıq böyük hissəsi özəl sektor tərəfindən formalaşmışdır. Daxili məhsulun 84 faizi özəl sektorda formalaşıbdır. Bu onu göstərir ki, bizdə liberal islahatlar çox uğurla aparılır və bu islahatlardan insanlar da istifadə edirlər. Güclü iqtisadiyyat isə imkan yaradır ki, sosial məsələlər də öz həllini tapsın. Sosial məsələlərin həlli növbəti illər üçün prioritet məsələ olacaqdır.

Beləliklə, Azərbaycanın uzunmüddətli inkişaf strategiyası icra olunacaq və ölkəmiz çox güclü dövlətə çevriləcəkdir. Bir daha deyirəm ki, bunu etmək üçün bütün imkanlar var. Son 5 il ərzindəki təcrübə onu göstərir ki, hansı məsələ qarşıya qoyulubsa, o məsələ həll olunubdur. İstər ölkə daxilində, istər xarici siyasətdə.

Azərbaycanın uğurlu inkişafı artıq bütün dünya üçün bir reallıqdır. Bizim bölgədəki mövqeyimiz möhkəmlənir, bunun da əsas səbəbi güclü iqtisadiyyat, güclü enerji siyasəti və sabitlikdir. Azərbaycan bu bölgədə sabitləşdirici rol oynayır. Bu həm ölkəmizin inkişafı üçün, həm də beynəlxalq əməkdaşlıq üçün çox vacibdir.

Mən çox istəyirəm ki, Azərbaycanın bütün bölgələrində inkişaf daha da sürətlə getsin. Siz qeyd etdiniz, yeni Müalicə-Diaqnostika Mərkəzi tikilir. O ən qabaqcıl texnologiyalarla təchiz olunacaq, orada ən müasir avadanlıqlar quraşdırılacaq və insanlar orada ən yüksək səviyyədə həm müayinədən keçəcəklər, həm də müalicə alacaqlar. Bizim insanlar buna layiqdirlər. Dünyada hansı ən qabaqcıl texnologiya varsa, orada quraşdırılacaqdır. Hesab edirəm ki, bir neçə aydan sonra bu mərkəz hazır olacaq və ondan sonra əminəm ki, insanların sağlamlığı üçün daha da yaxşı şərait yaradılacaqdır.

O ki qaldı digər sosial məsələlərin həllinə – yaxşı bilirsiniz, məktəb tikintisi, yollar, parklar – bütün bunlar həm Quba

rayonunun inkişafına xidmət göstərir, həm də bütün bölgənin inkişafına çox güclü təkan verir. Uşaqlar yaxşı məktəblərdə oxumalıdırlar, müəllimlər yaxşı məktəblərdə işləməlidirlər. İş yerləri olmalıdır, işsizlik, yoxsulluq olmamalıdır. Bütün bu məsələlər vaxtilə şüar kimi səslənirdi, amma indi bu reallıqdır.

Mən sizə növbəti illərdə növbəti uğurlar arzulayıram. Arzu edirəm ki, həmişə olduğu kimi, Qubanın inkişafında fəal iştirak edəsiniz.

Sağ olun.

## Zərifə Əliyeva parkı ilə tanışlıq

*Sentyabrın 27-də Quba şəhərinin mərkəzində görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın adını daşıyan park istifadəyə verilmişdir.*

*Bu münasibətlə parka gələn prezident İlham Əliyev əvvəlcə Zərifə xanımın burada ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.*

*Geniş ərazisi olan parkda yaraşıqlı fəvvarə tikilmiş, oturacaqlar qoyulmuş, minlərlə müxtəlif növ qızılgül, dekorativ kollar əkilmişdir. Bir sözlə, burada sakinlərin istirahəti üçün hər cür şərait yaradılmışdır.*

## «Soyqırımı» abidə-kompleksini ziyarət

*Prezident İlham Əliyev sentyabrın 27-də Quba rayonunda açılmış «Soyqırımı» abidə-kompleksini ziyarət etmişdir.*

*Dövlətimizin başçısı abidə-kompleksinin önünə gül dəstəsi qoydu.*

*Kompleksin ümumi sahəsi 1900 kvadratmetrdir. Bura qranit daşlar düzülmüş, mərmər döşənmiş, ətraf ərazi abadlaşdırılmış, yaşıllıq zolaqları salınmış, müxtəlif dekorativ kollar əkilmiş, işıqlandırma sistemi qurulmuşdur. Erməni daşnaklarının 1918–20-ci illərdə azərbaycanlılara qarşı törətdikləri vəhşilikləri əks etdirən abidədəki lövhələrdən birində yazılmışdır:* «1918-ci ildə

ermənilərin Qubada törətdikləri soyqırımı zamanı 16 min dinc əhali qətlə yetirilmiş, 120 kənd, 26 məscid, yüzlərlə ev və digər tikililər yandırılaraq məhv edilmişdir». *Digər bir lövhədə isə 31 mart – Azərbaycanlıların soyqırımı gününün elan edilməsi barədə ulu öndər Heydər Əliyevin sərəncamı verilmişdir.*

*Prezident İlham Əliyev abidə-kompleksinin tarixi yaddaşımızın bərpası, gələcək nəsillərə Azərbaycan xalqının vaxtilə başına gətirilən müsibətlər barədə dolğun məlumatın verilməsi baxımından əhəmiyyətini vurğuladı.*

## QUBADA QIRMIZI QƏSƏBƏNİN SAKİNLƏRİ İLƏ GÖRÜŞ

*27 sentyabr 2008-ci il*

*Prezident İlham Əliyev sentyabrın 27-də Quba rayonunda, əsasən dağ yəhudilərinin yaşadığı Qırmızı qəsəbədə olmuş, sakinlərlə görüşüb söhbət etmişdir.*

*Dağ Yəhudiləri İcmasının sədri Boris Simanduyev Prezidenti böyük ehtiramla salamlayaraq dedi:*

– Hörmətli, əziz Prezidentimiz, biz Sizi hər dəfə burada görəndə məmnunluq hissi keçiririk. Sizinlə görüşümüz qəlbimizdə elə bir iz buraxır ki, illərlə təəssürat altında oluruq. Biz ona görə Sizi sevirik ki, Siz bizim ölkəmizi, respublikamızı çox qüdrətli bir dövlətə çevirmisiniz. Bugünkü gündə Azərbaycanla hesablaşmayan elə bir dövlət yoxdur. Çox böyük dövlətlərin rəhbərləri Sizinlə görüşə can atırlar. Biz bundan iftixar hissi keçiririk. Əminik ki, Siz bizi gözəl gələcəyə aparacaqsınız. Buna biz heç bir şübhə etmirik. Çünki siz bizim çoxmillətli dövlətdə əmin-amanlıq yaratmısınız. Əmin-amanlıq olmayan yerdə inkişaf da ola bilməz. Bu, Azərbaycanda var. Dinlər arasında olan münasibətlər də bir-birinə qarşılıqlı hörmət əsasında qurulur. Bütün konfessiyalar bir-birinə hörmət edirlər. Harada əmin-amanlıq olursa, orada tərəqqi də olur. Allaha şükür, Azərbaycanda həmişə əmin-amanlıq olub, mənə elə gəlir ki, tolerantlıq nöqteyi-nəzərindən Azərbaycan bütün dünya üçün nümunə ola bilər. Bizə çoxlu qonaqlar gəlir, onlar bizimlə görüşür, fikrimizi öyrənirlər. Eşidəndə ki, bizdə, Azərbaycanda millətlər arasında əlaqələr necə qurulub, onlar bizə qibtə edirlər, bizdən razılıq hissi ilə ayrılırlar. Biz ümidvarıq ki, bu belə də olacaqdır.

Möhtərəm Prezident, Sizin rəhbərliyiniz nəticəsində Azərbaycanın siması tamamilə dəyişibdir. Yəni Azərbaycanın elə bir regionu yoxdur ki, orada inkişaf, tərəqqi olmasın. İş yerləri yaradılır, istehsal müəssisələri, ictimai binalar, mədəni-maarif ocaqları, məktəblər tikilir. Həddən artıq inkişaf gedir. Belə bir qüdrətli dövlət bizi ruhlandırır, yaşayıb-yaratmağa sövq edir.

Siz keçən illərdə burada olanda, bəlkə də yuxarıdan baxanda bu imarətləri görməmişdiniz. İndi Allaha şükür, baxıb görürsünüz ki, nə qədər bizdə inkişaf var, gözəl bir qəsəbə yaratmışıq. Buraya gələn qonaqlar da bizə baxıb fərəhlənirlər ki, belə bir ölkədə belə bir inkişaf var. Mənə belə gəlir ki, bu inkişafı görməyən ya kor, ya kar, yaxud da ki, qanmazdır. Biz bunu görürük, bunu dərk edirik. Biz xoşbəxt adamlarıq. Hamımız ümidvarıq ki, bizə bəxş edilən bu insan bizim dayağımız olacaq, biz də onun ətrafında sıx birləşib, ona dayaq olacağıq. Çünki biz ona inanırıq, onu sevirik, onunla fəxr edirik.

Allaha şükür edirik ki, Siz buraya belə bir vaxtda – bayramlar ərəfəsində gəlmisiniz. Bizim camaatımız bir aya yaxındır ki, səhər sübh açılandan sinaqoqlarda ibadət edir, Allah-taalaya üz tutub bizim dövlətimizin başçısına cansağlığı arzu edir, dövlətimizin tərəqqisi naminə dualar edirik. Mən Sizi bu bayramlar münasibətilə – Ramazan bayramı, yəhudilərin Yeni il bayramı münasibətilə təbrik edirəm. Sizə cansağlığı, uzun ömür, ailə səadəti, bizi gözəl gələcəyə aparmaqda qüvvə, iradə arzulayırıq.

Möhtərəm Prezident, bir də Yeni il bayramında Allah-taala bütün insanların qismətini müəyyən edir. Allah-taala elə etsin ki, Sizin adınız Allahın həyat kitabında müqəddəs insanların arasında birinci yazılsın. Dövlətimiz tərəqqi etsin, Azərbaycan iri addımlarla bundan sonra da inkişaf etsin. Amin!

**İ l h a m Ə l i y e v:** Çox sağ olun, xoş sözlərinizə görə sizə minnətdaram. Sizi ilk növbədə qarşıdan gələn bayram münasibətilə təbrik etmək istəyirəm. Rəsmi məktub da imzalamışam. Bütün yəhudiləri onların bayramı münasibətilə təbrik edirəm və

bu bayramda bütün yəhudi icmasının üzvlərinə xoşbəxtlik, cansağlığı, yeni uğurlar arzulamaq istəyirəm.

Siz çox düzgün söylədiniz ki, bizim ölkəmizin üstünlüyü ondadır ki, burada bütün millətlər, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Bu bizim xüsusiyyətimizdir və bu bizə təbii gəlir, buna öyrəşmişik. Biz uşaqlıq dövründən belə ab-havada yaşamışıq. Bəzi xarici qonaqlar Azərbaycana gələndə, yaxud da ki, bizim təcrübəmizi öyrənməyə başlayanda təəccüblənirlər. Necə ola bilər ki, burada bütün xalqlar çox mehriban qardaşlıq şəraitində yaşayırlar. Azərbaycan çoxmillətli ölkədir, çoxkonfessiyalı ölkədir və bu bizim böyük nailiyyətimiz və böyük sərvətimizdir. Bütün millətlərin nümayəndələri qardaş kimi yaşayırlar, yaradırlar, Azərbaycanın inkişafında öz mühüm əməklərini qoyurlar və ölkəmizin inkişaf etmiş dövlətə çevrilməsi işində öz fəaliyyətlərini göstərirlər.

Bizim ölkəmizdə bütün bölgələr inkişaf edir. O cümlədən, Qubada Qırmızı qəsəbənin inkişafı da xüsusi yer tutur. Burada tikilən binalar, gözəl şərait, əlbəttə ki, çox sevindiricidir. Mən çox istəyirəm ki, burada həmişə həyat belə gur olsun, həmişə sülh, əmin-amanlıq şəraitində yaşayasınız. Mən də prezident kimi, əlimdən gələni edirəm və bundan sonra da edəcəyəm ki, Azərbaycanda bu gözəl ənənələr davam etsin, əbədi olsun və əbədi də olacaqdır. Azərbaycanın inkişafı uzunmüddətli olsun, burada sabitlik, əmin-amanlıq daha da möhkəmlənsin.

Biz iqtisadi cəhətdən xeyli dərəcədə güclənmişik. Müstəqil ölkəmiz son illər ərzində misli görünməmiş inkişaf yaşayıbdır. Sosial məsələlərin həlli, investisiyalar, büdcə artımı – bütün bunlar insanların gündəlik həyatına öz təsirini göstərir. Mən istəyirəm ki, daha da çox göstərsin. İstəyirəm ki, Azərbaycanda yoxsulluq, işsizlik olmasın, insanlar yaxşı işlə təmin olunsunlar, yaxşı maaş, pensiya alsınlar. Düzdür, son illər ərzində biz sosial ödəmələri xeyli dərəcədə artırmışıq, ancaq hələ ki, bizi tam şəkildə qane edə bilməz. Bizim istəyimiz odur ki, Azərbaycan inkişaf etmiş ölkələrin sıralarına daxil olsun və inkişaf etmiş ölkələrə xas olan bütün parametrlər Azərbaycanda tətbiq

olunsun. Bunu etmək üçün bizim imkanlarımız var. Allaha şükür, təbii ehtiyatlar var, gözəl təbiət var, regionların inkişafı sürətlə gedir, ictimai vəziyyət çox müsbətdir, təhlükəsizlik, sabitlik şəraitində yaşayırıq, vətəndaş həmrəyliyi, millətlərarası sülh şəraitində yaşayırıq. Baxın, dünyanın müxtəlif yerlərində, uzaq, yaxın bölgələrdə nə qədər böyük çaxnaşmalar, qarşıdurmalar var. Milli zəmində, dini zəmində qarşıdurma, bəzi hallarda münaqişə, bəzi hallarda, sadəcə, məişət zəminində qarşıdurma var. Bunların heç biri Azərbaycanda yoxdur, heç biri də olmayacaqdır. Bunun təminatçısı Azərbaycan xalqıdır, bizim siyasətimizdir, bax, sizin fəaliyyətinizdir. Biz hesab edirik ki, bu təbiidir və biz haqlıyıq. Bəzi başqa yerlərdə yaşanan hadisələr təbii deyil. Onlar süni şəkildə ortaya atılmış ədavət toxumlarıdır ki, insanları bir-birinə qarşı hərəkət etməyə məcbur edir. Siz öz sözünüzlə bizim xarici siyasətə toxundunuz. Bizim siyasətimiz çox açıqdır, aydındır, birmənalıdır, səmimidir. Biz öz maraqlarımızı müdafiə etməliyik. Azərbaycanın hər bir bölgəsində, hər bir qəsəbəsində, kəndində bu gözəl inkişaf daha da sürətlə getməlidir.

Mən çox şadam ki, yenidən sizinlə görüşürəm. Hər dəfə Qubada olarkən çalışıram ki, sizinlə görüşüm, öz ürək sözlərimi sizə deyim və bu vasitə ilə öz hörmət, məhəbbətimi bir daha ifadə edim.

Sizə uğurlar, cansağlığı, xoşbəxtlik arzulayıram.

## Müalicə-Diaqnostika Mərkəzinin tikintisi ilə tanışlıq

*Prezident İlham Əliyev sentyabrın 27-də Qubada Müalicə-Diaqnostika Mərkəzində tikinti işlərinin gedişi ilə tanış olmuşdur. Dövlətimizin başçısı əvvəlcə kompleksin Baş planına baxdı. Bildirildi ki, diaqnostika mərkəzi 3 korpusdan ibarət olacaqdır. Birinci və üçüncü korpuslar üçmərtəbəli, ikinci korpus isə dördmərtəbəli olacaqdır. Birinci korpusda rentgen kabineti, hemodializ şöbəsi, laboratoriya və cərrahiyyə otaqları yerləşəcəkdir. İkinci korpus inzibati otaqlar, üçüncü korpus*

*həkim kabinetləri üçün nəzərdə tutulur. Mərkəz gələn ilin ortalarında istifadəyə veriləcəkdir.*

*Prezident İlham Əliyev burada insanların müayinə və müalicəsi üçün gözəl şəraitin yaradılacağını və ən müasir texnologiyaya əsaslanan avadanlıqların quraşdırılacağını bildirdi. Dövlətimizin başçısı işin keyfiyyətlə yerinə yetirilməsi, mərkəzin xarici görünüşünün müasir səviyyədə olması barədə tövsiyə və tapşırıqlarını verdi.*

## PREZİDENT İLHAM ƏLİYEVİN QUSAR RAYONUNA SƏFƏRİ

*27 sentyabr 2008-ci il*

*Prezident İlham Əliyev sentyabrın 27-də Qubadan Qusara gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Qusar şəhərinin mərkəzindəki Heydər bağında ulu öndərin abidəsini ziyarət etdi və önünə gül dəstəsi qoydu.*

### Bulaq kompleksinin açılışı mərasimi

*Prezident İlham Əliyev sentyabrın 27-də Qusar şəhərində əhalini içməli su ilə təchiz etmək üçün çəkilmiş yeni su xətlərini birləşdirən Bulaq kompleksinin rəmzi açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı şəhərdə su təchizatı sisteminin yenidən qurulması layihəsi ilə tanış oldu. Bildirildi ki, 205 millimetrlik borularla çəkiləcək ana su xəttinin uzunluğu 1525 metr olacaqdır. Həmin xətdən su şəhərin müxtəlif küçələrinə paylanılacaqdır.*

*Prezident İlham Əliyev düyməni basdı və Bulaq kompleksini işə saldı.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Qusar şəhərinin əhalisini çoxdan narahat edən içməli su probleminin aradan qaldırılması məqsədilə son 6 ay ərzində əməli tədbirlər görülmüş, 13 min metrədək müxtəlif diametrli su xətləri çəkilmişdir.*

## Olimpiya İdman Kompleksinin açılışı mərasimi

*Sentyabrın 27-də Qusar şəhərində Olimpiya İdman Kompleksinin açılışı olmuşdur.*

*Mərasimdə iştirak edən prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi və kompleksə tanış oldu.*

*Şəhərin ən mənzərəli yerində, meşə kənarında tikilmiş kompleksin təməli 2005-ci ilin iyulunda Azərbaycan prezidenti tərəfindən qoyulmuşdu.*

*14 hektar ərazidə yerləşən kompleksin əsas korpusunun ümumi sahəsi 5 min kvadratmetrdir. Bu korpusda 1530 və 450 yerlik tribunaları olan iki universal idman salonu, 25 metrlik üzgüçülük hovuzu, stolüstü oyunlar üçün otaqlar, trenajor salonu, yeməkxana, yardımçı otaqlar yerləşir. Üzgüçülük hovuzunda isə yarışları 316 nəfər izləyə biləcəkdir.*

*Kompleksin ərazisində iki ədəd tennis kortu və dördnəfərlik kotteclər yerləşir. Ərazidə geniş və yaraşıqlı istirahət parkı salınmışdır.*

*Prezident İlham Əliyev gənclərin nümunəvi çıxışlarını izlədi, kompleksin ərazisini gəzdi.*

## RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*27 sentyabr 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 27-də Olimpiya İdman Kompleksinin açılış mərasimindən sonra rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**Nazir Ağalıyev** *(rayon ağsaqqalı)*: Hörmətli cənab Prezident!

«Mən həmişə qusarlılarla olacağam, qusarlıların problemlərini həll edəcəyəm» sözlərini demiş Prezidenti bu gün Qusarda görməyimizə çox şadıq. Bütün qusarlılar adından Sizi salamlayıram və «Xoş gəlmisiniz!» deyirəm.

Cənab Prezident, deyirlər, yağış bərəkət rəmzidir. Bu gün Qusarda yağan yağışı Sizin Azərbaycan xalqı, o cümlədən qusarlılar üçün yaratdığınız, həyata keçirdiyiniz, memarı olduğunuz regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq gətirdiyiniz bərəkət kimi qəbul edirik. Bu yağışı Sizin proqramınız əsasında və regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının ikinci mərhələsində Qusar üçün görüləcək işlərin xoş müjdəsi kimi qəbul edirik.

Cənab Prezident, çox şadıq ki, Sizin rəhbərliyiniz altında Azərbaycan Respublikası çiçəklənir, inkişaf edir, dövlətin iqtisadi gücü, müdafiə qabiliyyəti güclənir, xalqın güzəranı gündən-günə yaxşılaşır. Bu, ulu öndərimiz Heydər Əliyevin qurduğu müasir Azərbaycanın idarəetmə strategiyası və taktikasının Sizin tərəfinizdən uğurla həyata keçirilməsinin rəmzidir. Sizin memarı olduğunuz regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı respublikada uğurla həyata keçirilir.

Qusarda görülən işlərdən söhbət açarkən deməliyik ki, Sizin Qusar üçün yaratdıqlarınız insanların yaddaşından heç vaxt

silinməyəcəkdir. Sizin tövsiyəniz əsasında Qusarda tikilən bu Olimpiya İdman Kompleksi qusarlı idmançılar üçün böyük töhfədir. Sizin şəxsi təşəbbüsünüz əsasında Qusarda tikilən Dağ-Xizək Kompleksi qusarlıların yadından çıxmayacaqdır. Bunun Qusarın gələcək inkişafı üçün böyük önəmi olacaqdır. Burada 5 min nəfərə yaxın qusarlı işlə təmin olunacaq. Bu, qusarlıların gələcək sosial həyatı üçün böyük önəm daşıyır.

Yəqin gələndə baxmısınız, Qusarda asfalt döşənmiş işıqlı yollar, yeni salınan xiyabanlar, məhəllə parkları, «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsi çərçivəsində Heydər Əliyev Fondunun sifarişi ilə tikilən və tikilməkdə olan, təmir edilmiş onlarca məktəb, eləcə də Sizin proqramınız əsasında Qusarın kəndlərində tikilən onlarca elektron ATS Sizin qusarlılara, ümumiyyətlə, Azərbaycan xalqına verdiyiniz töhfədir. Bizim məlumatımız var ki, regionların sosial-iqtisadi inkişafı ilə bağlı Sizin ikinci proqramınız hazırlanır. Bayaq dediyim kimi, qusarlıların problemləri sizin probleminizdir. Biz belə başa düşürük. Çox güman ki, Qusar bundan sonra yeni start götürəcək, daha da çiçəklənəcəkdir. Möhtərəm Prezident, yeri gəlmişkən, bir məsələni qeyd etmək istəyirəm. Qusarlıların bir xahişi var. SDK-Həzrə sərhəd yolunun üstündə 21 kənd yerləşir. Təxminən 15 min əhali o yoldan istifadə edir. O yolun üstündə sərhəd zastavaları yerləşmişdir. Çoxdan salınmış yoldur, dağlardan keçir. O yol müəyyən vaxtdan sonra öz-özünə tamamilə dağılacaqdır. Xahiş edirik, tapşırıq verəsiniz ki, bu yol yenidən çəkilsin.

**İ l h a m Ə l i y e v:** Sağ olun, təşəkkür edirəm. Mənə məruzə ediblər, mən artıq göstəriş vermişəm, yaxın zamanlarda bu yol yenidən çəkiləcək və orada insanlar daha da rahat yaşayacaqlar. Deyə bilərəm ki, Qusarın gələcək inkişafı üçün nə lazımdırsa, biz onu edəcəyik.

Siz mənim Qusara səfərlərimi və görüşlərimi yaxşı xatırlayırsınız. Mən hər görüşdə demişəm və bu gün də demək istəyirəm ki, Qusarın inkişafı çox böyük əhəmiyyət daşıyır. Həm qusarlılar üçün, həm də bütün Azərbaycan üçün. Belə

gözəl Olimpiya İdman Kompleksinin tikintisi bir daha onu göstərir ki, Qusara xüsusi diqqət, məhəbbət var. Burada həm idmanla məşğul olmaq üçün, həm də istirahət etmək üçün bütün imkanlar var. Bu eyni zamanda, böyük bir turizm mərkəzidir. Burada kotteclər, mehmanxana və üzgüçülük hovuzu, gözəl trenajor və idman zalları var. Yəni həm Qusar idmançıları üçün, həm də rayon sakinləri üçün çox gözəl şərait yaradılıbdır. Mən bütün rayon sakinlərinə tövsiyə edirəm ki, öz sağlamlıqlarını möhkəmləndirmək üçün bu kompleksdən səmərəli istifadə etsinlər.

Qusarda bütün başqa məsələlər də həll olunur. Mən keçən dəfə buraya 2005-ci ildə gəlmişdim. O ildən bu günə qədər çox böyük dəyişikliklər var. Siz bunu yaxşı bilirsiniz, görürsünüz. Həm sənaye müəssisələri tikilir, həm məktəblər tikilir. Bu gün mən yeni xəstəxananın təməlini qoyacağam. Orada həm gözəl şərait, bütün lazımi avadanlıqlar olacaq, həm də ən müasir tibbi xidmət göstəriləcəkdir. İdman kompleksi tikilibdir, Dağ-Xizək Kompleksi beynəlxalq səviyyədə tikiləcəkdir. Biz bunun tikintisi üçün Avstriyadan qabaqcıl memarlıq şirkətlərini dəvət etmişik. Orada həm turistlər üçün, həm də yerli insanlar üçün bütün şərait yaradılacaqdır. Azərbaycan dövləti bu işə yüz milyonlarla dollar həcmində vəsait qoyur ki, orada çox müasir, dünya səviyyəli turizm mərkəzi yaradılsın. Ondan nəinki qışda, yay aylarında da səmərəli istifadə etmək mümkün olacaqdır. Həm burada yaşayan insanlar üçün iş yeri yaradılacaqdır, həm də rayonun inkişafına böyük töhfə veriləcəkdir. Düzdür, indi Azərbaycan dövlətinin imkanları böyükdür. Biz Qusarın inkişafına bundan sonrakı illərdə də böyük investisiyalar qoyacağıq. Hər rayon öz daxili imkanlarından, öz potensialından istifadə etməlidir. Qusar turizm üçün çox gözəl yerdir.

*Sonra söhbət Olimpiya İdman Kompleksinin daxilində masa ətrafında davam etdirildi.*

**İlham Əliyev:** Burada belə gözəl şərait var. Gərək bu şəraitdən istifadə edək. Böyük restoran var, burada istənilən tədbiri keçirmək üçün bütün imkan var. Mən çox şadam ki, bu

kompleksin açılışında biz bərabər iştirak edirik. Biz bu kompleksin timsalında Qusarda gedən abadlıq, quruculuq işlərini görürük. Bu işlər daha da sürətlə getməlidir. Bunun üçün bütün imkanlar var. Siz, burada yaşayan insanlar yaxşı görürsünüz ki, Qusar necə sürətlə inkişaf edir, abadlaşır, müasirləşir.

Burada yeni sənaye müəssisələri tikilməlidir. Əlbəttə, turizm və kənd təsərrüfatı növbəti illərdə yəqin ki, əsas istiqamət olmalıdır. Mən artıq qeyd etdim ki, burada Azərbaycanın böyük turizm mərkəzi yaradılır. Bu ilin büdcəsində vəsait nəzərdə tutulubdur. Gələn ilin büdcəsində əlavə vəsait olacaqdır. Böyük tikinti işləri aparılacaqdır. Bu tikinti zamanı burada yaşayan insanlar işlərdə iştirak edəcəklər. Yəqin ki, artıq iştirak edirlər. Bu da yeni iş yerləri deməkdir. Bu turizm mərkəzi işə düşəndən sonra Qusar beynəlxalq turizm mərkəzinə çevriləcəkdir. Mən vəzifə qoymuşam ki, Dağ-Xizək Kompleksi dünyanın yüksək səviyyəsində olmalıdır. Ondan aşağıda olmamalıdır və biz buna nail olacağıq.

Bu gün Qusara içməli suyun gətirilməsini qeyd etdik. Bu da böyük problemdir və təkcə Qusarda deyil, başqa şəhərlərdə də var. Azərbaycanda içməli su problemi var. Biz bunu həll etməyə çalışırıq və əminəm ki, Qusarda yeni tikilmiş su kəməri öz müsbət təsirini göstərəcəkdir. Qusarın inkişafı üçün lazım olan bütün başqa tədbirlər də görüləcəkdir.

Siz qeyd etdiniz ki, növbəti iqtisadi inkişaf proqramı gözlənilir. Artıq bu proqramın ilkin parametrləri hazırdır. Bu proqramda hər bir rayon üzrə xüsusi tədbirlər planı olacaqdır. Hər bir rayonun probleminin həlli üçün lazımi tədbirlər görüləcəkdir. Əlbəttə ki, Qusar rayonunun inkişafı da burada nəzərdə tutulacaqdır. Həm rayon mərkəzinin, həm də kəndlərin abadlaşması. Dediyiniz avtomobil yolunun çəkilməsinin çox böyük təsiri olacaqdır. Yol çəkilən kimi canlanma baş verir, insanlar özlərini daha da rahat hiss edirlər.

İndi biz Bakıdan Qusara avtomobil yolu çəkirik. Mən bu gün buraya gələrkən yolda dayandım, işlərlə maraqlandım.

Azərbaycanda ilk dəfə olaraq bölgədə beton yol çəkilir. Beton yol möhkəmdir. İnşaatçılar zəmanət verirlər ki, 30 il ərzində o yola heç nə olmayacaqdır. Digər tərəfdən, bu çox sürətli və dördzolaqlı yoldur. Köhnə yol ikizolaqlıdır və əlbəttə, nəqliyyat üçün təhlükəlidir. Bu, dördzolaqlı olacaq, ortada ayırma xətti olacaqdır. Bu, nəqliyyatın təhlükəsizliyi və rahatlıq üçün də çox vacib rol oynayır. Qusardan başqa rayonlara, Bakıya tez bir zamanda gedib-gəlmək mümkün olacaqdır. Mən şübhə etmirəm ki, bu yol çəkiləndən sonra təkcə Qusar deyil, bütün ətraf rayonlar daha da sürətlə inkişaf edəcəkdir.

Bizim planlarımız aydındır, açıqdır, bunu hamı bilir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı uğurla başa çatır. Proqramda nəzərdə tutulmuş bütün vəzifələr yerinə yetirilibdir. Növbəti 5 il ərzində qalan məsələlər yerinə yetiriləcəkdir. İnfrastruktur layihələri, iqtisadi layihələr, sənaye kompleksinin yaradılması, müasirləşməsi, sosial məsələlərin həlli. Bax, Qusarda tikilmiş məktəblər bizim sosial siyasətimizin əlamətidir. Bu gün təməlini qoyacağımız böyük xəstəxana burada yaşayan insanlara xidmət göstərəcəkdir. Müalicə üçün Bakıya, başqa yerlərə getmək lazım olmayacaq, müasir avadanlıqlar quraşdırılacaqdır. İnsanlar həm müayinə olunacaq, həm müalicə alacaq, həm də cərrahiyyə şöbəsinin fəaliyyətindən istifadə edə biləcəklər. Bu, insanların sağlamlığı üçün çox mühüm rol oynayacaqdır.

Gözəl idman kompleksi tikildi ki, uşaqlar, cavanlar idmanla məşğul olsunlar. Mən çox sevinirəm ki, Azərbaycanda gənclər idmana çox böyük meyil göstərirlər. İdmanla məşğul olan həm fiziki cəhətdən, həm də mənəvi cəhətdən sağlam olur, vətənpərvərlik ruhunda yaxşı tərbiyə alır, pis vərdişlərdən uzaq olur. Bizə lazımdır ki, cavanlarımız sağlam böyüsünlər və cəmiyyət, ölkə üçün dəyərli vətəndaşlar olsunlar. Bu baxımdan belə komplekslərin çox böyük rolu var.

Bütövlükdə, Azərbaycanın bütün başqa yerlərində olduğu kimi, bu rayonda da ictimai vəziyyət çox yaxşıdır. Burada insanlar rahat yaşayırlar. Mən çox istəyirəm ki, daha da yaxşı

yaşasınlar. Azərbaycanda bütün millətlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Bax, Azərbaycanın xüsusiyyəti bundan ibarətdir. Heç bir ayrı-seçkilik, heç bir fərq qoyulmur. Narahatlıq doğuran heç bir məsələ yoxdur. Bu həm bizim bütün insanların ürəyində olan duyğulardır, həm də dövlət siyasətidir. Azərbaycanın dövlət siyasəti bu istiqamətdə birmənalıdır. Azərbaycanda yaşayan bütün xalqlar eyni hüquqlara malikdir, bərabərhüquqludur. Bizim xoşbəxtliyimiz ondan ibarətdir ki, Azərbaycanda bütün xalqlar mehriban, bir ailə kimi yaşayırlar. Qusarda bizim ləzgi qardaşlarımız yaşayırlar. Əksəriyyəti onlar təşkil edirlər. Onlar öz vətənlərində yaşayır, öz vətənlərinin imkanlarından istifadə edirlər. Azərbaycanın inkişafı üçün, müstəqilliyimizin möhkəmlənməsi üçün ləzgi qardaşlarımızın keçmişdə çox böyük xidmətləri olubdur və bu gün də belədir.

Mən çox istəyirəm ki, burada həm qabaqcıl texnologiyalar tətbiq olunsun, həm də sənaye məsələləri, iqtisadi, sosial məsələlər həll olunsun ki, insanların həyat səviyyəsi yaxşı olsun. Düzdür, bütün ölkədə aparılan sosial və iqtisadi islahatlar nəticəsində həyat səviyyəsi yüksəlibdir. Ancaq mən istəyirəm ki, daha da yüksəlsin, Azərbaycan vətəndaşları çox yaxşı həyat səviyyəsinə malik olsunlar. Bunu etmək üçün bizim bütün imkanlarımız var. Bizim çox güclü dövlət siyasətimiz var, dövlətçilik ənənələri möhkəmlənir. Müstəqil ölkə kimi, Azərbaycan özünü dünya miqyasında tanıtdırıbdır. Bizim bütün qonşu dövlətlərlə çox yaxşı, bərabər münasibətlərimiz var. İqtisadi islahatlar sürətlə gedir, neft, qaz kimi təbii sərvətlərimiz var, maddi imkanlarımız artır. Son 5 ildə büdcəmiz 10 dəfədən çox artıbdır. 2009-cu ilin büdcəsi 2003-cü ilin büdcəsindən 15 dəfə böyük olacaqdır. Bu da reallıqdır. Bütün bu vəsait insanların sosial məsələlərinin həllinə yönəldilir.

Bu işlər hər bir rayonda görülür. Bildiyiniz kimi, mən rayonlara tez-tez gedirəm, vəziyyətlə tanış oluram. Qusara 2005-ci ildə gəlmişdim, olan dəyişiklikləri görürəm. Mən məlumat alıram, ondan əvvəl də bilirdim ki, vəziyyət necədir, hansı məsələlər var, insanları hansı problemlər narahat edir, əlavə nə

edilməlidir ki, burada hər şey daha da yaxşı olsun və bunu edirik.

Deyə bilərəm ki, bölgələrin inkişafı mənim üçün ən prioritet məsələlərdən biridir. Düzdür, ölkənin qarşısında müxtəlif problemlər var. Biz təhlükəsizliyimizi təmin etməliyik, müdafiə gücümüzü artırmalıyıq, iqtisadi, siyasi islahatları aparmalıyıq. Beynəlxalq münasibətlərə çox ciddi yanaşmamız var və Azərbaycan xarici siyasət baxımından çox uğurlu addımlar atıbdır. Amma bununla bərabər, insanların gündəlik həyatı, gündəlik yaşayışı əsasdır. Mən həmişə demişəm, bu gün də deyirəm ki, Azərbaycan vətəndaşları bax, bu gün yaxşı yaşamalıdır. Bəziləri hərdən deyir ki, 10–20 ildən sonra yaxşı olacaqdır. Əlbəttə, yaxşı olacaqdır. İndi də yaxşıdır. Sadəcə, deyə bilərəm ki, mən Azərbaycanda mövcud olan vəziyyəti çox yüksək qiymətləndirirəm. Ancaq biz qabağa getməliyik, irəliyə baxmalıyıq ki, daha nə etməliyik, hansı işləri görməliyik. Bax, mən bu barədə fikirləşirəm. Bilirəm ki, bu sizi də düşündürür. Amma belə bir səmimi söhbətdə fikir mübadiləsi nəticəsində, təbii ki, yaxın zamanda əlavə tədbirlər haqqında qərarımızı verəcəyik.

O ki qaldı yola, hesab edin ki, yol məsələsi həll olunubdur. Yaxın zamanlarda rayon icra hakimiyyətinə vəsait ayrılacaq və icra hakimiyyəti özü bu işləri aparacaqdır. Əgər Nəqliyyat Nazirliyinin bu işləri reallaşdıran qurumlarından yardım lazım olarsa, deyərsiniz, bunu birlikdə edərik. Əgər başqa belə kənd yolları varsa, onlara da diqqət göstərmək lazımdır.

**A ğ s a q q a l:** Çox sağ olun. Hər şey çox yaxşıdır. Pensiyalar da artıbdır.

**İ l h a m Ə l i y e v:** Düzdür, artırmışıq, amma yenə də artırmalıyıq. Son 5 ildə bir neçə dəfə artırmışıq. İndi minimum pensiya 75 manat olubdur. Bir neçə il bundan əvvəl 10 manat idi. Amma indi 75 manatdır. Əlbəttə, 10 manata baxanda 75 manat yaxşıdır. Amma daha da yaxşı olacaqdır. Bir daha deyirəm, dövlət gözəl təbiəti, iqlimi, təbii şəraiti olan rayonda həm turizmin, həm də kənd təsərrüfatının inkişafı, emal

müəssisələrinin yaradılması, sosial məsələlərin həlli üçün investisiya qoyur və qoyacaqdır. Qusar, sözün əsl mənasında, ən qabaqcıl rayonların birinə çevrilməlidir. Mən də sizə söz verirəm ki, buna nail olmaq üçün öz səylərimi əsirgəməyəcəyəm.

Sizi bir daha salamlayıram və qarşıdan gələn Ramazan bayramı münasibətilə ürəkdən təbrik edirəm.

## Balaqusar kəndində yeni məktəb binası ilə tanışlıq

*Sentyabrın 27-də prezident İlham Əliyev Qusar rayonunun Balaqusar kənd orta məktəbinin yeni binası ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, məktəb binasının qəza vəziyyətində olması burada tədris prosesinin normal təşkilinə imkan vermirdi. Bunu nəzərə alaraq 2007-ci ildə Heydər Əliyev Fondunun sifarişi ilə 500 şagird yerlik yeni binanın tikintisinə başlanılmış və o, 2008-ci ilin sentyabrında istifadəyə verilmişdir.*

*25 sinif otağından əlavə, məktəbdə geniş idman zalı, fənn kabinetləri, kompyuter otağı, atıcılıq tiri, akt zalı, kitabxana var. Bina mərkəzləşdirilmiş istilik sistemi ilə də təchiz olunmuşdur. Həyətdə geniş stadion, voleybol və basketbol meydançaları tikilmişdir. Məktəbin qarşısında 1300 kvadratmetrdən artıq sahəyə piltə döşənmiş, dekorativ ağaclar əkilmiş, oturacaqlar qoyulmuş, müasir işıqlandırma sistemi qurulmuşdur.*

*Ümumiyyətlə, 2000–2008-ci illər ərzində Qusar rayonunda müxtəlif maliyyə mənbələri hesabına 6 məktəb tikilmiş, 7 məktəb əsaslı təmir edilmişdir. Heydər Əliyev Fondunun vəsaiti hesabına isə 2003–2008-ci illərdə 1920 şagird yerlik yeddi yeni məktəb tikilmiş, 240 şagird yerlik Samur qəsəbə məktəbinin və 500 şagird yerlik şəhər 1 nömrəli orta məktəbin binaları əsaslı təmir olunmuşdur.*

## Rayon xəstəxanasının təməlqoyma mərasimi

*Sentyabrın 27-də Qusarda mərkəzi rayon xəstəxanasının təməli qoyulmuşdur. Prezident İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısı xəstəxananın Baş layihəsi ilə tanış oldu. Məlumat verildi ki, layihə üzrə 230 çarpayılıq olacaq xəstəxana 2,5 hektar ərazidə yerləşəcəkdir. Burada cərrahiyyə, reanimasiya, diaqnostika, ultrasəs müayinəsi, stasionar diaqnostika, yoluxucu xəstəliklər, doğum şöbələri, vərəm dispanseri olacaqdır. Yeni səhiyyə ocağı ən müasir avadanlıqla təchiz ediləcəkdir.*

*Prezident İlham Əliyev gilizi təmələ qoydu və beton qarışığı tökdü. Dövlətimizin başçısı inşaatçıları təbrik edərək dedi:*

– İnşallah, iki ildən sonra burada gözəl xəstəxana olacaqdır. Bu xəstəxana keyfiyyətlə tikilməlidir ki, yüksək standartlara cavab versin. Burada yerli insanlar işləyəcək, işlə təmin ediləcəklər. Bu, bölgənin ən böyük xəstəxanası olacaqdır. Ona görə də hər bir iş keyfiyyətli olmalıdır. İnşallah, açılışına gəlib özüm yoxlayacağam. Bir daha təbrik edirəm.

## XAÇMAZDA RƏSM QALEREYASI İLƏ TANIŞLIQ

*27 sentyabr 2008-ci il*

*Prezident İlham Əliyev sentyabrın 27-də Qusar rayonundan Xaçmaza gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Xaçmaz şəhərinin mərkəzində Heydər Əliyevin adını daşıyan parkda ulu öndərin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.*

*Sonra prezident İlham Əliyev parkdakı Rəsm qalereyası ilə tanış oldu. Qalereya tamamilə yenidən qurulmuş, burada 150-yə yaxın fotoşəkil və incəsənətin bütün növləri üzrə eksponatlar toplanmışdır. Bu mədəniyyət obyektində gənclərin asudə vaxtının səmərəli keçirilməsi, eləcə də rəssamlığın sirlərinin öyrənilməsi üçün hər cür şərait yaradılmışdır.*

### Heydər Əliyev adına Mədəniyyət evinin təmirdən sonra açılışı mərasimi

*Sentyabrın 27-də prezident İlham Əliyev Xaçmaz şəhərində əsaslı təmirdən sonra istifadəyə verilmiş Heydər Əliyev adına Mədəniyyət evində olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, 400 yerlik salonu olan Mədəniyyət evi tamamilə yeni görkəm almışdır. Üçmərtəbəli binanın əsaslı təmirinə 500 min manat xərclənmişdir. Burada ulu öndərin büstü qoyulmuş, həyat və fəaliyyətinə dair fotoguşə yaradılmışdır. Mədəniyyət evində 16 nəfər çalışır.*

*Prezident İlham Əliyev Mədəniyyət evinin salonuna baxdı, təmir işlərini yüksək qiymətləndirdi.*

## RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*27 sentyabr 2008-ci il*

*Sentyabrın 27-də prezident İlham Əliyev Mədəniyyət evi ilə tanışlıqdan sonra burada rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.*

**İ l h a m  Ə l i y e v:** Xaçmaz gözəlləşibdir. Mən hər dəfə buraya gələndə yeniliklər – yeni binalar, gözəl parklar, yeni gözəl mənzərələr görürəm. Bu gözəl mədəniyyət sarayı da, demək olar ki, yenidən tikilibdir. Həm xarici görünüşü çox gözəldir, həm də daxildə çox gözəl işlər görülübdür. Demək olar ki, Xaçmaz ən müasir şəhərə çevrilibdir. Bu, böyük nailiyyətdir. Əlbəttə, burada rayon rəhbərliyinin böyük əməyi var. Şəmsəddin müəllimin işi çox uğurludur. Mən qeyd etdim ki, çox böyük həvəslə, ürəklə işləyir və bütün fəallar şəhərin gözəlləşməsinə öz paylarını verirlər.

İndi burada həm abadlıq işləri görülür, həm şəhər üçün lazım olan binalar tikilir, həm də köhnə binalar bərpa edilir. Necə ki, Bakıda köhnə binalar, tarixi binalar bərpa olunur və şəhər gözəlləşir. Mən bu gözəl nailiyyətlər münasibətilə sizi təbrik edirəm.

**H ə q i q ə t  M ə m m ə d o v a** (*Xaçmaz Rayon Həmkarlar İttifaqının sədri*): Hörmətli və əziz Prezidentimiz, Sizi ziyalılar, ağbirçəklər adından Xaçmaz torpağında salamlayıram, xoş gəlmisiniz! Qarşıdan gələn müqəddəs bayram münasibətilə Sizi təbrik edirəm.

Azərbaycan xalqı elə bir xalqdır ki, maddi və mənəvi sərvətləri həmişə bol olubdur. Sizin atanız, ulu öndərimiz Heydər Əliyev bu sərvətlərin ən öndə olanı idi. Siz onun tərbiyəsi ilə böyümüsünüz, o ailədə tərbiyə almısınız.

Hörmətli Prezidentimiz!

Bu gün Xaçmaz camaatının Sizi xoş üzlə, xoş təbəssümlə qarşılaması elə-belə deyildir. Vaxt var idi ki, hər bir insanın sifətində kədər ifadə olunurdu. Bu gün hamı gülür, hamı Sizi təbəssümlə qarşılayır. Ona görə ki, bu gün yaşayış tərzimiz yüksəlmişdir. Yoxsulluq həddi minimum səviyyəyə enmək üzrədir. Bütün regionlarda abadlıq, quruculuq işləri gedir. Dünya standartları səviyyəsində yollar salınır. Bunun hamısı Sizin sayənizdə olur və fəaliyyətinizin nəticəsidir. Siz bizim Xaçmaz camaatı haqqında, Xaçmazımız haqqında belə gözəl sözlər dediniz. Ümidvaram ki, şəhərimiz gələcəkdə daha da inkişaf edəcəkdir. Allah Sizə yar olsun, həmişə köməyiniz olsun! Xalqımız həmişə «Heydər xalq – xalq Heydər» şüarını deyirdi. Bu gün isə deyirik ki, hamımız İlhamla irəli gedirik.

**İlham Əliyev:** Çox sevinirəm ki, Xaçmazda belə gözəl işlər görülübdür. Xaçmaz doğrudan da ən müasir şəhərə çevrilir və burada yaşamaq da, işləmək də xoşdur. Xaçmazın həm gündüz, həm də gecə görüntüləri çox gözəldir. Bu, Azərbaycanda gedən inkişafın təzahürüdür.

Deyə bilərəm ki, Xaçmaz Azərbaycanın ən inkişaf etmiş rayonlarından biridir. Burada həm sənayedə, həm iqtisadi, həm də sosial sahədə insanların rahatlığı üçün böyük işlər görülür. Çox böyük zövqlə, böyük məhəbbətlə şəhər gözəlləşdirilir. Bu onu göstərir ki, Azərbaycan hərtərəfli inkişaf edir. Aparılan islahatlar, bölgələrimizdə quruculuq, abadlıq işləri, yeni-yeni müəssisələrin yaradılması, şəhərlərin abadlaşdırılması – bütün bunlar inkişafın əlamətidir. Bu inkişaf özünü müxtəlif formalarda büruzə verir. Əlbəttə ki, iqtisadi göstəricilər, bizim statistik rəqəmlərimiz, ümumi daxili məhsulun artımı – bütün bunlar reallıqdır. Ancaq adi vətəndaş ümumi daxili məhsul nədir, bunu tam təfsilatı ilə o qədər də anlaya bilmir. Ancaq məktəb, xəstəxana tikintisi, yeni yolların salınması, abadlıq, quruculuq işləri – bunlar insanların gündəlik həyatda təmasda olduqları məsələlərdir. Bax, bu sahəyə çox böyük diqqət verilir və gələcəkdə də verilməlidir. Sosial məsələlərin həlli, maaşların, pensiyaların artımı, məktəb tikintisi, səhiyyə işinin

təkmilləşməsi, mədəniyyət ocaqlarının qurulması ilə yeniləşməsi – bütün bunlar Azərbaycanda var. Xaçmazdakı bu nailiyyətlər çox sevindiricidir.

Əlbəttə ki, sosial məsələlərin həllində, şəhərlərimizin gözəlləşməsində əsas rolu oynayan bizim iqtisadi gücümüzdür. Son illər ərzində iqtisadi islahatlara çox böyük diqqət yetirilmişdir. Bu diqqətin və aparılan ciddi islahatların nəticəsində Azərbaycan iqtisadiyyatı kəmiyyət, keyfiyyət baxımından, artım sürətinə görə dünya miqyasında artıq seçilir. İndi biz bunu qürur hissi ilə deyirik və deməliyik ki, dünya miqyasında bizim iqtisadiyyatımız ən yüksək sürətlə artır. Son 4 il ərzində Azərbaycanda olan iqtisadi artım dünya miqyasında hələ olmamışdır və ola bilsin ki, heç olmayacaqdır. 5 il ərzində iqtisadiyyat təxminən 3 dəfə, 2,7 dəfə artmışdır. Özlərini islahatçı hesab edən ölkələrdə 5 il ərzində bu artım, iqtisadiyyat artımı maksimum 60–70 faizdir. Bizdə isə bundan çoxdur. Sənaye istehsalı, sosial məsələlərin həlli, təhsil, səhiyyə sahəsinə ayrılan xərclər – bütün bunlar ölkəmizin gücünü göstərir.

Bizim gücümüz bölgələrin inkişafındadır. Əlbəttə ki, gələcəkdə bizim həm iqtisadi islahatlarımız gedəcək, həm də enerji siyasətimiz davam etdiriləcəkdir. Məhz buna görə 5 il ərzində regional inkişaf proqramının qəbul olunması çox vacib idi. Mən o vaxt bunu bilirdim.

Bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, o proqramda nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapıbdır. Üstəlik, əvvəlcədən nəzərdə tutulmamış məsələlər də həll olunur. Bax, bu Mədəniyyət evinin təmiri regional inkişaf proqramında yox idi. Yəni biz sonradan əlavə etdik, əlavə vəsait ayırdıq. Yerlərdə daxili imkanlar hesabına çox böyük işlər görülübdür. Azərbaycan 5 ildə bütün bölgələr üzrə böyük inkişaf yolu keçmişdir.

Növbəti beşillik üçün proqram ondan ibarətdir ki, bütün kəndlər, qəsəbələr, şəhərlər abadlaşsın, bütün problemlər aradan qaldırılsın və ölkə uzunmüddətli, möhkəm inkişaf yoluna

qədəm qoysun. Biz buna nail olacağıq. Birincisi, iradə var, ikincisi, konkret proqramlar var, üçüncüsü, iqtisadi imkanlar var və artan dövlət büdcəmiz buna imkan yaradır. Dördüncüsü, xalq tərəfindən bütün proqramlara, təşəbbüslərə verilən dəstək və xalqın bu işlərdə fəal iştirakı, xalqla iqtidar arasında birlik var.

Ona görə mən heç şübhə etmirəm ki, Azərbaycan növbəti illərdə daha da sürətlə inkişaf edəcək və öz liderlik mövqelərini saxlayacaqdır. Biz yəqin ki, bu yaxınlarda növbəti ilin dövlət büdcəsini təsdiq edəcəyik. Buna Milli Məclis baxacaqdır. 6 ildə, 2003–2009-cu illər ərzində dövlət xərcləri 15 dəfə artır. Bütün bu artımlar insanların maaşlarında, pensiyalarında, abadlaşan şəhərlərdə, tikilən yollarda özünü göstərir.

Bax, mən bu gün səhər bu bölgəyə gəlirdim, yeni beton yol tikilir. Beton yollar ancaq Avropanın böyük ölkələrində tikilir. Amma indi biz Bakı–Xaçmaz–Quba–Qusar yolunu betonörtüklü edirik. Biz bunu insanların rahatlığı üçün və bölgələrin inkişafı üçün edirik. Bu bölgənin çox böyük potensialı var. Həm kənd təsərrüfatı, turizm, həm də sənaye və emal müəssisələri baxımından. Çox səmimi və gözəl insanları var.

Mən çox şadam ki, biz yenidən görüşürük. Son 5 il ərzində bir neçə dəfə bu rayona gəlmişəm. Hər dəfə yenilikləri görəndə çox sevinirəm.

Sizə yeni nailiyyətlər arzulayıram və qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə təbrik edirəm.

## Akademik Zərifə Əliyeva adına 8 nömrəli məktəb-liseylə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 27-də Xaçmaz şəhərində görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyeva adına 8 nömrəli təbiət fənləri təmayüllü məktəb-lisey ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı əvvəlcə Zərifə xanımın məktəb-liseyin qarşısındakı abidəsi önünə gül dəstəsi qoydu.*

*Müasir xarici görünüşü ilə seçilən və 1176 şagird yerlik bu məktəb-lisey Prezidentin sərəncamı ilə 2007-ci ildə tikilmişdir. Üçmərtəbəli binada 65 sinif otağı vardır. Şagirdlərin təlim-tərbiyəsi ilə 98 pedaqoq məşğul olur. Təhsil ocağında Zərifə Əliyeva Muzeyi və guşəsi yaradılmış, burada görkəmli oftal-moloq-alimin həyat və fəaliyyətinə dair fotoşəkillər, sənədlər, eksponatlar toplanmışdır. Şagirdlərin təhlükəsiz gediş-gəlişi üçün binanın qarşısında yeraltı keçid tikilmişdir.*

*Prezident İlham Əliyev sinif otaqlarına, muzeyə, idman zalına baxdı, bütün ləvazimatlarla təchiz edilmiş məktəb-liseyin kollektivinə uğurlar arzuladı.*

*Sentyabrın 27-də prezident İlham Əliyevin ölkəmizin şimal bölgəsinə səfəri başa çatdı.*

**İSPANİYA KRALI ƏLAHƏZRƏT I XUAN KARLOSA**

Əlahəzrət!

Ölkənizin milli bayramı – İspaniyanın Milli günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi və xoş arzularımızı yetirirəm.

Əminəm ki, Azərbaycan–İspaniya dövlətlərarası münasibətlərinin inkişafı, dostluq əlaqələrimizin daim möhkəmləndirilməsi, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızın genişləndirilməsi istiqamətində qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizi bir daha təbrik edir, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İspaniya xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 oktyabr 2008-ci il*

**İSPANİYA KRALLIĞI NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB XOSE LUİS RODRİGES SAPATEROYA**

Hörmətli cənab sədr!

Milli bayramınız – İspaniyanın Milli günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə İspaniya arasındakı münasibətlərin inkişafı xalqlarımızın və ölkələrimizin mənafeləri naminə dostluq və əməkdaşlığımızın möhkəmlənməsinə daim töhfələr verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 oktyabr 2008-ci il*

## ABŞ DÖVLƏT KATİBİNİN MÜAVİNİ CON NEQROPONTENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 oktyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də ABŞ Dövlət katibinin müavini Con Neqropontenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla ABŞ arasında əməkdaşlıq münasibətlərinin bugünkü vəziyyəti, inkişaf istiqamətləri və gələcək perspektivləri, habelə bir sıra beynəlxalq və regional məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır. İkitərəfli əlaqələrin səviyyəsindən razılıq ifadə olunmuş və bu əlaqələrin bundan sonra da davam etdirilməsinin vacibliyi vurğulanmışdır.*

*Con Neqroponte Azərbaycana ilk dəfə səfər etdiyini və səfər müddətində artıq Səngəçal terminalında olduğunu bildirmişdir. Dövlət katibinin müavini bu terminalın, eləcə də paytaxtda müşahidə etdiyi quruculuq işlərinin və inkişafın onda yüksək təəssürat yaratdığını söyləmişdir.*

## AZƏRBAYCAN GƏNCLƏRİNİN V FORUMUNUN İŞTİRAKÇILARINA

Hörmətli forum iştirakçıları!

Əziz gənclər!

Sizi – Azərbaycan gənclərinin V forumunun iştirakçılarını, bütün respublikamızın gənclərini səmimi-qəlbdən salamlayır, hər birinizə cansağlığı, xoşbəxtlik və doğma vətənimizin inkişafına yönəlmiş fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

Azərbaycan gənclər ölkəsidir. Biz dünyada dinamik inkişaf edən nadir ölkələrdən biriyik ki, əhalimizin əksər hissəsini gənclər təşkil edir. Biliklərə əsaslanan iqtisadiyyatın qurulmasında, yeni texnologiyaların tətbiqində, respublikamızda genişmiqyaslı islahatların gerçəkləşdirilməsində gənclərin rolu getdikcə artmaqdadır. Gənclərlə bağlı siyasət və xüsusi Dövlət Proqramı uğurla yerinə yetirilir.

Hər bir dövlətin gənclərlə bağlı siyasəti gələcəyə ünvanlanır. İqtisadi inkişaf və islahatların həyata keçirilməsi tempinə görə dünyada qabaqcıl mövqe tutan Azərbaycanda yeni iş yerlərinin açılması, regionların sosial-iqtisadi inkişafı proqramının gerçəkləşdirilməsi, əhalinin rifah halının yüksəldilməsi gənclərimizin gələcəyə böyük ümidlə baxmasına imkan verir. Azərbaycan gənclərinin elmdə, təhsildə, mədəniyyətdə və idmanda əldə etdiyi göstəricilər respublikamızın hər bir vətəndaşında həm qürur hissi oyadır, həm də gələcəyimizin etibarlı əllərdə olduğuna inam yaradır.

Gənclərin birinci forumundan keçən müddətdə gənclərlə iş sahəsində qanunvericilik bazası yaradılmış, hüquqi-normativ aktlar təkmilləşdirilmiş, mövcud problemlərin həlli üçün mühüm addımlar atılmışdır. Gənclərin təhsili, məşğulluğu, sosial məsələlərinin həlli ilə bağlı nəzərəçarpan nailiyyətlər əldə

edilmişdir. Vətəndaş cəmiyyətinin qurulması və inkişafı istiqamətində gənclər təşkilatlarının nüfuzu ildən-ilə artmaqdadır.

Əminəm ki, milli-mənəvi sərvətlərimizi, adət-ənənələrimizi qoruyub yaşadan, ümumbəşəri dəyərlərə sadiq və dünyanın qabaqcıl nailiyyətlərinə yiyələnməyə qadir olan Azərbaycan gəncləri ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi, iqtisadiyyatın, elmin, təhsilin və mədəniyyətin inkişafı naminə bundan sonra da var qüvvəsini səfərbər edəcəklər.

Ümidvaram ki, sizin bu ali məclisiniz ötən dövr ərzində görülən işləri qiymətləndirəcək, qarşıdan gələn illər üçün gənclər siyasətinin əsas problemlərini müəyyənləşdirəcək, qəbul olunmuş qərarların icrasına ölkənin bütün gənc qüvvələrini səfərbər edəcəkdir.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 oktyabr 2008-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FÜZULİ, BEYLƏQAN, AĞDAM RAYONLARINA VƏ ŞİRVAN ŞƏHƏRİNƏ SƏFƏRİ

*4 oktyabr 2008-ci il*

*Oktyabrın 4-də Azərbaycan prezidenti İlham Əliyev Füzuli rayonunun Horadiz qəsəbəsinə gəlmişdir.*

*Dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı Horadiz şəhərində minlərlə insan böyük səmimiyyətlə qarşıladı.*

*Prezident İlham Əliyev əvvəlcə Heydər Əliyev parkında ümummilli liderin abidəsini ziyarət etdi. Dövlətimizin başçısı və xanımı abidənin önünə gül dəstələri qoydular.*

*Azərbaycan prezidenti sonra parkla tanış oldu. Məlumat verildi ki, son aylarda parkda yenidənqurma işləri aparılmış, təzə yaşıllıq zolaqları salınmışdır. Horadiz şəhərinin ən uca nöqtəsində Azərbaycanın Dövlət bayrağı ucaldılmışdır.*

### Tibb mərkəzinin tikintisi ilə tanışlıq

*Oktyabrın 4-də prezident İlham Əliyev Horadiz şəhərində tibb mərkəzinin tikintisinin gedişi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı mərkəzin baş planına baxdı.*

*Tikintinin təməlini bu ilin aprelində prezident İlham Əliyev qoymuşdur. Gələn il istifadəyə veriləcək üç korpusdan ibarət mərkəzdə qəbul otağı, stasionar şöbə, rentgen kabineti, laboratoriya, əməliyyat bloku, reanimasiya və doğum şöbələri, eyni zamanda, daimi elektrik enerjisi təchizatı, qazanxana və camaşırxanası olacaqdır. İnşaat işlərində yerli sakinlər çalışır.*

*Dövlət Neft Şirkətinin vəsaiti hesabına tikilən və ən müasir tibbi avadanlıqlarla təchiz ediləcək mərkəzdə ətraf bölgələrdən gələnlərə də tibbi xidmət göstəriləcəkdir.*

*Prezident İlham Əliyev tikinti işlərinin keyfiyyətlə və vaxtında başa çatdırılması ilə bağlı tapşırıqlarını verdi, inşaatçılara uğurlar arzuladı. Eyni zamanda, bildirdi ki, rayondaxili yolların, o cümlədən Horadiz şəhərini 4 kəndlə birləşdirən yolun bərpası, rayon icra hakimiyyəti üçün yeni binanın tikintisi, evlərin bərpası və digər vacib məsələlərin həlli üçün əlavə vəsait ayrılacaqdır.*

## Horadizə təbii qazın verilməsi mərasimi

*Horadiz şəhərinə təbii qazın verilməsi bərpa olunmuşdur. Oktyabrın 4-də prezident İlham Əliyev bu münasibətlə keçirilən mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Ağdam, Ağcabədi, Beyləqan və Füzuli rayonlarının, o cümlədən Horadiz şəhərinin qaz təchizatı sxemi ilə tanış oldu.*

*«Azəriqaz» QSC-nin sədri Əlixan Məlikov məlumat verdi ki, layihənin birinci mərhələsində təxminən 69 kilometr uzunluğunda qaz kəmərinin çəkilməsi nəzərdə tutulmuşdur. Horadiz şəhərində qazpaylayıcı xəttin uzunluğu 8600 metr olacaqdır. İndiyədək 6 min metr qaz xətti çəkilmişdir. Bütövlükdə 2050 evin qazlaşdırılması nəzərdə tutulur. Hələlik 300 evə mavi yanacaq verilir.*

## Horadizə təbii qazın verilməsi mərasimində nitq

Əziz dostlar!

Əziz füzulililər!

Bu gün Füzuli rayonunun həyatında gözəl bir gündür. Uzun fasilədən sonra Horadiz şəhərinə təbii qazın verilməsi bərpa olunubdur. Bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik edirəm.

Horadiz şəhərinə təbii qazın verilməsi çox əlamətdar bir hadisədir. Bu bir daha onu göstərir ki, Azərbaycan dövləti istənilən vəzifəni uğurla icra edə bilər. Yəqin ki, xatırlayırsınız, keçən dəfə aprel ayında biz sizinlə burada görüşəndə mən demişdim ki, yaxın zamanlarda Horadizə təbii qazın verilməsi bərpa olunacaqdır. Bu gün bu gözəl hadisəni biz birlikdə qeyd edirik.

Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində 1993-cü ildə Füzuliyə təbii qazın verilməsi dayandırılmışdı. Bildiyiniz kimi, bütövlükdə Füzuli rayonu işğal altına düşmüşdü. Ondan sonra Azərbaycan Ordusu rayonun bir hissəsini işğalçılardan azad etmiş və həmin ərazilərdə quruculuq, bərpa işləri başlanmışdır. Bu gün Horadiz şəhərinin timsalında biz Azərbaycanın uğurlu inkişafını görürük. Bu gün işğal altında olan bütün şəhərlərimizi, bütün infrastrukturu gələcəkdə bərpa edəcək və məcburi köçkün soydaşlarımızın doğma torpaqlarına qayıtması üçün bütün şəraiti yaradacağıq. Bu alovlanan məşəl bizim qələbəmizin simvoludur, rəmzidir.

Ümumiyyətlə, Füzuli rayonunun inkişafına çox böyük diqqət göstərilir, burada abadlıq-quruculuq işləri aparılır, müasir infrastruktur yaradılır. Bildiyiniz kimi, Müalicə-Diaqnostika Mərkəzinin tikintisi başlanmışdır, Horadiz qəsəbəsinə şəhər statusu verilmişdir, burada yeni qəsəbələr tikilmişdir. O qəsəbələrdə yaşamaq üçün, işləmək üçün bütün imkanlar var. 2004-cü ildə məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üçün Dövlət Proqramı qəbul olunmuş, 2007-ci ildə o proqrama əlavələr edilmişdir. Beləliklə, proqramın icrası nəticəsində Azərbaycanda bütün çadır şəhərcikləri ləğv olunub və onların yerinə gözəl, müasir qəsəbələr tikilmişdir. Azərbaycan dövlətinin bu istiqamətdə siyasəti bundan sonra da davam etdiriləcək, işğaldan əziyyət çəkən bütün vətəndaşlara normal şəraitin yaradılması üçün əlavə tədbirlər görüləcəkdir.

Mən çox şadam ki, işğalçılardan azad olunmuş ərazilərdə indi bizim soydaşlarımız məskunlaşırlar. Mənə verilən

məlumata görə, Füzuli rayonunda 70 minə qədər vətəndaş yaşayır və əminəm ki, gələcəkdə onların yaşayış səviyyəsi daha da yaxşılaşdırılacaqdır. Çünki təbii qazın verilməsi, müasir infrastuktur obyektlərinin tikintisi, yaxın vaxtlarda tikintisinə başlanacaq idman kompleksi – bütün bu işlər rayonun inkişafına xidmət göstərir. Bütövlükdə son illər ərzində Azərbaycandakı inkişaf bunu deməyə əsas verir ki, istənilən məsələ uğurla icra olunacaqdır.

Azərbaycanın uğurlu neft strategiyası davam etdirilir. XX əsrin 90-cı illərinin ortalarında ulu öndər Heydər Əliyev tərəfindən başlanmış və bu gün davam etdirilən bu strategiyanın əlamətlərini indi biz yanan bu məşəldə görürük. «Şahdəniz» qaz yatağının işə düşməsi, «Azəri»,«Çıraq» neft yataqlarının işlənilməsi, müxtəlif neft-qaz kəmərlərinin tikintisi nəinki Azərbaycanın iqtisadi qüdrətini artırır, insanların yaxşı yaşaması üçün şərait yaradır.

Biz uğurlu neft strategiyasının icrası nəticəsində öz iqtisadi imkanlarımızı xeyli dərəcədə artırmışıq. Azərbaycan iqtisadi baxımdan son 4 il ərzində dünyada ən sürətlə inkişaf edən ölkədir. Bunu biz ölkəmizin rayonlarının inkişafında, abadlaşan şəhərlərin, Azərbaycanda aparılan islahatların timsalında görürük. Uğurlu neft strategiyamız imkan verir ki, Azərbaycanda qazlaşdırılma prosesi sürətlə getsin. Son illər ərzində görülmüş tədbirlər nəticəsində bir sıra rayonlara təbii qazın verilməsinə nail ola bilmişik. İndi Azərbaycanda qazlaşdırılmanın səviyyəsi 84 faizdir, növbəti illərdə bu daha da artacaqdır. O cümlədən Füzuli rayonunun qazlaşdırılması davam etdiriləcəkdir. Bu gün biz qazlaşdırılmanın birinci mərhələsini qeyd edirik, növbəti illərdə daha çox abonentə təbii qazın verilməsi nəzərdə tutulubdur.

Yəni bütün bunlar bir daha onu göstərir ki, bizim çox güclü iqtisadi, enerji və sosial siyasətimiz var. Hər bir ölkənin inkişafı üçün vacib olan amillər Azərbaycanda cəmləşib və bizim uğurlu inkişafımızı təmin edir. İqtisadi güc olmasa heç bir layihəni icra etmək mümkün olmayacaqdır. İqtisadi islahatlar zamanı bəzən

insanların yaşayış səviyyəsi aşağı düşür. Bu da təbiidir və başqa ölkələrin tarixində biz bunu görmüşük. Köklü, əsaslı islahatlar aparılan dövrdə, adətən, sosial vəziyyət daha da pisləşir. Amma Azərbaycanda biz bunun əksini görürük. Bizim həm iqtisadi islahatlarımız çox uğurlu və cəsarətlidir, həm də güclü sosial siyasətimiz var. Bu sosial siyasət özünü müxtəlif istiqamətlərdə göstərir – insanların həyat səviyyəsinin yaxşılaşdırılması, maaşların, pensiyaların artırılması, infrastruktur obyektlərinin yaradılması, sosial obyektlərin, məktəblərin, xəstəxanaların tikintisi. Bütün bunlar indi Azərbaycanın hər bir bölgəsində, o cümlədən Füzuli rayonunda reallıqdır. Mən əminəm ki, bizim gələcək inkişafımız uğurlu olacaq və qarşıya qoyduğumuz bütün məsələləri uğurla icra edəcəyik. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının uğurla icra olunması və demək olar, başa çatması bir daha onu göstərir ki, bizim düşünülmüş siyasətimiz Azərbaycan xalqının rifah halının yaxşılaşmasına xidmət edir və bu, uğurlu siyasətdir.

Ümumiyyətlə, son illər ərzində Azərbaycan çox böyük və şərəfli yol keçmişdir və əldə edilmiş bütün uğurları sadalamaq üçün çox vaxt lazımdır. Bununla bərabər, problemlər də mövcuddur. Bax, bu problemlərin həlli üçün biz bütün səylərimizi göstərməliyik. Azərbaycanın çox dinamik inkişaf templəri var. Gələcəkdə də sosial məsələlərin həlli nəzərdə tutulur. İnfrastruktur obyektlərinin tikintisi, insanların həyat səviyyəsinin yaxşılaşdırılması üçün əlavə tədbirlərin görülməsi, kənd təsərrüfatına dəstək, qaçqın-köçkün soydaşlarımızın yaşayış səviyyəsinin daha da yaxşılaşdırılması və onların məşğulluğunun artırılması – bütün bu işlər diqqət mərkəzindədir. Güclü iqtisadi potensial bizə imkan verir ki, bu məsələləri daha da sürətlə, qısa zaman ərzində həll edək. Azərbaycanın dövlət büdcəsi, valyuta ehtiyatlarımız artır. Bir daha demək istəyirəm ki, bütün bunun təməlində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin keçən əsrin 90-cı illərinin ortalarından başlanmış uğurlu neft strategiyası durur. Təsəvvür etmək çətindir, əgər o vaxt bu strategiya həyata

keçirilməyə başlanmasaydı, yəqin ki, Azərbaycanın vəziyyəti indiki kimi ola bilməzdi.

Biz bölgədə öz mövqelərimizi möhkəmləndiririk. Əlbəttə ki, bunu etmək üçün ilk növbədə, iqtisadi güc lazımdır, müstəqillik lazımdır. Müstəqil siyasət aparmaq isə iqtisadi imkanlardan asılıdır. Güclü, iqtisadi cəhətdən inkişaf etmiş ölkələr, əlbəttə ki, müstəqil siyasət apara bilər və Azərbaycan artıq o ölkələrin sıralarına daxil olubdur. Bizim iqtisadi imkanlarımız artır, biz yalnız öz gücümüzə istinad edirik, Azərbaycanda görülən bütün işlər Azərbaycan xalqının zəhməti hesabına baş veribdir.

Biz bütün istiqamətlərdə siyasətimizi elə aparmışıq ki, daxili resurslara istinad edək. Bizim təbii ehtiyatlarımız var, uğurlu neft strategiyamız var. Biz nəinki özümüzü təmin edirik, həm də başqa ölkələrin enerji təhlükəsizliyinin təmin olunması üçün mühüm rol oynayırıq. Bütün bu amillər Azərbaycanın həm bölgədə, həm də dünyada mövqelərini daha da möhkəmləndirir. Hər bir ölkə istəyir ki, onun bölgədəki mövqeləri daha da möhkəm olsun, təsir imkanları daha da güclü olsun və öz milli maraqlarının təmin edilməsi üçün yaxşı şərait olsun. Bizə bu bəlkə də başqa ölkələrdən daha çox lazımdır. Çünki bizim topraqlarımız işğal altındadır. Biz bölgədə öz mövqeyimizi möhkəmləndiririk və əminəm ki, dünyada Azərbaycanın önəmi artdıqca, torpaqlarımızın işğalçılardan azad edilməsinə böyük töhfə vermiş oluruq. Bizim qarşımızda duran ən böyük vəzifə budur. Əsas məsələ torpaqlarımızın işğalçı qüvvələrdən azad edilməsidir. Bunu etmək üçün biz güclü olmalıyıq, güclü iqtisadiyyat yaratmalıyıq və yaradırıq. Azərbaycanda çox gözəl ictimai-siyasi vəziyyət mövcuddur. Xalqla iqtidar arasında birlik var, bizim siyasətimiz, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində apardığımız siyasət və atdığımız addımlar xalq tərəfindən dəstəklənir. Biz ordu quruculuğuna çox böyük diqqət göstəririk və bundan sonra da diqqət göstərəcəyik.

Azərbaycanın bölgədəki mövqeləri möhkəmləndikcə bizim təsir imkanlarımız artır. Biz çox geniş nəqliyyat imkanlarına

malikik. Bu həm coğrafi vəziyyətdən irəli gəlir və eyni zamanda, bizim siyasətimizin nəticəsidir ki, Azərbaycanı çox önəmli və əvəzolunmaz beynəlxalq nəqliyyat dəhlizinə çevirmişik.

Əlbəttə, Ermənistanla Azərbaycan arasında olan fərq böyüyür. Deyə bilərəm ki, bu uçurum daha da genişlənir. Bizim iqtisadi imkanlarımız, valyuta ehtiyatlarımız, büdcə xərclərimiz və siyasi çəkimiz Ermənistanla müqayisə oluna bilməz və bu həlledici dəyişikliyi biz son illər ərzində əldə etmişik. Azərbaycanın təbii sərvətləri uzun illər, onilliklər bundan sonra da dövlətçiliyimizin güclənməsinə xidmət edəcəkdir. Əminəm ki, bizim torpaqlarımızın işğalçı qüvvələrdən azad olunmasında da həlledici rol oynayacaqdır.

Tam əminliklə deyə bilərəm ki, indi danışıqlar prosesində müşahidə olunan müəyyən müsbət irəliləyişlər məhz bizim gücümüzün artırılması nəticəsində baş verir. Biz nə qədər güclü olsaq, bu məsələ öz həllini o qədər tez tapa bilər. Beynəlxalq hüquq normaları Azərbaycanın tərəfindədir. Biz dəfələrlə müxtəlif beynəlxalq təşkilatlarda bu məsələni qaldırmışıq və səsvermə nəticəsində Azərbaycanın haqlı olduğu bir daha təsdiq edilibdir. Azərbaycanın ərazi bütövlüyü və Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi bütün dünya tərəfindən tanınıbdır. Münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması artıq bütün beynəlxalq birlik, o cümlədən məsələ ilə birbaşa məşğul olan Minsk qrupunun həmsədr ölkələri tərəfindən dəstəklənir.

Sadəcə olaraq, Ermənistan rəhbərliyi öz vəziyyətini dərindən təhlil edərək, cəsarətli addım atmalıdır, yəni işğal etdiyi Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxmalı, bizim soydaşlarımız o torpaqlara qayıtmalıdırlar, bölgənin təhlükəsizliyinin təmin olunması üçün tədbirlər görülməlidir. O ki qaldı Dağlıq Qarabağın hüquqi statusuna, bu məsələ gələcəkdə müzakirə oluna bilər. Biz bu müzakirəyə açığıq və dəfələrlə bəyan etmişik ki, dünyada mövcud olan ən mütərəqqi təcrübəni tətbiq edə bilərik, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağa muxtariyyət statusu verilə bilər. Bunun

kənarında heç bir başqa variant müzakirə olunmur və heç bir başqa məsələnin həlli mümkün deyildir. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır və mən şübhə etmirəm ki, biz öz torpaqlarımızı azad edəcəyik. Çox istəyirəm ki, bunu sülh yolu ilə edək və biz buna çalışırıq. Ancaq son aylar ərzində – siz də yəqin ki, bunu izləyirsiniz – müəyyən ümidverici məqamlar üzə çıxır. Biz bu yeni vəziyyəti təhlil etməliyik, müşahidə etməliyik və görməliyik ki, bu səslənən fikirlər, Ermənistan tərəfindən səslənən bəzi sülhməramlı və realist fikirlər nə dərəcədə səmimidir. Əgər bu fikirlər doğrudan da səmimidirsə, əminəm ki, biz qısa müddət ərzində məsələnin həllinə nail ola bilərik. Əgər yox, bu, sadəcə olaraq, bir taktiki gediş, yaxud da ki, Ermənistan tərəfindən beynəlxalq ictimaiyyəti aldatmaq üçün növbəti cəhddirsə, onda Azərbaycan dövləti öz prinsipial siyasətini davam etdirəcək və öz iqtisadi, siyasi və hərbi gücünün artırılması işində əlavə və çox ciddi tədbirlər görəcəkdir.

Əziz dostlar, mən istəyirdim ki, siz bu gözəl gündə doğma Qarabağ torpağında bu məsələ ilə bağlı bir daha mənim fikirlərimi, mövqeyimi eşidəsiniz, biləsiniz. Mən dəfələrlə ölkə daxilində və xaricdə müxtəlif tədbirlərdə Azərbaycanın mövqeyini ifadə etmişəm. Bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur, heç bir geriyə addımlar yoxdur. Biz beynəlxalq hüququn tərəfdarıyıq, Azərbaycanın bütün işğal olunmuş torpaqları azad olunmalıdır və bu işdə biz öz siyasətimizi davam etdirəcəyik. Dağlıq Qarabağ məsələsinin həlli üçün, torpaqlarımızın işğalçılardan azad olunması üçün nə lazımdırsa, Azərbaycan dövləti edəcəkdir.

Bu gözəl gündə, bu gözəl hadisə münasibətilə mən bir daha sizin hamınızı ürəkdən təbrik etmək istəyirəm. Arzu edirəm ki, bu məşəl həmişə yansın və bizim uğurlu yolumuzu həmişə işıqlandırsın. Azərbaycanın çox gözəl imkanları, çox gözəl gələcəyi var. Azərbaycan xalqı bilir haraya gedir. Bizim inkişaf istiqamətlərimiz dövlətçiliyimizin möhkəmləndirilməsi, müstəqilliyin möhkəmləndirilməsi, Azərbaycan xalqının rifah halının yaxşılaşması və ölkədə bütün mövcud olan problemlərin

həllidir. Bu işdə sizə və bütün Azərbaycan xalqına uğurlar arzulayıram.

Sağ olun.

## BEYLƏQANDA XOCAVƏNDLİ MƏCBURİ KÖÇKÜNLƏR ÜÇÜN SALINMIŞ QƏSƏBƏNİN AÇILIŞI MƏRASİMİ

*4 oktyabr 2008-ci il*

*Oktyabrın 4-də Horadizdən Beyləqan rayonuna gələn prezident İlham Əliyev burada Xocavənd rayonundan olan məcburi köçkünlər üçün salınmış 500 ailəlik qəsəbənin açılışında iştirak etmişdir.*

*Rayon sakinləri, məcburi köçkünlər prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı ehtiramla qarşıladılar.*

*Baş nazirin müavini, Dövlətqaçqınkomun sədri Əli Həsənov dövlətimizin başçısına məlumat verərək bildirdi ki, bu qəsəbə «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğun artırılması üzrə Dövlət Proqramı»na əlavələr çərçivəsində inşa edilmişdir. Burada ümumi sahəsi 25885,5 kvadratmetr olan 60 birotaqlı, 245 ikiotaqlı, 180 üçotaqlı və 15 dördotaqlı mənzil vardır. Qəsəbədə 360 şagird yerlik orta məktəb, 50 yerlik uşaq bağçası, poçt şöbəsi, 25 çarpayılıq xəstəxana, klub icma mərkəzi, baytarlıq məntəqəsi, yanğınsöndürmə deposu, inzibati və anbar binaları da vardır. Yollar, su və elektrik təchizatı lazımi səviyyədədir.*

*Prezident İlham Əliyev Xocavənd rayonunun Qaradağlı kəndindən olan Sevil Əzizovanın mənzilinə baş çəkdi. Vətən uğrunda şəhid olan Alov və Atəşin anası Sevil Əzizova məcburi köçkünlər üçün yaradılan şəraitə görə minnətdarlığını bildirdi.*

*Mənzillərdə yetərincə şəraitin yaradıldığını vurğulayan prezident İlham Əliyev dedi:*

– Gəldik ki, baxaq, şərait necədir. Çox gözəldir, hər şey yaxşıdır.

**Ə l i  H ə s ə n o v:** İki oğlu şəhid olub. Bu kənddə hər 10 nəfərdən biri şəhid olmuşdur. Bizim günahımızdır ki, bu məsələni qabartmamışıq. Rayon üzrə hər 10 nəfərdən biri şəhiddir.

**İ l h a m  Ə l i y e v:** Bunu hamı bilməlidir.

**S e v i l  Ə z i z o v a:** Rayonumuzun döyüşkən camaatı var.

**Ə l i  H ə s ə n o v:** Ermənilər bir gündə 45 nəfəri qətlə yetirib, silos quyusunda basdırmışdılar. Onların arasında Sevil xanımın iki övladı da olmuşdur.

**S e v i l  Ə z i z o v a:** Möhtərəm Prezident, biz analar oğullarımızla fəxr edirik. Oğulları torpağımızı, Vətənimizi, biz anaları qorumaq üçün böyüdürük. Bilirik ki, Sizin siyasətiniz nəticəsində torpaqlarımız azad olunacaq, öz yurd-yuvamıza qayıdacağıq. Ancaq lazım gəlsə, bir oğlum var, onu da şəhidlərimizin qisasını almaq, torpaqlarımızı azad etmək üçün döyüşə göndərməyə hazıram.

**İ l h a m  Ə l i y e v:** Biz çalışırıq ki, məsələni müharibəsiz, sülh yolu ilə həll edək. Amma bununla bərabər, biz bütün başqa variantlara da hazırıq. Biz heç vaxt barışmayacağıq ki, torpaqlarımız işğal altında qalsın. Ya sülh yolu ilə, ya da hərbi yolla torpaqlarımızı azad edəcəyik.

**S e v i l  Ə z i z o v a:** Biz buna inanırıq. Sizin zəhmətinizi, əməyinizi qiymətləndiririk, siyasətinizi bəyənirik və öz minnətdarlığımızı bildiririk. Mehriban xanımın da işini bəyənirik.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Siz buna layiqsiniz. Mən çalışıram ki, qaçqın-köçkün soydaşlarımızın həyat səviyyəsinin, yaşayış imkanlarının yaxşılaşdırılması üçün nə lazımdırsa, onu edək. Həm proqramlar qəbul edilir, həm də belə gözəl qəsəbələr salınır, binalar tikilir. İndi çadır şəhərciklərinin heç biri yoxdur. Biz hamısını ləğv etdik. Onların yerində belə gözəl evlər tikdik. Siz buna layiqsiniz.

## Məcburi köçkünlər qəsəbəsində orta məktəb binasının açılışı mərasimi

*Oktyabrın 4-də prezident İlham Əliyev Beyləqan rayonu ərazisində Xocavənddən olan məcburi köçkünlər üçün salınmış qəsəbədəki 360 şagird yerlik orta məktəb binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə qəsəbənin Baş planına, məcburi köçkünlər üçün ayrılmış əkin-səpin sahələrinin, suvarma şəbəkəsinin sxeminə baxdı, sonra məktəbin idman zalı, sinif otaqları, kompyuter və fənn kabinetləri ilə tanış oldu, binanın ikinci mərtəbəsinin eyvanından ətrafı seyr etdi. Məlumat verildi ki, hazırda məktəbdə 200 şagirdin təlim-tərbiyəsi ilə 27 müəllim məşğuldur. Sinif otaqları, fənn kabinetləri, laboratoriyalar müasir avadanlıqlarla təmin olunmuşdur. Kitabxana latın qrafikası ilə nəşr edilmiş ədəbiyyatla komplektləşdirilmişdir. 15 sinif otağından ibarət məktəb Məcburi Köçkünlərin Sosial İnkişafı Fondunun sifarişi ilə tikilmişdir.*

*Prezident İlham Əliyev idman zalında şagirdlərlə görüşdü, onlarla xatirə şəkli çəkdirdi.*

*Dövlətimizin başçısı və xanımı Xocavənd şəhidlərinin foto-şəkillərindən ibarət guşəyə də baxdılar.*

*** * ***

*Azərbaycan prezidenti İlham Əliyev məktəblə tanışlıqdan sonra məcburi köçkünlərlə görüşmüşdür.*

*Xocavəndlilər dövlətimizin başçısını və xanımını böyük səmimiyyətlə salamladılar.*

*Prezident İlham Əliyev onları təbrik edərək dedi:*

– Sizi qəsəbənin açılışı münasibətilə təbrik edirəm. Burada gözəl evlər tikilib, gedib baxdım, tanış oldum. Gözəl məktəb, tibb məntəqəsi – yəni yaşamaq üçün bütün imkanlar var. Bu qəsəbə çox qısa müddət ərzində salınıb, böyük keyfiyyətlə tikilibdir. Bu qəsəbənin açılışı bir daha onu göstərir ki, bizim bu

istiqamətdəki siyasətimiz çox uğurludur. Son illər ərzində məcburi köçkünlərin yeni yaşayış qəsəbələri ilə təmin edilməsi işində çox böyük işlər görülmüşdür. On minlərlə soydaşımız artıq normal şəraitdə yaşayır, bütün çadır şəhərcikləri ləğv edilibdir, bir dənə də qalmayıbdır. Onların əvəzinə belə gözəl qəsəbələr, evlər tikilib, 500 kilometrdən çox avtomobil yolları, elektrik xətləri çəkilib, onlarca məktəb, tibb məntəqəsi inşa olunub, əkin sahələri ayrılıbdır. Yəni bütün imkanlar yaradılır ki, erməni işğalından, etnik təmizləmə siyasətindən əziyyət çəkən soydaşlarımız normal şəraitdə yaşasınlar. Azərbaycan dövlətinin imkanları artdıqca, bu işlərə daha da böyük vəsait ayrılacaqdır.

Qaçqınların və məcburi köçkünlərin yeni qəsəbələrə köçürülməsi prosesi ulu öndər Heydər Əliyev tərəfindən başlanmışdır və bu məqsədlərə nail olmaq üçün ilk vəsait Dövlət Neft Fondundan ayrılmışdır. Dövlət Neft Fondunun hesabına, daha doğrusu, Azərbaycan dövlətinin hesabına bu gün də belə gözəl işlər görülür. 500 milyon manatdan çox vəsait xərclənib və növbəti illərdə daha da çox xərclənəcəkdir. 2004-cü ildə «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı» qəbul edilmişdir. Demək olar ki, bu proqramda nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapmışdır. Keçən il proqrama əlavələr edilmişdir və bu əlavələr nəticəsində növbəti illərdə bütün başqa yerlərdə – fin qəsəbələrində, hərbi hissələrin ərazilərində, məktəblərdə, başqa yerlərdə yaşayan soydaşlarımız üçün də gözəl şərait yaradılacaqdır. Bu, Azərbaycan dövlətinin siyasətidir. Bizim imkanlarımız artır və uğurlu neft strategiyamız hesabına ölkəyə böyük vəsait daxil olur. İlk xərclər də məhz bu məqsədlərə sərf olunubdur. Biz növbəti illərdə bunu daha böyük məbləğdə ayıracağıq ki, bizim soydaşlarımız, müvəqqəti də olsa, normal şəraitdə yaşasınlar. Burada tikilmiş evlər, bütün sosial infrastruktur, işlə məşğul olmaq üçün imkanlar onu göstərir ki, bu siyasət öz gözəl nəticələrini verir. Arzu edirəm ki, bundan sonra da burada, bu

bölgədə abadlıq işləri, yeni qəsəbələrin salınması sürətlə getsin. Hələ buna böyük ehtiyac var. 2009-cu və ondan sonrakı illərdə bu istiqamətdə əlavə tədbirlər görüləcəkdir.

Sizi bir daha təbrik edirəm.

*Məktəbin pedaqoqu, respublikanın Əməkdar müəllimi Gültəkin Ağayeva dövlətimizin başçısına müraciətlə dedi:*

– Hörmətli Prezident!

Hörmətli Mehriban xanım!

Sizin göstərişinizlə qısa müddət ərzində tikilib istifadəyə verilmiş bu yeni yaraşıqlı Xocavənd qəsəbəsinə xoş gəlmisiniz!

Sizin kimi xalqına bağlı, dövlətini sevən, ürəyi vətən eşqi, vətənpərvərlik ruhu, qəlbi azərbaycançılıq hissi ilə döyünən, «Mən hər bir azərbaycanlının prezidentiyəm» deyən bir dövlət başçısını aramızda görmək bizim üçün çox əlamətdar, çox sevindirici hadisədir. Ömrünə, müvəqqəti də olsa, məcburi köçkünlük taleyi yazılan biz xocavəndlilərin sevincinin həddi-hüdudu yoxdur. Uşaqdan-böyüyə qədər hər birimiz bu görüşü heç vaxt yaddan çıxarmayacağıq.

Möhtərəm Prezident!

Sizi özünün ən yaxın dostu, ən yaxın sirdaşı, arxası hesab edən Xocavənd camaatına 500 evlik belə gözəl qəsəbəni hədiyyə etməklə inanın ki, onlara dünyanı bağışlamısınız. Bir müəllim, ziyalı qadın, ana kimi, mən burada yaşayan insanların adından, bu evlərin sakinləri adından Sizə dərin minnətdarlığımızı bildirir və ürəkdən «Çox sağ olun!» deyirəm. Belə yaraşıqlı, möhtəşəm, bütün infrastrukturu olan qəsəbədə bundan sonra bizim heç bir sosial problemimiz olmayacaqdır.

Möhtərəm Prezident, Dağlıq Qarabağda bizim belə evlərimiz olmayıbdır. Ona görə yox ki, biz buna layiq deyildik. Ermənilər bizə imkan vermirdilər.

Hörmətli Mehriban xanım, sizin Azərbaycan üçün etdiyiniz bütün işlərin vurğunuyuq. Sizin etdiklərinizi sadalasaq, saatlar bəs etməz. Ona görə də mən istəyirəm ki, fikrimi bir cümlə ilə ifadə edim: Mehriban xanım, ölkəmizin birinci xanımı kimi, siz dünya ölkələrinin birinci xanımlarının birincisisiniz.

Gördüyünüz bu işlərə görə mən bütün xocavəndlilər adından, Azərbaycan qadınları adından sizi alqışlayır və öz təşəkkürümü bildirirəm.

Möhtərəm Prezident, Siz vəd etmişdiniz ki, ölkəmizdə bir dənə də çadır şəhərciyi qalmayacaqdır. Siz vədinizin üstündə durdunuz və özü də onu vaxtından əvvəl yerinə yetirdiniz. Artıq biz belə gözəl qəsəbədə yaşayırıq. Mən özüm 30 ilə yaxındır ki, müəllim işləyirəm. Belə gözəl, möhtəşəm məktəbdə heç vaxt işləməmişəm.

Hörmətli Prezident və Mehriban xanım, sizə gələcək işlərinizdə bol-bol uğurlar arzulayırıq. Bir daha təşəkkür edirik ki, siz qəsəbəmizə gəlib bizimlə görüşdünüz. Bu, biz xocavəndlilər üçün qızıl hərflərlə yazılmış tarixi bir gündür və biz bunu heç vaxt unutmayacağıq. Hər ikiniz çox sağ olun. Sizlərə bir daha minnətdarlığımızı bildiririk.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Mən gəldim ki, bu gözəl gündə sizinlə bərabər olum və bu qəsəbənin açılışında iştirak edim. Çox şadam ki, qısa müddət ərzində belə gözəl qəsəbə salınıbdır. Bir daha demək istəyirəm ki, burada yaşamaq üçün bütün imkanlar var. Belə gözəl məktəb var, bütün başqa infrastruktur ən müasir səviyyədədir. Bu, bir tərəfdən, Azərbaycan dövlətinin gücünü göstərir, bizim imkanlarımız artır. Digər tərəfdən, bizim siyasətimizin nəticəsidir.

Siz qeyd etdiniz, mən demişdim ki, bir dənə də çadır şəhərciyi qalmayacaqdır. Artıq yoxdur. Bundan sonra da heç vaxt olmayacaqdır. Biz bu səhifəni bağladıq. Növbəti illərdə, mən qeyd etdiyim kimi, məktəblərdə, hərbi hissələrin ərazilərində, digər yerlərdə yaşayan qaçqın-köçkün soydaşlarımızın yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün əlavə tədbirlər görüləcəkdir. Beləliklə, biz bu böyük sosial problemi aradan qaldıracağıq. Amma bu, məsələnin bir hissəsidir. Sosial yükün azaldılması və insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması məsələnin tam həlli demək deyildir. Məsələnin tam həlli torpaqlarımızın işğalçılardan azad olunmasıdır. Bu məqsədə nail olmaq üçün biz bütün gücümüzü

səfərbər etməliyik və edirik. Azərbaycanın artan imkanları, iqtisadi gücü, bölgədəki mövqeləri, bizim həm daxili, həm də xarici siyasətimiz o günü yaxınlaşdırır.

İndi Azərbaycanla hesablaşırlar. Bölgədə gedən proseslər böyük dərəcədə Azərbaycanın mövqeyindən asılıdır. Bizim iştirakımız olmadan bu bölgədə heç bir layihə icra oluna bilməz. Yəni bu onu göstərir ki, ölkəmizin önəmi artır, çəkisi və təsir imkanları artır. Əlbəttə, bu bizə imkan verəcək ki, Dağlıq Qarabağ münaqişəsini öz xeyrimizə, yəni ədalətli və beynəlxalq hüquq normaları əsasında həll edək. Çünki bunu etmək üçün beynəlxalq hüquq bizə əsas verir. Ermənistan öz işğalçı siyasəti ilə, etnik təmizləmə siyasəti ilə bizim torpaqlarımızın bir hissəsini işğal edibdir. Bütün dünya bunu bilir və müxtəlif mötəbər beynəlxalq təşkilatların sənədlərində Ermənistan işğalçı bir dövlət kimi göstərilir.

Digər tərəfdən, bölgədəki mövcud vəziyyət əlavə imkanlar yaradır. Azərbaycan bölgədə böyük imkanlara malikdir. Həm iqtisadi, siyasi, həm enerji baxımından, həm də coğrafi mövqeyi baxımından. Biz bütün imkanları bir nöqtəyə yönəldirik. Bizim bir nömrəli və sonuncu problemimiz budur. Çünki başqa problemlər həll olunur, iqtisadiyyat artır, iş yerləri açılır, yoxsulluğun səviyyəsi aşağı düşür, insanların yaşayış səviyyəsi yaxşılaşır, yeni müəssisələr yaradılır. Çadır şəhərcikləri ləğv edilibdir və bu onu göstərir ki, biz istənilən məsələni həll edə bilərik. Nəzərə alsaq ki, növbəti illərdə bizim iqtisadi imkanlarımız daha da artacaq, neftdən əldə olunacaq gəlirlər iqtisadi inkişafa daha da böyük təkan verəcək, bu halda mən ölkə qarşısında ciddi problem görmürəm. Bir problem var. Biz onu da həll etməliyik. Biz çalışırıq ki, bunu danışıqlar yolu ilə, beynəlxalq təşkilatlarda vasitəçilərin iştirakı ilə həll edək. Amma siz görürsünüz ki, heç bir nəticə yoxdur. İrəliləyiş var, elə bil Ermənistan tərəfi başa düşməyə başlayıb ki, onların siyasətinin axırı yoxdur. Biz nə vaxta qədər gözləməliyik?! İndi Ermənistanda yeni rəhbərlik bəzi ümidverici bəyanatlar verir, bəzi təşəbbüslər irəli sürür. Biz baxmalıyıq, təhlil etməliyik ki,

bu bəyanatlar nə dərəcədə səmimidir və bu görünən yeni yanaşma məsələnin həllinə nə dərəcədə kömək göstərəcəkdir. Əgər görsək ki, bəli, danışıqların aparılmasına ehtiyac var və bu danışıqlar nəticə ilə sonuclana bilər, biz, əlbəttə, sülh danışıqlarında iştirak edəcəyik və öz mövqeyimizi müdafiə edəcəyik. Ancaq görsək ki, yox, bu, sadəcə olaraq, taktiki bir gedişdir, yaxud da vaxt uzatmaq cəhdidir, onda biz öz siyasətimizə düzəlişlər edəcəyik.

Bir sözlə, biz danışıqlarda iştirak etməklə yanaşı, öz hərbi gücümüzü də artırırıq. İndi Azərbaycan Ordusu bu bölgədə ən güclü ordudur. Son illər ərzində biz ordumuzu xeyli dərəcədə gücləndirmişik. Həm peşəkarlıq baxımından, həm hazırlıq baxımından, həm də avadanlıq, texnika, silah-sursat baxımından.

Mən bütün bölgələrdə təmas xəttində olmuşam. Aprel ayında Füzuli rayonunda, ondan əvvəl Ağdam, Tərtər istiqamətlərində səngərlərdə əsgərlərlə görüşmüşəm və bir daha gördüm ki, gənc əsgərlərimizdə çox böyük ruh yüksəkliyi var. Qarşı tərəf bilməlidir və artıq bilir ki, Azərbaycanın hərbi imkanları şərait yaradır ki, torpaqlarımızı istənilən yolla qaytaraq. Bu bizim haqqımızdır. Bizim heç bir başqa ölkənin torpağında gözümüz yoxdur. Dağlıq Qarabağ Azərbaycan ərazisidir. Bu, tarixən də belə olub və beynəlxalq hüquq da bunu göstərir. Azərbaycan Birləşmiş Millətlər Təşkilatına üzv olanda Dağlıq Qarabağ da Azərbaycanın ayrılmaz hissəsi kimi tanındı. Belə olan halda, danışıqlarda bizim mövqeyimiz birmənalı olaraq qalacaqdır: erməni işğalçı qüvvələri işğal edilmiş bütün torpaqlardan çıxarılmalıdır, Azərbaycan vətəndaşları bu bölgələrə, o cümlədən Dağlıq Qarabağa qayıtmalıdırlar. Dediyim bütün məsələlər danışıqlar prosesində öz əksini tapır. Sadəcə olaraq, Ermənistan tərəfi beynəlxalq hüquq normalarına riayət etməlidir və işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxmalıdır. Əgər belə olsa, onda Ermənistanın gələcək inkişafı uğurlu ola bilər. Çünki özünü

təcrid edilmiş vəziyyətə salan ölkənin gələcək perspektivləri o qədər də aydın deyildir.

Azərbaycanın qarşısında bütün imkanlar açılıbdır. Bizim həm siyasi, həm iqtisadi islahatlar istiqamətində gördüyümüz işlər, sosial məsələlərin həlli, bölgədəki rolumuz və çəkimiz Azərbaycanı çox zəngin və güclü ölkəyə çevirəcək və bu proses başlamışdır. Nəzərə alsaq ki, Dağlıq Qarabağ məsələsinin həllindən başqa, bizim qarşımızda elə bir ciddi məsələ yoxdur, bütün səylərimiz bu məsələnin həllinə yönəldilibdir. Mən də, bütün icra strukturları da, bizim vətəndaşlarımız da bu işlərdə fəaldırlar. Mən ümid edirəm ki, bu fəallıq və düşünülmüş, məqsədyönlü ciddi siyasət nəticəsində biz torpaqlarımızın azad edilməsinə nail ola bilərik.

Ancaq siz hələ ki, bu müvəqqəti şəraitdə yaşayacaqsınız. Mən çox istəyirəm ki, çətin vəziyyətdə olan insanların yaşayış səviyyəsi yaxşılaşsın. Torpaqlarımız işğalçılardan azad olunandan sonra biz belə gözəl binaları Qarabağda tikəcəyik.

**S a k i n l ə r:** İnşallah.

**İ l h a m Ə l i y e v:** Sizi bir daha təbrik edirəm. Sağ olun.

# PREZİDENT İLHAM ƏLİYEVİN AGDAM RAYONUNA SƏFƏRİ

*4 oktyabr 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 4-də Beyləqandan Ağdama gəlmişdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva əvvəlcə Quzanlı qəsəbəsində ümummilli liderin abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular.*

## Quzanlı qəsəbəsinə təbii qazın verilməsi mərasimi

*Oktyabrın 4-də Azərbaycan prezidenti İlham Əliyev Ağdam rayonunun Quzanlı qəsəbəsinə təbii qazın verilməsi ilə əlaqədar keçirilən mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısı Quzanlı qəsəbəsinin qaz təchizatı sxemi ilə tanış oldu. «Azəriqaz» Qapalı Səhmdar Cəmiyyətinin sədri Əlixan Məlikov məlumat verdi ki, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində görülən ardıcıl tədbirlərin davamı olaraq, Quzanlı qəsəbəsinə 16,6 kilometr uzunluğunda qaz kəməri çəkilmişdir. Vaxtilə Ağdam–Quzanlı qaz kəməri vasitəsilə qazdan istifadə edən qəsəbə Qarabağ müharibəsi nəticəsində 15 il bundan əvvəl bu təbii yanacaqdan məhrum olmuşdu. Ölkə başçısının tapşırığı ilə bu ilin avqust ayından «Azəriqaz» QSC tərəfindən başlanan tikinti-quraşdırma işlərinin ilkin mərhələsi qısa müddətdə tamamlanmışdır. Başlanğıcını Bərdə–Ağcabədi magistral qaz xəttindən götürən kəmər 200 millimetrlik borulardan ibarətdir. Həmin polietilen borular ölkəmizdə istehsal olunur. Bu kəmər Quzanlı qəsəbəsində 450 abonentin qazla təminatına imkan verəcəkdir. Qəsəbə daxilində 27 kilometr uzunluğunda müxtəlif diametrli qaz xətləri*

*çəkilmişdir. Burada 384 mənzil təbii qazla təmin edilmişdir. Abonentlərdən 174-ü məcburi köçkündür. Qaz verilən bütün evlərdə sayğaclar quraşdırılmış və «Beko». Bu işlərin görülməsinə dövlət markalı qaz sobası qoyulmuşdur büdcəsindən 1 milyon 300 min manat vəsait ayrılmışdır. 2009-cu ildə həyata keçiriləcək ikinci mərhələdə Quzanlı qəsəbəsi və Çullu kəndi ilə yanaşı, yeni salınan Quzanlı-1, habelə İmamqulubəyli və Qasımbəyli kəndlərində yeni salınmış qəsəbələrdə 2916 abonentə qaz veriləcəkdir.*

*Prezident İlham Əliyev Quzanlıya təbii qaz verilməsinin rəmzi olan məşəli alovlandırdı.*

*Sonra bu münasibətlə mərasim keçirildi.*

*Dövlətimizin başçısı mərasimdə nitq söylədi.*

## Quzanlıya təbii qazın verilməsi mərasimində nitq

Əziz dostlar!

Bu gözəl hadisə, uzun fasilədən sonra Ağdam rayonuna təbii qazın verilməsi münasibətilə mən sizin hamınızı ürəkdən təbrik edirəm. Doğrudan da bu çox əlamətdar və tarixi hadisədir. İlk növbədə ona görə ki, 15 ildən sonra Ağdama, Quzanlı qəsəbəsinə təbii qazın verilməsi bərpa olundu.

Bildiyiniz kimi, Ermənistanın Azərbaycana qarşı işğalçı siyasəti nəticəsində bu bölgəyə təbii qazın verilməsi dayandırılmışdır. Uzun fasilədən sonra biz buna nail olduq və bu gün bu gözəl hadisəni birlikdə qeyd edirik. Digər tərəfdən, bu gün ona görə əlamətdardır ki, məhz bu gün Azərbaycanın bütün rayonları təbii qazla təmin olunur. Azərbaycanın tarixində ilk dəfə olaraq, işğal altındakı rayonlar istisna olmaqla, hər bir rayona təbii qazın verilməsinə nail ola bilmişik. Beləliklə, ölkədə qazlaşdırma prosesinin növbəti mərhələsinə qədəm qoymuşuq. İndi bu proses çox sürətlə gedir, Azərbaycanın bütün rayonlarına təbii qazın verilməsi təmin olunur. Gələcək illərdə yeni məntəqələrə – yeni qəsəbələrə, kəndlərə qaz xətlərinin çəkilişi nəzərdə tutulur. O cümlədən Ağdam

rayonunun digər kəndlərində 2009-cu ildə növbəti qazlaşdırılma tədbirləri görüləcəkdir.

Bu hadisə bir daha onu göstərir ki, bizim verdiyimiz bütün vədlər, qəbul edilmiş qərarlar, proqramlar həyatda öz əksini tapır. Biz sizinlə keçən dəfə bu ilin əvvəlində, Quzanlı Olimpiya İdman Kompleksinin açılışında görüşmüşdük. O vaxt mən göstəriş vermişdim ki, Ağdam rayonuna təbii qazın verilməsi tezliklə bərpa olunsun. Qısa müddət, bir neçə ay ərzində biz buna nail ola bilmişik. Bunu etmək üçün yeni xətlər çəkilib, yeni infrastruktur obyektləri tikilibdir. Bu gün bu gözəl hadisəni biz birlikdə qeyd edirik. Bütün başqa istiqamətlərdə qəbul edilmiş qərarlar vaxtlı-vaxtında yerinə yetirilir. Olimpiya İdman Kompleksinin açılışında bərabər iştirak edirdik. Bu kompleks ən yüksək səviyyəyə, ən yüksək dünya standartlarına cavab verir. Bütövlükdə, aparılan işlər və gələcəkdə nəzərdə tutulmuş tədbirlərin icrası nəticəsində bu bölgədə böyük canlanma olacaqdır.

Buraya qaz xəttinin çəkilməsi ilə həm insanların yaxşı yaşamasına şərait yaranacaq, həm də iqtisadi potensialın genişlənməsinə əlavə imkan olacaqdır. Mən çox istəyirəm ki, Ağdam rayonunun inkişafı daha da sürətlə getsin. Bildiyiniz kimi, bu məqsədlə müxtəlif tədbirlər görülür, əlavə vəsait ayrılıbdır. Burada abadlıq işləri aparılır, yeni müəssisələrin yaradılması prosesi gedir, sosial obyektlərin, məktəblərin, tibb məntəqələrinin tikintisi davam etdirilir. Bütün bunlar insanlar üçündür, onların rahatlığı üçündür. Azərbaycanın hər bir yerinə və xüsusilə işğaldan əziyyət çəkən bölgələrə daha da böyük diqqət göstərilməlidir. Bütün sosial problemlər öz həllini tapmalıdır, bütün infrastruktur layihələri uğurla icra edilməlidir. Buraya qaz xəttinin çəkilişi çox əlamətdar hadisədir.

Bir daha demək istəyirəm, bu onu göstərir ki, biz qarşımızda duran bütün problemləri uğurla həll edirik. Azərbaycanın hərtərəfli inkişafı artıq reallıqdır. Bizim regionlarımızda gedən işlər, aparılan islahatlar, quruculuq-abadlıq işləri bütün bölgələrə yeni imkanlar gətiribdir, böyük infrastruktur layihələri

icra edilir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası nəticəsində 700 mindən çox yeni iş yeri açılmışdır. Bütün bunlar Azərbaycanın qeyri-neft sektorunun inkişafına çox böyük təkan verir və iqtisadiyyatımızın şaxələndirilməsi istiqamətində çox vacib addımdır. Kənd təsərrüfatının inkişafı, sahibkarlığın inkişafı, qeyri-neft sektorunun inkişafı – bütün bu görülən və görüləcək tədbirlər ölkəmizi daha da gücləndirəcəkdir.

Təbii ki, Azərbaycanın neft siyasəti bundan sonra da uğurla davam etdiriləcəkdir. Bu gün biz neft siyasətinin gözəl nəticələrini müxtəlif aspektlərdə görürük. Azərbaycanın artan iqtisadi potensialı, Neft fondumuzda yığılan böyük vəsait, yeni elektrik stansiyalarının tikilməsi, qaz və elektrik xətlərinin çəkilməsi, Azərbaycanın güclü neft-qaz hasil və ixrac edən ölkəyə çevrilməsi və bunun nəticəsində yaşadığımız regionda mövqelərimizin möhkəmlənməsi prosesi – bütün bunlar bizim uğurlu neft siyasətimizlə bağlıdır. Bu siyasət ulu öndər Heydər Əliyev tərəfindən 1994-cü ildə başlanmışdır və bu gün uğurla davam etdirilir. Bu sahədə qarşımızda duran bütün vəzifələr icra olunmuşdur. Azərbaycan tam şəkildə öz təbii sərvətlərini işə salıb və bu siyasəti davam etdirir.

Bu gün mən məcburi köçkünlər üçün tikilmiş yeni qəsəbənin açılışında iştirak edirdim. O qəsəbənin tikintisi də məhz Dövlət Neft Fondunun hesabına mümkün olmuşdur. Bütövlükdə, Neft fondundan məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğun artırılması üçün 500 milyon manatdan çox vəsait ayrılıbdır. Son illər ərzində bütün çadır şəhərcikləri ləğv edilib, onların yerinə yeni gözəl qəsəbələr salınıbdır. O qəsəbələrdə bütün lazımi şərait var.

Neft siyasətimiz Azərbaycanın müstəqil siyasətini daha da gücləndirir. Çünki biz tam əminik ki, ölkəmiz öz daxili resurslarına əsaslanaraq istənilən məsələni həll edə bilər. Bizim başqa ölkələrdən asılılığımız yoxdur. Əlbəttə ki, beynəlxalq maliyyə qurumları ilə çox uğurlu əməkdaşlığımız var. Ancaq biz xarici kreditlərdən asılı deyilik. Yəni biz öz gücümüzə

istinad edirik, arxalanırıq, Azərbaycan xalqının iradəsinə arxalanırıq və ölkəmizi inkişaf etdiririk. Bu inkişaf özünü bütün sahələrdə – ölkəmizdə gedən quruculuq-abadlıq işlərində, regionların inkişafında, yeni iş yerlərinin açılmasında, yoxsulluğun azaldılmasında, yeni müəssisələrin işə düşməsində, idxalın azalmasında, yerli istehsalın artmasında göstərir. Biz bu gün özümüzü əksər kənd təsərrüfatı məhsulları ilə təmin edirik və indi ərzaq təhlükəsizliyini tam şəkildə təmin etmək üçün əlavə tədbirlər görürük. Təkcə keçən il görülmüş tədbirlər nəticəsində Azərbaycanda taxıl istehsalı 400 min ton artıbdır. Növbəti illərdə daha da böyük artım olması və kəndlilərə əlavə güzəştlərin verilməsi nəzərdə tutulubdur.

Yəni sosial məsələlərin həlli, insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması və bununla bərabər, köklü iqtisadi islahatların aparılması, infrastruktur layihələrin icra olunması Azərbaycanın reallıqlarıdır. Bizim ölkədə olan iqtisadi artım heç bir başqa ölkədə yoxdur. Təkcə bu il deyil, son 4 il ərzində iqtisadi artım sürətinə görə Azərbaycan dünyada lider ölkədir. Bu yaxınlarda Dünya Bankı və Beynəlxalq Valyuta Fondu Azərbaycanı dünya miqyasında bir nömrəli islahatçı ölkə kimi bəyan edibdir. Bizim insanlarımızın həyat səviyyəsi yaxşılaşır, ölkəmizin imkanları genişlənir və ölkə çox sürətlə inkişaf edir, dünya birliyinə inteqrasiya edir və qarşıda duran vəzifələr icra olunur.

Son 5 il ərzində 1500-dən artıq məktəb, tibb müəssisəsi tikilibdir. Yəni bütün bunları sadalamaq üçün bir neçə saat vaxt lazımdır. Sadəcə onu demək istəyirəm ki, hər bir bölgənin inkişafına böyük diqqət göstərilir. Xüsusilə bir daha demək istəyirəm ki, erməni işğalından əziyyət çəkən rayonların inkişafı prioritet məsələdir.

Bildiyiniz kimi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün Azərbaycan dövləti öz səylərini göstərir və göstərməkdə davam edəcəkdir. Biz məsələnin həlli üçün müxtəlif tədbirlər görürük, həm danışıqlarda iştirak edirik, həm də bu məsələnin həlli ilə məşğul olan vasitəçi ölkələrlə əlaqələrimiz var. Amma bununla bərabər, əminəm ki, bizim öz

gücümüz məsələnin həllində həlledici rol oynayacaqdır. Beynəlxalq hüquq normaları bu əsası bizə verir. Bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır və dəstəkləyir. Dağlıq Qarabağ daxil olmaqla, bütün Azərbaycan torpaqları azad edilməlidir və işğalçı qüvvələr işğal olunmuş torpaqlardan geri çəkilməlidir. Bunu həm beynəlxalq birlik – Birləşmiş Millətlər Təşkilatı və başqa təşkilatlar tərəfindən qəbul edilmiş qərarlar tələb edir, həm də sadəcə, məntiq tələb edir, həqiqət tələb edir. Bu münaqişədə biz haqlıyıq, zərərçəkən tərəfik. Ona görə biz tələb edirik ki, torpaqlarımız işğalçılardan azad edilsin və öz siyasətimizdə bu gün olduğumuz kimi, həmişə qətiyyətli olacağıq. Bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur, olmayıb və olmayacaqdır. Azərbaycanın işğal olunmuş bütün torpaqları işğalçılardan azad edilməlidir, bizim vətəndaşlarımız öz doğma torpaqlarına qayıtmalıdırlar, o cümlədən Dağlıq Qarabağa qayıtmalıdırlar. Ondan sonra Dağlıq Qarabağın statusu müzakirə oluna bilər, müəyyən edilə bilər. Ancaq bu status Azərbaycanın ərazi bütövlüyü çərçivəsində olmalıdır. Bu bizim prinsipial mövqeyimizdir. Bu mövqe bütün dünyaya bəllidir, vasitəçilərə bəllidir, Ermənistan tərəfinə bəllidir. Sadəcə olaraq, biz hələ gözləyirik ki, Ermənistan tərəfi reallıqlarla hesablaşmalı olacaqdır. Bölgədə yaranmış yeni vəziyyətlə bağlı öz hərəkətində düzəlişlər edəcəkdir və özünə aid olmayan torpaqlardan könüllü şəkildə geri çəkiləcəkdir. Hələ ki, bizdə belə ümidlər var. Bu ümidlərin son müddət ərzində güclənməsi prosesi müşahidə olunur, müəyyən bəyanatlar verilir, bəzi təkliflər irəli sürülür. Biz isə bütün bunları izləyirik, təhlil edirik, öz fikrimizi bildiririk və bildirəcəyik.

Biz gözləyirik ki, Ermənistan işğal olunmuş torpaqlardan öz xoşu ilə, könüllü surətdə çəkilsin və məsələ sülh yolu ilə həll edilsin. Əgər bu olmasa, onda bölgədə vəziyyət heç vaxt sabitləşməyəcəkdir. Əgər bu olmasa, Ermənistan bundan sonra da təcrid edilmiş vəziyyətdə yaşayacaqdır və Azərbaycanın üstünlüyü günü-gündən daha da artacaqdır.

Bu gün Ermənistanla Azərbaycanı müqayisə etmək mümkün deyildir. Torpaqlarımız işğal olunan zaman bizim aramızda o qədər də böyük fərq yox idi, hətta xaricdən müdaxilələr nəticəsində Ermənistanın hərbi potensialı bizimkindən daha da güclü idi. İndi bu mənzərə tamamilə dəyişibdir. Bu gün Azərbaycan həm iqtisadi, həm hərbi cəhətdən Ermənistandan bir neçə dəfə üstündür. Bizim iqtisadiyyatımız Ermənistan iqtisadiyyatından bir neçə dəfə böyükdür. Bizim büdcə xərclərimiz onlarınkından təxminən 5–7 dəfə çoxdur. Bizim hərbi xərclərimiz onların bütün dövlət xərclərinə bərabərdir və bu proses bundan sonra da davam etdiriləcəkdir. Bizdə həm uğurlu iqtisadi islahatlar aparılıb, həm siyasi islahatlar aparılıb, həm demokratikləşmə prosesi sürətlə gedir, insan haqlarının qorunması işində çox mühüm tədbirlər görülür. Bizim güclü neft siyasətimiz var, təbii ehtiyatlarımız var, güclü ordumuz var. Əgər Ermənistana baxsaq, biz orada bunların heç birini görə bilməyəcəyik. Ölkə öz işğalçı siyasəti nəticəsində özünü dünyadan və bölgədən təcrid edibdir. Cənubi Qafqazda yaşanan son hadisələr bir daha onu göstərdi ki, hansı ölkə istənilən böhranlı vəziyyətdə özünü necə apara bilər və bu böhranlı vəziyyətdən necə çıxa bilər.

Azərbaycan vətəndaşları, Azərbaycan iqtisadiyyatı və bütövlükdə ölkəmiz Cənubi Qafqazda son aylarda yaşanan hadisələri hiss etmədi. Nə üçün? Çünki bizim güclü iqtisadiyyatımız var. Bizim iqtisadiyyatımız öz daxili resurslarına əsaslanır. Bizim çox müdrik, düşünülmüş və xalqın milli maraqları üzərində qurulmuş siyasətimiz var. Ona görə Azərbaycan bu bölgədə sabitləşdirici amil kimi, öz mövqelərini daha da möhkəmləndirir. Bölgədə gedən proseslərlə bağlı bizimlə məsləhətləşmələr daha da sürətlə aparılır və maraqlı olan bütün dövlətlər – istər regional, istər qeyri-regional dövlətlər Azərbaycanla bu məsləhətləşmələri davam etdirmək niyyətindədir. Əlbəttə ki, biz də buna müsbət yanaşırıq.

Düzdür, bizim iqtisadi cəhətdən müəyyən dərəcədə ixrac imkanlarımız məhdudlaşdırılmışdı. Ancaq Azərbaycan

iqtisadiyyatı və Azərbaycan vətəndaşları bunu hiss etmədilər. O ki qaldı Ermənistana, bu bölgədə yaşanan böhran onlara çox ciddi təsir göstərdi. Hər tərəfdən özünü təcrid olunmuş vəziyyətə salan ölkənin gələcək perspektivləri də qeyri-müəyyəndir. Əgər öz qonşuları ilə normal münasibətlər qurmasa, əgər öz işğalçı siyasətindən əl çəkməsə, onda Ermənistanın gələcək inkişaf imkanları çox böyük şübhə altına düşəcəkdir. Bizim isə həm iqtisadi imkanlarımız, coğrafi vəziyyətimiz, siyasi mövqeyimiz, həm də bölgədə artan nüfuzumuz və əlbəttə ki, ordu potensialımız tam əminliklə deməyə əsas verir ki, biz istədiyimizə nail olacağıq.

Mən istəyirəm ki, bu məsələ sülh yolu ilə həll edilsin, yenidən müharibə başlamasın. Ancaq əgər bütün bu danışıqlarda müzakirə olunan məsələlər öz həllini tapmasa, əlbəttə, Azərbaycan istənilən yolla öz ərazi bütövlüyünü bərpa edə bilər. Bu bizim daxili işimizdir. Heç kim bu işə müdaxilə edə bilməz və heç kim Azərbaycanı öz haqlı yolundan, siyasətindən döndərə bilməz. Biz müstəqilliyi ona görə qazanmamışıq ki, müstəqillik şərti xarakter daşısın. Bizim müstəqilliyimiz tam şəkildə təmin olunubdur. Bu bizə imkan verir ki, Azərbaycan müstəqil siyasət aparsın. Azərbaycan xalqı öz iradəsini ortaya qoyaraq, bu siyasətin çərçivələrini müəyyən edir. Bizim bütün təşəbbüslərimiz, atdığımız siyasi addımlar Azərbaycan xalqının milli maraqlarına söykənir. Budur bizim əsas güc mənbəyimiz. Mən şübhə etmirəm ki, Azərbaycan xalqının iradəsi nəticəsində və gələcəkdə görüləcək tədbirlər nəticəsində Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapacaqdır. Beynəlxalq hüquq normaları və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyünün bərpası şərtilə öz həllini tapacaqdır.

Bir daha demək istəyirəm ki, biz daha da güclü olmalıyıq. İqtisadi potensialımızı daha da gücləndirməliyik. Bu bölgədə gedən gözəl abadlıq-quruculuq işlərinin davam etdirilməsi üçün də əlavə tədbirlər nəzərdə tutulubdur.

Gələn il regionların sosial-iqtisadi inkişafı üçün növbəti proqram qəbul ediləcəkdir. Bu proqramda indiyə qədər həll olunmamış bütün məsələlər öz əksini tapacaqdır. Növbəti 5 il üçün konkret, çox ciddi proqram ortaya qoyulacaq ki, bu da hər bir rayonun, hər bir bölgənin inkişafında əsas rol oynayır.

Əziz dostlar, mən bu gözəl hadisə münasibətilə, uzun fasilədən sonra Ağdam rayonuna təbii qazın verilməsi münasibətilə sizi bir daha ürəkdən təbrik etmək istəyirəm. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Sağ olun.

***

*Dövlətimizin başçısı Ağdam Rayon Ağsaqqallar Şurasının sədri, Sosialist Əməyi Qəhrəmanı, prezidentin fərdi təqaüdçüsü Sədrəddin Ələsgərovla və rayon ictimaiyyətinin digər nümayəndələri ilə görüşüb söhbət etdi, ölkəmizin və Ağdam rayonunun tərəqqisi naminə onlara uğurlar arzuladı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞİRVAN ŞƏHƏRİNƏ SƏFƏRİ

*4 oktyabr 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 4-də Şirvan şəhərində səfərdə olmuşdur.*

*Dövlətimizin başçısı və xanımı əvvəlcə şəhərin baş meydanında ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular.*

*Prezident İlham Əliyev meydanda aparılan abadlıq və quruculuq işləri ilə tanış oldu. Məlumat verildi ki, mühüm tədbirlərin keçirilməsi üçün nəzərdə tutulan bu meydanda əsaslı yenidənqurma işləri aparılır. Şəhər sakinlərinin istirahəti üçün lazımi şərait yaradılmışdır. Burada Heydər Əliyev Muzeyinin tikintisi başa çatmaqdadır.*

### Heydər Əliyev parkı ilə tanışlıq

*Prezident İlham Əliyev oktyabrın 4-də Şirvan şəhərində ulu öndərin adını daşıyan parkla tanış olmuşdur.*

*Bu park şəhər sakinlərinin ən sevimli istirahət guşələrindən biridir. Buradakı oturacaqlar yeniləşdirilmiş, müasir işıqlandırma sistemi quraşdırılmışdır. Fəvvarələr, şəlalə isə parka xüsusi gözəllik verir. Bir sözlə, burada Şirvan sakinlərinin asudə vaxtlarını səmərəli keçirməsi üçün yaxşı şərait yaradılmışdır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva parkda şəhərin bir qrup təhsil işçisi ilə görüşdülər.*

**Səadət Quliyeva** *(21 nömrəli orta məktəbin müəllimi):* Cənab Prezident, bizim şəhərimizə xoş gəlmisiniz!

Çox gözəl təsadüfdür ki, bu gün, bizim bu gözəl günümüzdə gəlmisiniz. Biz Müəllimlər gününü qeyd etməyə hazırlaşırıq, sevincimizin həddi-hüdudu yoxdur. Bax, belə gözəl gündə Siz bizə yeni hədiyyə etdiniz. Mehriban xanım, sizi də görməyimizə çox şadıq.

Bizim bu şəhərdə aparılmış abadlıq işlərini öz gözünüzlə gördünüz.

Biz bütün bunlara görə həmişə Sizə minnətdarıq. Bu işlər respublikanın bütün yerlərində görülür. Hamı bütün rayonlar haqqında gözəl sözlər deyir. Amma hamısı Sizin adınızla bağlıdır.

Son vaxtlar şəhərimizin nailiyyətləri çoxalıb. Ona görə ki, bu il təhsil üzrə göstəricilərimiz yüksəkdir. 23 şagirdimiz 600-dən yuxarı, Nurlan adlı oğlan isə 700 bal toplayıbdır. Üç şagirdimiz prezidentin fərdi təqaüdünə layiq görülmüşdür.

Biz bununla çox fəxr edirik. İnanırıq ki, gələcəkdə şəhərimiz daha da gözəlləşəcəkdir. Bu parkı da ulu öndərin adına layiq saxlamağa çalışırıq. Həmişə Sizin görüşlərinizi televiziya vasitəsilə izləyirik.

**Əzizə Məmmədova** (*Şəhər Qadınlar Şurasının sədri*): Sevincimin həddi-hüdudu yoxdur. Çünki bu mənim ən gözəl günümdür. Təsadüfə baxın, Siz məni «Tərəqqi» medalı ilə təltif etdiniz. Ömrüm boyu Sizə minnətdaram.

**İlham Əliyev:** Təbrik edirəm.

**Əzizə Məmmədova:** Çox sağ olun. Sabah müəllimlər günüdür, təntənəli şəkildə qeyd edəcəyik. Yüz yaşayın. Sizi ulu Tanrı özü qorusun.

**Almaz Mahmudova** (*müəllimə*): Bizim maaşlarımızı artırmısınız. Sizə buna görə minnətdarıq. Siz həmişə müəllimlərin qayğısına qalırsınız.

**İlham Əliyev:** Mən sizi təbrik edirəm. Müəllim uşaqların tərbiyə olunmasında əsas rol oynayır. Ona görə indi Azərbaycanda təhsil məsələlərinə çox böyük diqqət göstərilir. Həm yeni məktəblər tikilir, həm də müəllimlərin sosial vəziyyəti yaxşılaşır. İndi yeni imzalanmış sərəncamda bir neçə

müəllimin fəaliyyəti qiymətləndirilibdir. Həm medal, həm də fəxri adlar verilibdir. Bu lazımdır. Təhsil bizim uğurlu gələcəyimizin əsasıdır. Təhsildən çox şey asılıdır. Həm bilik, həm savad, həm də tərbiyə. Uşaqlar həm bilikli, həm savadlı olmalıdır, həm də vətənpərvərlik ruhunda tərbiyə almalıdırlar. Yəni bütün bunlar məktəb illərində həll olunur və müəllimlərdən çox şey asılıdır. Azərbaycanda müəllimlərin sayı çoxdur və onların sosial vəziyyəti ildən-ilə yaxşılaşmalıdır.

Bütün məktəblər təmir olunacaqdır. Son illər ərzində 1500 yeni məktəb tikilib, yüzlərlə məktəb əsaslı təmir olunubdur. Növbəti illərdə bu, davam etdiriləcəkdir. Hələ elə məktəblər var ki, onlar yararsız qəza vəziyyətindədirlər.

İndi xüsusi proqram icra olunur. Bütün rayon və şəhərləri, o cümlədən Şirvanı da nəzərdə tutur. Hesab edirəm ki, növbəti 3-4 il ərzində Azərbaycanda yararsız vəziyyətdə məktəb qalmayacaqdır. İndi bütün məktəblərdə yaxşı avadanlıqlar quraşdırılır, kompyuter sinifləri yaradılır ki, bizim uşaqlarımız gənc yaşlarından bütün qabaqcıl texnologiyalara hazır olsunlar. Bu onların gələcək fəaliyyəti üçün çox vacibdir.

Şirvan şəhərinin də inkişafı göz qabağındadır.

**Əzizə Məmmədova:** Bəli, təzə ad, inkişaf, tərəqqi, gözəllik.

**Səadət Quliyeva:** Çox sağ olun ki, bu adı bizim şəhərimizə verdiniz. Doğrudan da biz bununla fəxr etdik.

**İlham Əliyev:** Mən o vaxt belə təşəbbüs irəli sürdüm ki, şəhərin adı dəyişməlidir. Çünki şəhərin özünəməxsus bir adı olmalıdır. Əvvəlki ad bir növ uyğun deyildi. Süni şəkildə yaradılmışdı. Düzdür, insanlar ona öyrəşmişdilər. Ancaq bəziləri heç bilmirdi ki, bu nə deməkdir, kiminlə bağlıdır. Amma eyni zamanda, mən icra hakimiyyətinin başçısına dedim ki, bütün fəallarla məsləhətləşin, sizin üçün hansı ad daha uyğundursa, biz onun üstündə dayanaq. Hələ mən istəyirdim ki, burada yaşayan insanlar bu qərarı versinlər. Bu ad – Şirvan doğrudan da tarixi addır. Azərbaycanın böyük bir hissəsi Şirvan bölgəsi hesab olunur.

**S ə a d ə t  Q u l i y e v a:** Həm də üzərimizə böyük məsuliyyət qoyur.

**İ l h a m  Ə l i y e v:** Əlbəttə, Şirvan bölgəsində müxtəlif şəhərlər, qədim şəhərlər yerləşir. Ona görə bu şəhərə Şirvan adının verilməsi həm də böyük məsuliyyətdir, şərəfdir. Bu çox gözəl addır, Azərbaycanın tarixinin böyük bir parçasıdır. Tariximizin böyük bir hissəsi Şirvanla bağlıdır.

**Ə z i z ə  M ə m m ə d o v a:** Hörmətli Prezident, bu diqqətə, qayğıya görə çox sağ olun. Onu da demək istəyirəm ki, Siz tədrisə necə böyük qiymət verirsiniz. Azərbaycandan kənarda 4 mindən çox tələbənin oxuması balaca iş deyildir. Onlar bizim xəzinəmizdir. Ən zəngin xəzinədir. Allah Sizə cansağlığı versin.

**İ l h a m  Ə l i y e v:** Əslində, bir yenilik yoxdur. Çünki bu ənənəni vaxtilə Heydər Əliyev qoymuşdur.

**Ə z i z ə  M ə m m ə d o v a:** Bəli, ilk dəfə ulu öndər qoymuşdur.

**İ l h a m  Ə l i y e v:** Hər il 800–900 tələbə Moskva, Leninqrad, Kiyev və SSRİ-nin başqa aparıcı şəhərlərinə imtahansız göndərilirdi. Yəni imtahanları Bakıda verirdilər, oxumağa oraya gedirdilər. İndi onların bir çoxu Azərbaycanda, müxtəlif yerlərdə işləyirlər. Yəni biz bu ənənəni elə bil ki, bərpa edirik və bu başlanıbdır. Bununla bərabər, hesab edirəm ki, növbəti mərhələdə Azərbaycanın daxilində təhsilin keyfiyyəti elə olmalıdır ki, biz uşaqları xaricə göndərməyək. Yəqin biz növbəti mərhələdə daha çox xaricdən bilikli, tanınmış müəllimləri dəvət edəcəyik ki, onlar bizim ali məktəblərdə dərs desinlər və müxtəlif seminarlar keçirsinlər. Buna ehtiyac var. Bizə bilikli mütəxəssislər lazımdır. Ancaq yenə də deyirəm, əsas vəzifə odur ki, Azərbaycanda təhsilin səviyyəsi yüksək olsun.

**S ə a d ə t  Q u l i y e v a:** Mən qadınların qurultayında idim. Mehriban xanım çox gözəl çıxış etdi, yəni hər sahəyə toxundu. Biz birinci xanımımızla həqiqi mənada fəxr edirik.

Təhsilə böyük önəm verir. Gözəl, xeyirxah işlərlə məşğuldur. Mehriban xanım, uşaqdan tutmuş böyüyə kimi hamı sizi sevir.

**F i r ə n g i z  Ş i r ə l i y e v a:** Mehriban xanım, builki birinci sinif uşaqlarının hamısına çanta və içərisində lazım olan ləvazimatlar paylamısınız.

**İ l h a m  Ə l i y e v:** Hamıya çatdımı?

**F i r ə n g i z  Ş i r ə l i y e v a:** Bəli, hamıya çatdı. Bütün valideynlər minnətdardır. Mənim nəvəm bu il birinci sinifə gedir, bu sevinci bütün ailəmiz yaşayıbdır. Siz Azərbaycanda nə qədər ailənin sevincinə səbəb olursunuz. Çox sağ olun.

* * *

*Oktyabrın 4-də dövlətimizin başçısının Füzuli, Beyləqan, Ağdam rayonlarına və Şirvan şəhərinə səfəri başa çatdı.*

## İSLAM ÖLKƏLƏRİNİN ALİ TƏHSİL VƏ ELM NAZİRLƏRİNİN IV KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – İslam ölkələrinin Ali təhsil və elm nazirlərinin IV konfransının iştirakçılarını Azərbaycanın paytaxtı Bakı şəhərində ürəkdən salamlayıram, konfransınızın işinə uğurlar diləyir, hər birinizə ən xoş arzularımı yetirirəm.

İslam ölkələri ilə hərtərəfli əməkdaşlıq müstəqil Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası yolunda əsas istiqamətlərdən birini təşkil edir. Son illər İslam Konfransı Təşkilatı və İslam Elm, Təhsil və Mədəniyyət Təşkilatı ilə əlaqələrimizin daha da genişlənməsi bu münasibətlərin qarşılıqlı faydalı zəmində qurulmasından xəbər verir, xalqlarımızın təhsil və elm sahələrində gələcək inkişafına xidmət edir.

Müasir dünyanın qlobal inkişaf meyilləri dövlətlərin və cəmiyyətlərin sosial-iqtisadi həyatında təhsilin, elmin və yeni texnologiyaların əvəzsiz rol oynadığını aydın göstərir. İnkişafı təmin edən intellektual potensialın artırılması naminə təhsildə və elmdə qazanılmış qabaqcıl təcrübələrin öyrənilməsi, mübadiləsi və tətbiqi istiqamətində bütün birgə səylər yüksək qiymətləndirilməlidir. Ümidvaram ki, konfransınızda İslam ölkələrində elm, texnologiya və innovasiya strategiyası, biliklərə əsaslanan iqtisadiyyatın qurulması və ali təhsil sahəsində əməkdaşlığa dair problemlərin müzakirəsi təqdirəlayiq amil olaraq öz səmərəsini verəcəkdir.

Son illər Azərbaycan sosial-iqtisadi inkişaf yolunda ciddi uğurlar əldə etmişdir. Bütün bunlar ölkəmizin təbii resurslarından məqsədyönlü istifadə olunmasına yönəlmiş iqtisadi siyasətin nəticəsidir. Sevindirici haldır ki, həmin islahatlar, eləcə də yerli və beynəlxalq əhəmiyyətli iri layihələr peşəkar

milli kadrların bilik və bacarıqları sayəsində müvəffəqiyyətlə həyata keçirilmişdir.

Azərbaycanda cəmiyyətin tərəqqisinin mühüm amili kimi, təhsil və elm xüsusi dövlət qayğısı ilə əhatə olunmuşdur. İnformasiya Cəmiyyəti üzrə sammitdə ölkəmiz bəyan etmişdi ki, bizim əsas vəzifəmiz mövcud iqtisadi nailiyyətlərimizin bəhrələrini insani resurslarına çevirməkdən ibarətdir. Bu məqsədlə ölkəmizdə təhsilin və elmin daha da inkişaf etdirilməsinə dövlət tərəfindən ayrılan vəsaitin həcmi ildən-ilə artırılır, xüsusi dövlət proqramları gerçəkləşdirilir. İnanıram ki, mötəbər tədbiriniz təmsil etdiyiniz ölkələrdə bu istiqamətdə məsələlərin ətraflı müzakirəsini aparacaq, gələcək faydalı əlaqələrin qurulması üçün geniş imkanlar açacaqdır.

Əminəm ki, konfransınız ölkələrimizin inkişafı, xalqlarımızın rifahı naminə təhsil və elm sahələrində əməkdaşlığın yeni yollarını müəyyən edərək, qarşıdakı vəzifələrin həyata keçirilməsinə öz layiqli töhfəsini verəcəkdir.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 oktyabr 2008-ci il*

## İSLAM ÖLKƏLƏRİNİN ALİ TƏHSİL VƏ ELM NAZİRLƏRİNİN BAKIDA KEÇİRİLƏN IV KONFRANSININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 oktyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da İslam ölkələrinin Ali təhsil və elm nazirlərinin Bakıda keçirilən IV konfransının iştirakçılarını qəbul etmişdir.*

*Prezident İlham Əliyev qonaqlara müraciətlə dedi:*

– Mən Sizin hamınızı Azərbaycanda salamlamaq istəyirəm. Çox şadam ki, burada əyləşənlərin ölkəmizə səfər etmək imkanı olubdur. Sizlərdən bəziləri burada artıq olublar, lakin konfrans iştirakçılarının bir çoxu Azərbaycana ilk dəfə səfər edirlər.

Eyni zamanda, mən bu cür mühüm tədbiri Azərbaycanda təşkil etdiyinə görə İSESKO-ya və onun Baş direktoruna minnətdarlığımı bildirmək istəyirəm. İlk növbədə, belə konfrans iştirakçılarının bir-biri ilə görüşməsi və ölkələrimiz arasında münasibətləri möhkəmləndirmək eləcə də təhsil məsələlərini müzakirə etmək baxımından yaxşı fürsətdir. Əminəm ki, konfrans bütün ölkələr üçün çox mühüm olacaqdır, çünki bu elə bir sahədir ki, biz gələcəkdə əsas diqqəti ona yetirməliyik. Bu, xalqlarımızın, yeni nəsillərin gələcəyidir. İnanıram ki, gələn illər ərzində ölkələrimizin inkişaf səviyyəsi əsasən təhsilin səviyyəsindən və insanlarımızın biliklərindən, eləcə də ölkələrimizin inkişafına töhfə vermək qabiliyyətindən asılı olacaqdır.

Bir sözlə, fikrimcə, bu konfransın bir çox mühüm məqamları var. Əlbəttə ki, onlardan birincisi, islam dövlətləri arasında həmrəyliyin möhkəmləndirilməsidir. Bu baxımdan, biz

Azərbaycanda həmin sahədə öz rolumuzu oynamağa çalışırıq və yəqin siz bilirsiniz ki, Bakıda İKT-nin və müsəlman ölkələrinin müxtəlif sahələrə aid bir sıra beynəlxalq konfransları keçirilmişdir. Biz ölkəmizdə bu cür bir çox digər tədbirləri təşkil etməyə çalışacağıq.

İlk növbədə, bu sizi görmək üçün münasib fürsətdir. İkincisi isə ondan ibarətdir ki, Azərbaycan gənc müstəqil dövlətdir və hələ də dünyada tam yaxşı tanınmır. Bunları nəzərə alaraq, daha çox səfərlər və təmaslar bir-birimizi daha yaxından tanımağa imkan yaradır.

Biz ölkəmizdə təhsil məsələlərinə xüsusi önəm veririk. Ali və orta təhsil bizim diqqətimizin mərkəzindədir. Dövlət siyasətimizin müsbət örnəklərindən biri təhsil məqsədləri üçün dövlət xərclərinin artırılmasıdır. Ola bilsin, Siz bu haqda eşitmisiniz. Əgər eşitməmisinizsə, nazir sonra sizə təfərrüatı ilə məlumat verər ki, ötən illər ərzində bu sahədə hansı işlər görülübdür. Təhsil dövlət büdcəmizdəki xərclər siyahısında ikinci yeri tutur. Birinci yeri, əfsuslar ki, hərbi xərclər tutur. Lakin biz bunu etməyə məcburuq, çünki biz müharibə şəraitindəyik. 15 ildən çoxdur ki, ərazilərimiz Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Buna görə də hərbi güc imkanları bizim üçün çox vacibdir.

Dövlət təhsil proqramlarının həyata keçirilməsində üzləşdiyimiz məsələlərdən biri qaçqın və məcburi köçkün uşaqları arasında təhsilin səviyyəsi idi. Ermənistanın hərbi təcavüzü nəticəsində bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. İşğal edilmiş yeddi rayonumuz tamamilə dağıdılıb, orada bütün orta məktəblər və tarixi abidələr məhv edilibdir. Əlbəttə ki, müharibə, işğal inkişafımıza, xüsusən də qaçqın-köçkün ailələrinin uşaqlarının təhsil səviyyəsinə çox mənfi təsir göstərmişdir. Biz bu məsələni tam ciddiliyi ilə aradan qaldırmalı idik. Qaçqın və məcburi köçkünlərin yeni yaşayış yerlərinə köçürülməsi proqramının birinci mərhələsi tam başa çatdırılmışdır. Biz bütün çadır düşərgələrini ləğv etməyə və qaçqın-köçkünlər üçün yeni

evlərin, habelə orta məktəb binalarının tikilməsini nəzərdə tutan layihələri həyata keçirməyə nail olduq. Hər bir yeni salınmış qəsəbədə məktəb tikilmişdir. Beləliklə, Azərbaycanda bütün uşaqların təhsil almaq imkanları var.

Biz çox şadıq və fərəhlənirik ki, uşaqlarımızın hamısı, yəni onların 100 faizi məktəblərdə təhsil alır. Ölkədə savadlılıq, demək olar ki, 100 faizdir. Lakin biz gələcəyə nəzər salmalıyıq. Bu gün dünya dəyişir. Qloballaşma, inteqra-siya prosesləri gedir. Təbii ki, biz də buna hazır olmalıyıq. Hazırda biz kompyuterləşdirmə proqramını həyata keçiririk. Biz informasiya texnologiyalarının inkişafına xüsusi diqqət yetiririk. Təhsil, rabitə və informasiya texnologiyaları nazirlikləri bunun üzərində birgə çalışır. Yəni, nəinki məktəb tikintisi gedir, həm də təhsilin səviyyəsi artır. Bütün bunlar bizim üçün yeni imkanlar açır. Həyata keçirdiyimiz kompyuterləşdirmə sahəsində biz elə bir səviyyəyə çatmışıq ki, əvvəllər 1000 məktəbliyə 1 kompyuter düşürdüsə, indi 29 şagirdə 1 kompyuter düşür.

Biz öz adət-ənənələrimizi, həyat tərzimizi qoruyub saxlamalıyıq. Qloballaşma prosesi bizim dəyərlərimizə, köklərimizə, tariximizə və gələcəyimizə müdaxilə etməli deyil. Biz ölkəni müasirləşdiririk, şəhərlərimizi yeniləşdiririk. Bütün xalqımız, o cümlədən gənclər üçün mümkün qədər əla şərait yaratmağa çalışırıq. Gənclər ölkəmizdə çoxluq təşkil edir. Biz çalışırıq ki, onların yaxşı təhsil almaq, xaricdə biliklərə yiyələnmək və müasir dünyanı öyrənmək imkanı olsun.

Azərbaycan qədim tarixi və zəngin mədəniyyəti olan ölkədir. Lakin müstəqil ölkə kimi, tariximiz nisbətən qısadır. Əsrlər boyu biz digər imperiyaların və ölkələrin tərkibində yaşamışıq. Lakin biz milli mənsubiyyətimizi qoruyub saxlaya bilmişik. Bu bizim milli köklərimizə bağlılığımız sayəsində mümkün olmuşdur. Biz bu haqda daim düşünməliyik. Qloballaşan dünyanın ən qabaqcıl təcrübəsini Azərbaycana gətirmək üçün biz ümumbəşəri dəyərləri bölüşürük, lakin bizim öz dəyərlərimiz, Azərbaycan və islam dəyərlərimiz, ənənəvi

dəyərlərimiz də var. Bütün bunlar inkişafımızın əsaslarını təşkil edir.

Mən bir daha demək istəyirəm ki, bütün dövlət proqramlarımızda təhsil əsas prioritet kimi götürülür. Ölkəmizdə həyatın bütün sahələrinə – iqtisadi inkişafa, siyasi islahatlara, sosial sahəyə, infrastruktur layihələrinə aid proqramlarımız var. ÜDM-in və sənaye istehsalının artımı baxımından Azərbaycan son 4 il ərzində dünyada birinci yeri tutur. Bu il Dünya Bankı ölkəmizi dünyada bir nömrəli islahatçı dövlət kimi tanımışdır. Bizim müxtəlif sahələrdə gözəçarpan proqramlarımız var. Əlbəttə ki, müstəqilliyini yenicə qazanmış ölkələr özlərinin iqtisadi potensialı haqqında düşünməlidirlər, çünki güclü iqtisadiyyat olmadan ideyalarımızdan heç biri həyata keçirilə bilməz. Lakin biz eyni diqqətlə təhsil məsələlərinə də yanaşmalıyıq, çünki bu bizim gələcəyimizdir. Gələcəyini qurmayan ölkə heç bir uğur qazana bilməz. Bizim böyük enerji resurslarımız, inkişaf etmiş infrastrukturumuz ola bilər və buna malikik. Lakin bilikli və bacarıqlı insanlar və ən yüksək standartları qavrayan gələcək nəsil olmasa, biz uzunmüddətli uğur qazana bilmərik.

Mən təhsilə, eləcə də islam həmrəyliyinə nə dərəcədə böyük önəm verdiyimizi söyləmək istəyirəm. Bu konfrans həmin iki amili, o cümlədən Azərbaycanın hazırkı inkişafının bir çox digər amillərini əhatə edir. Bu, ölkələrimiz arasında dostluğu möhkəmləndirmək üçün yaxşı fürsətdir. Burada bir çox ölkələrin nümayəndəsi əyləşibdir. Artıq qeyd etdim ki, sizlərdən çoxunuz ölkəmizə ilk dəfədir ki, səfər edirsiniz. Əminəm ki, bu səfər sonuncu olmayacaq və əməkdaşlığımız davam edəcəkdir.

Çıxışımın sonunda mən müsəlman dünyasında və Azərbaycanda bu məsələlərə sadiqliyinə görə İSESKO-ya və onun rəhbərinə bir daha minnətdarlığımı bildirirəm. Bizim cənab əl-Tüveycriyə böyük hörmətimiz var. O, əlaqələrimizin inkişaf etdirilməsində, mədəniyyət, təhsil və humanitar sahə-də göstərdiyi səylərə görə Azərbaycanın yüksək ordeninə la-yiq görülmüşdür.

Bir daha xoş gəlmisiniz! Əminəm ki, Azərbaycana səfərinizdən razı qalacaqsınız.

* * *

*İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri beynəlxalq konfransın Bakıda keçirilməsini mühüm hadisə adlandıraraq dedi ki, İSESKO və İslam Konfransı Təşkilatına (İKT) üzv-ölkələr sizin müdrik siyasətiniz sayəsində gedən güclü və sürətli inkişafı görməkdən məmnundur. Mən ölkənizə dəfələrlə səfər etmişəm və bütün sahələrdə gözəl inkişafın şahidi olmuşam. Baş direktor Azərbaycan təhsilində də böyük inkişaf olduğunu, dövlətin bu sahədə uğurlu siyasətini xüsusi vurğulayaraq dedi ki, son illər ölkədə 1500 məktəbin tikilməsi gözəl göstəricidir. Bir çox ölkələrdə bunu görmək mümkün deyildir. Biz bu nailiyyətlərə görə Sizə təşəkkür edirik. Konfransın işini yüksək qiymətləndirən İSESKO-nun Baş direktoru onu gələcək məqsədlərə nail olmaq baxımından mühüm addım adlandırdı.*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PETER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 oktyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Peter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan–Avropa İttifaqı əməkdaşlığının genişlənməsindən məmnunluq ifadə olundu, ölkəmizdə qarşıdan gələn prezident seçkilərinə hazırlıq məsələləri və Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN CƏNUB BÖLGƏSİNƏ SƏFƏRİ

*7 oktyabr 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 7-də Biləsuvar rayonuna gəlmişdir.*

*Dövlət başçısı və xanımı Mehriban Əliyeva əvvəlcə Heydər Əliyev parkında ulu öndərin abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular.*

*Biləsuvarlıların sevimli istirahət guşələrindən olan parkda orijinal fəvvarələr yaradılmış, dekorativ gül kolları və ağaclar əkilmiş, çəmənlik salınmış, müasir işıqlandırma sistemi quraşdırılmışdır. Burada uşaqların əylənməsi üçün də gözəl şərait var.*

*Parkda ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinə kompleks də yaradılmışdır.*

### Heydər Əliyev Muzeyi ilə tanışlıq

*Oktyabrın 7-də prezident İlham Əliyev Biləsuvar şəhərində Heydər Əliyev Muzeyi ilə tanış olmuşdur.*

*Muzeydə ümummilli liderin uşaqlıq və gənclik illərinə, sovet dövründəki fəaliyyətinə və müstəqil Azərbaycana rəhbər-liyi illərinə aid, habelə Biləsuvara səfərlərini əks etdirən fotoşəkillər, görkəmli şəxsiyyətin zəngin irsindən bəhs edən kitablar toplanmışdır.*

*Prezident İlham Əliyev muzeylə tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.*

## «Biləsuvar Aqro» MMC-nin süd zavodu ilə tanışlıq

*Oktyabrın 7-də prezident İlham Əliyev «Biləsuvar Aqro» MMC-nin süd zavodu ilə tanış olmuşdur.*

*İnşasına 2007-ci ildə başlanılmış zavodda tikinti-quraşdırma işləri bu ilin sentyabrında tamamlanmışdır. Zavodda Almaniya, Polşa, Türkiyə, ABŞ və digər ölkələrdən alınmış avadanlıqlar quraşdırılmışdır.*

*İstehsal prosesi üçün lazım olan su süni göldən götürülür və ABŞ-dan gətirilmiş mükəmməl qurğuda təmizlənir.*

*Regionda analoqu olmayan bu müəssisənin işə düşməsi ilə ölkənin daxili tələbatı tam ödəniləcək, Azərbaycan quru süd kimi mühüm məhsul ixrac edən ölkəyə çevriləcəkdir. Artıq Gürcüstandan və bir sıra digər ölkələrdən sifarişlər alınmışdır. Zavodda süddən kərə yağı alınır, qalan kütlədən isə mükəmməl texnologiya əsasında yağsız və 25 faiz yağlılığı olan quru süd istehsal edilir.*

*Hazırda zavodda bir növbədə 70 nəfər çalışır. Tədricən onların sayı artacaq və müəssisə üç növbədə işləyəcəkdir. İlk vaxtlar Biləsuvardan və ətraf rayonlardan əhalidən 50–60 ton südün qəbul edilməsi nəzərdə tutulmuşdur. Zavod ətraf bölgədə südçülük istiqamətli heyvandarlığın, habelə əkinçiliyin inkişafına da müsbət təsir göstərəcəkdir. Bunun hesabına 500 nəfərin işlə təmin ediləcəyi gözlənilir. Müəssisənin rəhbərliyi Hollandiyadan 500-dək xüsusi cins inək gətirməyi də planlaşdırır.*

*Prezident İlham Əliyev südün qəbulu sexində zavodun işə düşməsini bildirən düyməni basdı, müəssisənin istehsal sahələri ilə tanış oldu.*

*Dövlət başçısı zavodun kollektivinə uğurlar arzuladı, rayonun sosial-iqtisadi inkişafına dair görülən işlər barədə tövsiyələrini söylədi.*

## Məktəb-lisey kompleksinin açılışı mərasimi

*Oktyabrın 7-də prezident İlham Əliyev Biləsuvarda məktəb-lisey kompleksinin açılışında iştirak etmişdir. Ümumi sahəsi 6 min kvadratmetr olan və Avropa standartlarına uyğun layihələndirilmiş bina zəlzələyə yüksək davamlılıq nəzərə alınmaqla tikilmişdir.*

*500 şagird üçün nəzərdə tutulan məktəb-liseyə bu il Biləsuvar rayonunda 2800 şagird arasından test üsulu ilə 192 nəfər seçilmişdir. Daha 15 şagird rayon ərazisindəki, məcburi köçkün qəsəbələrindəki 140 şagird arasından seçilmişdir və onlar yataqxana ilə də təmin olunacaqlar. Liseydə təhsil pulsuzdur. Bu il hərəsi iki sinif olmaqla, 5–8-ci siniflər komplektləşdirilmişdir. Hər sinifdə 24–26 şagird təhsil alacaqdır. Növbəti ildə bütün bölgəni əhatə etməklə birinci sinifə qəbul aparılacaqdır. Bu məqsədlə gələn il yeni yataqxananın tikintisi də planlaşdırılır.*

*Liseydə 20 müəllim çalışır, gələcəkdə onların sayı 70-ə çatdırılacaqdır.Tədris genişləndirilmiş proqram, nəzəriyyə və təcrübələrin inteqrasiyası vasitəsilə aparılacaqdır. Keçilmiş hər mövzudan sonra yoxlama testi, hər ay sınaq imtahanı olacaqdır. Gələcəkdə kompleksin nəzdində məktəbəqədər təlim bölməsinin də açılması nəzərdə tutulmuşdur.*

*Kompyuter otağında şagirdlər üçün internetə qoşulmuş 24, informatika dərsini aparan müəllim üçün ayrıca kompyuter vardır. Vahid elektron şəbəkəsi olan liseydə respublikamızda ilk dəfə olaraq yeni təhsil mühiti – informatika sistemi yaradılmışdır.*

*Kitabxanadakı ədəbiyyatın bir hissəsinin isə həm də elektron versiyası olacaqdır.*

*Prezident İlham Əliyev kompleksin akt salonuna, 80 nəfərlik yeməkxanaya, 184 yerlik tribunası olan idman salonuna, fizika, kimya və biologiya laboratoriyalarına, müəllimlər otağına, kompyuter, rəsm otaqlarına, hərbi hazırlıq kabinetinə və kitabxanaya baxdı.*

*Bu cür müasir tipli komplekslərin ölkəmizdə təhsilin inkişafına diqqət və qayğının göstəricisi olduğunu söyləyən prezident İlham Əliyev dedi ki, gənc nəslin savadlı böyüməsi, biliklərə dərindən yiyələnməsi üçün burada hər cür şərait vardır.*

*Dövlət başçısı məktəb-liseyin kollektivinə uğurlar arzuladı.*

## Olimpiya İdman Kompleksinin açılışı mərasimi

*Oktyabrın 7-də Biləsuvarda Olimpiya İdman Kompleksinin açılışı olmuşdur. Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Olimpiya oyunlarında ölkəmizi təmsil etmiş idmançılar səmimiyyətlə qarşıladılar.*

*Dövlət başçısı kompleksin açılışını bildirən lenti kəsdi, ümummilli lider Heydər Əliyevin idmana qayğısını və ölkəmizin idman uğurlarını əks etdirən fotostendə baxdı.*

*Məlumat verildi ki, 6,5 hektar ərazidə yerləşən kompleksin təməli 2007-ci ilin fevralında qoyulmuş, bu ilin sentyabrında tikinti başa çatdırılmışdır. Tikintinin gedişində burada hər ay orta hesabla 100 nəfər işləmiş, onların orta aylıq əməkhaqqı 350–400 manat təşkil etmişdir.*

*Kompleksə 910 tamaşaçı tutan tribunaları olan əsas idman salonu, 25 metrlik üzgüçülük hovuzu, müasir idman avadanlıqları quraşdırılmış kiçik və böyük trenajor və məşq zalları, şahmat otağı, stolüstü tennis salonu və yardımçı otaqlar daxildir. 100 nəfərlik yeməkxanası olan kompleksin ərazisində 50 yerlik mehmanxana, habelə ikimərtəbəli 2 kottec də tikilmişdir.*

*Müasir standartlara cavab verən kompleksdə respublika və beynəlxalq səviyyəli yarışların keçirilməsi üçün lazımi şərait var. Kompleksin ərazisi tam abadlaşdırılmış, müxtəlif növ dekorativ ağaclar və gül kolları əkilmişdir.*

*Prezident İlham Əliyevə Biləsuvar idmançılarının son vaxtlar qazandıqları uğurlar haqqında da məlumat verildi.*

## RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*7 oktyabr 2008-ci il*

*Oktyabrın 7-də Olimpiya İdman Kompleksinin açılışından sonra prezident İlham Əliyev Biləsuvar rayonu ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.*

*4 nömrəli şəhər orta məktəbinin müəllimi, rayon Ziyalılar Cəmiyyətinin sədri Sahibəli Mirzəyev dövlət başçısına müraciətlə dedi:*

– Cənab Prezident, Biləsuvar şəhərinə xoş gəlmisiniz, səfa gətirmisiniz. Qədəmləriniz mübarək olsun!

Biləsuvar camaatı Sizi həmişə səbirsizliklə, intizarla gözləmişdir. Şükürlər olsun ki, bu gün bizimlə bir yerdəsiniz. Biləsuvarlılar indi sevinc içərisindədirlər və Sizi salamlamağa da həmişə şaddırlar.

Siz prezident olduğunuz dövrdə bütün fəaliyyətinizi respublikamızın sosial-iqtisadi inkişafına, tərəqqisinə sərf etmisiniz. Bunun sayəsində Azərbaycan dünyada tanınmış bir dövlətə çevrilibdir. İndi Azərbaycanın bütün dünyada imici var, ad-sanı var, Azərbaycanla hesablaşırlar. Elə bir problem, məsələ yoxdur ki, – istər regional məsələ, istər dünya məsələsi olsun – Azərbaycanın sözü eşidilməsin və Sizin fikriniz, rəyiniz nəzərə alınmasın.

Cənab Prezident, Siz xalqın rifahı naminə öhdənizə çox böyük vəzifələr götürmüşdünüz – 600 min yeni iş yerinin açılması, regionların sosial-iqtisadi inkişafının təmin olunması, yoxsulluğun minimum həddə endirilməsi. Şükürlər olsun ki, bu, indi həyatda öz əksini tapıbdır. Siz 2006-cı ilin avqust ayında Biləsuvarda olmuşdunuz. Biləsuvarı tanımaq mümkün deyildir. O da Sizin xidmətinizin, fədakar əməyinizin nəticəsidir. Nə

qədər binalar, nə qədər sosial obyektlər tikilib, istirahət parkları salınıbdır. Heydər Əliyevin adını daşıyan istirahət parkımız respublikada ən gözəl, nümunəvi parklardan biridir. Bunlar hamısı Sizin xidmətlərinizdir.

Cənab Prezident, əgər mümkünsə, Biləsuvar əhalisinin bir arzu və istəyini Sizə çatdırmaq istəyirəm.

**İlham Əliyev:** Buyurun.

**Sahibəli Mirzəyev:** Biləsuvar aqrar rayondur. Burada pambıqçılıq, taxılçılıq, maldarlıq geniş yayılıb və son vaxtlarda bu sahələrdə böyük tərəqqi əldə edilibdir. Ancaq su problemi meydana çıxıbdır. Biləsuvar rayonu, demək olar ki, bütünlüklə mexaniki suvarma üsuluna əsaslanır. Ona görə bu, Biləsuvar camaatının arzusudur və mən bunu Sizə çatdırıram. Camaatımız adından xahiş edərdim ki, imkan daxilində bizim rayona bu məsələdə kömək göstərəsiniz.

Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın birinci xanımı – mən deyərdim ki, xanımlar xanımı – Mehriban xanıma da öz səmimi təşəkkürümüzü bildiririk. Çünki burada nə qədər məktəb tikilib, nə qədər məktəb yenidən qurulubdur. Mən 4 nömrəli məktəbdə işləyirəm. Bu məktəb müasir tələblərə cavab verən qaydada yenidən qurulubdur. İndi adam binaya girəndə ruh yüksəkliyi hiss edir. Qarşısında durduğumuz idman kompleksi də həmçinin. Respublikada başdan-başa idman kompleksləri tikilir. Bu bizim gənclərimizə çox böyük qayğıdır. Bizim gənclərimizin, idmançılarımızın səsi dünya arenalarından gəlir. Tokiodan, Pekindən, Afinadan gəlir. Müxtəlif yarışlarda idmançılarımız çox böyük uğurlar qazanırlar. Bu Sizin xidmətinizdir. Xüsusilə müəllimlərə çox diqqət yetirirsiniz. Allah Sizə cansağlığı versin.

**İlham Əliyev:** Xoş sözlərinizə görə sağ olun. Şadam ki, son illər Biləsuvarda işlər çox yaxşı gedir. Siz qeyd etdiniz, 2 il bundan əvvəl mən gəlmişdim. Xatırlayırsınız, ondan əvvəlki dövrdə, 2003-cü ildə və ondan sonra da Biləsuvarda dəfələrlə olmuşam. Burada bu gün gördüyümüz binaların heç biri yox idi.

2 il ərzində bu gözəl Olimpiya İdman Kompleksi tikilibdir və bu gün açılışını qeyd etdik. Bizimlə üzbəüzdə ən müasir məktəb tikilibdir. Ən qabaqcıl texnologiyalarla təchiz edilmiş və memarlığı ilə fərqlənən gözəl məktəbdir. Siz qeyd etdiniz, bu gün mən süd zavodunun açılışında iştirak etdim, nadir bir zavoddur. İlk dəfədir ki, Azərbaycanda quru süd istehsal edən zavod tikilibdir. Demək istəyirəm ki, həm Azərbaycanın müxtəlif bölgələrində, həm də regionun başqa ölkələrində süd zavodları var. Amma quru süd istehsal edən zavod bir dənədir. Bu zavod Azərbaycanın bütün tələbatını təmin edəcək çox böyük ixrac potensialına da malikdir. Bu, Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin olunması üçün çox mühüm bir addımdır. Onu göstərir ki, həm yerli, həm də xarici investorlar, iş adamları Azərbaycana çox böyük həvəslə vəsait qoyurlar. Çox sevindirici hal odur ki, indi yerli investorlar daha fəaldırlar.

Azərbaycanda investisiya qoyuluşunun həcminə baxsaq görərik ki, daxili investisiyalar böyük fərqlə xarici investisiyaları üstələyir. Nəyin hesabına?! Çünki həm dövlət siyasəti düzgün aparılır, həm iş adamlarına şərait yaradılır. Biznesin inkişafı üçün yaxşı imkanlar var və insanlarımızın alıcılıq qabiliyyəti artır. Bunun da müxtəlif səbəbləri var, o cümlədən, siz qeyd etdiyiniz kimi, maaşların artırılması, biznes üçün yaxşı şəraitin yaradılması. Azərbaycan indi biznes üçün bir nömrəli islahatçı dövlətdir. Bunu Dünya Bankı bəyan etmişdir. Yəni bütün bu amillər bizi gücləndirir. Ölkəmiz güclənir, rayonlarda inkişaf gedir, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası, demək olar ki, başa çatıbdır. 5 il üçün nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapıbdır. Siz bunu Biləsuvar rayonunun timsalında görürsünüz. Nəinki burada, bütün başqa rayonlarda böyük inkişaf, böyük tərəqqi, böyük irəliləyiş var. İnfrastruktur layihələri icra olunur, sosial məsələlər həll edilir, iş adamları üçün şərait yaradılır.

Bax, yəqin siz də bilirsiniz, indi Bakıdan Biləsuvara və Astaraya qədər yeni yol çəkilir və o yolun təxminən 20–30 kilometri hazırdır. Hamı da görür ki, nə gözəl yoldur, dünyanın

ən yüksək standartlarına cavab verən yoldur. İnsanlara rahatlıq gətirəcək, biznesin inkişafına daha da böyük təkan verəcəkdir. İndi bizi bütün istiqamətlərdə başqa ölkələrlə birləşdirən yollar çəkilir. Bu infrastrukturdur, bunu dövlət edir. Elektrik stansiyalarını dövlət yaradır. Biznesin inkişafı üçün, insanların yaşaması üçün bütün başqa şəraiti dövlət yaradır. O cümlədən, məktəb tikintisini qeyd etdiniz, siz müəllimsiniz. Burada son illər ərzində bir neçə məktəb tikilib, təmir edilib və hamısı yaxşı təchiz olunubdur. Növbəti illərdə də bu, nəzərdə tutulubdur. Biz bu illər ərzində 1500 yeni məktəb tikdik. Amma hələ təxminən bir o qədər də yeni məktəb tikilməlidir. Hələ köhnə, yararsız, qəzalı vəziyyətdə olan məktəblər var. Onları biz təzə binalarla əvəzləyəcəyik.

Tibb müəssisələri yaradılır, mən görmüşəm, Biləsuvar rayonunda da tikinti gedir, yəqin ki, yaxın zamanlarda istifadəyə veriləcəkdir. Bu da yaxşı, yüksək səviyyəli tibbi xidmətin göstərilməsinə şərait yaradacaqdır.

Yəni, ilk növbədə insanlar üçün nə lazımdırsa, biz onu etməliyik və ölkəmizi iqtisadi cəhətdən inkişaf etdirmək üçün tədbirlər görüləcəkdir.

O ki qaldı su məsələsinə, bu doğrudan da indi nəinki burada, bütün ölkə üzrə problemlərdən biridir. Biz bu məsələnin həlli ilə məşğuluq, xüsusi proqram hazırlanıbdır. Həm içməli suyun gətirilməsi, həm meliorasiya işlərinin daha da sürətlə aparılması üçün əlavə tədbirlər görüləcəkdir. Mən göstəriş verəcəyəm ki, Biləsuvar rayonunda suvarma ilə bağlı olan problemlərin həlli üçün lazımi tədbirlər görülsün. Əgər əlavə vəsait lazım olacaqsa, bunu da biz təmin edəcəyik.

Çox yaxşı bilirəm ki, bunun son dərəcə böyük əhəmiyyəti var. Yəni biz suvarma məsələsinin həllinə nail olsaq, demək olar ki, Azərbaycanın kənd təsərrüfatı istehsalı bir neçə dəfə arta bilər.

**S a k i n l ə r:** Xüsusilə bu il havalar çox isti keçdi. Bizim rayonun əhalisi çox əziyyət çəkdi.

**İ l h a m   Ə l i y e v:** Bəli, təkcə burada deyil, demək olar, bütün rayonlarda bu problem var. Bu, indi əsas problemdir. Bir neçə il bundan əvvəl əsas problem işıq problemi idi. İndi bu problem tamamilə həll olundu, yoxdur. Ondan sonra qazlaşdırma problemi idi. İndi Azərbaycanın tarixində ilk dəfə olaraq hər bir rayonda qaz var. Düzdür, hər bir kənddə yoxdur. Amma biz qazlaşdırmanı davam etdirəcəyik. İndi ən vacib məsələlərdən biri içməli su, bir də ki, suvarma suyudur. Bunlarla biz məşğul olacağıq və mən düşünürəm ki, növbəti 2-3 il ərzində bu problem tamamilə aradan qaldırılmalıdır. Tamamilə aradan qaldırılacaq, yəni ki, biz bunu yarımçıq formada etmək istəmirik. İndi müxtəlif tədbirlər görülübdür. Məsələn, Kür çayından gələn suyun təmizlənməsi üçün Biləsuvar rayonunda da xüsusi qurğular qoyulubdur. İnsanlar əvvəllər o suyu dədə-baba üsulu ilə duruldur, təmizləyirdilər. İndi müasir qurğular tikilibdir və təmiz su gəlir. Bu proses davam etdiriləcəkdir.

Son bir neçə il ərzindəki bu tərəqqi, bu inkişaf bizim işimizin nəticəsidir. İkincisi, onu göstərir ki, hər bir məsələni biz həll edə bilərik. Elə məsələ yoxdur ki, onu həll edə bilməyək. Ölkə daxilində bütün sosial, iqtisadi və infrastruktur layihələrinin icrası uğurla gedir. Lənkəranda yeni aeroportun tikintisi başa çatıbdır. Ondan əvvəl Astarada elektrik stansiyası tikilmişdir. Bütün bunlar infrastruktur işlərinin daha da yüksək səviyyədə olmasını təmin edir. Əlbəttə ki, insanların daha da yaxşı yaşaması üçün əlavə tədbirlər görüləcəkdir.

Mən bir daha demək istəyirəm ki, Biləsuvarda 2 il bundan əvvəl olmuşdum və indi çox böyük dəyişiklikləri gördüm.

Burada tikilən binalar yüksək səviyyədədir, Azərbaycanda yaradılan bütün yeni obyektlər ən yüksək səviyyəyə cavab verməlidir. Bizim insanlarımız ən yaxşı şəraitdə yaşamalıdırlar, ən yaxşı xidmətə malik olmalıdırlar. Mən sizi bütün gözəl nailiyyətlərlə təbrik edirəm. Gözəl Olimpiya İdman Kompleksi, məktəb, süd zavodu – görün bir gündə neçə gözəl tədbirin

iştirakçısı olmuşuq. Sizə gələcək işlərinizdə də uğurlar və cansağlığı arzulayıram.

* * *

*Sonra prezident İlham Əliyev Biləsuvardakı Heydər Əliyev adına məktəbin direktoru Gülmali Güləliyev ilə görüşdü.*

**G ü l m a l i  G ü l ə l i y e v:** Cənab Prezident, mən Heydər Əliyev əsgəriyəm, ölənə qədər ən şərəfli medal mənim ürəyimin üstündə olacaqdır.

**İ l h a m  Ə l i y e v:** Mənim yadımdadır, hələ 2000-ci ildə parlament seçkiləri ərəfəsində mən buradan cənub tərəfə gedirdim, onu yolda gördüm, o vaxt tanımırdım. Sonra biz dostlaşdıq.

**G ü l m a l i  G ü l ə l i y e v:** Biləsuvar camaatı bütün işləri vicdanla yerinə yetirməyə hazırdır.

**S a k i n l ə r:** Cənab Prezident, bütün xalqımız kimi, biləsuvarlılar da Sizi sevir.

**İ l h a m  Ə l i y e v:** Mən də sizi çox istəyirəm və çox şadam ki, Biləsuvarda belə gözəl işlər görülür. Sizə yeni-yeni uğurlar arzulayıram. Bilin ki, mən rayonun inkişafı üçün nə lazımdırsa, həmişə onu edəcəyəm.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MASALLI RAYONUNA SƏFƏRİ

*7 oktyabr 2008-ci il*

*Prezident İlham Əliyev oktyabrın 7-də Masallı rayonuna gəlmişdir.*

*Dövlət başçısı və xanımı əvvəlcə Heydər Əliyev parkında ulu öndərin abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular.*

*Prezident İlham Əliyev parkla tanış oldu. Bildirildi ki, ümumi sahəsi 4 hektar olan parkın salınmasına ötən il başlanılmış və artıq işlər tamamlanmışdır. 17,5 min kvadratmetr ərazidə yaşıllıq salınmış, iki böyük fəvvarə tikilmişdir. Burada şəhər sakinlərinin istirahəti üçün yaxşı şərait yaradılmışdır.*

### Heydər Əliyev Muzeyinin açılışı mərasimi

*Prezident İlham Əliyev oktyabrın 7-də Masallıda tikilmiş Heydər Əliyev Muzeyinin açılışında iştirak edərək rəmzi açılışı bildirən lenti kəsdi.*

*İkimərtəbəli binanın birinci mərtəbəsindəki ekspozisiya salonunda ulu öndərin büstü qoyulmuşdur.*

*Muzeydə ümummilli liderin Azərbaycana rəhbərliyinin hər iki dövrünü əks etdirən fotoşəkillər, kitablar və digər eksponatlar toplanmışdır. Burada elektron kitabxana və konfrans salonu da vardır.*

*Prezident İlham Əliyev muzeyin Xatirə kitabına ürək sözlərini yazdı.*

## MASALLI İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*7 oktyabr 2008-ci il*

*Oktyabrın 7-də prezident İlham Əliyev Masallı şəhərində rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.*

**N a i l ə Ə s ə d u l l a y e v a** *(Digah kənd orta məktəbinin direktoru):* Möhtərəm Prezident, sevimli Mehriban xanım, xoş gəlmisiniz. Azərbaycanın cənub bölgəsinin dilbər guşəsi Masallıda sizləri salamlayırıq. Deyirlər, rəhbərin ayaq qoyduğu torpaq bərəkət gətirər. Arzu edirik ki, Sizin bugünkü bu gəlişiniz də Masallı torpağına bərəkət, xalqımıza ruzi gətirsin. İnanın, bu gün biz hamımız sevinirik, bütün Masallı sakinləri sevinir.

Sizin bölgələrə səfərlərinizi böyük sevinc, ruh yüksəkliyi ilə izləyirik və Azərbaycanımızın bugünkü inkişafını görüb fəxr edirik. Möhtərəm Prezident, bu gün elə bir ailə, elə bir ev yoxdur ki, orada Sizin adınız hörmətlə çəkilməsin. Həm Azərbaycana xidmət edən bir rəhbər kimi, həm də adı böyük hərflə yazılan bir şəxsiyyət kimi, Sizə hamının hörməti vardır. Bölgələrə səfərinizi izləyirik və görürük ki, hər bir yerdə gözoxşayan abadlıq işləri gedir. Masallı da bu işlərdən kənarda qalmır. Sizinlə görüşdüyümüz Heydər Əliyev adına park öz gözəlliyi ilə göz oxşayır. Burada bizim sakinlər istirahət edirlər. Heydər Əliyevə ucaldılan bu heykəl bizim sakinlərin ona olan hörmətini, sevgisini göstərir. Gənclərimiz ailə qurarkən bu heykəlin qarşısına gəlir, ehtiram əlaməti olaraq gül-çiçək dəstələri qoyurlar. Rayonumuzda səhiyyədə, təhsildə böyük irəliləyiş vardır. Zərifə Əliyeva adına sağlamlıq ocağının açılması ilə, əlbəttə ki, təkcə Masallı rayonunun sakinləri deyil, bütün bölgədən də buraya müayinə və müalicə olunmağa gələcəklər. Açılan hər bir təhsil, səhiyyə ocağı, hər bir müəssisə yeni avadanlıqlarla təmin olunur. Masallı əhalisinin sosial problemləri həll edilir, rayona dayanıqlı elektrik enerjisi verilir,

kəndlərdə qaz problemi həll olunur, yollarımız, şəhərdaxili küçələrimiz abadlaşır. Əlbəttə, bu, böyük irəliləyişdir. Hər məhəlləyə içməli su xətləri çəkilmişdir.

Amma bir təhsil işçisi kimi, əlbəttə ki, bizi daha çox bu sahədəki uğurlar sevindirir, daha əzmlə işləməyə ruhlandırır. Dövlət xətti ilə, Heydər Əliyev Fondunun xətti ilə Masallıda 2 il ərzində 10 məktəb binası tikilmiş, hamısı yeni, müasir avadanlıqlarla təmin edilmişdir. Sevimli Mehriban xanım, əlbəttə ki, bu işdə Sizin də böyük əməyiniz vardır. Sizin incə zövqünüz, Vətənə, xalqa olan sədaqətiniz bir daha sübut edir ki, bizim Sara Xatınlar, Natəvanlar müasir dövrdə də yaşayırlar. Sizin bu fəaliyyətiniz biz qadınlara böyük örnəkdir, nümunədir. Buna görə biz Sizə dərin təşəkkür edirik və qoy Allah-taala Sizi həmişə sevindirsin.

Möhtərəm Prezident, «İlin ən yaxşı müəllimi», «İlin ən yaxşı məktəbi» müsabiqəsinin təşkili, əmək haqlarımızın artırılması, «Müəllimlər yaxşı məktəblərdə çalışmalıdırlar, şagirdlər yaxşı məktəblərdə oxumalıdırlar» sözləriniz gələcəyə qayğının təzahürüdür. Bizi daha əzmlə işləməyə sövq edir. Qadınların III qurultayı ərəfəsində bir çox qadınlarımız mükafatlara layiq görülmüşdür, onların arasında bizim rayondan da 2 qadın vardır. «Tərəqqi» medalına layiq görülməyim məni bir daha sevindirir və məsuliyyət hissimi daha çox artırır. Mehriban xanım, Siz də ailənizlə birlikdə xoşbəxt olasınız. Sizə Azərbaycanın rifahı naminə gələcək işlərinizdə uğurlar diləyirəm. Çox sağ olun.

**İ l h a m   Ə l i y e v:** Sağ olun, təşəkkür edirəm. Mən çox şadam ki, Masallı çox sürətlə inkişaf edir, gözəlləşir, abadlaşır. Siz, burada yaşayan insanlar bunu daha yaxşı bilirsiniz və mən də bunu görürəm. Burada baş verən dəyişikliklər, əlbəttə ki, Masallı rayonunun hər bir sakinini və hər bir vətəndaşı sevindirir. Bu gözəl, abadlaşan parklar, təmir olunan binalar, yeni tikilmiş hündürmərtəbəli binalar, məktəblər, tibb ocaqları – bütün bunlar insanlar üçündür, insanların yaxşı yaşaması üçün nəzərdə tutulubdur. Bütün bu gözəl işlər Azərbaycanın gücünü

göstərir, ölkəmizin qüdrətini göstərir. Azərbaycan, sözün əsl mənasında, hərtərəfli inkişaf edir. Bizim inkişafımız təkcə statistik rəqəmlərlə ölçülmür. Halbuki bu statistik rəqəmlər bizə imkan verir ki, biz maliyyə imkanlarımızı daha da genişləndirək və büdcə xərclərimizi sosial məsələlərin həllinə yönəldək. Amma bu irəliləyiş insanların yaşayış səviyyəsinin yaxşılaşmasında, abadlaşan şəhərlərdə, çəkilən yollarda, su xətlərində, bir sözlə, həm iqtisadi, həm də sosial məsələlərin həllində özünü göstərir. Bizim ölkəmiz son illər ərzində dünyada analoqu olmayan sürətlə inkişaf edibdir. Bunu həm biz görürük, həm də bütün dünya etiraf edir. Biz bunu Masallı rayonunun timsalında da görürük, sosial obyektlər, məktəblər tikilir. Bu gün biz Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun filialını açacağıq. Bununla bərabər, yollar çəkilir, parklar salınır, içməli su xətti çəkilib və Masallı sakinlərini çox narahat edən məsələ öz həllini tapıbdır. Gələcəkdə bu məsələlər öz həllini daha da böyük həcmdə tapacaqdır. Sosial məsələlərin həlli üçün güclü iqtisadi potensial lazımdır. Bunu da Azərbaycan dövləti yaradır. Həm uğurlu neft strategiyamızın davam etdirilməsi sayəsində, eyni zamanda, ölkəmizdə aparılan köklü iqtisadi islahatlar hesabına, özəl sektorun inkişafı hesabına. Biz bunu Masallı rayonunun timsalında da əyani şəkildə görürük. Həm yerli iş adamları burada daha fəal işləyirlər, həm də dövlət xətti ilə yatırılan sərmayələr rayonun inkişafına növbəti təkan verəcəkdir. Bakı–Masallı–Astara avtomobil yolunun yeniləşməsi – bu, özlüyündə böyük bir təkanverici amil olacaqdır. İlk növbədə insanların rahatlığına xidmət edəcəkdir. Çünki Azərbaycan vətəndaşları yaxşı yollardan istifadə etməlidirlər. Digər tərəfdən, biznes, yerli sahibkarlıq inkişaf edəcək və beləliklə, hər bir bölgə, hər bir rayon özünəməxsus şəkildə, öz daxili potensialına istinad edərək, daha da sürətlə inkişaf edəcəkdir.

Nəzərə alsaq ki, Azərbaycan dövlətinin ildən-ilə artan iqtisadi potensialı artıq insan kapitalına çevrilir, əlbəttə ki, biz gələcəyə çox nikbinliklə baxa bilərik. Çünki bu vaxta qədər

istər iqtisadi, istər sənaye sektorunda, istər sosial sahədə nəzərdə tutulmuş bütün layihələr icra olunubdur. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında göstərilən bütün məsələlər öz həllini tapıb, özü də 2004-cü ildə nəzərdə tutulandan daha çox məsələ həll olunubdur. Növbəti 5 il üçün yeni proqram hazırlanır. Bu proqram çərçivəsində bütün qalan problemlər öz həllini tapacaqdır. Nəinki rayon mərkəzlərinin, həm də bütün kəndlərin problemləri – kənd yolları, infrastruktur layihələri öz həllini tapacaqdır.

Biz 5 il ərzində 1500 məktəb tikmişik, amma hələ ki, bu proses davam etməlidir. Hələ o qədər də yaxşı vəziyyətdə olmayan məktəblər var və təhsil işçiləri bunu bilirlər. Əlbəttə, 5 il ərzində 1500 məktəbin tikintisi böyük, tarixi nailiyyətdir. Azərbaycanda məktəblərin ümumi sayı 4500-dür. Onun 30 faizini biz yeniləşdirdik. Amma bu proses növbəti illərdə davam etdiriləcəkdir.

İndi bizim iqtisadi imkanlarımız var. Azərbaycanın çox güclü beynəlxalq mövqeləri var. Ölkəmizin hörməti artır, təsiretmə imkanlarımız artır. Biz istənilən meyara görə bu bölgədə, sözün əsl mənasında, aparıcı dövlətik. Azərbaycan həm sosial, həm iqtisadi, həm də siyasi məsələlərin həlli işində müstəqil ölkə kimi, uğurla çıxış edir. Əlbəttə, belə möhkəm iqtisadi zəmin əsasında biz insanları narahat edən bütün problemləri həll etməliyik.

Azərbaycanda çox güclü sosial siyasət aparılır: iqtisadi islahatlarla, bazar iqtisadiyyatı prinsiplərinə tam şəkildə keçməyimizlə bərabər, insanların sosial cəhətdən dəstəklənməsi, istər maaşların, pensiyaların artırılması, istərsə də ünvanlı sosial yardımın məbləğinin artırılması. İndi Azər-baycanda 500 minə qədər insan dövlət tərəfindən sosial müavinət alır. Yəni bu, dövlət tərəfindən insanlara birbaşa verilən ianədir. Nəyə görə?! Çünki o insanların buna ehtiyacı var. Çünki o insanlar hələ ki, həyatda özlərini tapa bilmirlər. Hələ ki, yaxşı iş ala bilməyiblər, yüksək maaş ala bilmirlər, onlar çətinlik çəkirlər. Bəzi yerlərdə, yəni sırf bazar iqtisadiyyatı prinsipi əsasında

yaşayan ölkələrdə bu məsələlərə məhəl qoyulmur. Amma bizim üçün əsas nədir?! Azərbaycan xalqının yaxşı yaşaması. Bütün islahatlar, aparılan bütün siyasət bu məqsədi güdür. İldən-ilə artırılan maaşlar və pensiyalar – onlar da bu məqsədi güdür. Əgər desəm ki, onların səviyyəsi bizi tam qane edir, elə deyil. Baxmayaraq ki, son illər ərzində bir neçə dəfə artırılıb, hələ ki, minimum əməkhaqqı bizi qane edə bilməz. Amma biz bu istiqamətdə böyük addımlar atmışıq və əlbəttə ki, növbəti illərdə də həm orta aylıq əməkhaqqı, həm minimum əməkhaqqı artırılacaqdır. Bölgənin və keçmiş postsovet məkanının başqa ölkələri ilə müqayisədə Azərbaycan bu baxımdan ən qabaqcıl yerlərdən birini tutur. Amma biz özümüzü inkişaf etmiş ölkələrlə müqayisə etməliyik. Yəqin ki, bilirsiniz, mən dəfələrlə demişəm, Azərbaycan inkişaf etmiş ölkələrin sırasına daxil olmalıdır. «İnkişaf etmiş ölkələr» – bu, elə termindir ki, çox ölkəni əhatə etmir, çox məhdud sayda ölkə özünü belə hesab edə bilər. Amma bizim tam imkanımız var ki, o ölkələrin sıralarında olaq. Çünki çox güclü insan potensialımız var, intellektual potensialımız yüksəkdir.

Siz təhsildən söhbət açdınız, təsadüfi deyil ki, biz təhsil sahəsinə böyük diqqət göstəririk, çünki bu bizim gələcəyimizdir. Bizim gələcəyimiz təhsillə bağlıdır. Uşaqlarımızın, gənc nəslin savadlı olması ilə bağlıdır. Yox, əgər bu olmasa, istənilən təbii sərvət nə qədər olursa-olsun, bunun heç bir əhəmiyyəti olmayacaqdır.

Digər tərəfdən, ölkəmizin təbii sərvətləri də var. Bu da Allahın hədiyyəsidir və biz bundan çox səmərəli şəkildə istifadə edirik. Bütün enerji məsələlərini həll etmişik. Azərbaycan növbəti onilliklər üçün özünün enerji təhlükəsizliyini təmin edib və başqa ölkələrin təhlükəsizliyinə öz töhfəsini verir.

Düşünülmüş strategiya və siyasət, iqtisadi islahatlar, kənd təsərrüfatının inkişafı – bax, bu məsələlərə daha böyük diqqət göstərməliyik və göstəririk. Ərzaq təhlükəsizliyini təmin edəcəyik ki, Azərbaycan bütün lazım olan istehlak mallarını daxildə istehsal etsin.

Biz Azərbaycanın müasirləşməsi ilə bərabər, biz çox güclü milli ənənələr üzərində gələcəyə baxırıq. Bütün bunlar birlikdə həll olunur və regionlarda gedən bu gözəl dəyişikliklər, əlbəttə ki, ölkəmizi gücləndirir. Mən istəyirəm ki, Azərbaycanın hər bir yerində yaxşı yaşamaq üçün ən yaxşı şərait olsun. Bax, Masallı rayonunun timsalında biz bu irəliləyişi görürük. Növbəti illərdə əlavə vəsait ayrılacaq, proqramlarda əlavə məsələlər nəzərdə tutulacaq ki, rayonun bütün problemləri həll edilsin və həmişəki kimi, Masallı ən gözəl, qabaqcıl rayonlardan biri olsun. Bu işlərdə sizə uğurlar və yeni qələbələr arzulayıram. Sağ olun.

* * *

*Dövlət başçısı Böyük Vətən müharibəsi veteranı Atabala Hacıyev ilə görüşdü, ölkəmizdə veteranlara çox böyük hörmət bəsləndiyini bildirdi, onların gənc nəsil üçün örnək olduğunu vurğuladı.*

*Veteranlara göstərilən diqqət və qayğıya görə təşəkkür edən Atabala Hacıyev Prezidentə işlərində uğurlar arzuladı.*

## ZƏRİFƏ ƏLİYEVA ADINA ELMİ-TƏDQİQAT GÖZ XƏSTƏLİKLƏRİ İNSTİTUTU FİLİALININ AÇILIŞI MƏRASİMİ

*7 oktyabr 2008-ci il*

*Oktyabrın 7-də akademik Zərifə Əliyeva adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun Masallı filialının açılışı olmuşdur. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etdilər.*

*Dövlət başçısı institutun bölgələrdə ilk filialının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Masallı şəhərinin mərkəzində, akademik Zərifə Əliyeva küçəsində yerləşən yeni səhiyyə müəssisəsinin ümumi sahəsi 850 kvadratmetrdir. Binanın foyesində görkəmli oftalmoloq alimin büstü qoyulmuşdur.*

*Filialda 6 çarpayılıq 3 palata, əməliyyat otağı, laboratoriya, ambulator, qəbul və müayinə şöbələri, konfrans salonu vardır.*

*Ən müasir avadanlıqların quraşdırıldığı və regional əhəmiyyət daşıyan bu səhiyyə ocağında göz xəstəliklərinin müayinə və müalicəsi üçün hər cür şərait yaradılmışdır. Yüksək hazırlıqlı tibbi heyətin işləyəcəyi filialda respublikamızın cənub bölgəsinin sakinlərinə tibbi xidmət göstəriləcəkdir.*

*Prezident İlham Əliyev akademik Zərifə Əliyevaya həsr edilmiş guşə ilə tanış oldu. Burada görkəmli alimin, habelə Göz Xəstəlikləri İnstitutunun fəaliyyətinə aid fotoşəkillər toplanmışdır. Dövlət başçısı filialda quraşdırılmış müasir avadanlıqlarla tanış oldu.*

*Prezident İlham Əliyev səhiyyə ocağının kollektivinə müraciətlə dedi:*

– Sizi təbrik edirəm. Burada gözəl şərait var. Bu yaxınlarda Bakıdakı xəstəxanada da belə gözəl şərait olacaqdır. Amma burada əsas vəzifə yerli həkimləri hazırlamaqdan ibarətdir.

Əlbəttə ki, sizin təcrübəniz burada həlledici rol oynayacaqdır. Həm əməliyyatlar aparacaqsınız, həm də çalışın ki, burada yerli həkimləri də öyrədəsiniz. Gələcəkdə hər bir bölgənin öz həkimləri bu işlərlə məşğul olmalıdırlar. Sizə uğurlar arzulayıram və bir daha təbrik edirəm.

* * *

*Sonra dövlət başçısı və xanımı filialın müasir standartlara cavab verən səyyar klinikası ilə tanış oldular. Bütün zəruri avadanlıqlarla təchiz edilmiş avtomobil institutun filiala hədiyyəsidir.*

## «Dəfinə» liseyi ilə tanışlıq

*Oktyabrın 7-də prezident İlham Əliyev Masallı şəhərində «Dəfinə» liseyi üçün tikilmiş bina ilə tanış olmuşdur.*

*Uzun illər baxımsız və təmirsiz vəziyyətdə qalan məktəb binası bu il yenidən tikilmişdir. Müasir standartlara cavab verən məktəb bütün zəruri avadanlıqlarla təchiz edilmişdir. 220 şagird yerlik liseyin ikimərtəbəli tədris korpusunun mərkəzləşdirilmiş istilik sistemi də vardır.*

*Prezident İlham Əliyev idman zalı, fənn kabinetləri, iclas salonu, laboratoriya ilə tanış oldu, internetə çıxışı təmin olunmuş kompyuter otağında şagirdlərin bu müasir texnologiyalara yiyələnməsi prosesini izlədi, bu təhsil ocağının uğurlarını əks etdirən lövhəyə baxdı.*

*Məktəblə tanışlıqdan məmnun qalan prezident İlham Əliyev kollektivə uğurlar arzuladı.*

*Bununla da dövlət başçısının Masallı rayonuna səfəri başa çatdı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN LƏNKƏRAN ŞƏHƏRİNƏ SƏFƏRİ

*8 oktyabr 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 8-də Lənkəran şəhərinə gəlmişdir.*

*Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva əvvəlcə şəhərin mərkəzindəki Heydər Əliyev xatirə parkında ulu öndərin abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular.*

*Prezident İlham Əliyev parkda aparılan yenidənqurma işləri ilə tanış oldu. Son vaxtlar parkın yarıdan çoxu tamamilə yenidən qurulmuş, abadlıq işləri aparılmış, ümumi sahəsi 3,6 hektara çatdırılmışdır.*

*Müasir üslubda olan 5 fəvvarə bu istirahət guşəsinə daha da gözəllik verir.*

### Heydər Əliyev Muzeyinin açılışı mərasimi

*Oktyabrın 8-də Lənkəran şəhərində Heydər Əliyev Muzeyinin açılışı olmuşdur.*

*Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi və muzeylə tanış oldu.*

*Heydər Əliyevin adını daşıyan xatirə parkında yerləşən və ümumi sahəsi 300 kvadratmetr olan muzeydə ulu öndərin büstü qoyulmuşdur.*

*Ekspozisiya salonunda ümummilli liderin uşaqlıq və gənclik illərinə, ötən əsrin 70–80-ci illərində respublikaya rəhbərlik etdiyi dövrə, 1990-cı ilin yayında Azərbaycana qayıtdıqdan sonrakı fəaliyyətinə, o cümlədən respublikamıza ikinci dəfə rəhbərlik etdiyi illərə, habelə Lənkərana çoxsaylı səfərlərinə dair fotoşəkillər, dahi şəxsiyyətə həsr olunmuş kitablar nümayiş etdirilir. Muzeydə ümummilli liderin irsini araşdırma mərkəzi,*

*Heydər Əliyev elektron kitabxanası da vardır. Elektron kitabxana 26 dildə fəaliyyət göstərəcək ki, bu da internet məkanında nadir haldır.*

*Muzeydə monitor vasitəsilə Heydər Əliyevin Lənkərana səfərlərini əks etdirən videokadrlara, sənədli filmlərə də baxmaq mümkündür.*

*Prezident İlham Əliyev muzeylə tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.*

## Səpnəkəran kənd orta məktəbi ilə tanışlıq

*Oktyabrın 8-də prezident İlham Əliyev Lənkəran rayonunun Səpnəkəran kəndində Möhübbət Həmzəyev adına orta məktəbdə olmuşdur.*

*Məktəblilər prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı böyük hərarətlə salamladılar.*

*Məktəblə tanışlıq zamanı bildirildi ki, bu il Lənkəranda 9 məktəb binası inşa edilmişdir. Bunların dördü Heydər Əliyev Fondunun «Yeniləşən Azərbaycana yeni məktəb» proqramı çərçivəsində, beşi isə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına əsasən tikilmişdir.*

*Səpnəkəran kənd məktəbinin əvvəlki binası 1923-cü ildə inşa edilmişdi. 1941–45-ci illər müharibəsi zamanı burada uşaq evi yerləşirdi.*

*Ümumi sahəsi 1568 kvadratmetr olan yeni binanın foyesində ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən guşə yaradılmışdır. İkimərtəbəli binada 16 sinif otağı, 7 əlavə otaq, kitabxana, internetə çıxışı olan kompyuter zalı vardır. Qızlar üçün tikiş otağı, oğlanlar üçün iki emalatxana zəruri avadanlıqlarla təmin edilmişdir. Məktəbin ayrıca istilik sistemi vardır.*

*Burada 320 şagirdin təlim-tərbiyəsi ilə 45 müəllim məşğul olacaqdır. Heydər Əliyev Fondu məktəbə əyani vəsaitlər hədiyyə etmişdir.*

*Prezident İlhan Əliyev sinif otaqlarına, fənn kabinetlərinə, kompyuter və tikiş otaqlarına, emalatxanalara baxdı.*

*Ölkəmizdə ilk dəfə məhz bu məktəbdə dəmir konstruksiyalı və xüsusi materialdan hazırlanmış, açılıb-yığılan damı olan idman zalı tikilmişdir. Ümumi sahəsi 500 kvadratmetr olan zala süni qazon döşənmişdir.*

*Dövlətimizin başçısı idman salonu ilə də tanış oldu, onun gənclərin idmanla məşğul olmasına böyük töhfə verəcəyini bildirdi.*

## Lənkəran Beynəlxalq Aeroportunun açılışı mərasimi

*Oktyabrın 8-də Lənkəran Beynəlxalq Aeroportunun təntənəli açılışı mərasimi olmuşdur.*

*Mərasimə toplaşan şəhər sakinləri, aviatorlar prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı böyük hörmətlə qarşıladılar.*

*Son dövrdə istifadəsiz qalan Lənkəran Beynəlxalq Aeroportu regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində tamamilə yenidən qurulmuşdur. Bu məqsədlə dövlət büdcəsindən 51 milyon manat vəsait ayrılmışdı. Təməlqoyma mərasimi 2005-ci ildə dövlətimizin başçısı İlham Əliyevin iştirakı ilə keçirilmişdi.*

*Hava limanı dəniz səviyyəsindən 28 metr aşağıda yerləşdiyinə görə, burada 240 min kvadratmetr sahəyə rütubətə davamlı geotekstil döşənmişdir. Dağ tərəfdən qrunt sularının qarşısını almaq üçün 5271 metr uzunluğunda kanal qazılmışdır. Layihəyə əsasən, hava limanının sahəsi 325 hektara çatdırılmışdır. Uçuş-enmə zolağının uzunluğu 3300, eni 60 metrdir. Əlavə olaraq, 600 metr qoruyucu, eləcə də hər iki tərəfdə 600 metrlik işıqlı zolaq inşa edilmişdir. Tikinti işlərini Türkiyənin böyük təcrübəyə malik ZEMA şirkəti həyata keçirmişdir. Burada 200 nəfərdən çox yerli inşaatçı çalışmışdır.*

*Lənkəran aeroportu iri yük və sərnişin təyyarələrini qəbul edə biləcəkdir. Bu isə cənub bölgəsinin iqtisadi inkişafında mühüm rol oynayacaqdır. Beynəlxalq statusa malik hava limanı müasir tipli avadanlıq və texnika ilə təmin edilmişdir.*

*Bakıdan Lənkərana hava reysləri yeni alınan AN tipli təyyarələr vasitəsilə həyata keçiriləcəkdir. Hava limanından Moskvaya da birbaşa reys açılacaq, meyvə, tərəvəz və digər kənd təsərrüfatı məhsulları daşınacaqdır.*

*Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi, hava limanının sərnişin qeydiyyatı, gömrük nəzarəti, bilet satışı, tibbi yardım bölmələrinə, restorana, aviasiya təhlükəsizliyi nəzarəti, qarşılama, VİP salonlarına, uçuş-enmə zolaqlarına baxdı.*

*Dövlətimizin başçısı mərasimdə nitq söylədi.*

## Lənkəran Beynəlxalq Aeroportunun açılışı mərasimində nitq

Əziz dostlar!

Mən sizin hamınızı Lənkəran Beynəlxalq Aeroportunun açılışı münasibətilə ürəkdən təbrik edirəm. Bu gözəl aeroport bütün dünya standartlarına cavab verir, buradan beynəlxalq uçuşlar etmək mümkün olacaqdır. Bir sözlə, aeroport bütün cənub zonasının inkişafına çox böyük təkan verəcəkdir. Lənkəranda aeroport fəaliyyət göstərirdi, ancaq daxili uçuşlar həyata keçirilirdi. Sonra müəyyən səbəblər üzündən aeroport fəaliyyətini dayandırmışdı. 3 il bundan əvvəl aeroportun yenidən tikilməsi haqqında qərar qəbul edilmişdir.

Mən çox şadam ki, bu gün bu aeroport açılır. Həm xarici görünüşü baxımından, həm də bütün təchizatı baxımından beynəlxalq səviyyəyə uyğundur. Həm uçuş-enmə zolağının uzunluğu, həm də burada göstəriləcək bütün xidmət, bir sözlə, hər şey dünyada ən inkişaf etmiş şəhərlərin aeroportlarına tam uyğun şəkildədir. Bu doğrudan da böyük hadisədir. Aeroportun təkcə Lənkəran üçün, təkcə bu bölgə üçün deyil, bütövlükdə

Azərbaycanın hərtərəfli inkişafı üçün çox böyük əhəmiyyəti olacaqdır. Onu da demək istəyirəm ki, bu aeroportun uçuş-enmə zolağına istənilən təyyarələrin enməsi mümkündür. Həm sərnişin, həm də ən ağır yük təyyarələrinin buraya gəlməsi mümkündür. Bu, şübhəsiz, Azərbaycanın inkişafına çox böyük təkan verəcək, cənub zonasının inkişafına kömək edəcəkdir. Bu onu göstərir ki, Azərbaycan dövləti qarşıya qoyduğumuz bütün məsələlərin həlli üçün böyük imkanlara malikdir. Azərbaycanda çox böyük işlər görülür. Hava nəqliyyatının inkişafı baxımından son illər ərzində təkcə yeni aeroportların işə düşməsini sadalamaq kifayətdir.

1999-cu ildə uzun fasilədən sonra Bakı Beynəlxalq Aeroportu yenidən quruldu. 2004-cü ildə Naxçıvan Beynəlxalq Aeroportu, 2006-cı ildə Gəncə Beynəlxalq Aeroportu istismara verildi. Bu il isə Zaqatala və Lənkəran Aeroportlarının açılışında biz iştirak etmişik. Bir sözlə, Azərbaycanın bütün bölgələrində ölkənin inkişafı üçün vacib olan nəqliyyat infrastrukturu, özü də ən yüksək dünya səviyyəsində yaradılmış infrastruktur mövcuddur.

Şübhəsiz ki, bu gün və gələcək illərdə ölkəmizin tərəqqisi üçün nəqliyyat sektorunun inkişafına daha da böyük diqqət göstərməliyik. Onu da qeyd etmək istəyirəm ki, biz təkcə aeroportların tikintisi ilə öz işimizi məhdudlaşdırmırıq, eyni zamanda, ən müasir təyyarələr alınır. «Boinq», «Airbus», «ATR» tipli dünyanın ən məşhur təyyarələri artıq Azərbaycana gətirilibdir. Onlardan 12-si uçuşlar edir, 8-i isə yaxın illərdə gətiriləcəkdir, müvafiq müqavilələr imzalanıbdır. Onların arasında dünyanın ən müasir «Boinq-787» təyyarələri də olacaqdır. Beləliklə, «Azərbaycan Hava Yolları»nın təyyarə parkı 20 ən müasir təyyarədən ibarət olacaqdır.

Aeroportların mövcudluğu, yeni təyyarələrin alınması və xidmətin yüksək səviyyədə olması «Azərbaycan Hava Yolları» Səhmdar Cəmiyyətini beynəlxalq səviyyəyə qaldıracaqdır. Bizim istəyimiz odur ki, Azərbaycan şirkətləri nəinki ölkə daxilində, həm də dünyada layiqli yer tuta bilsinlər. Bu, bir

tərəfdən, Azərbaycanda iqtisadi artımı təmin edəcək, o biri tərəfdən, başqa ölkələrdə iqtisadi və başqa maraqlarımızın təmin edilməsi üçün çox mühüm vasitə olacaqdır.

Bu gün Azərbaycanın imkanları genişlənir. Bildiyiniz kimi, Azərbaycan başqa ölkələrə investisiyalar qoyur. Əlbəttə ki, ilk növbədə sərmayələri öz ölkəmizə qoyuruq və qoyacağıq. Bu il təkcə dövlət xətti ilə Azərbaycana sərmayə qoyuluşu 5 milyard dollardan çox olmuşdur. Gələn ilin büdcəsində daha da böyük məbləğ nəzərdə tutulur. Bununla bərabər, biz xaricdə də sərmayə qoyuruq. Qonşu ölkələrdə Azərbaycan şirkətlərinin uğurlu fəaliyyəti həm iqtisadi, həm də beynəlxalq mövqelərimizin möhkəmlənməsinə xidmət göstərir. O cümlədən «Azərbaycan Hava Yolları» Səhmdar Cəmiyyəti beynəlxalq şirkətə çevrilməlidir. Bir daha demək istəyirəm ki, bunu etmək üçün bütün imkanlar var. Eyni şəkildə bütün başqa nəqliyyat sektorlarına aid olan şirkətlər də yüksək səviyyədə fəaliyyət göstərməlidir. Bu aeroportun tikintisinin əsas xərcini Azərbaycan dövləti öz üzərinə götürmüşdür.

Biz indi çoxlu sayda yeni gəmilər – tankerlər, quru yük gəmiləri, bərələr alırıq. Onları da biz daha çox dövlət vəsaiti hesabına alırıq. Azərbaycan Dövlət Xəzər Gəmiçiliyi indi Xəzərdə ən böyük şirkətdir. Bütün Xəzər dənizində əsas yükdaşımalarını Azərbaycan şirkəti həyata keçirir. Bu da böyük nailiyyətdir. Dəniz nəqliyyatının inkişafı üçün böyük vəsait ayrılır. Beləliklə, Şərq-Qərb dəhlizinin uğurlu fəaliyyəti üçün çox lazımlı tədbirlər görülür.

Dəmir yolunun bərpası və reabilitasiyası məsələləri həll olunur. Bilirsiniz ki, Bakı–Tbilisi–Qars kimi tarixi layihəni biz icra etməyə başlamışıq. Baxmayaraq ki, uzun illər ərzində bu layihə ancaq danışıqlar mövzusu idi. Bəlkə 10 ildən artıq idi məsələ müzakirə olunurdu, amma heç bir irəliləyiş yox idi. Yenə də demək istəyirəm ki, Azərbaycanın bu işə çox ciddi müdaxiləsi və lazımi maliyyə tədbirlərinin görülməsi nəticəsində bu layihə də icra olunmağa başlamışdır. İndi tikinti gedir və çox uğurla gedir. Mən əminəm ki, Bakı–Tbilisi–Qars

dəmir yolu vaxtında istifadəyə veriləcəkdir. Beləliklə, Azərbaycanı qonşu ölkələrlə birləşdirəcək və eyni zamanda, Avropanı Asiya ilə birləşdirəcək, Azərbaycan burada körpü rolunu oynayacaqdır.

Bizim coğrafi mövqeyimiz çox əlverişlidir. Biz təbii körpüyük. Amma biz müasir nəqliyyat infrastrukturu və başqa infrastruktur yaradılması ilə öz imkanlarımızı daha da genişləndiririk. Azərbaycan nəqliyyat və enerji dəhlizi üçün əvəzolunmaz ölkədir.

Bütün bunları biz özümüz məqsədyönlü siyasətlə və görülən tədbirlərlə, praktik işlərlə yaratmışıq. Avtomobil yollarının bərpası sürətlə gedir. Siz yaxşı bilirsiniz ki, Azərbaycanın paytaxtını bütün sərhədlərlə birləşdirən avtomobil yolları tikilir, o cümlədən Bakı–Astara yolu tikilir. Onun bir hissəsi artıq ən yüksək dünya səviyyəsində tikilmişdir. Hesab edirəm ki, növbəti 2 il ərzində bu yol tam istismara veriləcəkdir. Yenə də demək istəyirəm ki, həyata keçirilən bütün layihələr, o cümlədən nəqliyyat layihələri ən yüksək dünya səviyyəsində icra olunur. Bununla bərabər, Azərbaycanı Gürcüstanla və Rusiya ilə birləşdirən avtomobil yolları tikilir, şəhərlərarası yollar, kənd yolları tikilir. Yəni biz nəqliyyat sektorunun inkişafına çox geniş prizmadan yanaşırıq və görülən bütün tədbirlər bir məqsədi güdür – Azərbaycanda ən müasir, gözəl nəqliyyat infrastrukturu yaradılsın. Bu, ilk növbədə, Azərbaycanın iqtisadi imkanlarını genişləndirəcək, regionların inkişafına çox güclü təkan verəcək və insanların daha da yaxşı, rahat yaşamasına xidmət göstərəcəkdir. Bax, bütün bu məqsədlər bizim nəqliyyat sektorunda gördüyümüz işlərlə təmin edilir.

Mən çox şadam ki, bizim nəzərdə tutduğumuz bütün proqramlar, bütün vəzifələr uğurla icra edilir. Lənkəran Beynəlxalq Aeroportunun timsalında biz bunları görürük. Görürük ki, qəbul edilmiş qərarlar vaxtlı-vaxtında, yüksək keyfiyyətlə icra olunur. Verilən bütün vədlər və qəbul edilmiş qərarlar reallığa çevrilir. O cümlədən regionların sosial-iqtisadi

inkişafı Dövlət Proqramının uğurlu icrası həm ölkəmizin bölgələrinə böyük canlanma gətirmişdir, həm də qeyri-neft sektorunun inkişafına böyük təkan vermişdir. Bütün bölgələrdə gedən quruculuq işləri, açılan yeni müəssisələr, tikilən məktəblər, tibb ocaqları, habelə infrastruktur layihələri, yeni iş yerləri – bütün bunlar ölkəmizi gücləndirir. Ölkədə gedən çox ciddi iqtisadi və sosial islahatları daha da dərinləşdirir. İslahatlar real nəticələrə gətirib çıxarır. Biz islahatları, sadəcə olaraq, islahat naminə, yaxud da kiminsə xoşuna gəlmək üçün aparmırıq. Bizim bütün islahatlarımız konkret məna daşıyır və Azərbaycan xalqının rifah halının yaxşılaşdırılması, Azərbaycanın iqtisadi potensialının möh-kəmləndirilməsi, Azərbaycanın bölgədə və dünyada rolunun artırılması məqsədlərini güdür. Biz bütün bu məqsədlərə çatırıq.

Azərbaycanın daxilində çox gözəl ictimai-siyasi vəziyyət var. Böyük irəliləyiş, böyük canlanma, inkişaf müşahidə olunur. Mövqelərimiz möhkəmlənir, dünya üçün Azərbaycanın əhəmiyyəti daha da artır. Əminəm ki, görülən və görüləcək tədbirlər nəticəsində bizim önəmimiz daha da artacaqdır. Biz daha da güclənirik, daha da güclü oluruq. Biz, Azərbaycan xalqı və bütün dünya bunu çox yaxşı görür və bilirik ki, Azərbaycanın uğurlu inkişafı bundan sonra da davam etdiriləcəkdir. Biz ancaq və ancaq öz daxili resurslarımıza istinad edirik, öz imkanlarımıza arxalanırıq, Azərbaycan xalqının istedadına, zəhmətkeşliyinə arxalanırıq. Bu möhkəm zəmin əsasında ölkəmizin hərtərəfli inkişafına nail oluruq.

Nəqliyyatla bağlı bir məsələyə də toxunmaq istəyirəm. Dünyada gedən inteqrasiya prosesləri, əlbəttə ki, ilk növbədə, nəqliyyat sektoruna aiddir və yenə də qeyd etmək istəyirəm ki, Azərbaycan coğrafi mövqeyinə görə çox əlverişli vəziyyətdədir. Azərbaycan həm Şərq-Qərb, həm də Şimal-Cənub dəhlizlərinin iştirakçısıdır. Hər iki layihə bizim üçün önəmlidir. Hər iki layihə Azərbaycan ərazisindən keçir. Biz çox güclü nəqliyyat, enerji, sənaye infrastrukturu yaradırıq və xeyli dərəcədə yaratmışıq və bu, əlbəttə ki, Azərbaycanın rolunu daha da

artıracaqdır. Şimal-Cənub layihəsinə böyük önəm göstərilir. Azərbaycan bundan həm iqtisadi, həm də siyasi dividendlər götürəcəkdir. Necə ki, Şərq-Qərb dəhlizinin fəaliyyətdə olması, bu həm nəqliyyat dəhlizidir, həm də enerji dəhlizidir. Bizim həm nəqliyyat, həm də enerji sahəsində böyük nailiyyətlərimiz var.

Son illər ərzində regionlarda gedən inkişaf prosesləri ölkəmizi daha da gücləndirir. Bu çox vacibdir, mən buna ürəkdən sevinirəm. Biz 2004-cü ilin əvvəlində regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramını qəbul edəndə mən bilirdim ki, bu proqramın icrasına nail olacağıq. Baxmayaraq ki, proqramda çox ciddi və bəzi hallarda gözlənilməz məsələlər qoyulmuşdur – 600 min yeni iş yerinin açılması, yoxsulluğun kəskin şəkildə azaldılması, Azərbaycanda 5 il ərzində minlərlə yeni müəssisənin yaradılması, qeyri-neft sektorunun, kənd təsərrüfatının inkişafı, ərzaq təhlükəsizliyinin təmin olunması. Yəni bu proqramda qlobal xarakter daşıyan məsələlər nəzərdə tutulmuşdu. Bəzilərinə elə gələ bilərdi ki, bu proqramda reallıqdan uzaq olan çoxlu məsələlər var, şüar xarakterli məsələlər var. Amma həyat göstərdi ki, orada nəzərdə tutulmuş bütün vəzifələr icra olundu.

Məsələn, cənub bölgəsinin inkişafı üçün orada çoxlu tədbirlər nəzərdə tutulmuşdu. Ancaq Lənkəran Beynəlxalq Aeroportunun tikintisi o vaxt nəzərdə tutulmurdu. Yaxud da Astara modul tipli elektrik stansiyasının tikintisi də nəzərdə tutulmurdu. Magistral yolların tikintisi nəzərdə tutulsa da, onların konkret icra mexanizmləri yox idi. Mən böyük layihələrdən söhbət açıram. Həcm baxımından bundan daha aşağı səviyyəli layihələr də həyata keçirildi. Onu demək istəyirəm ki, hər bir bölgənin inkişafı üçün proqramda nəzərdə tutulmuş məsələlər öz həllini tapdı.

Lənkəran rayonunun son 5 il ərzində iqtisadi artımı iki dəfədən çox olmuşdur. Bütün ölkə üzrə 5 il ərzində ümumi daxili məhsul 2,7 dəfə artmışdır. Bu da dünyada görünməmiş bir nailiyyətdir. O cümlədən hər bir rayonun iqtisadi artımı da

çox yüksək rəqəmlərlə ölçülür. Bu nəyi göstərir? Onu göstərir ki, bizim inkişafımız hərtərəflidir. Bəzi hallarda Azərbaycana paxıllıqla yanaşan tərəflər, yaxud da qüvvələr bizim bütün uğurlarımızı neft amili ilə bağlamaq istəyirlər. Neft amili bizim üçün mühümdür, bütün dünya üçün mühümdür. Hər bir ölkə, xüsusilə yeni müstəqillik əldə etmiş dövlət daxili resurslar əsasında öz iqtisadiyyatını qurur. Hansısa ölkədə təbii ehtiyatlar var, hansısa ölkədə kənd təsərrüfatı məhsulları yetişdirilir.

Azərbaycan qədim neft ölkəsidir və biz bu böyük sərvətdən səmərəli şəkildə istifadə edirik. Ulu öndər Heydər Əliyevin başladığı neft strategiyamızı uğurla icra edirik. Enerji ilə bağlı olan bütün məsələləri icra etdik. Tarixi əhə-miyyət kəsb edən məsələlər – Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərləri və digər neft-qaz kəmərləri icra olundu. Yəni bu, böyük bir nailiyyətdir.

Əlbəttə ki, Azərbaycan iqtisadiyyatının tərkibində enerji amili böyük rol oynayır. Ancaq bizim bütün uğurlarımızı neft hasilatı ilə, yaxud da neft qiymətləri ilə bağlamaq tamamilə səhv yanaşmadır. Çünki başqa ölkələrdə də neft hasilatı artır, başqa ölkələrdə də neftin qiymətinin artması iqtisadi inkişafa təkan verməlidir. Bir daha demək istəyirəm ki, bizim bütün uğurlarımızın təməlində çox ciddi iqtisadi islahatlar dayanır. Əgər belə olmasaydı, rayonların ümumi daxili məhsulu 2-2,5 dəfə artmazdı. Cənub zonasının, demək olar ki, bütün rayonlarında son 5 il ərzində ümumi daxili məhsul 2–2,3–2,5 dəfə artıbdır. Qeyri-neft sektoru hesabına emal müəssisələrinin yaradılması, kənd təsərrüfatının inkişafı, turizmin, tikintinin inkişafı hesabına artmışdır. Yəni bütün bunlar bizim reallıqlarımızdır.

Lənkəran rayonunun timsalında biz bunu görürük. Nə qədər məktəb tikilib, nə qədər sosial obyektlər tikilib, böyük abadlıq-quruculuq işləri aparılır – siz lənkəranlılar bunları çox yaxşı bilirsiniz. Lənkəranın bütün inkişafında ən fəal rol oynayan onun sakinləridir, sizsiniz. Biz bütün bu uğurları bir sıra amillərin birləşməsi sayəsində qazana bilmişik. Çox ciddi

proqramlar, regionların inkişafı, dövlət xətti ilə aparılan siyasət, verilən qərarlar, ayrılan vəsait, yerlərdə insanların bütün bu təşəbbüslərə qoşulması və fəallığı, bu siyasətə müsbət yanaşması və hər bir vətəndaşın öz rayonunun inkişafında oynadığı rol. Bax, bütün bu amillər bizim bugünkü və gələcək uğurlarımızı şərtləndirir.

Mən heç şübhə etmirəm ki, gələcək illərdə Azərbaycanın inkişafı uğurlu, dayanıqlı, uzunmüddətli olacaqdır. Bizim çox gözəl imkanlarımız var. Bu imkanları biz yaratmışıq, Azərbaycan xalqı yaradıbdır. Biz Azərbaycan xalqının yaxşı yaşaması üçün, gələcəkdə ölkə qarşısında duran bütün məsələlərin həlli üçün bundan sonra da birlikdə çalışacağıq. Əziz dostlar, mən sizi bu gözəl hadisə, bu gözəl aeroportun açılışı münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Sağ olun.

***

*Sonra prezident İlham Əliyev Böyük Vətən müharibəsi veteranı, Rusiya prezidenti Dmitri Medvedev tərəfindən 2-ci və 3-cü dərəcəli «Şöhrət» ordenləri ilə təltif edilmiş Ağadadaş Səmədovla görüşdü.*

*Ağadadaş Səmədov veteranlara göstərilən diqqət və qayğıya görə təşəkkür etdi.*

*Prezident İlham Əliyev veteranlara dövlət qayğısının bundan sonra da davam etdiriləcəyini dedi.*

## Şəhidlər xiyabanı ilə tanışlıq

*Oktyabrın 8-də prezident İlham Əliyev Lənkəran şəhərində tamamilə yenidən qurulmuş Qala xiyabanı ilə tanış olmuşdur. Dövlətimizin başçısı və xanımı xiyabanı gəzdilər.*

*Ətrafdakı küçələr də abadlaşdırılaraq müasir görkəmə salınmışdır. Suda fırlanan qlobuslar buraya xüsusi yaraşıq verir. Fəvvarələrin quraşdırıldığı xiyabanda Azərbaycanın milli qəhrəmanı Əsgər Əliyev adına dostluq parkı da salınmışdır. Ümumi sahəsi 1,6 hektardan çox olan parkda ölkəmizin bütün iqtisadi zonalarının göstəricilərini, eləcə də təbiətini, coğrafiyasını əks etdirən guşələr yaradılmışdır. Xiyabanda hər bölgə üzrə milli memarlıq abidələrindən ibarət maket də nümayiş etdirilir. Bu, təkcə lənkəranlıların deyil, həm də şəhərə gələn qonaqların Azərbaycan haqqında geniş məlumat almasına imkan yaradır.*

*Xiyabanda Əməkdar müəllim, Prezident təqaüdçüsü Mirhaşım Talışlı və Lənkəran Veteranlar Şurasının sədri Kamal Kələntərlinin heykəlləri də maraq doğurur.*

*Prezident İlham Əliyev xiyabanda və ətrafda görülmüş işləri yüksək qiymətləndirdi, açıq havada belə məlumat xarakterli guşənin yaradılmasının vətəndaşların və xarici qonaqların ölkəmizin regionları haqqında məlumat əldə etməsi baxımından faydalı olduğunu bildirdi.*

## Uşaq Sağlamlıq Mərkəzinin açılışı mərasimi

*Oktyabrın 8-də Lənkəranda Uşaq Sağlamlıq Mərkəzi istifadəyə verilmişdir.*

*Səhiyyə işçiləri, mərkəzin əməkdaşları prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı böyük ehtiramla qarşıladılar.*

*Son 3 ildə rayonda bir sıra səhiyyə müəssisələri, o cümlədən regional Müalicə-Diaqnostika Mərkəzi, əlillərin regional bərpa mərkəzi, vərəm dispanseri, ucqar dağ kəndlərində yeni tibb məntəqələri tikilib istifadəyə verilmiş, rayon mərkəzi xəstəxanasının ayrı-ayrı şöbələri əsaslı təmir edilmişdir. Lənkəran Uşaq Sağlamlıq Mərkəzinin uzun illər təmirsiz qalan binası qəza vəziyyətində olduğundan burada müasir*

*standartlara uyğun yeni binanın inşası qərara alınmışdı. Ümumi sahəsi 1600 kvadratmetr olan ikimərtəbəli yeni binanın həyatində fəvvarələr və müasir işıqlandırma sistemi qurulmuşdur.*

*Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi, müasir avadanlıqlar quraşdırılmış rentgen, ultrasəs müayinəsi, oftalmoloji, fizioterapiya, stomatoloji, LOR kabinetlərinə və laboratoriyaya baxdı.*

*Bildirildi ki, 47 min uşağa xidmət göstərən mərkəzdə 44 həkim və 91 orta tibb işçisi çalışır.*

*Dövlətimizin başçısı tibb işçilərini mərkəzin açılışı münasibətilə təbrik edərək dedi ki, çox gözəl binadır, həkimlər üçün də, uşaqlar üçün də çox gözəl şərait var. Mən çox şad oldum. Burada ən gözəl avadanlıqlar quraşdırılmışdır. Bina böyük zövqlə və səliqə ilə tikilib, xarici görünüşü də gözəldir. Yəni burada işləmək üçün bütün şərait var. Sizə uğurlar arzulayıram və bir daha təbrik edirəm.*

*Səhiyyə işçiləri belə gözəl mərkəzin istifadəyə verilməsini gələcək nəslə göstərilən qayğı kimi dəyərləndirdilər və minnətdarlıqlarını bildirdilər.*

## «Cənub TV» televiziya kanalının açılışı mərasimi

*Oktyabrın 8-də Lənkəranda «Cənub TV» televiziya kanalının yeni binası istifadəyə verilmişdir.*

*Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi və bina ilə yaxından tanış oldu.*

*Respublikamızın regional televiziyalarından olan «Cənub TV»-nin yeni binası dördmərtəbəlidir. Birinci mərtəbənin foyesində ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş guşə yaradılmışdır. Binada konfrans salonu, montaj, arxiv, iş, qrim otaqları, səsyazma studiyası yerləşir. Əsas studiyanın sahəsi 700 kvadratmetrdən çoxdur. 7 ədəd studiya kamerası qoyulmuş, səsboğucu qurğular*

*quraşdırılmışdır. Buradan əsas informasiya proqramı yayımlanacaqdır. Bu studiyada istənilən geniş auditoriyalı verilişlər hazırlamaq mümkündür. Binanın dördüncü mərtəbəsində rejissor idarəetmə mərkəzi yerləşir. «Cənub TV»-dəki bütün texniki avadanlıqlar ABŞ-dan gətirilmişdir. Gələcəkdə səyyar televiziya stansiyası da alınacaqdır. Fasiləsiz elektrik enerjisi ilə təchiz olunan binada yanğından mühafizə, istilik və havalandırma sistemləri quraşdırılmışdır.*

*«Cənub TV»-də 50-dən çox yaradıcı və texniki işçi çalışır. Ötən ilin sonunda – Dünya Azərbaycanlılarının həmrəyliyi günü fəaliyyətə başlamış kanalın bölgədə 700 mindən çox tamaşaçı auditoriyası vardır. Regional televiziya hazırda müxtəlif mövzularda 26 veriliş yayımlayır.*

*Prezident İlham Əliyev «Cənub-TV»-nin studiyaları, iş şəraiti ilə tanış oldu, kollektivə uğurlar arzuladı.*

## «Qafqaz Sahil» oteli ilə tanışlıq

*Prezident İlham Əliyev oktyabrın 8-də Lənkəranın yeni turizm obyekti «Qafqaz Sahil» oteli ilə tanış olmuşdur.*

*Xəzər dənizinin sahilində yerləşən otelin inşası 2006-cı ilin sonlarından başlanmışdı. Otel birnəfərlik və ikinəfərlik 19 standart, 5 lüks nömrədən, 18 kottecdən ibarətdir. Onların hər birində vanna otağı, mini bar, telefon, kondisioner, televizor vardır.*

*Bir hektarlıq ərazidə qonaqların və turistlərin istirahət vaxtlarının səmərəli keçməsi üçün 120 yerlik restoran, 22 yerlik «Xəzər» barı, fitnes mərkəzi, «Vitamin» barı, uşaq əyləncə mərkəzi, hovuz, sauna, bərbərxana, ticarət mərkəzi vardır. Oteldə xüsusi hazırlıq keçmiş 40 nəfərlik xidmət heyəti çalışır. Ərazidə dekorativ ağac və güllərdən ibarət gözoxşayan yaşıllıq salınmış, müxtəlif quş və heyvan fiqurları qoyulmuşdur.*

*Prezident İlham Əliyev burada yaradılan şəraiti yüksək qiymətləndirdi, ölkəmizdə turizmin inkişafı baxımından bu cür obyektlərin zəruriliyini vurğuladı.*

## «Nur-Süd» süd məhsulları zavodu ilə tanışlıq

*Prezident İlham Əliyev oktyabrın 8-də Lənkəranda «Nur-Süd» Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus süd məhsulları zavodu ilə tanış olmuşdur.*

*Bu müəssisə 2005-ci ildə «Palmali Holdinq» şirkətlər qrupu tərəfindən inşa olunmuşdur. 2008-ci ilin əvvəlindən etibarən müəssisədə «Palsüd» markası altında yeni məhsulun istehsalına başlanılmışdır. İndiyədək müəssisəyə 32 milyon avro sərmayə qoyulmuş və burada ən son texnologiya tətbiq olunmuşdur. Gündə 15 ton süd emal etmək gücünə malik zavodda 600 nəfər çalışır. Heyvandarlar da daxil olmaqla, ümumilikdə müəssisə 10 min nəfəri əhatə edir. 25 çeşiddə məhsul hazırlanan fabrikdə yaxın gələcəkdə meyvəli yoqurt, Hollandiya pendiri və kəsmik istehsalına da başlanacaq, dondurma sexi tikiləcəkdir. Hazır məhsul üçün plastik və kağız qabların da burada istehsal layihəsi hazırlanmışdır.*

*Müəssisənin məhsullarının Gürcüstan, Rusiya və digər ölkələrə ixracı da nəzərdə tutulur.*

*Süd istehsalını və məhsulların keyfiyyətini yüksəltmək üçün 40 milyon avro dəyərində layihə həyata keçiriləcək ki, bu da bölgədə heyvandarlığın inkişafına güclü təkan verəcəkdir. Artıq ilkin mərhələdə Masallının Miyanku kəndində heyvandarlıq təsərrüfatının yaradılması və gündə hər biri 25–30 litr süd verən 600 baş inək gətirilməsi üçün müqavilə bağlanmışdır.*

*Müəssisə ilə yaxından tanış olan prezident İlham Əliyev südün qəbulu, hazır məhsulların qablaşdırılması prosesini izlədi, məhsulların çeşidlərinə baxdı.*

*Dövlətimizin başçısı bu cür müəssisələrin ölkəmizin iqtisadi inkişafına təkan verdiyini vurğuladı və kollektivə uğurlar arzuladı.*

*Oktyabrın 8-də prezident İlham Əliyevin cənub bölgəsinə səfəri başa çatmışdır.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ABDULLAH GÜLƏ**

Hörmətli cənab Prezident!

Son günlər ölkənizdə baş vermiş terror aktları xəbəri bizi olduqca kədərləndirir.

Törədilmiş belə amansız əməllərdən hiddətlənir, terroriz-min bütün təzahürlərini kəskin şəkildə pisləyirik.

Bu ağır anlarda dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 oktyabr 2008-ci il*

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Baş nazir!

Ölkənizdə törədilmiş terror aktları nəticəsində insan tələfatı barədə aldığımız xəbərlər bizi olduqca sarsıtdı.

Biz bəşəriyyət üçün dəhşətli bəlaya çevrilmiş terrorizmə qarşı qətiyyətli mübarizəni vacib sayır, bu işdə bütün qüvvələrin səfərbərliyə alınmasını zəruri hesab edirik.

Bu üzüntülü anlarda Sizinlə birlikdəyik. Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzu edirik.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 oktyabr 2008-ci il*

## FİNLANDİYANIN XARİCİ TİCARƏT VƏ İNKİŞAF NAZİRİ PAAVO VYAYURYUNENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 oktyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Finlandiyanın Xarici Ticarət və İnkişaf naziri Paavo Vyayuryunenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Paavo Vyayuryunen Finlandiya prezidenti Tarya Halonenin salamlarını dövlətimizin başçısına çatdırdı, Azərbaycanda keçirdiyi səmərəli görüşlər barədə məlumat verdi. O, Bakıda təşkil olunan Azərbaycan–Finlandiya biznes forumundan danışaraq bunun ikitərəfli əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətini qeyd etdi. Finlandiyaya səfərini məmnunluqla xatırladan dövlətimizin başçısı səfərin çox uğurla keçdiyini vurğuladı. Finlandiya prezidenti Tarya Halonenlə keçirdiyi səmərəli görüşlərə toxunan prezident İlham Əliyev ikitərəfli münasibətlərin müxtəlif sahələrinə dair bir çox məsələləri müzakirə etdiklərini bildirdi. Dövlətimizin başçısı yüksək səviyyəli qarşılıqlı səfərlərin əlaqələrin inkişafı baxımından əhəmiyyətli olduğunu dedi.*

*Azərbaycan–Finlandiya biznes forumunun iqtisadi əməkdaşlıq üçün faydalı olacağını deyən prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, Finlandiyanın Xarici Ticarət və İnkişaf nazirinin ölkəmizə bu səfəri də ikitərəfli iqtisadi əlaqələrin daha da genişləndirilməsinə töhfə verəcəkdir.*

*Dövlətimizin başçısı Finlandiya prezidenti Tarya Halonenin salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını ona çatdırmağı xahiş etdi.*

## MİLLİ ARXİV İDARƏSİNİN YENİ BİNASININ İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*9 oktyabr 2008-ci il*

*Oktyabrın 9-da Bakının Mətbuat prospektində, 593-cü məhəllədə Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin yeni binası istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev bu münasibətlə keçirilən mərasimdə iştirak etmişdir.*

*Ölkəmizdə arxiv quruculuğunun əsası ötən əsrin 20-ci illərində qoyulmuşdur. Hazırda 6 Respublika Dövlət Arxivi, Dövlət Arxivinin 15 filialı, Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi, habelə 57 rayon və şəhər dövlət arxivi fəaliyyət göstərir. Bu arxivlərdə XIX–XXI əsrlərə aid 6,5 milyondan çox iş qorunub saxlanılır. 1999-cu ildə «Milli Arxiv Fondu haqqında» qanun qəbul edilmişdir. «Azərbaycan Respublikasında arxiv işinin təkmilləşdirilməsi haqqında» 2002-ci ildə prezident Heydər Əliyevin imzaladığı fərman arxiv quruculuğu sahəsində, demək olar ki, dönüş yaratmışdır. Fərmanın icrasını təmin etmək məqsədi ilə Nazirlər Kabineti «Arxiv xidməti təşkilatlarının maddi-texniki təchizatının təkmilləşdirilməsi, arxiv xidmətinin lazımi binalarla təmin olunması, mövcud arxiv binalarında təmir və bərpa işlərinin aparılması, arxiv işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılması üzrə proqram» təsdiq etmişdir. Həmin proqramda Mətbuat prospektində, 593-cü məhəllədəki keçmiş «Alunit» zavodunun binasının Milli Arxiv İdarəsinə verilməsi, onun arxiv sənədlərinin mühafizəsi üçün yenidən qurulması, lazımi qurğu və avadanlıqlarla təmin edilməsi, habelə Z.Bünyadov prospektində Milli Arxiv İdarəsinə məxsus binanın əsaslı təmiri və başqa tədbirlər əksini tapmışdır.*

*Prezident İlham Əliyev əvvəlcə binanın xarici görünüşünü seyr etdi, sonra rəmzi açılışı bildirən lenti kəsdi.*

*Baş nazirin müavini Abid Şərifov və Milli Arxiv İdarəsinin rəisi Ataxan Paşayev məlumat verdilər ki, bu arxiv kompleksində müasir tələblər səviyyəsində əsaslı təmir və yenidənqurma işləri aparılmışdır.*

*Ümumi sahəsi 22820 kvadratmetr olan kompleks 9 mərtəbəli inzibati korpusdan, fondlar saxlanılan 4 mərtəbəli arxiv korpusundan, oxu zalı və yeməkxanadan ibarətdir. Fondlar saxlanılan binada 3,5 milyon arxiv sənədini mühafizə etməyə imkan verən ikitərəfli metal stellajlar quraşdırılmışdır.*

*İnzibati korpusun ikinci mərtəbəsinin foyesində ulu öndər Heydər Əliyevin arxivlərin xalqın, dövlətin həyatındakı rolunu yüksək dəyərləndirən sözləri yazılmış, ümummilli liderin həyat və fəaliyyətini əks etdirən nadir fotolardan ibarət guşə yaradılmışdır.*

*Dövlət başçısı sənədlərin saxlandığı otaqlara, avtomatik yanğınsöndürmə və havalandırma sistemi barədə videofilmə baxdı. Burada arxiv sənədlərinin yanğından qorunması üçün Yaponiyanın «NOHMİ BOSAİ» şirkətinin texniki dəstəyi ilə MDB-də ilk dəfə olaraq halokarbon qazına alternativ olan nitrogen qazı ilə avtomatik yanğınsöndürmə sistemi, habelə sənədlərin uzunmüddətli saxlanmasına imkan verən xüsusi havalandırma sistemi quraşdırılmışdır.Materialların qorunduğu zonada yanğın baş verərsə, havadakı sərbəst oksigenin miqdarı 23,5 faizdən 12,5 faizə endirilir və zonaya əlavə azot qazı verilməklə yanğın söndürülür.*

*Prezident geniş oxu zalı ilə də tanış oldu, oxu zalında ölkəmizin tarixinə, o cümlədən Dağlıq Qarabağa aid sənədlərə maraqla baxdı. Milli Arxiv İdarəsinin rəisi Ataxan Paşayev sənədlər barədə məlumat verdi.*

*Dövlətimizin başçısı arxiv işçilərini və inşaatçıları binanın istifadəyə verilməsi münasibətilə təbrik etdi, onlara uğurlar arzuladı.*

## «CABBAR HƏŞİMOV» TANKERİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*9 oktyabr 2008-ci il*

*Oktyabrın 9-da Bakı Dəniz Limanında «Cabbar Həşimov» tankeri istismara verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Gəminin kapitanı Canəli Ağalarov dövlətimizin başçısına məruzə etdi:* «Möhtərəm cənab Prezident, Tatarıstanın Zelenodolsk şəhərində inşa olunmuş «Cabbar Həşimov» gəmisi Bakı limanına gətirilmiş və istismara hazırdır».

*Dövlət Xəzər Dəniz Gəmiçiliyinin rəisi Aydın Bəşirov məlumat verdi ki, hazırda ölkəmizdə neft və neft məhsulları daşıyan 13 gəmi vardır. Tatarıstanın Zelenodolsk tərsanəsində tikilmiş bu gəmi də müasir standartlara cavab verir. 150 metr uzunluğu, 17,3 metr eni olan gəminin tam yükgötürmə qabiliyyəti 12 min tondur. İlkin mərhələdə gəmi Xəzər hövzəsində işləyəcəkdir. Texniki cəhətdən beynəlxalq standartlara tam uyğun olan gəminin idarə edilməsi avtomatlaşdırılmışdır. Gəminin əsas özəlliklərindən biri də bütün yük əməliyyatlarının kapitan körpüsündən idarə olunmasıdır.*

*Ən müasir naviqasiya sistemi ilə təchiz olunmuş tankerdə neft və neft məhsullarının daşınması üçün ən son metodlar tətbiq edilir. Bütün ekstremal vəziyyətlərə hazır olan gəmi yüksək təhlükəsizlik sisteminə malikdir. Gəmi heyətinin fəaliyyəti üçün bütün şərait yaradılmışdır.*

*Prezident İlham Əliyev kapitan körpüsü ilə tanış oldu. Bildirildi ki, yüksək standartlara cavab verən avadanlığın quraşdırıldığı kapitan körpüsündə müasir idarəetmə mərkəzi*

*yaradılmış və bütün sistem kompyuter texnologiyasına əsaslanır.*

*Dövlətimizin başçısı tankerin istismara verilməsini bildirən düyməni basdı, heyətə uğurlar arzuladı və müvafiq tövsiyələrini bildirdi.*

## BAKI METROSUNUN «NƏSİMİ» STANSİYASININ AÇILIŞI MƏRASİMİ

*9 oktyabr 2008-ci il*

*Oktyabrın 9-da Bakı metrosunun yeni tikilmiş «Nəsimi» stansiyasının açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Tikintisinə 2006-cı ildə başlanılmış stansiyanın ağır hidro-geoloji şəraitdə inşa olunmasına baxmayaraq, işlər vaxtından əvvəl yerinə yetirilmişdir. Stansiyada qatarların hərəkətinin tənzimlənməsi və texniki nəzarət kompyuterləşdirilmişdir. Burada 250-dən çox adam işlə təmin olunmuşdur.*

*«Memar Əcəmi» stansiyasından «Nəsimi» stansiyasına qədər xəttin uzunluğu 2660 metr, yeni stansiyada platformanın uzunluğu 102 metr, eni isə 18 metrdir. Dörd çıxışı olan stansiyada eskalatorlar quraşdırılmışdır. Tikinti işlərini «Azər-tunelmetrotikinti» Qapalı Səhmdar Cəmiyyəti görmüşdür. Stansiyanın tikintisini daim diqqətdə saxlayan prezident İlham Əliyev bu il avqustun 27-də görülən işlərin gedişi ilə tanış olmuş, müvafiq tövsiyələrini vermişdi.*

*Dövlətimizin başçısı «Nəsimi» stansiyasının yerləşdiyi ərazini seyr etdi, yaxınlıqdakı binalarda görülən təmir-bərpa işlərinə baxdı.*

*Baş nazirin müavini Abid Şərifov, Bakı Metropoliteninin rəisi Tağı Əhmədov məlumat verdilər ki, inşaat işlərini bütünlüklə yerli mütəxəssislər yerinə yetirmişlər. Bakı Metro-politenində ən müasir avadanlıqlar, enerji bloku ilk dəfə məhz «Nəsimi» stansiyasında quraşdırılmışdır. Paytaxtın 6-cı və 9-cu mikrorayonlarını birləşdirən «Nəsimi» stansiyasının akademik Zərifə Əliyeva adına Elmi-Tədqiqat Oftalmologiya*

*İnstitutu, 9-cu mikrorayon, Z.Əliyeva adına istirahət bağı, 9 nömrəli təcili yardım stansiyası və 6-cı mikrorayon istiqamətlərinə çıxışları vardır. Uzun fasilədən sonra tikilən bu stansiyanın davamı olaraq çəkilən xətt ilin sonunadək digər stansiya ilə birləşdiriləcək və paytaxtda nəqliyyat probleminin həllinə kömək edəcəkdir. İlk növbədə, şəhərdaxili şəbəkənin genişləndirilməsini və paytaxt əhalisinin tələbatının tam ödənilməsi məqsədilə metropolitenin yeni stansiyalarının çəkilməsi ilə bağlı layihələr də hazırlanmışdır.*

*Prezident İlham Əliyev metro stansiyasının giriş və çıxışlarında görülən işlərə baxdı və rəmzi açılışı bildirən lenti kəsdi. Dövlətimizin başçısı stansiyada metropoliten işçiləri və inşaatçılarla görüşdü.*

*«Azərtunelmetrotikinti» Qapalı Səhmdar Cəmiyyətinin sədri Şaiq Əfəndiyev ulu öndər Heydər Əliyevin ölkəmizdə metro tikintisinə verdiyi önəmi xatırladaraq dedi ki, çox şadıq ki, bu ənənə Sizin tərəfinizdən davam etdirilir.*

*Prezident İlham Əliyev metropoliten işçilərinə və inşaatçılara müraciətlə dedi:*

– Bu çox böyük hadisədir. Sizi yeni stansiyanın açılışı münasibətilə təbrik edirəm. Metro stansiyasının tikintisində iştirak etmiş bütün insanlara öz təşəkkürümü bildirmək istəyirəm. Bu doğrudan da böyük hadisədir, deyə bilərəm ki, bunun tarixi əhəmiyyəti var. Uzun fasilədən sonra Bakı şəhərində yenidən metro stansiyaları tikilir.

Bakıda metro çoxdan fəaliyyət göstərir. Bakı Sovet İttifaqının ilk şəhərlərindən biri, beşinci şəhər idi ki, burada metro xətti açılmışdı. Ancaq Sovet İttifaqı dağılandan və bütün postsovet məkanında yaşanmış böhranlı hadisələrdən sonra, əlbəttə ki, metro tikintisinə də fasilə verildi. Məndə olan məlumata görə, indi keçmiş postsovet məkanında metro stansiyaları Rusiyada, Ukraynada, yəni beş-altı şəhərdə, o cümlədən Bakı şəhərində tikilibdir. Mən buraya avqust ayında gəlmişdim. Növbəti stansiyaların tikintisi də nəzərdə tutulur. Bu, böyük bir proqramdır. Mən hesab edirəm ki, bir neçə il

ərzində Bakının nəqliyyat infrastrukturunun təkmilləşməsi üçün bir neçə yeni stansiya tikiləcəkdir. Bu proqram var, maliyyə vəsaiti də ayrılacaq və əminəm ki, siz gələcəkdə yeni stansiyaların tikintisində uğurla iştirak edəcəksiniz.

**A b i d Ş ə r i f o v:** Cənab Prezident, proqram artıq hazırlanmışdır. Siz buraya gəlib inşaat işlərinin gedişi ilə tanış olanda göstəriş verdiniz ki, hansı istiqamətlərdə metro xətlərinin çəkilməsini gələn ilin investisiya proqramına salmalıyıq. Bu barədə Sizə məruzə olunmuşdu və həmin proqram Sizə təqdim ediləcəkdir.

**İ l h a m Ə l i y e v:** Hər il Bakı şəhərində metro tikintisi aparılacaqdır. İndi deyə bilmərəm ki, siz hər il bir stansiyanı təhvil verə biləcəksiniz, yoxsa yox. Bu daha çox sizin işinizdən asılı olacaqdır. O ki qaldı maliyyə məsələlərinə, burada heç bir çətinlik olmayacaqdır.

**A b i d Ş ə r i f o v:** Cənab Prezident, İnşallah, Sizin rəhbərliyiniz altında bütün işlər görüləcəkdir.

**İ l h a m Ə l i y e v:** Amma əsas odur ki, metro tikintisi bundan sonra Azərbaycanda hər il, uzun illər ərzində aparılacaqdır. Biz elə etməliyik ki, bütün şəhərimizi metro ilə əhatə edək. Çünki metro ən rahat nəqliyyat vasitəsidir. İndi hamı yaxşı bilir ki, metro tarifləri dəyişməz olaraq qalır. Yəqin ki, dünyada ən ucuz tariflər Azərbaycandadır. Mən onu da demək istəyirəm, dəfələrlə müraciətlər olunmuşdu ki, biz tarifləri qaldıraq, bu, rentabelli deyil, yəni metro zərərlə işləyir. Mən demişəm ki, eybi yoxdur, qoy Azərbaycan dövləti metropolitenə dotasiya ayırsın. Amma biz qiymətə baxmayacağıq və nə qədər mümkündür, bu qiymətlər dəyişməyəcəkdir. Çünki bir daha demək istəyirəm ki, bu, ən kütləvi nəqliyyat vasitəsidir. Növbəti illərdə yeni stansiyaların tikintisi hesabına biz bütün şəhərimizin infrastrukturunu müasirləşdirəcəyik və insanların rahatlığı üçün çox böyük işlər görüləcəkdir.

**T a ğ ı Ə h m ə d o v:** Cənab Prezident, ən yaxşı hal budur ki, bu, müstəqilliyimiz dövründə öz gücümüzə tikilən stansiyadır.

**İ l h a m Ə l i y e v:** Bəli, düzdür.

**T a ğ ı Ə h m ə d o v:** Ulu öndərimizin rəhbərliyi dövründə 14 stansiya tikilib istifadəyə verilmişdir. «Nəsimi» sayca 21-ci stansiyadır.

* * *

*Sonra dövlətimizin başçısı qatarla «Nəsimi» stansiyasından «Elmlər Akademiyası» stansiyasına yola düşdü.*

*Prezident İlham Əliyevə 1967-ci ildən istismarda olan Bakı Metropoliteninin yeni inkişaf proqramı barədə ətraflı məlumat verildi. Bildirildi ki, hazırda metronun üçüncü növbəsinin şimal sahəsində «Azadlıq prospekti» stansiyasının inşası davam edir. Ən yüksək səviyyədə yenidən qurulan «İçərişəhər» stansiyası da tezliklə açılacaqdır. «28 May» stansiyasının ikinci çıxışının tikintisi də başa çatır. Yeni avtovağzalın ərazisində metro stansiyasının tikintisi məqsədəuyğun sayılmışdır. 2025-ci ilə qədər metro stansiyalarının sayını 62-yə çatdırmaq nəzərdə tutulur. Oktyabrın 16-dan metropolitendə 30 cüt qatar xəttə buraxılacaq, bu da qatarların hərəkət intervalının iki dəqiqəyə endirilməsinə imkan verəcəkdir. Xüsusilə sərnişin axınının gur saatlarında qatarların sayı artırılacaqdır. Gələcəkdə Sumqayıt şəhərinə də metro xəttinin çəkilməsi planlaşdırılır.*

*Azərbaycan prezidenti metropolitenin yeni inkişaf planının yerinə yetirilməsinə dövlət tərəfindən hər cür köməyin göstəriləcəyini vurğuladı, «Nəsimi» stansiyasının açılışı münasibətilə metro işçilərini bir daha təbrik etdi, onlara uğurlar arzuladı.*

## «AZƏRBAYCAN» NƏŞRİYYATINDA RƏNGLİ OFSET ÇAP KOMPLEKSİ İLƏ TANIŞLIQ

*9 oktyabr 2008-ci il*

*Oktyabrın 9-da prezident İlham Əliyev «Azərbaycan» nəşriyyatında istifadəyə verilmiş rəngli ofset çap kompleksi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, 1250 kvadratmetr sahəsi olan kompleksdə Almaniya istehsalı olan «KBA COMET» çap avadanlığı quraşdırılmışdır. Ən müasir sayılan bu texniki avadanlıq səhifələrin sayından asılı olaraq saatda 75 min nüsxə qəzet çap etməyə imkan verir. Burada eyni vaxtda iki müxtəlif qəzet çap etmək mümkündür. Nəşriyyatın mütəxəssisləri yeni texnologiyanı mənimsəmək üçün Almaniyada və Moskvada təcrübə keçmişlər.*

*Dövlətimizin başçısı yeni kompleksdə qəzet çapı ilə tanış oldu, görülən işlərdən razılığını bildirdi.*

## QALA ARXEOLOJİ-ETNOQRAFİK MUZEY-KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*10 oktyabr 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 10-da paytaxtın yaxınlığında Qala Arxeoloji-Etnoqrafik Muzey-kompleksinin açılışı mərasimində iştirak etmişdir.*

*Qala kəndinin sakinləri prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı ehtiramla qarşıladılar. Milli geyimli oğlan və qız onlara gül dəstələri təqdim etdilər.*

*Prezident İlham Əliyev kompleksin açılışını bildirən rəmzi lenti kəsdi.*

*Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən yeni layihə Azərbaycanın tarixi keçmişinin qorunub saxlanması ilə yanaşı, ölkəmizin turizm mərkəzlərindən birinə çevrilməsinə də xidmət edəcəkdir. Burada hələ 1988-ci ildə Qala Dövlət Tarix Etnoqrafiya qoruğu yaradılmışdır. Qoruğun 156 hektar sahəni əhatə edən ərazisində eramızdan əvvəl III minillikdən XX əsrə qədər dövrə aid kurqanlar, sərdabələr, yaşayış evləri, 4 ovdan, qədim qəsrin qalıqları, 5 məscid, 3 hamam və s. var. Bu abidələrin qorunması, eləcə də Abşeronda aşkar edilən arxeoloji tapıntılar hesabına qoruğun daha da zənginləşdirilməsi məqsədi ilə 2008-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə burada açıq səma altında ilk arxeoloji-etnoqrafik muzey kompleksi yaradılmışdır. İki hektar ərazisi olan muzey kompleksdə Abşeron yarımadasında tapılmış və eramızdan əvvəl III–II minilliklərdən orta əsrlərə qədər dövrü əhatə edən qayaüstü rəsmlər, Qavaldaş, keramika, məişət və*

*bəzək əşyaları, silah və sikkələr, qədim yaşayış kompleksinin konservasiya olunmuş qalıqları və sair yerləşdirilmişdir.*

*Prezident İlham Əliyev əvvəlcə muzey kompleksinin yerləşdiyi ərazinin ilkin və indiki görünüşünə, Qala kəndinin 1916 və 1938-ci illərdə çəkilmiş planına, kəndə gələn yolların sxeminə, Abşeronun arxeoloji-etnoqrafik abidələrinin, XIII–XIV əsrlərə aid Qala və Mərdəkan qəsrlərinin, Buzovna, Şağan, Zirə və Türkan kəndlərindəki qədim yaşayış evləri, məscid, türbə, qəsr, qala, qəbiristanlıq və s. fotoşəkillərinə baxdı.*

*Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov muzey kompleksinin yaradılması və fotoşəkillər barədə məlumat verdi.*

*Dövlət başçısı və xanımı muzey kompleksini gəzdilər, buradakı eksponatlarla tanış oldular.*

*«Qala» Dövlət Tarix-Etnoqrafiya Qoruğunun direktoru Fikrət Abdullayev məlumat verdi ki, dünyanın ən qədim insan məskənlərindən olan Azərbaycan ərazisi arxeoloji abidələrlə, maddi-mədəniyyət nümunələri ilə zəngindir. Abşeron yarımadasının şimal-şərqində yerləşən Qala qəsəbəsində və ona bitişik ərazidə 215 memarlıq və arxeoloji abidə mövcuddur. Abidələrin öyrənilməsinə ötən əsrin 60-cı illərində başlanılmışdır. Qayaüstü rəsmlər mövzusuna və süjetlərinə görə çox rəngarəngdir. Burada ov, insanı qurban vermə, nikah, astronomik rəmzlər və sair səhnələr təsvir olunmuşdur. Qayaüstü təsvirlərdə həndəsi, xonça görünüşlü nişanlar mühüm yer tutur. Dübəndi, Türkan kurqanlarındakı antropomorf heykəlləri bəzi mütəxəssislər ölənlərin ruhunu axirət dünyasına yola salan ölüm Allahı ilə eyniləşdirirlər. Bu kurqanlar yalnız dəfn abidələri deyil, həm də qədim Azərbaycan tayfalarının maddi və mənəvi mədəniyyətinin öyrənilməsi üçün zəngin mənbədir.*

*Prezident İlham Əliyev dedi ki, Qobustan dünyada tanınır. Çünki qoruqdur. Amma Qala qəsəbəsində belə yer qədim mədəniyyətimizin bir əsəridir, bu onu göstərir ki, qədim dövrlərdə insanlar necə yaşamışlar. Gərək bura muzey kimi daim fəaliyyət göstərsin.*

*Dövlət başçısı qədim abidələrdən olan Qavaldaşa, Şüvəlan, Ağdaş düzü, Xaşaxuna, Zirə yaşayış məskənlərinin planına, qədim toyxana yerinə, tacir evinin maketinə, məşhur Qala qoyunlarına, dəvələrə, Dübəndi və digər ərazilərdə arxeoloji qazıntılar zamanı aşkar olunmuş tapıntılara, qədim qəbiristanlıqdakı abidələrə də baxdı.*

*Muzey kompleksinin inzibati binası ilə tanış olduqdan sonra prezident İlham Əliyev qəsəbə sakinləri ilə görüşüb söhbət etdi.*

**İlham Əliyev:** Sizi Qala muzey-kompleksinin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Çox gözəl muzeydir, kəndin qədim tarixini əks etdirir. Həm qədimliyi saxlayır, həm də burada bütün işlər ən müasir üsullarla görülübdür, abadlıq işləri aparılıbdır. Bu bir daha onu göstərir ki, Azərbaycan nə qədər zəngin tarixə, mədəniyyətə malikdir. İnsanlar burada əsrlər boyu yaşamışlar, yaratmışlar və bizim borcumuzdur ki, bütün tarixi-mədəni irsimizi qoruyaq və gələcək nəsillər üçün saxlayaq.

Əminəm ki, bura Qala sakinləri üçün çox gözəl bir yer olacaqdır, burada insanlar istirahət edəcək, ölkəmizə gələn xarici qonaqlar üçün də burada çox maraqlı bir ekspozisiya nümayiş etdiriləcəkdir.

**Ağaverdi Bədəlov** (*qəsəbə ağsaqqalı*): Hörmətli prezidentimiz İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım, Sizi qalalılar adından, qəsəbə sakinləri adından salamlayırıq, Sizə «Xoş gəlmisiniz!» deyirik. Sizin zəhmətinizlə, rəhbərliyinizlə respublikanın hər yerində olduğu kimi, bizim rayonda da çox işlər görülür. Qalada belə bir muzeyin açılmasında da Sizin xidmətləriniz çox böyükdür. Zirə geridə qalmış bir yer idi. İndi hamı deyir ki, ora şəhərdir. Mən özüm də bunu deyirəm. Şüvəlan, Mərdəkan da həmçinin. Mərdəkan–Şüvəlan yolu asfaltlanmış, genişləndirilmiş, gözəl olmuşdur.

**İlham Əliyev:** Bu gözəl tarixi-etnoqrafiya muzeyi Heydər Əliyev Fondu tərəfindən yaradılıbdır. Çox böyük zəhmət qoyulubdur. Qala kəndinin ümumi inkişafı üçün də çox

böyük işlər görülür: yollar, tibb məntəqələri, uşaq bağçası və s. tikilir. Bilirsiniz ki, Azərbaycanda sosial məsələlərin həlli ilə bir tərəfdən Azərbaycan dövləti, digər tərəfdən də Heydər Əliyev Fondu çox ciddi məşğuldur. Fondun həm mədəni irsimizin qorunması, həm də səhiyyə, təhsil, mədəniyyət məsələlərinin həlli işində çox böyük fəaliyyəti var. Bütün bu işlərin görülməsi bir daha onu göstərir ki, Azərbaycan çox sürətlə inkişaf edir. İndi Azərbaycanda, Bakıda, həm də başqa şəhərlərdə muzeylər, tarixi abidələrimiz bərpa olunur. Biz bunu gələcək nəsillər üçün qorumalıyıq, saxlamalıyıq. Çünki bu, xalqımızın mədəniyyətini əks etdirir, bizim tariximizi əks etdirir.

Azərbaycan xalqı çox böyük mədəniyyətə malikdir. Bizim çox zəngin tariximiz var. Ancaq son 17 il ərzində müstəqil dövlət kimi yaşayırıq və Azərbaycanı dünyada tanıtmaq üçün biz hələ çox iş görməliyik. Bizim mədəniyyətimizi, ənənələrimizi, Azərbaycan xalqının çox böyük istedada malik olmasını dünyada nümayiş etdirməliyik.

Bununla bərabər, bir daha demək istəyirəm ki, bütün sosial məsələlər – məktəblər, tibb məntəqələri, xəstəxanalar, uşaq bağçaları, yollar, elektrik, qaz, su xətləri – bütün bunlar kompleks şəkildə icra olunmalıdır. Hər bir kəndin problemi öz həllini tapmalıdır. Belə olan halda, bütün ölkədə problemlər həll olunacaqdır. Bilirsiniz, həm Bakıətrafı qəsəbələrin inkişafı üçün xüsusi proqram icra olunur, həm də bu işlər regionlarda, yəni hər yerdə gedir və gələcək illərdə də gedəcəkdir.

Sizə uğurlar arzulayıram. Sağ olun.

## Uşaq bağçasının yeni binasının istifadəyə verilməsi mərasimi

*Oktyabrın 10-da Bakının Qala qəsəbəsində 63 saylı uşaq bağçasının yeni binası istifadəyə verilmişdir.*

*Mərasimə gələn Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı burada gül-çiçəklə qarşıladılar.*

*Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın təşəbbüsü ilə Əzizbəyov rayonunda, o cümlədən Qala qəsəbəsində geniş abadlıq və quruculuq işləri aparılır.*

*Qəsəbədə fəaliyyət göstərən yeganə uşaq bağçası çox köhnə və tam yararsız vəziyyətdə olan binada yerləşirdi. Heydər Əliyev Fondunun təşəbbüsü ilə uşaq bağçası üçün yeni 100 yerlik bina tikilmişdir. İndi müasir tələblərə tam cavab verən yeni binada uşaqlar üçün hər cür şərait yaradılmışdır. Buraya gələn balacalar bağçanın astanasından sanki nağıllar dünyasına düşürlər. Həyətdə dekorativ gül və ağac kolları əkilmiş, uşaq meydançasında gözəl oturacaqlar və yelləncəklər qurulmuşdur. Otaqlardakı yaraşıqlı mebel, müxtəlif oyuncaqlar, rəngbərəng kitablar göz oxşayır. Divarlardan balacaların sevimli nağıl qəhrəmanlarının şəkilləri asılmışdır. Yataq otaqları zövqlə tərtib olunmuşdur. Binanın mərkəzləşdirilmiş istilik sistemi də vardır.*

*Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva açılışı bildirən lenti kəsdilər, əvvəlcə foyedə ümummilli lider Heydər Əliyevin uşaqlara diqqət və qayğısını əks etdirən fotostendə baxdılar. Sonra otaqları gəzdilər, balacalar üçün yaradılan şəraitlə maraqlandılar. Bildirildi ki, bağçada mərkəzləşdirilmiş nəzarət sistemi qurulmuşdur, müşahidə kameraları vasitəsilə bağçanın hər bir nöqtəsi izlənilir, balacaların təhlükəsizliyi təmin edilir. Bu bağçanı digərlərindən yeni layihə əsasında inşa olunması fərqləndirir. İdman otağı uşaqlarda kiçik yaşlarından idmana həvəs oyadacaq, onların fiziki sağlamlıqlarının möhkəmlənməsinə kömək edəcəkdir. Yeməkxana və mətbəx də müasir avadanlıqlarla təchiz edilmişdir. Uşaqların təlim-*

*tərbiyəsi ilə peşəkar tərbiyəçilər və müəllimlər məşğul olacaqlar.*

*Dövlət başçısı və xanımı uşaq bağçasında yaradılan şəraitdən məmnunluqlarını bildirdilər.*

## Qalada ilk xəstəxananın açılışı mərasimi

*Oktyabrın 10-da Bakının Qala qəsəbəsində ilk xəstəxana – 29 nömrəli birləşmiş şəhər xəstəxanasının filialı açılmışdır.*

*Azərbaycan prezidenti İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilən filialın təcili yardım stansiyası və apteki də vardır. Yeni səhiyyə müəssisəsi müasir tibbi avadanlıqlarla təmin olunmuşdur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva təcili yardım stansiyası üçün alınmış avtomobilə baxdılar. Bildirildi ki, avtomobildə reanimasiya tədbirləri üçün avadanlıq, elektrokardioqraf, qanı oksigenlə təmin edən aparat, qanda şəkərin miqdarının təyin edilməsi üçün avadanlıq, 90 çeşiddə dərman ləvazimatı və sarğı materialları vardır.*

*Filialla tanışlıq zamanı dövlət başçısına məlumat verildi ki, bu, qəsəbədə ilk xəstəxanadır. Əvvəllər Qala sakinləri tibbi yardım üçün qonşu qəsəbələrə getmək məcburiyyətində olurdular. Tibb işçiləri belə gözəl səhiyyə ocağının istifadəyə verilməsinə görə dövlət başçısına və xanımına minnətdarlıqlarını bildirdilər.*

*Prezident İlham Əliyev burada yaradılmış şəraiti yüksək qiymətləndirdi.*

# PAYTAXTDAKI KLİNİKİ TİBBİ MƏRKƏZİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRA AÇILIŞI MƏRASİMİ

*10 oktyabr 2008-ci il*

*Oktyabrın 10-da Bakıda Səhiyyə Nazirliyinin Kliniki Tibbi Mərkəzinin əsaslı təmirdən və yenidənqurma işlərindən sonra açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Ötən əsrin ortalarında inşa edilən keçmiş Semaşko adına 1 nömrəli şəhər kliniki xəstəxanasının – indiki Kliniki Tibbi Mərkəzin korpuslarının əksəriyyəti qəza vəziyyətində idi. İsitmə, su təchizatı və kanalizasiya sistemləri əslində sıradan çıxmışdı. Tibb texnikası köhnəlmiş, avadanlıqlar istifadəyə yararsız vəziyyətə düşmüşdü, xəstələr üçün ən elementar şərait yox idi. Bütün bunlar ona gətirib çıxarmışdı ki, xəstəxananın 1815 çarpayısından üçdə ikisi istifadəsiz qalırdı. Tibb Universitetinin 13 kafedrası burada yerləşir, xəstəxanada 2000-dən çox tibb işçisi çalışırdı. Amma bunların xəstəxananın səmərəli fəaliyyətinə təsiri yox idi.*

*Regionda ən böyük tibb mərkəzinin Bakı şəhəri və bütünlükdə respublika üçün əhəmiyyətini nəzərə alaraq, Azərbaycan prezidenti tərəfindən vəsait ayrılmış, əsaslı təmir və yenidənqurma işlərinə başlanılmışdı. Bu işlər il yarım ərzində başa çatdırılmışdır. 17 hektar ərazidə yerləşən 15 əsas və yardımçı korpusdan üçü tamamilə yenidən tikilmiş, 43 min kvadratmetrə yaxın sahə əsaslı təmir edilmişdir.*

*Hazırda Mərkəzin zəruri avadanlıq və ən müasir texnika ilə təchiz edilən ümumi və təcili cərrahiyyə, neyrotravma, uşaq cərrahiyyəsi, travmatologiya və ortopediya, üz-çənə cərrahiyyəsi şöbələrindəki 14 əməliyyat blokunda gecə-gündüz hər bir zəruri cərrahi müdaxiləni həyata keçirmək mümkündür.*

*Mama-ginekologiya korpusunda doğuşa yardım xidmətindən əlavə, xüsusi təhlükəli infeksiyaları olan xəstələrə də tam həcmdə tibbi yardım göstərilir. Ana və uşağın birgə olması üçün nəzərdə tutulan palatalardan başqa, reanimasiya palataları da təşkil edilmişdir.*

*Mərkəzdə sırf cərrahi profilli və intensiv terapiya şöbələri də yerləşir. Təcili kardiologiya və nevrologiya şöbələrində nəinki tez və dəqiq diaqnoz qoymaq, həm də ən müasir aparatların köməyi ilə damarın zədələnən hissəsində qan dövranını bərpa etmək mümkündür.*

*Kliniki mərkəzin iki korpusu infeksion xəstələrin müalicəsi üçün nəzərdə tutulmuşdur. Bokslaşdırılmış xüsusi palatalar ən müxtəlif infeksion xəstəliklərə yoluxmuş xəstələri hospitalizasiya etməyə imkan verir. Belə profilli müəssisələr üçün ən vacib məqam infeksiyanın yayılma təhlükəsini aradan qaldırmaqdır. Bu məqsədlə burada hər palataya fərdi ventilyasiya sistemi quraşdırılmışdır. Palata və dəhlizlərdə atmosfer təzyiqinin fərqli olması və xüsusi şlüzlər yoluxucu hava-damcı infeksiyaları olan xəstələri hospitalizasiya etməyə imkan verir. Bunlar respublikada bütün beynəlxalq standartlara cavab verən ilk infeksion şöbələrdir.*

*Toksikologiya şöbəsində quraşdırılmış tibbi avadanlıqlar təkcə patalogiyanın xarakterini deyil, həm də xəstənin orqanizmində toksiki komponentin olub-olmamasını dəqiq müəyyənləşdirir. Həmin şöbədə pasiyentlərdə olan intoksikasiyanı aradan qaldırmaq üçün süni böyrək aparatları da quraşdırılmışdır.*

*Mərkəzdə tələbələr üçün nəzərdə tutulan korpusda mühazirə və tədris otaqları yaradılmışdır. Quraşdırılan kameralar əməliyyatın bütün gedişini izləməyə imkan verir. Müəllimlər monitorlarda ultrasəs müayinəsi, kompyuter tomoqrafiyası, nüvə maqnit rezonans aparatında şəkilləri göstərib onları şərh edə bilərlər.*

*Mərkəzdə qanın yığılması, fraksiyası və saxlanması üçün avadanlıqla təmin edilmiş qan bankı da vardır.*

*Bütün korpuslar fibooptik kompyuter rabitəsi ilə təmin olunmuşdur, müayinələrin nəticələri və müalicə haqqında informasiyalar mərkəzin ümumi kompyuter sisteminə daxil edilir.*

*Müasir fabrik-mətbəx 1500 xəstəni qida ilə təmin etməklə yanaşı, yaxınlıqda yerləşən digər tibb müəssisələrini də hazır xörəklə təchiz etməyə imkan verir.*

*Təxirəsalınmaz yardıma ehtiyacı olan xəstələrin əksəriyyəti məhz bu Mərkəzə gətirildiyinə görə, burada təcili və təxirəsalınmaz tibbi yardım mərkəzi, dispetçer məntəqəsi də fəaliyyət göstərir.*

*Mərkəzdə çalışan tibb heyətinə lazımi şərait yaradılması ilə yanaşı, onların övladları üçün xüsusi uşaq bağçası da təşkil edilmişdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva əvvəlcə Mərkəzin laboratoriya korpusu ilə tanış oldular.*

*Səhiyyə naziri Oqtay Şirəliyev məlumat verdi ki, xəstəxananın 5-ci korpusunun bazasında nadir kliniki-diaqnostik laboratoriya fəaliyyət göstərir. Birinci mərtəbədə qəbul, qanın və biomaterialların işlənməsi üçün hər cür şərait yaradılmış, eləcə də müstəsna analizlər və gecə şəraitində işləmək üçün nəzərdə tutulan ekspress laboratoriya təşkil edilmişdir. Buradakı müasir avadanlığın köməyi ilə geniş spektrdə analiz və tədqiqatlar aparmaq mümkündür.*

*Laboratoriyada yoluxucu materiallarla iş zamanı şəxsi heyətin təhlükəsizliyi probleminə də diqqət yetirilmişdir.*

*Azərbaycan səhiyyəsi tarixində ilk dəfədir ki, burada arbitraj (referens) laboratoriyası yaradılmış və müasir avadanlıqla təmin edilmişdir. Bu isə ümumilikdə ölkədə laborator tədqiqatların unifikasiyası və onların dünya standartlarına uyğunlaşdırılması üzrə kompleks tədbirlər görülməsi istiqamətində çox mühüm addımdır. Referens laboratoriyanın avadanlığı tam avtomatlaşdırılmışdır və geniş proqram təminatına malikdir. Burada tədqiqatlarda mümkün ola biləcək səhvləri tamamilə istisna edən daxili nəzarəti həyata keçirmək imkanı da var.*

*Dövlət başçısı cərrahiyyə korpusunda yaradılan şəraitlə də maraqlandı. Bu korpusun 5-ci mərtəbəsi isə ancaq reanimasiya bölməsindən ibarətdir. 60 çarpayılıq bu bölmə müasir avadanlıqlarla təmin olunmuşdur.*

*Sonra Mərkəzin tibb işçiləri ilə görüşən prezident İlham Əliyev onlara müraciətlə dedi:*

– Sizi xəstəxananın təmirdən sonra fəaliyyətə başlaması münasibətilə təbrik edirəm. Burada həm avadanlıq, həm də bütün şərait dünyanın ən yüksək standartlarına cavab verir. Təmir işləri çox keyfiyyətlə aparılmışdır. Siz, burada əvvəllər işləmiş insanlar yaxşı xatırlayırsınız ki, bu xəstəxana hansı vəziyyətdə idi. Ancaq bu gün, sözün əsl mənasında, dünyanın ən qabaqcıl texnologiyaları burada tətbiq olunur. Burda həm işləmək üçün çox gözəl şərait var, həm də xəstələrə ən yüksək tibbi xidmət göstərmək mümkündür. Bu bir daha onu göstərir ki, Azərbaycanda səhiyyə məsələlərinin həllinə çox böyük diqqət yetirilir. Həm Bakı şəhərində, həm də bütün rayonlarda – hər bir yerdə ən yüksək tibbi xidmət göstərilməlidir.

Mən çox şadam ki, son illərdə həm rayonlarda, həm də Bakıda bir neçə gözəl tibb ocaqları istismara verilibdir. Bir neçəsində də işlər gedir. Məsələn, Bakıda Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun, Onkoloji Mərkəzin tikintisi gedir. Travmatologiya mərkəzi, bölgədə ən nadir mərkəz olacaq böyrəkköçürmə mərkəzi yaradılır. Başqa tibb müəssisələrinin təmiri, yenidən qurulması, yenilərinin tikintisi, təzə avadanlıqlarla təmin olunması bizə imkan verəcək ki, Azərbaycanda tibb xidməti, səhiyyə yüksəlsin.

Əminəm ki, həkimlərin də bu təşəbbüslərə qoşulması çox sevindiricidir. Həkimlər üçün də çox gözəl, müasir şərait yaradılıbdır. Əminəm ki, siz burada xəstələrə yaxşı xidmət göstərəcəksiniz.

İndi özəl tibbi xidmət də yaradılır, inkişaf edir və bu da normal haldır. Ancaq dövlət bu sahədə öz siyasətini çox ciddi aparmalıdır və biz bunu Azərbaycanda görürük. Əminəm ki, növbəti illərdə yeni xəstəxanaların tikintisi davam

etdiriləcəkdir. Bax, bu pəncərədən görünən Azərbaycan Tibb Universitetinin tədris terapevtik korpusunun tikintisi uğurla gedir. Mən keçən il bu korpusun təməlini qoymuşdum. Artıq bu gün bina qaldırılıbdır. Bununla bərabər, cərrahiyyə korpusunun tikintisi gedir. Bütün bunlar Azərbaycanda səhiyyə sisteminin güclənməsinə xidmət göstərir.

Ona görə bu gün həm mənim üçün, həm də sizin üçün çox gözəl bir gündür. Bu gözəl xəstəxananın yenidən yaşamasını, canlanmasını birlikdə qeyd edirik. Siz burada yaxşı şəraitdə işləyəcəksiniz. Sağ olun.

* * *

*Sonra prezident İlham Əliyev cərrahiyyə korpusunda aparılan yenidənqurma işləri ilə tanış oldu. Sorğu-məlumat köşkünün olduğu bu korpusda uşaq, üz-çənə və ümumi cərrahiyyə bölmələri yerləşir.*

*Dövlət başçısı Mərkəzin 100-ə yaxın işçisi olan dispetçer məntəqəsinin fəaliyyəti ilə də tanış oldu. Bildirildi ki, Bakı şəhəri üzrə 103 xidmətinə daxil olan bütün çağırışların yerinə yetirilməsi üçün heç bir problem yoxdur. Müasir kompyuter sistemi, CİPEY sistemi yaradılmış, müasir rabitə vasitələri quraşdırılmışdır. Xüsusi avadanlıq telefon zəngi daxil olanda kömək üçün müraciət edənin dəqiq ünvanını, monitorda isə ona ən yaxın olan təcili yardım maşınının yerini müəyyən etməyə imkan verir. Beləliklə, çağırış ilə bağlı bütün məlumat həmin ünvana ən yaxın yerdə olan həkim briqadasına çatdırılır.*

*Prezident İlham Əliyev burada yaradılan şəraitdən razılığını bildirdi, kollektivə uğurlar arzuladı.*

## PAYTAXTA GƏTİRİLƏN YENİ SƏRNİŞİN AVTOBUSLARINA BAXIŞ

*10 oktyabr 2008-ci il*

*Bakı şəhərində yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi, sərnişinlərə nümunəvi nəqliyyat xidmətinin göstərilməsi ilə bağlı görülən tədbirlər çərçivəsində paytaxta yeni sərnişin avtobusları gətirilmişdir.*

*Oktyabrın 10-da Azərbaycan prezidenti İlham Əliyev Azadlıq meydanında yeni avtobuslara baxmışdır.*

*Nəqliyyat naziri Ziya Məmmədov dövlət başçısına əvvəlcə paytaxtda avtobusların yeni marşrut sxemləri barədə məlumat verdi. Bildirildi ki, indiyə qədər Bakıya 200 ədəd Daewoo markalı, 100 ədəd Çin və ABŞ birgə istehsalı olan avtobuslar, 40 ədəd MAN, 20 ədəd MAZ markalı avtobuslar gətirilmişdir. Bundan əlavə, müxtəlif şirkətlər tərəfindən gətirilmiş 100-dən çox orta tutumlu avtobus sərnişinlərə xidmət edir. Yeni avtobusların marşrutlara buraxılması sərnişinlərə xidmətin səviyyəsini yüksəltməklə yanaşı, şəhərdə tıxacların aradan qaldırılmasına da kömək edir.*

*Prezident İlham Əliyev yeni gətirilmiş 6 ədəd MAN və 31 ədəd Daewoo markalı avtobuslara baxdı, sərnişinlərə daha yaxşı, nümunəvi nəqliyyat xidməti göstərilməsi ilə bağlı müvafiq tapşırıqlarını verdi.*

## POLŞA PREZİDENTİ ADMİNİSTRASİYASININ MİLLİ TƏHLÜKƏSİZLİK BÜROSUNUN RƏHBƏRİ VLADİSLAV STASİAKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 oktyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Polşa Prezidenti Administrasiyasının Milli Təhlükəsizlik bürosunun rəhbəri Vladislav Stasiakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan–Polşa münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, qarşılıqlı səfərlərin, müvafiq dövlət strukturları və təşkilatları arasında əməkdaşlığın əlaqələrin daha da genişlənməsinə xidmət etdiyi bildirildi.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Milli bayramınız – Respublika günü münasibətilə Sizi və Sizin simanızda bütün Türkiyə xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Xalqlarımızın bir-birinə bəslədiyi qardaşlıq duyğularından qaynaqlanan Azərbaycan–Türkiyə tərəfdaşlığı bu gün dövlətlərarası münasibətlərin ən yüksək səviyyəsini bariz nümayiş etdirən örnək sayıla bilər. Əminəm ki, sələflərimizdən miras qalmış birliyimizi, müttəfiqliyimizi qoruyub saxlamaq və gələcək nəsillərə çatdırmaq üçün üzərimizə düşən bu şərəfli missiyanı bundan sonra da qətiyyətlə yerinə yetirəcəyik.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 oktyabr 2008-ci il*

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Baş nazir!

Əziz qardaşım!

Qardaş Türkiyənin milli bayramı – Respublika günü münasibətilə Sizə və bütün Türkiyə xalqına ən səmimi təbriklərimizi yetirirəm.

Ortaq mənəvi dəyərləri bölüşən xalqlarımızın iradəsi ilə bu gün Azərbaycan–Türkiyə münasibətləri özünün ən yüksək səviyyəsinə çatmışdır. Əminəm ki, tarixin bütün sınaqlarından alnıaçıq çıxmış dostluq və qardaşlıq münasibətlərimiz milli mənafelərimizin qorunması, xalqlarımızın rifahı naminə birgə səylərimizin daim ilham mənbəyi və güvənc yeri olacaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyəyə sülh və çiçəklənmə arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 oktyabr 2008-ci il*

**ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA**

Hörmətli cənab Prezident!

Əlcəzairin milli bayramı – İnqilab günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Əlcəzair arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Əlcəzair xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 oktyabr 2008-ci il*

**AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ CƏNAB HAYNZ FİŞERƏ**

Hörmətli cənab Federal Prezident!

Avstriya Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.

Ümidvaram ki, Azərbaycan–Avstriya münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Avstriya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 oktyabr 2008-ci il*

**TÜRKMƏNİSTAN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ CƏNAB**
**QURBANQULU BERDIMƏHƏMMƏDOVA**

Hörmətli Qurbanqulu Məlikquliyeviç!

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizi və bütün Türkmənistan xalqını milli bayram – Müstəqillik günü münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan və Türkmənistan əsrlər boyu dostluq və qarşılıqlı dəstək telləri ilə bağlıdır. Şadam ki, ölkələrimiz arasında ənənəvi mehriban qonşuluq münasibətləri və hərtərəfli əməkdaşlıq bu gün də xalqlarımızın və dövlətlərimizin mənafeyi naminə, regionda sülh, təhlükəsizlik və sabitlik naminə uğurla və dinamik inkişaf edir.

Hörmətli Qurbanqulu Məlikquliyeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dövləti fəaliyyətinizdə uğurlar, dost Türkmənistan xalqına sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 oktyabr 2008-ci il*

**ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VATSLAV KLAUSA**

Hörmətli cənab Prezident!

Çexiya Respublikasının Milli bayramı münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Çexiya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı, müxtəlif sahələrdə əlaqələrimizin genişlənməsi daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çexiya xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 oktyabr 2008-ci il*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ NAZİRLƏR KABİNETİNİN 2008-ci İLİN DOQQUZ AYINDA SOSİAL-İQTİSADİ İNKİŞAFIN YEKUNLARINA HƏSR OLUNMUŞ GENİŞ İCLASI*

*13 oktyabr 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyevin sədrliyi ilə oktyabrın 13-də Nazirlər Kabinetinin 2008-ci ilin doqquz ayında sosial-iqtisadi inkişafın yekunlarına həsr olunmuş geniş iclası keçirilmişdir.*

*Dövlətimizin başçısı iclası giriş nitqi ilə açdı.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Nazirlər Kabinetinin bugünkü geniş iclası 9 ayın yekunlarına həsr edilibdir. Nazirlər Kabinetinin geniş iclasları Azərbaycanda artıq gözəl ənənəyə çevrilibdir. Biz hər rübdə bir dəfə görülən işlər haqqında hesabatları dinləyirik, görülən işlər təhlil edilir, gələcək planlar müzakirə edilir və bu iclaslar görülən işlər barədə bir növ xalqa verilən hesabatdır.

Mən hesab edirəm ki, bunun çox böyük əhəmiyyəti var. Çünki hökumətin, dövlətin fəaliyyəti daim xalqın nəzarəti

---

* Мцзакирялярдя Верэиляр назири Фазил Мяммядов, Тящсил назири Мисир Мярданов, Сящиййя назири Оqтай Ширялийев вя Дювлят Сосиал Мцдафия Фондунун сядри Сялим Мцслцмов чыхыш етдиляр.

altında olmalıdır. Bizim bütün işlərimiz çox açıq, şəffaf şəkildə aparılır. Bütün təşəbbüslərimiz Azərbaycan xalqının daha da yaxşı yaşamasına, Azərbaycan dövlətinin möhkəm-lənməsinə yönəldilibdir. Bir daha demək istəyirəm ki, hər üç aydan bir belə geniş müzakirənin aparılması böyük əhəmiyyət kəsb edir. Xüsusilə nəzərə alsaq ki, hər üç ayda Azərbaycanda yeni hadisələr, çoxlu yeniliklər baş verir. Bizim uğurlu iqtisadi inkişafımız çox dinamikdir və hər üç aydan bir deməyə çox sözlərimiz var.

Son doqquz ay ərzində Azərbaycan iqtisadiyyatı öz dinamik inkişafını davam etdirmişdir. Bizim iqtisadi artım sürətimiz həmişəki kimi, çox yüksək olmuşdur və ümumi daxili məhsul doqquz ay ərzində 15 faiz artmışdır. Nəzərə alsaq ki, son 4 il ərzində Azərbaycan iqtisadi inkişaf sürətinə görə dünyada birinci sırada gedən ölkədir, bu çox yüksək göstəricidir. Bizim iqtisadi inkişafımız çox sürətli olubdur və belə yüksək sürətin saxlanılması onu göstərir ki, bizim bütün islahatlarımız həm konkret məsələlərin həllinə yönəldilib, həm də ölkəmizin uzunmüddətli inkişafını təmin edir. 4 il ərzində iqtisadi inkişaf sürətinə görə dünya miqyasında birinci olmaq çox böyük nailiyyətdir. Azərbaycan dövləti öz siyasətini bu istiqamətdə davam etdirəcək və əminəm ki, ölkəmizin uğurlu iqtisadi inkişafı bundan sonra da davam etdiriləcəkdir.

Sənaye istehsalının artımı 12 faiz təşkil etmişdir, kənd təsərrüfatında artım 8 faizdən çox olmuşdur. Bizi narahat edən yeganə məsələ inflyasiyanın yüksək olmasıdır. İnflyasiya 21 faiz təşkil edir. Ancaq əhalinin pul gəlirlərinin artımı 34 faiz təşkil edir. Yəni bu bir daha bunu göstərir ki, inflyasiyanın yüksək olması əhalinin pul gəlirlərinin daha da yüksək sürətlə artması ilə tənzimlənir. Biz növbəti illərdə də inflyasiyanın səviyyəsinə çox ciddi fikir verməliyik. Bunun müxtəlif səbəbləri var. Həm dünyada gedən böhranlı hadisələr, həm enerji daşıyıcılarının qiymətlərinin qalxması və digər səbəblər. Azərbaycanda iqtisadi və sosial sahələrdə islahatların aparılması bu mənfi halı maksimum dərəcədə aşağı endirir.

Biz bu məsələyə daim çox ciddi diqqət göstərməliyik və 2009-cu ildə inflyasiyanın daha da aşağı səviyyəyə salınması üçün çalışmalıyıq. Ölkəmizdə sosial məsələlərin həllinə çox böyük diqqət göstərilir. Bu bizim siyasətimizdir və bu ilin doqquz ayında bu siyasət özünü göstərmişdir. Son rübdə minimum əməkhaqqı və minimum pensiyaların baza hissəsi artırılmışdır, çoxlu sosial təşəbbüslər irəli sürülmüşdür. Humanitar sahədə bizim bütün planlarımız icra edilir, məktəblər, yeni xəstəxanalar tikilir. Yəni insanların yaxşı yaşaması üçün, rifah halının yaxşılaşdırılması üçün bütün lazımi tədbirlər görülür.

Bizim büdcəmizdə də sosial məsələlərin həllinə kifayət qədər çox vəsait nəzərdə tutulmuşdur və ölkənin qarşısında duran sosial məsələlərin həllində biz o vəsaitdən istifadə edirik. İnfrastruktur layihələrinin icrası bütün istiqamətlərdə davam etdirilmişdir. İlin əvvəlində, 2008-ci il üçün nəzərdə tutduğumuz bütün tədbirlər icra edilir və nəqliyyat, energetika, tikinti və digər sahələri əhatə edən nəhəng infrastruktur layihələri icra olunur. Bu, ölkəmizi yüksək dərəcədə gücləndirən amildir. Ölkəmizin bundan sonra uzun müddət ərzində dayanıqlı inkişafını təmin edir və şübhəsiz ki, qeyri-neft sektorunun inkişafına böyük təkan verir. Çünki güclü infrastruktura malik ölkələr bu imkanlardan geniş istifadə edirlər. Azərbaycanda son illər ərzində bu sahəyə çox böyük vəsait qoyulmuşdur. Demək olar ki, dövlət xərclərinin böyük əksəriyyəti infrastruktur layihələrinə sərf olunmuşdur. Biz bunun gözəl nəticələrini bu gün görürük. Çoxlu elektrik stansiyaları tikilib, qaz xətləri çəkilib, su və meliorasiya məsələlərinin həlli üçün əməli-praktik işlər görülübdür. Avtomobil yolları, dəmir yolu, hava, dəniz nəqliyyatı – bütün bunların inkişafı göz qabağındadır. Ölkəmizin hərtərəfli inkişafı üçün, regionların inkişafı üçün həyata keçirilən infrastruktur layihələri eyni zamanda, nəhəng transmilli layihələrlə tamamlanır. Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin tikintisi bunun çox bariz nümunəsidir. Mən çox şadam ki, bu layihə indi

uğurla icra edilir və heç şübhə yoxdur ki, layihə vaxtlı-vaxtında və yüksək keyfiyyətlə başa çatdırılacaqdır.

Son doqquz ayda regionların inkişafı sürətlə getmişdir.

Demək olar ki, regionlarin sosial-iqtisadi inkişafı Dövlət Proqramı uğurla başa çatıb və mənim rayonlara son səfərlərim bunu bir daha əyani şəkildə göstərir. Regionlarda nə qədər böyük işlər görülüb, rayonlarımızın siması dəyişibdir. Çox gözəl layihələr icra olunur – həm infrastruktur layihələri, həm də özəl biznesin inkişafı üçün aparılan işlər, qoyulan sərmayələr. Rayonlarımızın iqtisadi artımı da çox yüksək sürətlə ölçülür. Son 5 il ərzində əksər rayonların iqtisadiyyatı 2 dəfədən çox artıbdır. Bunun əsas səbəbi qeyri-neft sektorunun inkişafı olmuşdur. Yəni bu onu göstərir ki, qeyri-neft sektorunun inkişafına son 5 il ərzində verilən dəstək və diqqət öz gözəl bəhrəsini verir və Azərbaycan iqtisadiyyatı artıq, demək olar ki, çoxşaxəlidir.

Biz gələcək illərdə bu məsələyə daha da böyük diqqət göstərəcəyik. Həm dövlət qayğısı göstəriləcək, həm kreditlər veriləcək, həm də digər tədbirlər nəticəsində bölgələrdə inkişaf daha da sürətlə gedəcəkdir. Amma bu gün əldə edilmiş nailiyyətlər bizi sevindirməyə bilməz. Çünki bu doğrudan da böyük irəliləyişdir, tərəqqidir, inkişafdır.

Son 3 ay ərzində energetika və neft-qaz sektorunda işlərimiz çox uğurlu aparılmışdır. Baxmayaraq ki, bölgədə yaranmış böhranlı vəziyyət bizim iqtisadi maraqlarımıza ziyan vurmuşdur, Azərbaycan dövləti və xalqı bunu hiss etmədi. Yəni bu, insanların gündəlik həyatında özünü göstərmədi. Düzdür, Azərbaycanın ixrac imkanları qısa müddət müəyyən dərəcədə məhdudlaşmışdı, ancaq bizim çevik hərəkətlərimiz və mövcud olan bütün infrastruktur layihələrimiz, güclü imkanlarımız yol verdi ki, biz bu vəziyyətdən minimum itkilərlə çıxaq. Bu bir daha onu göstərdi ki, bizim həm güclü iqtisadi imkanlarımız var, həm çox güclü siyasi sistem mövcuddur və həm də Azərbaycanda dövlətçilik prinsipləri çox möhkəmdir. Yəni hətta bizim ərazimizin, hüdudlarımızın yaxınlığında yaşanan

böhranlı vəziyyət bizə təsir etmədi. Bu bir daha onu göstərir ki, apardığımız siyasət düzgün siyasətdir və biz yalnız və yalnız daxili resurslara istinad edərək ölkəmizi inkişaf etdiririk. Azərbaycanda artıq çox güclü sənaye potensialı, çox güclü infrastruktur yaradılıbdır. İqtisadiyyat şaxələndirilir və beləliklə, istənilən böhranlı vəziyyət Azərbaycana az təsir edir.

Bu günlərdə dünyada yaşanan maliyyə böhranı da, demək olar ki, bir çox ölkənin iqtisadi potensialına zərbə vurubdur. Amma Azərbaycan özünü tam əmin hesab edir. Biz beynəlxalq xəbərləri izləyərkən görürük ki, dünyada nə qədər böyük narahatlıq var. Bu narahatlığı həm dövlət və hökumət nümayəndələri, həm adi vətəndaşlar ifadə edirlər, həm də vətəndaşların əmanətləri artıq təhlükə altındadır. Bir neçə ən böyük maliyyə qurumları, demək olar ki, iflic vəziyyətinə düşübdür və böyük maliyyə qurumları artıq dövlət nəzarəti altına keçirlər. Yəni bütün bunlar çox narahatedici hadisələrdir. Amma biz düşünülmüş siyasətlə və yaradılan güclü iqtisadiyyatla özümüzü bu böhranlı vəziyyətdən qoruyuruq. Nə Azərbaycan dövləti, nə Azərbaycan iqtisadiyyatı, nə də Azərbaycan vətəndaşı bu böhranı hiss edir. Bu, böyük nailiyyətdir və bir daha onu göstərir ki, bizim düşünülmüş iqtisadi siyasətimiz, risklərə çox ehtiyatlı yanaşmağımız ən düzgün siyasətdir.

Əlbəttə, biz indi belə yüksək sürətlə inkişaf etdiyimizə görə dünya iqtisadiyyatına çox sürətlə inteqrasiya edirik və bu inteqrasiya özünü bütün sahələrdə göstərir. Azərbaycan dünya iqtisadiyyatının bir parçasıdır. Biz öz siyasətimizi elə aparmalıyıq və aparırıq ki, istənilən iqtisadi, yaxud da siyasi böhran Azərbaycana təsir etməsin və buna nail olmuşuq. Həm siyasi böhran, həm də iqtisadi böhran – bütün dünyanı silkələyən bu böhranlar Azərbaycana heç bir təsir göstərmədi, biz ölkəmizi qorumuşuq və bundan sonra da qoruyacağıq.

Bir daha demək istəyirəm ki, biz ancaq və ancaq öz gücümüzə istinad edirik, öz gücümüzə arxalanırıq, Azərbaycan xalqının iradəsinə arxalanırıq. Ölkəmizi bundan sonra da

müstəqil yolla idarə edəcəyik, müstəqil siyasətimizi bundan sonra daha da gücləndirəcəyik. Bu hadisələr bir daha onu göstərir ki, bizim siyasətimiz nə dərəcədə düzgün olubdur. Siyasətimizə müəyyən mərhələlərdə, müəyyən dövrlərdə qısqanclıqla, paxıllıqla baxan, yaxud da bizim siyasətimizi dərindən dərk etməyən dairələr bizi tənqid etməyə çalışmışlar ki, Azərbaycanda müəyyən islahatlar ləng gedir, Azərbaycanda çatışmazlıqlar var. İndi hər kəs hər şeyi görür – harada çatışmazlıqlar var, harada ölkə uğurla inkişaf edir. Bizim uğurumuz 4 il ərzində dünyada iqtisadi inkişaf artımına görə birinci olmağımızdır. Bizim uğurumuz Azərbaycanda sabitliyin bu böhranlı vəziyyətdə daha da sabitləşməsidir. Bizim uğurumuz Dünya Bankı tərəfindən Azərbaycanın bir nömrəli islahatçı ölkə kimi tanınmasıdır. Bizim uğurumuz insanların rahat, təhlükəsizlik şəraitində yaşamasıdır. Bizim uğurumuz əmanətlərin etibarlı şəkildə qorunmasıdır. Budur reallıq. Çox söz demək olar, ancaq reallıq onu göstərir ki, kim haqlıdır və kimin siyasəti düzgündür. Bax, bizim müstəqil siyasətimiz, çox cəsarətli addımlarımız bu gün Azərbaycanı böyük bəlalardan xilas etdi, qorudu və bir daha onu göstərdi ki, Azərbaycanda aparılan siyasət yeganə düzgün siyasətdir.

Əlbəttə, biz bu gün iclasda iqtisadi və sosial məsələlərin həlli ilə məşğul olacağıq və bu, iclasın ənənəvi mövzularıdır. Ancaq iqtisadi inkişaf sosial məsələlərin həlli kontekstindən çıxarılıb ayrıca müzakirə edilə bilməz. Biz dünyada gedən hadisələri izləyirik, öz siyasətimizi aparırıq və aparacağıq. Əlbəttə ki, Azərbaycanın artan iqtisadi imkanları bizim beynəlxalq mövqelərimizi də möhkəmləndirir. Bizdə baş verən hadisələr bölgəyə təsir edir və Azərbaycanın rolu, imkanları bundan sonra daha da artacaqdır. Çünki hər kəs gördü ki, Azərbaycan artıq regional amilə çevrilibdir. Azərbaycan regionda sabitləşdirici rolunu oynayır, biz həm öz imkanlarımızı ortaya qoyaraq, həm də beynəlxalq layihələrdə təşəbbüskar kimi çıxış edərək regionun uğurlu inkişafını təmin edəcəyik. Biz

regionda əməkdaşlığın möh-kəmlənməsinə böyük töhfə veririk və bu siyasəti bundan sonra da aparacağıq.

Bununla bərabər, biz ölkə qarşısında duran başqa vəzifələri uğurla icra etməliyik. Ordu quruculuğu məsələlərinə çox böyük diqqət göstəririk və bundan sonra daha da böyük diqqət göstərəcəyik. Bu onu göstərir ki, son 5 il ərzində bu istiqamətdə apardığımız siyasət düzgün siyasət olmuşdur. Bizi bəzi dairələr, xarici təşkilatlar günahlandırmaq istəyirlər ki, Azərbaycan nə üçün öz hərbi potensialını gücləndirir, nə üçün ordu quruculuğuna bu qədər vəsait sərf edir. Birincisi, bu bizim suveren hüququmuzdur. Biz öz pullarımızı xərclə-yirik, heç kimdən nə borc alırıq, nə də yardım alırıq və heç vaxt da almamışıq. Biz Azərbaycan xalqının istedadının məhsulu olan milli gəliri müxtəlif sahələrə yönəldirik.

İqtisadi xərclər, infrastruktur xərcləri – bütün dövlət xərcləri, sosial məsələlərin həllinə yönəldilən xərclər Azərbaycanı möhkəmləndirir. Ancaq biz müharibə şəraitində yaşayırıq. Belə olan halda ilk növbədə hərbi potensialımızı gücləndirməliyik. Bunu uğurla etmişik. Son 5 il ərzində Azərbaycanın hərbi gücü yüksək dərəcədə artıbdır. Ordu quruculuğu prosesinə bundan sonra da ən əsas diqqət göstəriləcəkdir. Mən hesab edirəm ki, indi olduğu kimi, bundan sonrakı illərdə də büdcə xərclərinin ən böyük hissəsi ordu quruculuğuna və hərbi gücümüzün artırılmasına yönəldilməlidir.

Biz müharibə şəraitində yaşayırıq. Hələ müharibə bitməyib, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi davam edir. Danışıqlarda müəyyən irəliləyişlər olsa da, nəticə yoxdur. Bəzi ümidverici təkliflər səslənir, bəzi təşəbbüslər irəli sürülür. Biz bu təklifləri təhlil etməyə hazırıq, bunu edirik. Ancaq o da reallıqdır ki, məsələnin həlli çox uzanıbdır. Azərbaycanın artan iqtisadi, siyasi və hərbi potensialı, əlbəttə ki, danışıqlarda bizim mövqeyimizi daha da gücləndirir. Regionda baş verən hadisələr və regionda bizim oynadığımız rol Azərbaycanın mövqelərini gücləndirir. Çox sevindirici haldır ki, artıq Azərbaycanın ərazi bütövlüyü məsələsi heç kimdə şübhə doğurmur. Həm

beynəlxalq təşkilatlar, həm də məsələ ilə məşğul olan qüvvələr bunu tam şəkildə bəyan edirlər. Yəni bizim beynəlxalq mövqelərimiz kifayət qədər güclüdür. Bütün beynəlxalq hüquq normaları bizim tərəfimizdədir. Biz sadəcə olaraq, hələ ki, danışıqların aparılmasına ehtiyac duyuruq. Hesab edirik ki, ola bilər, reallıq qarşı tərəfi də bir az hərəkətə gətirsin və qarşı tərəf, nəhayət, anlasın ki, bu vəziyyətdə onların normal inkişafı mümkün ola bilməz. Bizim isə siyasətimiz tam açıqdır, birmənalıdır və dəyişməz olaraq qalır. Dağlıq Qarabağ Azərbaycan torpağıdır. Bu, tarixən belə olubdur. Beynəlxalq hüquq normaları bunu təsdiqləyir. Münaqişə yalnız Azər-baycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər, işğalçı qüvvələr işğal olunmuş bütün torpaqlardan çıxarılmalıdır, Azərbaycan vətəndaşları həmin bölgələrə, o cümlədən Dağlıq Qarabağa qayıtmalıdırlar. Ondan sonra Dağlıq Qarabağın hüquqi statusu müzakirə oluna bilər. Biz bu müzakirəyə hazırıq. Ancaq bir şərtlə ki, bu status yalnız Azərbaycanın ərazi bütövlüyü ilə müəyyən oluna bilər. Azərbaycan başqa heç bir varianta getməyəcəkdir.

Bir daha demək istəyirəm – əgər daha zəif vəziyyətdə Azərbaycanı bizə sərf etməyən razılaşmaya heç kim məcbur edə bilməyibsə, bu gün Azərbaycanın güclü vəziyyətdə olduğunu hamı nəzərə almalıdır. Azərbaycanın iqtisadi, siyasi gücünü hamı nəzərə almalıdır. Azərbaycanın regionun aparıcı ölkəsi olduğunu hamı nəzərə almalıdır və danışıqlar mövzusunda bununla bağlı müəyyən düzəlişlər aparılmalıdır.

Yenə də demək istəyirəm ki, bu gün biz daha çox iqtisadi və sosial məsələlərin həlli ilə məşğul olacağıq, doqquz ayın yekunları müzakirə ediləcək və müzakirədən sonra mən iclasa yekun vuracağam.

## YEKUN NİTQİ

Bütövlükdə 9 ayın yekunları çox müsbətdir və görülən işlərin bəziləri barədə danışıldı. Deyə bilərəm ki, bütün sahələrdə bu ilin 9 ayında və əminəm, ilin sonuna qədər nəzərdə tutulmuş bütün məsələlər və gələcəkdə nəzərdə tutulacaq bütün məsələlər öz həllini tapıbdır. Yəni ki, 2008-ci il üçün hansı məsələlərin həlli nəzərdə tutulmuşdusa, onlar uğurla icra edilibdir.

İlin sonuna 3 aydan az vaxt qalır, dördüncü rüb başlanmışdır və elə etməliyik ki, nəzərdə tutulmuş bütün qalan məsələlər, istər iqtisadi, istərsə də sosial, infrastruktur məsələləri uğurla başa çatdırılsın. Biz bu yaxınlarda 2009-cu ilin dövlət büdcəsini qəbul edəcəyik. Artıq ilkin variant hazırdır və indi bütün əsas səylərimiz 2009-cu ilin dövlət büdcəsinin formalaşmasına və 2009-cu il üçün nəzərdə tutulmuş məsələlərin müəyyən olunmasına yönəldilməlidir. İlin sonuna qədər və gələn il biz, əlbəttə ki, makroiqtisadi sabitliyin qorunmasına böyük diqqət göstərməliyik.

Bu barədə artıq mən öz fikirlərimi dedim. Biz elə etməliyik ki, inflyasiyanın səviyyəsi aşağı düşsün. Hesab edirəm ki, bunu etmək üçün bizdə imkanlar var. Düzdür, bizim uğurlu iqtisadi inkişafımız və dövlət investisiya xərcləri 2009-cu ildə də davam etdiriləcək və mən hesab edirəm ki, biz dövlət investisiya xərclərinin həcmini daha da artırmalıyıq. Çünki buna böyük ehtiyac var.

Biz ölkəmizi yeniləşdiririk. Ən müasir infrastruktur layihələri uğurla həyata keçirilir. Bütün bunlar ölkəmizin

bugünkü və gələcək inkişafına çox böyük dərəcədə xidmət göstərir. Ona görə biz dövlət xərclərimizi məhdudlaşdıra bilmərik. Elə etməliyik ki, insanların yaşayış səviyyəsi bundan sonra da yüksəlsin, əhalinin pul gəlirləri inflyasiyanı üstələsin. Bu praktika artıq Azərbaycanda son 5 il ərzində vardır və beləliklə, makroiqtisadi sabitliyin qorunması üçün bütün tədbirlər görülməlidir.

Qeyri-neft sektorunun inkişafı yenə də prioritet məsələ kimi qalacaqdır. Biz son 5 il ərzində regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası nəticəsində əyani şəkildə gördük ki, bunun nə dərəcədə böyük əhəmiyyəti vardır. Mən tam əminəm ki, əgər 2004-cü ildə biz bu proqramı qəbul etməsəydik, regionlarda görülən işlərin bəlkə də yarısını görə bilməzdik. Proqramın qəbul edilməsi, orada konkret məsələlərin göstərilməsi və son 5 il ərzində proqrama çox ciddi əlavələrin olunması rayonların inkişafına xidmət edir və gələcək uzunmüddətli, uğurlu inkişafına da xidmət edəcəkdir. Ona görə qeyri-neft sektorunun inki-şafı bizim iqtisadi siyasətimizin əsas istiqamətlərindən biri kimi davam etdiriləcəkdir. Bu sahədə əlavə tədbirlərin görülməsi üçün həm maliyyə resursları cəlb olunacaq, həm də ki, dövlət öz siyasi dəstəyini göstərəcəkdir.

Mən bəyan etmişəm və indi hazırlıq işləri aparılır ki, 2009–2013-cü illər üçün regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı hazırlansın. Bu, mövcud proqramın məntiqi davamı olacaqdır. Proqrama bu vaxta qədər həll olunmamış məsələlərin hamısı salınmalıdır ki, növbəti 5 il ərzində regionların bütün sosial, iqtisadi, infrastruktur problemləri həll edilsin. Buna bizim gücümüz çatar. Keçən 5 ilin təcrübəsi onu göstərir ki, hansı məsələ qarşıya qoyulubsa, o, uğurla icra edilib, bəzi hallarda isə müəyyən edilmiş vaxtdan tez icra olunubdur. Ona görə regionların inkişafı prioritet kimi qalır. Sahibkarlığın inkişafını bundan sonra da dəstəkləyəcəyik. Həm dövlət büdcəsindən ayrılan kreditlər, həm də digər iqtisadi addımlar sahibkarlığın inkişafına xidmət edəcəkdir.

Ərzaq təhlükəsizliyi məsələləri son müddət ərzində dünyanın gündəliyindədir. 2-3 il bundan əvvəl ərzaq təhlükəsizliyi haqqında söhbət də aparılmırdı, ancaq biz öz işimizi görürdük. Əlbəttə, biz təxmin edə bilməzdik ki, dünyada ərzaq böhranı yarana bilər. Ancaq bizim məqsədimiz Azərbaycanın daxili resurslarının tam işə salınmasından ibarət olmuşdur, Azərbaycanda yerli istehsalın güclənməsi olmuşdur və regionların inkişafı proqramı böyük dərəcədə bu məqsədləri də güdür.

Elə etməliydik ki, Azərbaycan tam şəkildə bütün əsas ərzaq məhsulları ilə özünü təmin etsin. Ancaq yaranmış ərzaq böhranı bir də onu göstərdi ki, bizim siyasətimiz nə qədər düzgün olmuşdur. Biz vaxtlı-vaxtında bütün bu tədbirləri gördük və tarixdə, həm sovet, həm də postsovet tarixində ilk dəfədir ki, biz əsas ərzaq məhsulları ilə özümüzü yüksək dərəcədə təmin edirik. Məsələn, heç vaxt olmamışdır ki, Azərbaycan özünü ətlə təmin etsin. İndi ət, süd, yağ, yumurta, şəkər – bütün bu ərzaq məhsullarının 90–95 faizi Azərbaycanda istehsal olunur. Sovet vaxtında onların böyük əksəriyyəti başqa respublikalardan gəlirdi. Müstəqilliyimizin ilk illərində də belə idi. Bu gün Azərbaycan tam şəkildə özünü əsas ərzaq məhsulları ilə təmin edir.

İndi əsas vəzifə özümüzü taxılla təmin etməkdən ibarətdir və görülən praktiki və ciddi tədbirlər nəticəsində bu il taxıl istehsalı 400 min ton artıbdır. Vəzifə qoyulub və vəsait də ayrılıbdır ki, növbəti illərdə biz maksimum dərəcədə özümüzü taxılla təmin edək. Belə olan halda, Azərbaycan ərzaq təhlükəsizliyi məsələlərini tam şəkildə təmin edəcəkdir. Onu da qeyd etməliyəm ki, bu gün Azərbaycan başqa ölkələrə nəinki meyvə və tərəvəzi, digər məhsulları da ixrac edir. Məsələn, Azərbaycanda istehsal olunan hazır emal məhsulları – süd və digər məhsullar, bitki yağları, şəkər başqa ölkələrə ixrac edilir və beynəlxalq sertifikat alıbdır. Bu onu göstərir ki, Azərbaycanda yaradılmış kənd təsərrüfatı məhsulları emalı müəssisələri ən yüksək səviyyəyə çatıbdır.

Bizim istəyimiz ondan ibarətdir ki, məhsullarımız nəinki bizim bölgədə, bütün dünyada rəqabətqabiliyyətli olsun və buna nail oluruq. Bütün bunlara biz bölgələrdə aparılan ciddi infrastruktur layihələri, yaradılmış imkanlar, tikilmiş elektrik stansiyaları, qaz xətləri, gözəl investisiya mühiti, yerli və xarici investorların bu işə ciddi qoşulması və Azərbaycanda, əlbəttə ki, insanların alıcılıq qabiliyyətinin qaldırılması nəticəsində nail ola bilmişik.

Çünki əgər bazar məhduddursa, ciddi investor Azərbaycana sərmayə qoymaz. Çünki Azərbaycanın imkanları, bazarı o qədər də böyük deyildir. Yəni biz öz bazarımızı böyük ölkələrlə müqayisə edə bilmərik. Amma kifayət qədər böyükdür və biz elə etməliyik ki, öz daxili tələbatımızı tam şəkildə ödəyək və güclü qeyri-neft-qaz ixrac potensialını yaradaq. Xüsusilə kənd təsərrüfatında bunun həm böyük iqtisadi, həm böyük sosial mənası vardır.

Bir sözlə, görülən işlər bizi çox sevindirir və qane edir. Növbəti illərdə ərzaq təhlükəsizliyi məsələləri prioritet kimi qalacaqdır. 2009-cu ilin dövlət büdcəsində və növbəti illərdə lazımi tədbirlər görülməlidir. Bununla birbaşa bağlı olan meliorasiya və suvarma məsələlərinə növbəti illərdə böyük diqqət göstəriləcəkdir. Azərbaycanda nəzərdə tutulan layihələr uğurla icra edilir. Onların bir çoxu hələ başa çatmayıb, bu da təbiidir.

Ancaq beynəlxalq maliyyə qurumları ilə bərabər, biz özümüz bu məsələlərə böyük diqqət göstəririk. Həm meliorasiya, suvarma sahəsində, yeni əkin sahələrinin işə düşməsi və həm də əhalinin içməli su ilə təmin edilməsi üçün müxtəlif layihələr icra olunur. Onların hamısı vaxtlı-vaxtında və maksimum qısa müddət ərzində icra edilməlidir. İnfrastruktur layihələrinin icrası artıq hamıya göstərdi ki, həm insanların rahat yaşaması üçün, həm də ölkəmizin inkişafı üçün bunun nə dərəcədə böyük əhəmiyyəti var. Bütün infrastruktur layihələri bundan sonra da icra olunacaqdır. Avtomobil yolları, magistral yollar, şəhərlərarası, şəhərdaxili yollar, kənd yolları – bütün bu

layihələr icra edilir. Elektrik stansiyalarının tikintisi davam etdirilir. Biz maksimum dərəcədə özümüzü təmin edə bilmişik. Qazlaşdırma davam etdirilməlidir və bütün digər infrastruktur layihələri davam etdiriləcəkdir. Bu ilin sonuna qədər, 2009-cu ildə və ondan sonrakı illərdə bütün lazımi infrastrukturun yeniləşməsi üçün hələ çox işlər görülməlidir.

Müdafiə potensialının gücləndirilməsi üçün nə lazımdırsa, biz bunu edəcəyik. Mən giriş sözümdə bu barədə öz fikirlərimi bildirdim. Müdafiə sənayesinin yaradılması və formalaşması prosesi gedir. Bu məqsədlər üçün əlavə vəsaitin ayrılması nəzərdə tutulmalıdır ki, biz Azərbaycanda ən müasir və ən güclü hərbi potensialı yaradaq. Biz bu yolda böyük uğurlar əldə etmişik və öz siyasətimizi və addımlarımızı davam etdirəcəyik.

Sosial məsələlərin həlli, həmişə olduğu kimi, diqqət mərkəzində olacaqdır. İnsanların yaşayış səviyyəsinin yaxşılaşdırılması, maaşların, pensiyaların artırılması, sosial obyektlərin tikintisi – bütün bunlar dəyişməz olaraq bizim siyasətimizin əsas istiqamətlərindən biridir və 2009-cu ildə də belə olacaqdır.

Neft-qaz sektorunda qarşıya qoyduğumuz bütün vəzifə-lər, bütün nəhəng beynəlxalq layihələr uğurla icra edilir. Azərbaycanın artıq çox böyük neft-qaz potensialı yaradılıbdır. Bu reallıqdır.

Növbəti aylarda və illərdə biz yeni yataqların aşkar olunmasına diqqətimizi daha çox yönəltməliyik. Qazma və kəşfiyyat işləri aparılmalıdır, aparılır. Azərbaycan Dövlət Neft Şirkəti artıq özü bu işləri aparır. Elə etməliyik ki, yeni yataqları biz kəşf edək. Əlbəttə ki, bu, asan məsələ deyil, həm böyük maliyyə lazımdır, həm də texniki tədbirlər görülməlidir. Ancaq biz bunu etməliyik. Xüsusilə qaz yataqlarına daha böyük diqqət göstərməliyik. Çünki bugünkü neft hasilatımız bizi tam şəkildə qane edir. Əslində, qaz hasilatımız da bizi tam təmin edir. Amma nəzərə alsaq ki, dünyada qaza tələbat daha çoxdur və təbii qazın qiyməti daha da artır, əlbəttə ki, biz daha çox qaz yataqlarının işlənilməsinə öz diqqətimizi yönəltməliyik. Bu barədə əvvəllər mən öz fikirlərimi söyləmişdim, bir daha demək

istəyirəm ki, Azərbaycanın dövlət və özəl şirkətləri həm ölkə daxilində, həm də xaricdə investisiyalar qoyuluşunu davam etdirməlidir.

Düzdür, dünyada maliyyə böhranı hökm sürdüyü indiki zamanda bəlkə də bir çox ölkələrdə bu barədə fikirləşmirlər. Amma mən hesab edirəm ki, biz öz siyasətimizi bundan sonra da bu istiqamətdə aparmalıyıq. Bizim siyasətimizdə heç bir dəyişiklik olmamalıdır. Bir də demək istəyirəm ki, dünya maliyyə böhranı Azərbaycandan yan keçibdir. Biz bütün tədbirləri görmüşük ki, bu böhranlı vəziyyətə düşməyək və düşməmişik. Belə olan halda, bizim şirkətlərimizin daxili imkanları hesabına və dövlət vəsaiti hesabına xarici ölkələrdə investisiya qoyuluşu, aktivlərin alınması davam etdirilməlidir.

2009-cu ilin büdcəsi hazırdır, yəqin ki, Milli Məclis yaxın zamanlarda büdcəni müzakirə edəcəkdir. Büdcədə bütün lazım olan məsələlər öz əksini tapıbdır. Orada həm artım nəzərdə tutulubdur, həm investisiya layihələri, həm də sosial məsələlərin həlli. Bax, bizim bu ənənəvi yanaşmamız davam etdiriləcəkdir. Bu yanaşma göstərdi ki, bu, düzgün yanaşmadır. Həm investisiyalar qoyulacaq, həm də sosial məsələlərin həlli nəzərdə tutulacaq ki, Azərbaycanda iqtisadi islahatlar və sosial məsələlərin həlli, həmişə olduğu kimi, paralel şəkildə aparılsın.

Bu, qısamüddətli gələcək planlarımız barədə. Əslində, bizim prinsipial strateji xəttimiz dəyişməz olaraq qalır. Bir daha demək istəyirəm ki, xaricdə baş verən heç bir hadisə bizim planlarımıza heç bir təsir göstərməməlidir. Düzdür, bölgədə yaşanan siyasi və iqtisadi vəziyyətlə bağlı müəyyən ölkələrdə müəyyən dəyişikliklər edilir, ancaq biz özümüzü tam əmin hiss edirik. Belə olan halda, bizim siyasətimizdə heç bir dəyişiklik olmayacaqdır. Əksinə, bizim 2009-cu il üçün nəzərdə tutulmuş büdcəmiz daha da artacaqdır. Baxmayaraq ki, bizim 2008-ci ilin büdcəsi də kifayət qədər böyükdür. Buna baxmayaraq, Azərbaycanda hələ çox işlər görülməlidir.

Bu gün mən eyni zamanda, son 5 il ərzində görülən bəzi işlər haqqında öz fikirlərimi demək istəyirəm. Hesab edirəm ki,

mənim buna haqqım çatır. Çünki iki gündən sonra mənim prezidentlik dövrüm başa çatır. 5 il ərzində çalışmışam ki, Azərbaycan xalqına ləyaqətlə xidmət edim. 5 il ərzində görülən işlər, əlbəttə ki, bizi həm sevindirir, həm də növbəti məsələlərin həllinə çağırır. Biz böyük qürur hissi ilə deyə bilərik ki, 5 il ərzində qarşımıza qoyduğumuz əsas məsələləri uğurla icra etdik. Ancaq növbəti illərdə bizi daha böyük işlər gözləyir.

Beləliklə, mən bəzi iqtisadi və başqa rəqəmləri xatırlatmaq istəyirəm. 2003–2008-ci illərdə Azərbaycanın iqtisadiyyatı, ümumi daxili məhsul 2,7 dəfə artıbdır. Mən hesab edirəm ki, bu, dünyada tarixi bir nailiyyətdir. Mən yaxın keçmişdə ikinci elə ölkə tanımıram ki, 5 il ərzində iqtisadiyyatı təxminən 3 dəfə artsın.

Bizim iqtisadiyyatımız çox güclənibdir. Adambaşına düşən ümumi daxili məhsulun həcmi 5800 dollardır. Bu, keçid dövrünü yaşayan ölkələr üçün çox böyük göstəricidir. Bütövlükdə, dünyada o qədər də çox ölkə yoxdur ki, adambaşına düşən ümumi daxili məhsul təxminən 6 min dollara çatsın. Bu çox yüksək göstəricidir, ölkənin gücünü göstərir və gələcəkdə bu rəqəm daha da artmalıdır və artacaqdır. Azərbaycan 4 il ərzində iqtisadi artım baxımından dünyada birinci ölkədir. Bu birinciliyi əldə etmək çətindir, onu qoruyub saxlamaq daha da çətindir. Biz 4 il bundan əvvəl iqtisadi artımı 26 faizə çatdıranda fikirləşirdik ki, bundan sonra bu sürəti saxlamaq çətindir. Çünki bu 26 faizin üstünə biz əlavə faizləri təmin etməli idik. Sonra 35 faiz, ondan sonra 26 faiz oldu və sair. Yəni bu əldə edilmiş nailiyyət hər il o faizin artırılmasına çətinlik yaradır. Bir var, sıfır səviyyəsindən müəyyən faiz əldə edəsən, bir də var ki, artıq sürətlə inkişaf edən iqtisadiyyat öz dinamikasını saxlasın.

Azərbaycanda 5 il ərzində sənaye istehsalı 2,7 dəfə artıbdır. Bu onu göstərir ki, bizim ümumi daxili məhsulun artmasının əsas hissəsi sənaye ilə bağlıdır. Bizim siyasətimiz, Azərbaycanda çox böyük sənaye potensialının yaradılması,

sənayeləşdirmə layihələrinin icra olunması artıq bunun əyani sübutudur.

Dövlət büdcəsinin xərcləri 2003-cü ildə 1 milyard 200 milyon dollar idi. 2008-ci ildə Azərbaycanın icmal büdcəsi 15 milyard dollardan çoxdur. 2009-cu ilin proqnozlarına görə Azərbaycanın icmal büdcəsi 17-18 milyard dollar təşkil edəcəkdir. Yəni bu rəqəmlər hər şeyi göstərir. 2003–2008-ci illərdə Azərbaycan iqtisadiyyatına təxminən 44 milyard dollar investisiya qoyulmuşdur. Deyə bilərəm ki, bütün müstəqillik illərində Azərbaycana investisiya qoyuluşu 57 milyard dollar olubdur. Onun 44 milyardı, yəni 77 faizi son 5 il ərzində təmin edilibdir. 2003-cü ildə Azərbaycanın valyuta ehtiyatları 1 milyard 600 milyon dollar təşkil edirdi. 2008-ci ilin oktyabr ayında təxminən 17 milyard dollardır və ilin sonuna qədər daha da artacaqdır. Yəni bu çox böyük nailiyyətdir, çox böyük göstəricidir. Bu bizə əlavə güc verir, əlavə arxayınlıq verir. Bizim valyuta ehtiyatlarımız dünya miqyasında artıq ən ciddi rəqəmlərlə ölçülür və növbəti illərdə bu məbləğ daha da artacaqdır. Çünki bizim enerji layihələrindən əldə edilmiş və gələcəkdə gözlənilən gəlirlər daha da çox olacaq və Azərbaycan valyuta ehtiyatları baxımından dünya miqyasında ən qabaqcıl ölkələrdən birinə çevriləcəkdir. Adambaşına düşən məbləğ isə, hesab edirəm ki, dünya miqyasında ən birinci yerdədir. Çünki dünyada ən böyük valyuta ehtiyatlarına malik olan ölkələrin əhalisi də ən çoxdur.

Neft hasilatı 2003-cü ildə 15,4 milyon ton idi, 2008-ci ildə 52 milyon ton təşkil edibdir. Bu, böyük nailiyyətdir, 5 il ərzində neft hasilatımızı 3 dəfədən çox artıra bilmişik. Bütün layihələr uğurla icra edilibdir və 2009-cu ildə neft hasilatı daha da çox olacaqdır.

Qaz hasilatı. 2003-cü ildə 5,5 milyard kubmetr qaz idi. 2007-ci ilə qədər biz xaricdən qaz alırdıq və böyük məbləğdə vəsait ödəyirdik. Ancaq ondan sonra görülən tədbirlər nəticəsində biz idxaldan tamamilə imtina etdik. Baxmayaraq ki, bunu etmək o qədər də asan məsələ deyildi. Biz xaricdən 4,5

milyard kubmetr qaz alırdıq. Bir gündə mən qərar verdim ki, biz bu idxaldan imtina etməliyik. Ancaq, əlbəttə, bilirdim ki, biz vəziyyətdən çıxacağıq. Çətin də olsa, vəziyyətdən çıxdıq. Bu gün Azərbaycanda qaz hasilatı artır və biz nəinki özümüzü təmin edirik, qazlaşdırmanı uğurla aparırıq, həm də xaricə qaz ixrac edirik. Yəni 2003-cü ildə Azərbaycanda qaz hasilatı 5,5 milyard kubmetr idi, 2008-ci ildə isə 26 milyard kubmetr qaz hasilatı gözlənilir. Qazlaşdırma 2003-cü ildə 62 faiz idi, 2008-ci ildə 84 faiz təşkil edir. Son 5 il ərzində 14 rayonun qaz təchizatı təmin olunmuşdur. Onlardan bir neçəsi heç vaxt, heç sovet dövründə də qaz almamışdır. Böyük xərc çəkərək o ucqar rayonlara qaz xətləri çəkildi. Bu gün Azərbaycanda, işğal olunmuş rayonlardan başqa, elə rayon yoxdur ki, oraya qaz verilməsin. Hər bir rayona qaz verilir. Növbəti illərdə daha çox kəndlərə qaz veriləcəkdir. Beləliklə, biz Azərbaycanda bu çox ciddi və çox ağır sahədə köklü dönüş yarada bilmişik.

2003–2008-ci illərdə Azərbaycanda 700 meqavat gücündə 8 elektrik stansiyası tikilibdir. 2009-cu ilin birinci yarısına qədər yeni stansiyalar tikiləcək və onların gücü 1000 meqavat olacaqdır. Beləliklə, 5 il ərzində 1700 meqavat əlavə güc yaradılıbdır və bu, demək olar ki, Azərbaycanda bütün illərdə yaradılmış elektrik enerjisi istehsalı gücünün təxminən yarısıdır, ondan bir qədər azdır.

Beləliklə, biz özümüzü elektrik enerjisi ilə tamamilə təmin etmişik. Dayanıqlı və fasiləsiz elektrik enerjisi verilir. Bununla bərabər, biz böyük ixrac potensialına da malikik. Lazım olarsa, gələcəkdə bu məsələyə daha da ciddi yanaşa bilərik və nəinki neft-qaz, eyni zamanda, elektrik enerjisini də ixrac edə biləcəyik. Ancaq o da həqiqətdir ki, Azərbaycanda çox sürətli iqtisadi və sənaye inkişafı gedir. Biz nəzərə almalıyıq ki, tələbat artır, iş yerləri açılır, yeni müəssisələr, zavodlar açılır, evlər tikilir. Yəni tələbat artdıqca, biz səylərimizi daha çox daxili tələbatın təmin olunmasına yönəltməliyik. Nəinki bu sahədə, bütövlükdə bizim siyasətimiz çox aydındır, açıqdır. Daxili resurslara istinad etmək və ilk növbədə, daxili məsələləri həll

etmək, ölkə daxilində bütün sosial, iqtisadi, infrastruktur layihələrini həll etmək, heç kimdən asılı olmamaq, özümüzü təmin etmək, Azərbaycan xalqının rahat, firavan, təhlükəsiz yaşamasını təmin etmək – bunlar bizim prioritet məsələlərimizdir.

Ondan sonra ixrac, beynəlxalq layihələr, onunla bərabər, paralel şəkildə regional əməkdaşlıq. Çünki beynəlxalq əməkdaşlıq bizim imkanlarımızı daha da gücləndirir, Azərbaycanın mövqelərini daha da möhkəmləndirir. Bu illər ərzində böyük tarixi əhəmiyyətli infrastruktur layihələri icra edilib, Bakı–Tbilisi–Ceyhan neft kəməri, Bakı–Tbilisi–Ərzurum qaz kəməri istismara verilmişdir. Bunlar tarixi layihələrdir. Azərbaycanın uzunmüddətli iqtisadi inkişafını təmin edən, Azərbaycanın gücünü artıran, mövqelərini möhkəmləndirən, Azərbaycanı xoşbəxt gələcəyə aparan layihələrdir. Bu layihələr çox ağır, çətin şəraitdə icra olundu. XX əsrin 90-cı illərinin ortalarında ulu öndər Heydər Əliyevin səyləri nəticəsində bu layihələr başlanmışdı. Onlar beynəlxalq dəstək qazandı.

Ondan sonrakı illərdə həm tranzit ölkələrlə, həm maliyyə qurumları ilə, həm bizim neft-qaz hasilatında iştirak edən tərəfdaşlarla çox gərgin, ciddi və ağır, bəzi hallarda çox kəskin danışıqlar, müdrik siyasət nəticəsində bütün bu layihələr indi reallığa çevrilibdir. Onlar kağızda qala bilərdi, yəni bir fikir, bir əfsanə kimi qala bilərdi. Onsuz da bu layihələr əfsanə kimi tanınırdı və bunlara çox ciddi müqavimət göstərilirdi. Əfsuslar olsun ki, ölkə daxilində bəzi qüvvələr – mən onları antimilli qüvvələr kimi hesab edirəm – əvvəllər Azərbaycan iqtidarına yox, Azərbaycan dövlətinə qarşı fəaliyyət göstərirdilər. Bu gün o fəaliyyət sıfır dərəcəsindədir. Öz dövlətinin maraqlarını müdafiə edən, dövlətinin xoşbəxtliyini istəyən hər bir adam bu layihələri dəstəkləyir. Kim bu layihələrin əleyhinə çıxıb? İlk növbədə dünya erməniliyi, erməni lobbisi böyük tədbirlər görübdür, böyük kampaniya aparıblar, internet saytları yaradıblar, ekologiya məsələlərini buraya qatıblar, guya ki, bu,

ekoloji məsələlərə ziyan vuracaqdır. Dünyada bizə qarşı, Azərbaycana qarşı çox ciddi kampaniya aparıblar. Hətta bəzi mərhələlərdə beynəlxalq maliyyə qurumları da bu layihələrin maliyyələşməsinə fasilə vermişlər. Bütün bunları mən yaxşı xatırlayıram. Nəyə görə?! Çünki dünya ermənilіyi öz təsir imkanlarını işə salmışdı, müxtəlif ölkələrdə – ad çəkmək istəmirəm, ali qanunvericilik orqanlarının dəstə-dəstə üzvləri bəyanatlar yayırdılar ki, bu layihə ancaq o təqdirdə icra oluna bilər ki, Ermənistandan keçsin. Ermənistandan keçməsə, bu layihə icra olunmamalıdır, ona vəsait ayrılmamalıdır. O vaxt vəziyyət başqa idi. Bizim öz imkanlarımız yox idi ki, bunu maliyyələşdirək. Bu gün Azərbaycanın qarşısında elə problem yoxdur. Özümüz ölkə daxilində və xaricdə istənilən layihəni maliyyələşdirə bilərik. Amma o vaxt biz xarici maliyyə dəstəyindən asılı idik. Yəni çox ciddi kampaniya aparılırdı, müqavimət göstərilirdi. Bizi istəməyən qüvvələr, xüsusilə dünya erməniliyi, erməni lobbisi çox gözəl başa düşürdü ki, bu layihələr icra edildiyi halda, Azərbaycan xeyli dərəcədə güclənəcək, Azərbaycanın imkanları artacaq və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycan güclü tərəf kimi çıxış edəcəkdir. Ona görə bizim bu layihələri uğurla icra etməyimiz erməniliyinə vurulan zərbədir, onların məğlubiyyətidir və dünya erməni lobbisinin iflasıdır, məğlubiyyətidir. Gənc Azərbaycan dövlətinin qələbəsidir.

Ancaq bu təbiidir, çünki bizi istəməyən qüvvələr çalışırdılar ki, bu layihələr baş tutmasın. Amma ölkə daxilindəki satqınlar, xainlər və beşinci dəstə – onların da bəziləri müxtəlif ekoloji bəhanələrlə bu layihələrin əleyhinə çıxırdılar. Onların əksəriyyəti bugünkü sıradan çıxmış müxalifətdə cəmləşibdir, bir hissəsi dırnaqarası qeyri-hökumət təşkilatlarında cəmləşibdir və bu gün fəaliyyət göstərir. Bir hissəsi xaricdən qrant almaqla, o cümlədən erməni mənbələrindən qrant almaqla Azərbaycan əleyhinə bu gün də kampaniya aparırlar. Bu gün də Azərbaycan dövlətini sarsıtmaq istəyirlər. Bu gün də arxadan zərbə vurmaq istəyirlər. Biz bilirik onlar kimlərdir və onlar da bilsinlər ki, biz

onları tanıyırıq. Onlar bilsinlər ki, vaxt gələcək, Azərbaycan dövlətinin əleyhinə apardıqları o çirkin əməllərə görə cavab verəcəklər.

Mən bu nəhəng layihələrin sırasına Bakı–Tbilisi–Qars dəmir yolu layihəsini daxil etmək istəyirəm. Bu da tarixi hadisədir. Bu layihə uzun müddət, bəlkə 10 ildən çox müzakirə olunurdu və layihə kimi qalırdı. Bu da layihə kimi qala bilərdi. Əgər tədbirlər görülməsəydi, maliyyə məsələləri həll olunmasaydı, Azərbaycana Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərlərindən əldə edilmiş gəlirlər gəlməsəydi, biz 200 milyon dollardan çox krediti necə verə bilərdik? Heç vaxt! Nəyin hesabına verə bilmişik? Bax, bu layihələrin icrası nəticəsində. Bax, bu layihələr, neft-qaz layihələri başqa layihələrin icrasına gətirib çıxarıb, Azərbaycanın müstəqilliyini möhkəmləndiribdir. Bakı–Tbilisi–Qars o layihələrdəndir ki, Azərbaycanın uzunmüddətli iqtisadi və siyasi maraqlarını təmin edəcəkdir. Mən çox şadam ki, layihə icra olunmağa başlamışdır və şübhə etmirəm ki, biz bunun tikintisinə vaxtında nail olacağıq. Bu layihədə iştirak edən üç ölkə öz səylərini göstərir və əminəm göstərəcəkdir ki, layihə vaxtında icra olunsun.

Bununla bərabər, mən sırf ölkədaxili nəhəng iqtisadi və infrastruktur layihələrini sadəcə olaraq, sadalamaq istəyirəm. Bu barədə çox danışsaq bir neçə gün vaxt lazım olacaqdır. Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisinə başlamışıq. Hesab edirəm ki, gələn il kəmər istismara verilməlidir və Bakını təmiz su ilə təmin edəcəkdir. Samur–Abşeron su kanalı uğurla tikilir. Taxtakörpü su anbarı tikilir. Son 5 il ərzində 4 aeroport tikilibdir: Naxçıvan, Gəncə, Zaqatala, Lənkəran beynəlxalq aeroportları.

Bakını üç sərhədlə birləşdirən avtomobil yolları uğurla tikilir: Bakı–Rusiya sərhədi, Bakı–İran sərhədi, Bakı–Gürcüstan sərhədi. Bütün şəhərlərarası, kənd yolları təmir olunur. Bakı şəhərinin nəqliyyat infrastrukturunun yaxşılaşdırılması üçün böyük investisiya layihələri icra edilir. Qeyd etdiyim kimi, Müdafiə Sənayesi Nazirliyi yaradılıbdır və artıq Azərbaycanda müdafiə sənayesi vardır. Nəinki nazirlik, həm də sənaye yaradılıb və artıq istehsal olunan məhsullar Azərbaycan Ordusuna xidmət edir. Əminəm ki, növbəti illərdə nəzərdə tutulmuş layihələr uğurla icra ediləcək və Azərbaycanda çox güclü hərbi-sənaye kompleksi yaradılacaqdır. Son 5 il ərzində Azərbaycanın hərbi qüdrəti böyük dərəcədə gücləndirilibdir. Həm hazırlıq, peşəkarlıq baxımından, həm də ki, təchizat baxımından. 2003-cü ildə Azərbaycanın ümumi hərbi xərcləri 163 milyon dollar olmuşdur, 2008-ci ildə isə 1 milyard 850 milyon dollar təşkil edir. 2003–2008-ci illərdə hərbi məqsədlərə 4,5 milyard dollar vəsait xərclənmişdir. 2009-cu ildə biz hərbi xərclərimizi 2008-ci ilə nisbətən daha da artıracağıq. Belə olan halda, 2003–2009-cu illərdə hərbi məqsədlər üçün təxminən 7 milyard dollar vəsait xərclənəcəkdir. Bunun nə demək olduğunu hamı yaxşı başa düşür. Əminəm ki, bizim torpaqlarımızı işğal edən Ermənistan yaxşı başa düşür və daha da yaxşı başa düşməlidir. Onlar hərbi xərclərə imkan daxilində vəsait ayıra bilərlər. Biz isə istədiyimiz qədər.

Bunu heç kim yaddan çıxarmasın və bununla bərabər, hamı da başa düşsün ki, bu bizim suveren hüququmuzdur. Azərbaycan müharibə şəraitindədir, bizim torpaqlarımız işğal altındadır. Hərbi məqsədlər üçün nə qədər lazımdırsa, biz o qədər də vəsait ayıracağıq.

Məcburi köçkünlərin problemlərinin həlli üçün bu 5 il ərzində görülən işlər göz qabağındadır. Mən məcburi köçkünlərlə çoxsaylı görüşlər zamanı onların problemlərinin həlli üçün səylərimi göstərmişəm. Onlara söz vermişdim ki, bir dənə də çadır şəhərciyi qalmayacaq və bu gün Azərbaycanda bir dənə də çadır şəhərciyi yoxdur. 2004-cü ildə qəbul edilmiş məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması və məşğulluğun artırılması Dövlət Proqramının uğurlu icrası bizim niyyətimizi, bizim siyasətimizi göstərir. 2007-ci ildə proqrama əlavələr edildi, əlavə vəsait nəzərdə tutulur. Son 5 il ərzində 12 çadır şəhərciyi ləğv edilmişdir. Onların əvəzinə müasir binalar, müasir qəsəbələr salınmışdır. 36 yeni qəsəbə salınmış, onlarda 47 min məcburi köçkün məskunlaşdırılmışdır. Bu qəsəbələrdə 34 məktəb, 24 tibb məntəqəsi tikilib və insanların yaşaması üçün lazım olan digər tədbirlər görülübdür. Son 5 il ərzində bu məqsədlər üçün 1 milyard dollar xərclənib, proqrama əlavələr hesabına əlavə minimum 500 milyon dollar xərclənəcəkdir. Bu vəsait də Azərbaycan Dövlət Neft Fondunun hesabına, Azərbaycan dövlətinin hesabına və yenə də deyirəm, Heydər Əliyevin neft siyasətinin hesabına yaradılır. Əgər bu olmasaydı, əgər Bakı–Tbilisi–Ceyhan neft kəməri işə düşməsəydi Neft fondunda pul olmazdı, heç Neft fondu da olmazdı.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün aparılan danışıqlarda nəticə yoxdur. Onu deyə bilərəm ki, yeganə sahədir ki, burada biz nəticəni əldə edə bilməmişik. Yəqin ona görə ki, burada hər şey təkcə bizdən asılı deyildir. Bu danışıqlardır. Danışıqlarda iki tərəf və vasitəçilər iştirak edir. Ancaq nəticənin olmaması hələ o demək deyil ki, biz ümidlərimizi tam itirmişik. Yox. Yeni vəziyyət yaranıbdır və bundan sonra da yarana biləcək. Heç kim deyə bilməz ki, 2009-cu ildə hansı vəziyyət yaranacaq və dünyada və yaxud da bölgədə hansı hadisələr yaşanacaqdır. Hesab edirəm ki, 5 il ərzində bu istiqamətdə əldə edilmiş uğurların nəticəsi ilk növbədə odur ki, artıq Azərbaycanın ərazi bütövlüyü məsələsi nəinki şifahi, yaxud da rəsmi bəyanatlarda tanınıb, eyni

zamanda, məsələnin həlli üçün əsas şərt kimi qəbul edilibdir – Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil və bundan sonra da heç vaxt olmayacaqdır! Digər tərəfdən, işğal olunmuş torpaqların boşaldılması mexanizmləri, demək olar ki, yüksək səviyyədə razılaşdırılıbdır.

Əsas odur ki, artıq əvvəlki dövrlərdən fərqli olaraq, nə üç, nə dörd, nə beş işğal olunmuş rayondan söhbət gedir. Yeddi rayonun boşaldılması danışıqların əsas mahiyyətidir. Dağlıq Qarabağın inzibati hüdudlarından kənarda yerləşən bütün yaşayış məntəqələrindən Ermənistanın işğalçı qüvvələri çıxarılmalıdır və Azərbaycan vətəndaşları öz doğma torpaqlarına qayıtmalıdırlar.

Bu danışıqlar masasında olan məsələdir. Azərbaycan köçkünlərinin Dağlıq Qarabağa qayıtması məsələsi də danışıqlar mövzusudur və prinsip etibarilə bu məsələ də öz həllini tapacaqdır. Əlbəttə ki, bunu etmək üçün daha da çox vaxt lazım olacaqdır. Deyə bilərəm ki, danışıqların tarixində ilk dəfədir ki, bu prinsip var: o vaxta qədər ki, hər şey razılaşdırılmayıb – heç nə razılaşdırılmayıbdır. Amma bununla bərabər, müxtəlif elementlər razılaşdırılır və bu, o elementlərdən biridir. Hesab edirəm ki, bu, diplomatik uğurumuzdur. Biz növbəti aylarda yəqin görəcəyik ki, Ermənistan tərəfi öz sözlərində nə dərəcədə səmimidir. Hər halda, mümkün olan razılaşmada beynəlxalq hüquq normaları tam şəkildə öz əksini tapmalıdır. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 4 qətnaməsi icra olunmalıdır, BMT Baş Məclisinin son qərarı, qətnaməsi icra olunmalıdır. Bu da bizim böyük diplomatik uğurumuzdur. Baxmayaraq ki, Minsk qrupunun həmsədrləri qərar layihəsinin əleyhinə olmuşlar, ancaq Azərbaycan böyük üstünlüklə öz istədiyinə nail oldu. Bu bizim çox böyük həm diplomatik, həm siyasi qələbəmiz olmuşdur. Hər halda, bir daha demək istəyirəm ki, bizim prinsipial mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Hesab edirəm və tam əminəm ki, 5 il ərzində Azərbaycanın mövqeləri yüksək dərəcədə möhkəmləndirilibdir. Biz sadəcə olaraq, bundan sonra da öz siyasətimizi aparmalıyıq.

Bununla yanaşı – mən bunu əvvəllər də demişəm, bu gün də demək istəyirəm – o vaxta qədər ki, bizim torpaqlarımız işğal altındadır, Ermənistana qarşı total hücum siyasəti davam etdiriləcək: həm diplomatik, həm siyasi, iqtisadi, nəqliyyat, hərbi, təbliğat və sair. Bu birmənalıdır.

Məsələ həll olunana qədər Ermənistanla heç bir əməkdaşlıq, heç bir regional layihələrdə onların iştirakı mümkün deyildir. Biz əlimizdən gələni edəcəyik ki, bugünkü vəziyyət davam etsin, onların təcrid olunmuş vəziyyəti daha da dərinləşsin. Daha da yaxşı anlasınlar ki, onların gələcəyi nə ilə bağlıdır. İşğalçılıq siyasəti heç kimə xeyir gətirə bilməz və özünü təcrid etmiş vəziyyətə salan ölkə artıq onun acı nəticələrini görməkdədir və görəcəkdir. Hesab edirəm ki, bəzi ümidverici bəyanatların təməlində də məhz bu bölgədə yaranmış yeni vəziyyət böyük rol oynayır. Azərbaycanın artan imkanları, o cümlədən hərbi imkanları, həm də ki, bölgədə yaşanan böhranlı vəziyyət. Bax, bu böhranlı vəziyyət bir daha onu göstərir ki, bu vəziyyət kimə necə təsir etdi. Qısa müddət Azərbaycanın, demək olar ki, bütün enerji ixracı dayanmışdı. Bakı–Ceyhan neft kəmərində baş verən partlayış bizim ixracımızı dayandırmışdı. Ondan sonra Gürcüstan ərazisində yaşanan hadisələr, sıradan çıxmış körpülər neft məhsullarının ixracını dayandırmışdı. Bakı–Tbilisi–Ərzurum qaz kəməri fəaliyyətini dayandırmışdı. Bir adam burada bunu hiss etdimi?! Yox. Nəyə görə?! Çünki birincisi, bizim çox güclü iqtisadiyyatımız var, ikincisi, enerji siyasətimiz çoxşaxəlidir. Bu gün istehlakçı ölkələr enerji resursları təchizatının şaxələndirilməsi haqqında düşünürlər. Biz bunu təmin etmişik. Bizim 7 neft-qaz kəmərimiz var. 3-ü neft kəməri, 4-ü qaz kəməridir. Biz istənilən istiqamətə həm nefti, həm də qazı ötürə bilərik və bunu edirik. Bütün 7 kəmər işlək vəziyyətdədir. Biz istənilən istiqamətdən istifadə edə bilərik. Düzdür, bizim də iqtisadi itkilərimiz olub, ancaq bu itkiləri bərpa edəcəyik. Bu itkilər, sadəcə olaraq, bir müddət ixracın dayanması ilə bağlıdır. Biz nə neft itirmişik, nə qaz itirmişik. Bu böhranlı vəziyyət bir daha onu göstərir ki, kim bu

vəziyyətdən necə çıxa bilər. Azərbaycan bu vəziyyətdən alnıaçıq çıxıbdır və bir daha hamı gördü ki, hansı ölkə nəyə qadirdir.

Biz bu illər ərzində sahibkarlığın inkişafına böyük diqqət göstərmişik və mənim müxtəlif çıxışlarımda bu məsələ həmişə gündəlikdə idi. Mən tam əminəm ki, Azərbaycanın gələcək uğurları sahibkarlığın inkişafı ilə bağlıdır. Bizim neft-qaz sektorumuz, əsas strateji infrastruktur və istehsal sahələrimiz dövlət nəzarətindədir. Belə də olmalıdır və olacaqdır. Bizi bəzi, o qədər də tanınmayan qeyri-hökumət təşkilatları vaxtaşırı tənqid edirlər ki, Azərbaycanda dövlət nəzarəti güclüdür, strateji müəssisələr özəlləşdirilmir, gərək özəlləşdirilsin, neft şirkəti gərək özəlləşdirilsin, nə bilim, dəmir yolu, «Azərenerji» özəlləşdirilsin, hansısa özəl şirkətlər gəlsin, bizim bazara müdaxilə etsinlər, imkan verməliyik ki, kimsə gəlsin burada elektrik stansiyaları tiksin, bizim başqa infrastruktura sahib çıxsın. Biz bazar iqtisadiyyatı prinsiplərinin tətbiq olunması üçün çox böyük iş görmüşük və faktdır ki, bu gün ümumi daxili məhsulda özəl sektorun çəkisi 84 faizdir. Ancaq bizim strateji infrastruktur qurumlarımız dövlət nəzarəti altında olmalıdır. Baxın, bu gün Avropada və Amerikada iqtisadi böhran yaşanır. Nə edirlər? Nəhəng özəl banklar keçir dövlət nəzarətinə. Bu daha məqsədəuyğundur. Yəni ölkənin maraqları bunu tələb edir. Bizim də maraqlarımız var. Sadəcə, öz maraqlarımızı bəzən müdafiə edərkən bizim vəziyyətlə tanış olmayan, yaxud da bizə müdaxilə etmək istəyən dairələr çalışırdılar ki, bizi bu yoldan döndərsinlər.

Bir daha demək istəyirəm ki, biz öz siyasətimizi Azərbaycanın milli maraqları üzərində qurmuşuq və bundan sonra da biz bunu edəcəyik. Ona görə strateji əhəmiyyətli infrastruktur və şirkətlər dövlət nəzarəti altında olacaqdır. Bu bizim təhlükəsizliyimizi təmin edir. Ancaq bununla bərabər, bütün başqa sahələrdə çox böyük liberallaşma var, çox böyük canlanma var. Biznesin aparılması üçün Azərbaycan ən gözəl yerdir, adambaşına düşən xarici sərmayənin həcminə görə

postsovet məkanında biz birinci ölkəyik. Dünya Bankı Azərbaycanı birinci islahatçı ölkə kimi tanıyıbdır.

Yəni təkcə bu fakt bütün əldəqayırma «beynəlxalq qeyri-hökumət təşkilatlarının» bütün deyilən sözlərindən daha da sanballıdır. Əgər tərəzinin bir gözünə bütün o əldəqayırma qeyri-hökumət təşkilatlarını – onların içində ermənipərəst qurumlar da az deyil – o biri gözünə isə Dünya Bankının bəyanatını qoysaq, şübhəsiz aydındır ki, kimin sözü daha dəyərlidir. Ancaq bu bizim işimizə verilən qiymətdir. Yəni biz sadəcə olaraq, öz işimizi görmüşük. Biz bu islahatları kimdənsə qiymət almaq üçün etməmişik və heç vaxt da etməyəcəyik. Bizim son 5 il ərzindəki siyasətimiz artıq görünür və hamı bunu bilir. Biz sadəcə olaraq, nəyi haqlı, düzgün hesab ediriksə, onu da edirik. Kim buna necə qiymət verəcək, o, ikinci dərəcəli məsələdir. Yaxşı qiymət versələr, çox sağ ol deyərik. Pis qiymət versələr və əgər o qiymət böyük əhəmiyyət daşımayan tərəfdən gəlirsə, buna fikir də vermərik. Əgər ciddi mənbədən gəlirsə, öz cavabımızı verərik. Necə ki, vermişik. İstənilən sahədə, istər iqtisadi, istər siyasi sahə ilə, istər Azərbaycanın daxili siyasəti ilə bağlı olan bəzi yanlış mülahizələrə də öz sözümüzü necə lazımdırsa demişik. Lazım gəlsə, hər zaman deyəcəyik.

Ancaq yenə də sahibkarlığın inkişafına qayıtmaq istəyirəm. Biz növbəti illərdə də onu dəstəkləyəcəyik. Hər il 100 milyon dollar güzəştli kreditlər verilir. Prezident kimi, mən sahibkarlara siyasi dəstəyimi verirəm. Bölgələrdə də, Bakıda da müxtəlif özəl müəssisələrə baş çəkirəm. Həmişə çalışıram ki, onları dəstəkləyim. Yerli icra orqanlarına həmişə deyirəm ki, onların işinə müdaxilə etməsinlər, əksinə, kömək etsinlər. Bir daha demək istəyirəm ki, bizim hərtərəfli inkişafımız sahibkarlığın inkişafı ilə çox bağlıdır.

Kənd təsərrüfatının inkişafı işində böyük tədbirlər görülübdür: «Aqrolizinq»in, aqroservislərin yaradılması, güzəştli şərtlərlə gübrənin, yanacağın verilməsi. Son 5 il ərzində Azərbaycana dövlət xətti ilə 7 min kənd təsərrüfatı texnikası–traktorlar, kombaynlar, digər texnika gətirilib və icarə əsasında

fermerlərə paylanılıbdır. Bu, böyük dəstəkdir və biz, demək olar ki, texnika parkının böyük hissəsini yeniləşdirmişik. Növbəti illərdə əlavə tədbirlər görüləcək, müvafiq sərəncamlar imzalanmışdır. Həm dövlət büdcəsindən, həm prezidentin ehtiyat fondundan vəsait ayrılacaqdır. Anbarlar tikiləcək, taxılın istehsalı üçün lazım olan əlavə tədbirlər görüləcək ki, kənd təsərrüfatı daha da sürətlə inkişaf etsin. Bu il kənd təsərrüfatı istehsalının 8,3 faiz artmasında biz görülən işlərin nəticələrini görürük.

2003–2008-ci illərdə Azərbaycanda minimum əməkhaqqı 8 dəfə artaraq 92 dollar təşkil edir. Minimum pensiya 4 dəfə artmışdır, bu da 92 dollar təşkil edir. Böyük irəliləyişdir. Amma desəm ki, bu bizi tam qane edir, səhv edərəm. Yox, qane etmir. Ancaq dinamika çox müsbətdir – 8 dəfə və 4 dəfə. Növbəti illərdə, əlbəttə ki, bu məsələyə həmişə diqqət göstərəcəyik. Tələbələrin təqaüdləri son 5 il ərzində 15 dəfə artıb və indi bakalavr pilləsində yaxşı qiymətlərlə oxuyan tələbə ayda 67 dollar təqaüd alır. Bu çox böyük göstəricidir.

Yadımdadır, sovet vaxtında Sovet İttifaqının ən aparıcı ali məktəblərində yaxşı qiymətlərlə oxuyan tələbələrin təqaüdü bundan çox aşağı idi.

5 il ərzində Azərbaycanda orta əməkhaqqı 3,6 dəfə artıbdır. Bu günə orta əməkhaqqı 313 dollardır, ilin sonuna qədər 335 dollara qalxacaqdır. Bu da yaxşı göstəricidir. Bir daha demək istəyirəm ki, 5 il ərzində Azərbaycanda orta əməkhaqqı təxminən 4 dəfə artıbdır. Növbəti illərdə daha da çox artacaqdır. Əlbəttə, minimum əməkhaqqının, büdcədən maliyyələşən təşkilatlarda çalışan insanların əmək haqlarının artırılması ilə yanaşı, özəl sektorda fəaliyyət göstərən işçilərin də əmək haqları artırılmalıdır. Bununla bərabər, nəzarət daha da güclü olmalıdır.

Heç kimə sirr deyil ki, Azərbaycanda zərfdə maaş alan insanlar hələ kifayət qədər çoxdur. İstər tikintidə, istər biznesdə cədvələ bir maaş yazılır, işçi isə ondan bəlkə 2-3 dəfə çox zərfdə alır. Bu təkcə Azərbaycanda deyil, inkişaf etmiş ölkələrdə, qonşu ölkələrdə də var. Bu, böyük bir xəstəlikdir. Ancaq biz gərək bütün bu maliyyə və iqtisadi sahənin şəffaflaşması üçün əlavə tədbirlər görək. Qanunsuz işləyən, qanunu pozan bütün insanlar məsuliyyətə cəlb olunmalıdır. Bu gün tikintidə işçilərin böyük hissəsi qeydə alınmır. Bu da reallıqdır. Biz buna qarşı mübarizə aparırıq, müəyyən uğurlar əldə edirik. Bu siyasəti davam etdirəcəyik. Belə olan halda, əminəm ki, bax, bu rəqəmlər daha da böyük olacaqdır. Mən tam əminəm ki, bu gün rəsmi statistikada göstərilən 313 dollar reallığı əks etdirmir. Real orta əməkhaqqı bundan qat-qat çoxdur. Sadəcə olaraq, biz gərək elə edək ki, bütün rəsmi sənədlərdə reallıq daha çox əks olunsun. Əminəm ki, növbəti aylarda və 2009-cu ildə bu istiqamətdə daha ciddi tədbirlər görüləcəkdir.

Ünvanlı sosial yardım artıq 600 min nəfərə verilir. Azərbaycanda 600 min insan hər ay dövlətdən pul alır. Orta hesabla, hər ailəyə 122 dollar pul verilir. Yəni bu, dövlətin o insanlara qayğısıdır. Onlar aztəminatlı insanlardır, hələ ki, həyatda özləri üçün yaxşı şərait yarada bilməyiblər. Onları günahlandırmaq lazım deyil və olmaz. Müəyyən səbəblər ola bilər. Halbuki, o da həqiqətdir ki, indi Azərbaycanda o qədər böyük imkanlar var, o qədər böyük işlər görülür ki, burada iş tapmaq problem deyildir. Mən müxtəlif yerlərdən məlumat alıram, bəzi bölgələrdə oluram, vəziyyətlə tanışam. Bəzi yerli vətəndaşlar işləmək istəmirlər, xaricdən gələn işləyir. Axı belə olmaz.

İndi iş tapmaq problem deyil, biz işsizliyi, demək olar ki, aradan götürmüşük. Azərbaycanda belə bir problem yoxdur. Bu sosial bəla yüksək dərəcədə aradan qaldırılıbdır. Ancaq nə görürük?! Bəzi vətəndaşlar iş tapmaq əvəzinə, elə dövlətdən bu ianəni almaqla kifayətlə-nirlər, işləmək istəmirlər. Deyə

bilmərəm ki, bu, kütləvi xarakter daşıyır. Yox. Bizim insanların mütləq əksəriyyəti çox işgüzardır və yaradılmış gözəl şəraitdən istifadə edirlər. Amma elələri də var.

Ona görə, əlbəttə ki, biz ağır vəziyyətdə olan, aztəminatlı ailələrə öz köməyimizi davam etdirəcəyik. Ancaq o da reallıqdır ki, indi hər bir vətəndaşın – əgər o, fiziki cəhətdən sağlamdırsa – işləməsi üçün imkan var. Mən hesab edirəm ki, dövlətdən bu yardımı alan 600 min nəfər gərək daha fəal olsunlar və həyatda özləri üçün daha da yaxşı şərait yarada bilsinlər. Ancaq o da həqiqətdir ki, obyektiv səbəblər üzündən bunu edə bilməyən insanları dövlət dəstəkləyəcək və çox güman ki, gələcəkdə onlara ayrılan vəsait daha da artacaqdır. 2003-cü ildə Azərbaycanda yoxsulluğun səviyyəsi 49 faiz idi, 2008-ci ilin əvvəlində isə 16 faiz olmuşdur. Mənə verilən məlumata əsasən, proqnoz onu göstərir ki, bu ilin nəticələrinə görə yoxsulluğun səviyyəsi daha da aşağı düşəcəkdir. Yəni bu onu göstərir ki, biz bu böyük sosial bəla ilə də çox uğurlu mübarizə aparırıq və Azərbaycanda neftdən daxil olan gəlirlər ədalətli bölünür, təbəqələşmə getmir. Hər bir sürətlə inkişaf edən ölkə üçün ən böyük təhlükə təbəqələşmədir. Varlılar varlanır, kasıblar müflisləşir. Ancaq bizim siyasətimiz – ciddi siyasət, sosial siyasət, iqtisadi tədbirlər və bazar iqtisadiyyatına sadiqliyimiz belə gözəl vəziyyəti yaradıbdır. Bizdə həm iqtisadi inkişaf var, həm insanlar daha yaxşı yaşayır, həm də islahatlar aparılır. İslahatlar dövründə insanlar üçün həmişə böyük problemlər yaradılır. Biz bunu tarixdən bilirik. Ona görə mən hesab edirəm ki, yoxsulluğun aşağı düşməsi 5 il ərzində görülən işlərin içərisində ən mühümlərindən biridir.

Burada çıxışlarda səsləndi, təhsil, səhiyyə məsələlərinə böyük diqqət göstərilmişdir. 1600 yeni məktəb tikilibdir. Bu, Azərbaycanda olan məktəblərin, demək olar ki, üçdə bir hissəsidir, 5 il ərzində yeniləşib, yenidən tikilibdir. Növbəti illərdə bu, davam edəcəkdir. Eyni zamanda, təhsilin keyfiyyəti yüksəlir. Bütövlükdə, 2003–2008-ci illərdə təhsil məsələlərinin həlli üçün – yəni burada bütün xərclər nəzərdə tutulur: həm

əməkhaqqı, həm investisiyalar – 5 milyard dollar vəsait xərclənibdir. Səhiyyə məsələlərinin həlli üçün son 5 il ərzində 2 milyard dollar vəsait xərclənibdir və burada səsləndi ki, 200-dən çox tibb müəssisəsi yaradılıbdır. Onların içində çox böyük tibb müəssisələri də vardır.

2003–2008-ci illərdə 14 olimpiya idman kompleksi tikilib istifadəyə verilibdir. 2003-cü ilə qədər 5 idman kompleksi tikilmişdi. Bütövlükdə onların sayı 19-a çatıbdır və 17 olimpiya idman kompleksində indi tikinti işləri gedir. Onların da istismara verilməsi nəticəsində Azərbaycanda 36 idman kompleksi yaradılacaqdır. Əlbəttə, biz çalışmalıyıq ki, onların sayını artıraq. Ancaq əsas odur ki, o idman komplekslərində həmişə məşqlər aparılsın. Həm yarışlar, həm də ki, məşqlər keçirilsin. Mütləq bölmələr olmalıdır. Uşaqlar orada idmanla məşğul olmalıdırlar, rayon sakinləri istifadə etməlidirlər. Çünki orada bütün şərait var. Hər birində hovuz, trenajor zalı, açıq futbol, voleybol, basketbol, tennis meydançaları, qapalı idman salonları vardır.

Bəzən məlumat gəlir ki, bəzi yerlərdə kompleks qıfıllanır və bağlı saxlanılır. Buna qətiyyən yol vermək olmaz, qətiyyən. Mən Gənclər və İdman Nazirliyinə və yerli icra orqanlarına tapşırmışam, o komplekslər ona görə tikilibdir ki, orada yerli uşaqlar, camaat, gənclər, idmançılar məşğul olsunlar. Onun sadəcə olaraq, düzgün təşkilini təmin etməliyik. Bunun da gənc nəslin sağlam böyüməsi, idmanın inkişafı üçün çox böyük əhəmiyyəti var.

2003–2008-ci illərdə mədəniyyətlə bağlı məsələlərə 900 milyon dollar vəsait xərclənib və bildiyiniz kimi, indi bütün tarixi binalar, muzeylər, teatrlar təmir olunubdur. Özü də ən yüksək səviyyədə. Yeniləri tikilir və gələcəkdə bu siyasət davam etdiriləcəkdir.

Çox böyük ekoloji proqram qəbul olunubdur. Bu pro-qram bütün məsələləri əhatə edir. Həm ətraf mühitin çirklənmədən qorunması, həm bu vaxta qədər çirklənmiş ərazilərin təmizlənməsi, həm də Kür–Araz çayları boyu yaşayan

insanların içməli su ilə təmin olunması. Görülən tədbirlər nəticəsində artıq 10 minlərlə vətəndaşımız içməli su ilə təmin olunub, yeni, müasir təmizləyici qurğular tikilibdir. Bütün proqramın başa çatması nəticəsində bu bölgələrdə yaşayan 800 min insan təmiz içməli su ilə təmin olunacaqlar. Bu vaxta qədər kanaldan, yaxud da ki, birbaşa çaydan su içən insanlar ən təmiz su ilə təmin olunacaqlar. Bu həm həyati təhlükəsizlik, həm də sağlamlıq üçün çox böyük əhəmiyyət daşıyır. Bütövlükdə, biz ekoloji məsələlərin həllinə daha da ciddi diqqət verməliyik. Hazırda bu siyasət uğurla aparılır.

Son 5 il ərzində Azərbaycanda 741 min yeni iş yerləri açılmışdır ki, bunun da 531 mini daimi iş yeridir. 2003-cü ildə prezident seçkiləri ərəfəsində verilən vədlərin biri də ondan ibarət idi ki, Azərbaycanda 2003–2008-ci illərdə 600 min yeni iş yerləri açılacaqdır. O vaxt bəziləri buna şübhə ilə yanaşırdı. Ancaq həyat hər şeyi yerinə qoydu. Azərbaycanda nəinki 600 min, 741 min yeni iş yeri açılıbdır və bu proses davam edir.

Əminəm ki, növbəti illərdə bu vaxta qədər edə bilmədiyimiz məsələlər də öz həllini tapacaqdır. Hər halda, hər bir sahə üzrə, hər bir istiqamət üzrə çox ciddi proqramlar var. O proqramlar 5 il ərzində uğurla icra edilibdir. Bəlkə elə məsələ var ki, biz onu edə bilməmişik. O da ola bilər. Ola bilər ki, bəzi məsələlər diqqətdən kənarda qalıbdır. Onu da mən istisna etmirəm. Amma hər halda, bu 5 il ərzində mən çalışmışam ki, ölkəmizin inkişafına öz töhfəmi verim. Bu işlərdə iştirak edən bütün insanlara mən öz təşəkkürümü bildirmək istəyirəm. Bu işləri görmək üçün çox böyük zəhmət sərf olunub, çox böyük fədakarlıq göstərilibdir. Bu 5 il ərzində mənimlə bərabər bu işlərdə iştirak edən bütün insanlara öz təşəkkürümü bildirmək istəyirəm. İlk növbədə, Azərbaycan xalqına öz təşəkkürümü bildirmək istəyirəm ki, 5 il ərzində mənim siyasətimi dəstəkləmişdir. Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm. Əgər onu hiss etməsəydim, tam əminəm ki, görülən işlərin bəlkə heç 10 faizini etmək mümkün olmazdı. Nə ölkə daxilində, nə xarici müstəvidə, nə ölkəmizin beynəlxalq

mövqelərinin möhkəmlənməsində, nə də ki, Azərbaycanda inkişafın təmin edilməsində bu işləri görmək mümkün olmazdı. Ona görə, ilk növbədə, mən bu gün də, seçkilərə 2 gün qalmış Azərbaycan xalqına öz minnətdarlığımı bildirmək istəyirəm. 2003-cü ildə Azərbaycan xalqı mənə etimad göstərdi. Mən də bu 5 il ərzində çalışırdım ki, bu etimadı doğruldam.

Sağ olun.

## ATƏT-in DEMOKRATİK TƏSİSATLAR VƏ İNSAN HÜQUQLARI BÜROSUNUN RƏHBƏRİ YANEZ LENARÇİÇİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 oktyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun rəhbəri Yanez Lenarçiçi qəbul etmişdir.*

*Yanez Lenarçiç dövlətimizin başçısını seçkilərdə qazandığı inamlı qələbə münasibətilə təbrik* etdi. *O, prezident seçkilərinin mühüm bir hadisə olduğunu və bu seçkiləri ATƏT-*in *Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun rəhbərliyi ilə ATƏT-in üzvü olan 40-dan artıq ölkənin 400-dək nümayəndəsinin müşahidə etməsinin önəmini vurğuladı.*

*Təbrikə görə minnətdarlığını bildirən dövlətimizin başçısı prezident seçkilərinə mümkün qədər daha çox müşahidəçinin cəlb edildiyini və onlara ən yaxşı şəraitin yaradıldığını qeyd etdi. Prezident İlham Əliyev ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun rəhbəri Yanez Lenarçiçin başçılıq etdiyi nümayəndə heyətinin bu səfərinin qarşılıqlı əlaqələrin genişləndirilməsi və seçkilərin qiymətləndirilməsi baxımından əhəmiyyətli olduğunu bildirdi.*

## MDB İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ – İCRAÇI KATİB SERGEY LEBEDEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 oktyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da MDB İcraiyyə Komitəsinin sədri – icraçı katib Sergey Lebedevi qəbul etmişdir.*

*Sergey Lebedev seçkilərdə qələbə qazanması münasibətilə dövlətimizin başçısına rəhbərlik etdiyi qurumun və şəxsən özünün səmimi təbriklərini çatdırdı. Bir çox seçki məntəqələrində olduqlarını və seçicilərlə fərdi söhbətlər etdiklərini bildirən qonaq vətəndaşların ölkədəki iqtisadi yüksəlişdən və əhalinin sosial rifahının yaxşılaşdırılmasından böyük razılıq etdiklərini dedi. Sergey Lebedev oktyabrın 15-də seçicilərin məntəqələrə bayram əhval-ruhiyyəsi ilə gəldiklərinin şahidi olduqlarını vurğuladı.*

*Dövlətimizin başçısı təbrikə görə minnətdarlığını bildirdi.*

*Azərbaycanda seçkilərin normal şəraitdə keçməsini siyasi münasibətlərin nümunəsi kimi qiymətləndirən prezident İlham Əliyev ölkədə fəaliyyət göstərən siyasi qüvvələr arasında münasibətlərin yeni, beynəlxalq standartlara cavab verən bir mərhələyə qədəm qoyduğunu dedi. Dövlətimizin başçısı prezident seçkilərinin gedişini ölkədəki inkişaf reallıqlarının və siyasi sabitliyin göstəricisi kimi dəyərləndirdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ANDİÇMƏ MƏRASİMİ

*Heydər Əliyev sarayı*

*24 oktyabr 2008-ci il*

*17 il əvvəl müstəqilliyini bərpa etmiş Azərbaycan ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra müasir tarixinin yeni bir dövrünə qədəm qoymuşdur. Daxili siyasi böhranın, hərc-mərcliyin, vətəndaş müharibəsi təhlükəsinin aradan qaldırılması, Ermənistanla müharibədə atəşkəsin əldə edilməsi, ictimai-siyasi sabitliyin təmin olunması ölkəni müstəqilliyini itirmək, parçalanmaq təhlükəsindən xilas etmişdir. Azərbaycan tədricən dünya birliyində öz yerini tutmuş, ölkədə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğuna keçməyin labüd şərti olan geniş siyasi-iqtisadi islahatların aparılmasına başlanılmışdır. Bu baxımdan müstəqil respublikanın ilk Konstitusiyasının qəbul edilməsinin, Azərbaycanın yeni neft strategiyasının işlənib hazırlanması və həyata keçirilməsinə başlanmasının çox böyük, tarixi əhəmiyyəti olmuşdur.*

*Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi Azərbaycanın müstəqilliyinin əbədiliyini və dönməzliyini təmin etmiş, ölkənin bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan iqtisadi inkişaf strategiyasının həyata keçirilməsinə başlanılmışdır. Ulu öndərin gərgin və məqsədyönlü fəaliyyəti sayəsində Azərbaycan sosial-iqtisadi inkişaf yoluna çıxmışdır.*

*Ölkədə 10 il ərzində həyata keçirilən bu xəttin 2003-cü ildə İlham Əliyevin prezident seçilməsindən sonra müasir dövrün reallıqları nəzərə alınmaqla uğurla davam etdirilməsi müstəqil Azərbaycanın tarixində yeni bir mərhələ açmışdır. Dinamik sosial-*

*iqtisadi inkişaf yolu ilə irəliləyən Azərbaycan bütün sahələrdə indiyədək görünməmiş uğurlar qazanmışdır. İqtisadi artım sürətinə görə dünyada lider, regionun lider dövləti, Avropanın enerji təhlükəsizliyinə töhfə vermək, bölgələrin sürətli sosial-iqtisadi inkişafı, əhalinin yaşayış səviyyəsinin durmadan yaxşılaşması, 5 ildə 700 mindən çox iş yerinin açılması, yoxsulluğun səviyyəsinin kəskin şəkildə azaldılması – budur, bugünkü Azərbaycanın reallıqları.*

*2008-ci il Azərbaycanın tarixində həm də əlamətdar hadisə – növbəti prezident seçkiləri ilə yadda qalacaqdır. Seçkilərdə prezidentliyə namizədlərin sayı çox olsa da, əslində, qarşıdakı səsvermənin nəticələri Azərbaycan cəmiyyətinə də, xarici ekspertlərə, politoloqlara, müxtəlif təhlil mərkəzlərinə, ümumən dünyaya da irəlicədən məlum idi. Çünki prezident İlham Əliyevin qalib gələcəyi heç kimdə şübhə doğurmurdu. Belə də oldu, çoxsaylı xarici və yerli müşahidəçilərin, müxtəlif beynəlxalq təşkilatların təmsilçilərinin tam əksəriyyətinin təsdiq etdiyi kimi, indiyədək Azərbaycanda keçirilmiş ən şəffaf, demokratik seçkidə İlham Əliyev 88,73 faiz səs topladı. Bu, ötən 5 ildə dövlət başçısının həyata keçirdiyi siyasəti Azərbaycan xalqının bütünlüklə dəstəkləməsinin, ölkənin gələcəyini yenidən ona etibar etməsinin birmənalı təsdiqi idi.*

*Oktyabrın 24-də Heydər Əliyev sarayında yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyevin təntənəli andiçmə mərasimi keçirilmişdir.*

*Sarayın bayram tərtibatlı salonuna Azərbaycanın dövlət və hökumət rəsmiləri, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları, siyasi partiyaların, ictimai təşkilatların, ölkə ictimaiyyətinin nümayəndələri, xarici ölkələrin səfirləri toplaşmışdılar.*

*Andiçmə mərasimində Gürcüstan prezidenti Mixeil Saakaşvili, Türkiyə Baş nazirinin müavini, dövlət naziri Cəmil Çiçək, Rusiya Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkin, MDB İcraiyyə Komitəsinin sədri – icraçı katib Sergey Lebedev,*

*Polşa Prezidenti Administrasiyasının rəhbəri Pyotr Kovnaski iştirak edirdilər.*

*Ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Heydər oğlu Əliyevin andiçmə mərasimi açıq elan olundu.*

*Silahlı Qüvvələrin əsgərləri Azərbaycan Respublikasının dövlət bayrağını və Azərbaycan prezidentinin ştandartını (bayrağını) təntənəli marşın sədaları altında səhnəyə gətirdilər.*

*Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev və Konstitusiya Məhkəməsinin hakimləri səhnəyə dəvət olundular.*

*Mərasim iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi hərarətlə, gurultulu və sürəkli alqışlarla qarşıladılar.*

*Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevə söz verildi. O dedi:*

– Hörmətli xanımlar və cənablar!

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 2008-ci il 22 oktyabr tarixli Qərarı ilə Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Mərkəzi Seçki Komissiyasının nəticələrini təsdiq edərək, cənab İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti elan etmişdir.

Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Heydər oğlu Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 103-cü maddəsinə uyğun olaraq, Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə andiçməyə dəvət olunur.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əlini Azərbaycan Respublikasının Konstitusiyasının üzərinə qoyaraq and içdi:*

– Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!

*Sonra Prezident müqəddəs Qurani-Şərifə əl basaraq and içdi:*

– Əlimi Qurani-Şərifə basaraq and içirəm: Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq qalacağam, onları daim uca tutacağam.

*Azərbaycan Respublikasının Dövlət himni səsləndi.*

*Prezident İlham Əliyev təzim edərək, Azərbaycanın Dövlət bayrağını öpdü.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində geniş nitq söylədi.*

*Dövlətimizin başçısının nitqi böyük diqqətlə dinlənildi və dəfələrlə gurultulu, sürəkli alqışlarla qarşılandı.*

***

*Azərbaycanın Dövlət bayrağı və Azərbaycan prezidentinin ştandartı (bayrağı) səhnədən aparıldı.*

***

*Ali Baş Komandan, prezident İlham Əliyev Heydər Əliyev sarayının qarşısında Milli Qvardiyanın əsgərlərini salamladı.*

*Əsgərlər hərbi marşın sədaları altında Ali Baş Komandanın qarşısından keçdilər.*

*Azərbaycan Respublikası Prezidentinin, Silahlı Qüvvələrin Ali Baş Komandanının şərəfinə yaylım atəşi açıldı.*

*Heydər Əliyev sarayının önünə toplaşmış ictimaiyyətin nümayəndələri prezident İlham Əliyevi hərarətlə qarşıladılar. Dövlətimizin başçısı onları səmimiyyətlə salamladı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ANDİÇMƏ MƏRASİMİNDƏ NİTQİ

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

İlk növbədə, mənə yenidən böyük etimad göstərmiş, məni prezident vəzifəsinə seçmiş bütün Azərbaycan xalqına öz dərin minnətdarlığımı bildirirəm. Azərbaycan xalqını yenidən əmin edirəm ki, mən bundan sonra da Azərbaycanın hərtərəfli inkişafı üçün öz səylərimi əsirgəməyəcəyəm. Namizədliyimi irəli sürmüş Yeni Azərbaycan Partiyasına öz təşəkkürümü bildirirəm, seçki kampaniyasında yaxından iştirak etdiklərinə görə partiyanın fəallarına minnətdaram.

Bu seçkilərdə məni dəstəkləmiş bütün siyasi qüvvələrə, o cümlədən müxalifət nümayəndələrinə öz təşəkkürümü bildirirəm. Mən ümid edirəm ki, bu seçkilər və seçki kampaniyası Azərbaycanda yeni siyasi mədəniyyətin möhkəmlənməsində öz rolunu oynayacaq, yeni ənənələri Azərbaycana gətirəcək və bundan sonra Azərbaycanda siyasi mübarizə yalnız və yalnız sivil yollarla aparılacaqdır. Bu fürsətdən istifadə edərək, məni qələbə ilə təbrik etmiş prezidentliyə digər namizədlərə, onların göndərdikləri təbriklərə görə öz təşəkkürümü bildirirəm.

5 il bundan əvvəl andiçmə mərasimində mən Azərbaycan xalqına söz vermişdim ki, Azərbaycanın hərtərəfli inkişafı üçün fəal çalışacağam. Söz vermişdim ki, Azərbaycanda Heydər Əliyev siyasətini davam etdirəcəyəm. Çünki bu, Azərbaycanın bu günü və sabahı üçün, gələcəyi üçün yeganə siyasətdir. Bu siyasət Azərbaycanı böyük bəlalardan qurtardı. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan sürətlə inkişaf etmişdir. Azərbaycan xaosdan, böhrandan, anarxiyadan inkişafa, sabitliyə doğru böyük addımlar atmışdır. Məhz onun rəhbərliyi altında Azərbaycanda dövlətçilik ənənələri

qurulmuşdur, Azərbaycan öz dövlət müstəqilliyini möhkəmləndirmiş, Azərbaycanda sabitlik yaradılmış və inkişaf başlamışdır. Bu gün bir daha demək istəyirəm ki, növbəti 5 il ərzində mən bu siyasətə sadiq qalacağam və bu yoldan dönməyəcəyəm.

Son 5 il ərzində Azərbaycanda bütün istiqamətlərdə böyük inkişaf müşahidə olunurdu. Azərbaycan son 5 ildə bölgədə öz mövqelərini daha da möhkəmləndirmişdir. Azərbaycanda dövlət quruculuğu prosesi sürətlə getmişdir. Müstəqilliyimiz möhkəmləndirilmişdir. Azərbaycanda siyasi və iqtisadi islahatlar uğurla aparılır. Demokratikləşmə prosesi uğurla gedir.

Azərbaycan son 5 il ərzində xeyli güclənmiş və bu gün gələcəyə ümidlə, nikbinliklə baxan bir ölkədir.

Azərbaycan bu gün beynəlxalq müstəvidə özünə layiq yerini daha da möhkəmləndirmişdir. Bizim regional təşəbbüslərimiz böyük uğur gətirir. Bölgədə apardığımız işlər həm Azərbaycanın möhkəmlənməsinə, həm də regional əməkdaşlığın inkişafına böyük xidmət göstərir. Biz öz siyasətimizi əsas təməl prinsipləri əsasında qururuq. Azərbaycançılıq fəlsəfəsi bizim mənəvi dayağımızdır. Müstəqil siyasət, milli maraqlarımızın qorunması, milli ləyaqət, milli qürur, milli və dini tolerantlıq – budur bizim uğurlarımızın əsas şərtləri. Azərbaycanda bütün xalqlar qardaşlıq şəraitində, mehriban şəraitdə yaşayırlar. Mən çox şadam ki, son 5 il ərzində bizim əsas ideoloji dayaqlarımız daha da möhkəmlənmiş, Azərbaycanda vətəndaş həmrəyliyi, sabitlik tam bərqərar olmuşdur və bütövlükdə cəmiyyət çox aydın görür Azərbaycan hansı istiqamətdə irəliləyir. Bizim siyasətimiz açıqdır, aydındır. Bir daha demək istəyirəm ki, bu siyasətin əsas təməl prinsipləri Azərbaycan dövlətinin milli maraqlarının qorunmasıdır və bu işdə biz böyük uğurlara nail ola bilmişik. Bizim bütün siyasətimiz, bütün siyasi addımlarımız bir məqsədi güdür. Bu da Azərbaycanın möhkəmlənməsi, güclü iqtisadi potensialın yaradılması, siyasi islahatların dərinləşməsi və Azərbaycan xalqının təhlükəsizlik şəraitində, rifah içində yaşamasıdır.

Bununla bərabər, əlbəttə ki, beynəlxalq məsələlərin həllində biz çox böyük işlər görmüşük. Azərbaycan son 5 il ərzində bölgədə öz yerini möhkəmləndiribdir. Biz bütün ölkələrlə ikitərəfli surətdə faydalı əməkdaşlığın dərinləşməsində maraqlıyıq, bunu edirik və bizim təşəbbüslərimiz bu məqsədi güdür. Xarici siyasətdə Azərbaycan son 5 il ərzində öz mövqelərini xeyli möhkəmləndirə bilmişdir. Bizim regional müstəvidə təşəbbüslərimiz həm regional əməkdaşlığın möhkəmlənməsinə xidmət edir, həm də Azərbaycanın maraqlarına uyğundur. Əminəm ki, bölgədə bizimlə əməkdaşlıq edən ölkələr də bu əməkdaşlıqdan razıdır. Bizim bütün təşəbbüslərimiz bu məqsədi güdür ki, bölgədə sülh, sabitlik daha da möhkəm olsun, iqtisadi əməkdaşlıq sürətlənsin və bölgədə yerləşən bütün ölkələr sülh, sabitlik, dostluq şəraitində yaşasınlar.

Deyə bilərəm ki, biz son 5 il ərzində dünyada daha çox müttəfiq ölkələr qazanmışıq. Bir neçə ölkələrlə bizim münasibətlərimiz yeni pilləyə, strateji tərəfdaşlıq pilləsinə qalxıbdır. İkitərəfli münasibətlərimiz çox uğurludur. Biz bütün ölkələrlə dostluq münasibətlərinin davam etdirilməsində maraqlıyıq. Bu münasibətlər bərabərhüquqludur, hər iki tərəfin maraqlarına xidmər göstərməlidir və göstərir.

Bununla bərabər, beynəlxalq təşkilatlarla əməkdaşlığımız daha da dərinləşib, Azərbaycan üzv olduğumuz beynəlxalq təşkilatlarda çox fəal iştirak edib və beləliklə, beynəlxalq mövqelərimiz də möhkəmlənibdir. Bizim fəallığımız beynəlxalq təşkilatlarda mövqeyimizin güclənməsinə, bizim maraqlarımıza cavab verən qərarların qəbul edilməsinə gətirib çıxarıbdır.

Mən şübhə etmirəm ki, növbəti illərdə də bizim xarici siyasətimiz çox çevik, çox məqsədyönlü olacaq və bunun nəticəsində Azərbaycanın beynəlxalq mövqeləri daha da möhkəmlənəcəkdir.

Əlbəttə ki, xarici siyasətimizin əsas prioritet məsələsi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli olmuşdur. Əfsuslar olsun ki, biz bu istiqamətdə hələ ki, heç bir

nəticə əldə edə bilməmişik. Amma bununla bərabər, deyə bilərəm ki, danışıqlar prosesində Azərbaycanın mövqeyi, Azərbaycanın baxışları və bizim tərəfimizdən irəli sürülmüş əsas təməl prinsiplər çox böyük dəyər qazanmışdır. Bu gün deyə bilərəm ki, danışıqların mahiyyəti Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında aparılır, bu heç kimdə şübhə yaratmır və yarada da bilməz. Mən hesab edirəm ki, bizim atdığımız addımlar həm danışıqlar prosesində mövqeyimizin möhkəmlənməsinə, həm də bu məsələlərlə məşğul olan tərəflərin fəallaşmasına gətirib çıxarıbdır. Bu gün dünyada açıq-aydın dərk edilir ki, bu bölgənin uğurlu inkişafı üçün dondurulmuş münaqişələr öz həllini tapmalıdır. Bu həll ancaq və ancaq beynəlxalq hüquq normaları və prinsipləri əsasında ola bilər, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü danışıqların mövzusu deyil, olmayıb və heç vaxt olmayacaqdır. Dağlıq Qarabağa heç vaxt – nə bu gün, nə sabah, nə 10 ildən sonra, nə 50 ildən sonra müstəqillik verilməyəcəkdir, Azərbaycan bunu heç vaxt tanımayacaqdır. Beləliklə, münaqişənin həllində beynəlxalq hüququn əsas prinsipləri öz əksini tapmalıdır.

Azərbaycana qarşı Ermənistan tərəfindən aparılan işğalçı siyasət davam edir, bu siyasət və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi hələ ki, işğal altındadır. Etnik təmizləmə siyasətindən əziyyət çəkən 1 milyon azərbaycanlı hələ də öz doğma torpaqlarına qayıda bilmir. Bu, ən böyük ədalətsizlik, ən böyük cinayətdir. Biz, əlbəttə, danışıqların davam etdirilməsində hələ ki, maraqlıyıq, hələ ki, ümidlərimiz tükənməyibdir. Hələ hesab edirik ki, danışıqlar məsələnin ədalətli həllinə gətirib çıxara bilər. O həll də hamı üçün aydındır və Azərbaycan xalqı bu mövqeyi dəstəkləyir. Bir daha demək istəyirəm ki, Azərbaycan dövləti Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağın Azərbaycandan ayrılmasına heç vaxt razılıq verməyəcəkdir. Biz öz dövlət müstəqilliyimizi möhkəmləndirərək, ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Beynəlxalq hüquq normaları bizim tərəfimizdədir. BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılmasına dair 4 qətnaməsi vardır. BMT-nin Baş Məclisində bu yaxınlarda buna oxşar qərar qəbul edilibdir. Digər beynəlxalq təşkilatlar da öz qərarları ilə bizim mövqeyimizi dəstəkləyir və möhkəmləndirir. Bir sözlə, beynəlxalq hüquq bizim tərəfimizdədir, tarixi ədalət bizim tərəfimizdədir. Çünki bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ tarixi Azərbaycan torpağıdır.

İqtisadi potensial bizim tərəfimizdədir. Bölgədə gedən siyasi proseslər Azərbaycanın mövqeyini gücləndirir. Çünki biz bu siyasi proseslərdə fəal iştirak edirik və bəzi hallarda irəli sürülən təşəbbüslərin müəllifiyik. Azərbaycanın iştirakı olmadan bölgədə iqtisadi və regional əməkdaşlıq mümkün deyil və bizim mövqeyimiz hamıya bəllidir: o vaxta qədər ki, torpaqlarımız işğal altındadır, Ermənistanla heç bir əməkdaşlıqdan söhbət gedə bilməz. Hesab edirəm ki, qarşı tərəf bütün bu amilləri təhlil edərək reallıqla barışmalıdır. Reallıq da ondan ibarətdir ki, bu gün Azərbaycanla rəqabət aparmaq çox çətindir, deyə bilərəm, qeyri-mümkündür. Siyasi potensialımız, iqtisadi gücümüz, ordu potensialımız və beynəlxalq haqq-ədalət prinsipləri bizim mövqelərimizi gücləndirir və mən əminəm ki, bütün bu amillər bizim fəal və hücum siyasətimiz nəticədə torpaqlarımızın işğalçılardan azad olunmasına gətirib çıxaracaqdır.

5 il bundan əvvəl mən Azərbaycan xalqına söz vermişdim ki, 5 il ərzində Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaq və çox şadam ki, biz buna nəinki 5 il, hətta 4 il müddətində nail ola bilmişik. Məcburi köçkünlərin yaşayış vəziyyətinin yaxşılaşdırılması və məşğulluğun artırılmasına dair 2004-cü ildə qəbul edilmiş Dövlət Proqramının icrası çox uğurla aparılır və bu müddət ərzində 12 çadır şəhərciyi ləğv edilibdir. Onların əvəzinə müasir binalar, evlər, məktəblər, tibb məntəqələri tikilibdir. 36 yeni qəsəbə salınıb və işğaldan əziyyət çəkmiş on minlərlə soydaşımız yeni evlərə köçürülübdür. Bu

proqramı biz bundan sonra da davam etdirəcəyik. 2007-ci ildə proqrama əlavələr edilmişdir və əminəm ki, bu əlavələr nəticəsində biz soydaşlarımızın yaşayış səviyyəsinin xeyli dərəcədə yaxşılaşmasına nail olacağıq.

Son 5 il ərzində ordu quruculuğu prosesi çox sürətlə getmişdir. Bu da mənim 2003-cü ildə seçkiqabağı təkliflərimin biri idi. Demişdim ki, Azərbaycanda çox güclü ordu potensialı yaradılmalıdır və əgər Azərbaycan xalqı etimad göstərsə və məni prezident vəzifəsinə layiq görsə, bu sahədə öz əməyimi əsirgəməyəcəyəm. Çox böyük qürur hissi ilə deyə bilərəm ki, son 5 il ərzində Azərbaycanın ordu potensialı çox böyük dərəcədə gücləndirilibdir.

Ordumuzun hazırlıq, peşəkarlıq səviyyəsi xeyli dərəcədə artıbdır. Mən dəfələrlə hərbi hissələrdə, o cümlədən düşmənlə təmas xəttində yerləşən səngərlərdə əsgərlərlə, zabitlərlə görüşlər keçirmişəm. Görmüşəm ki, həm döyüş qabiliyyəti, həm də ki, döyüş ruhu çox yüksəkdir. Azərbaycanda ordu quruculuğu prosesi bundan sonra da sürətlə gedəcəkdir. Ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi üçün çox böyük işlər görülübdür. Sizin diqqətinizə mən iki rəqəmi çatdırmaq istəyirəm. 2003-cü ildə Azərbaycanın hərbi xərcləri 163 milyon dollar idisə, 2008-ci ildə bu rəqəm 1 milyard 850 milyon dollara çatıbdır. Növbəti illərdə bu məbləğ daha da artırılacaqdır. 2009-cu il dövlət büdcəsinin layihəsində orduya ayrılan vəsait daha da böyük olacaqdır. Beləliklə, biz çox güclü ordu potensialı yaratmaqla Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllini yaxınlaşdırırıq.

Bütün bu amillər öz rolunu oynayır və qarşı tərəf bilməlidir və bilir ki, Azərbaycan qüdrətli dövlətdir. Bizim iqtisadi gücümüz var, siyasi çəkimiz artıbdır. Bölgədə bizim iştirakımız olmadan heç bir məsələ – nə iqtisadi, nə siyasi, nə də başqa məsələ öz həllini tapa bilməz. Bununla bərabər, Azərbaycanın çox güclü, müasir, mütəşəkkil ordusu var. Bütün bunları biz Azərbaycan xalqının dəstəyi ilə etmişik. Mən müxtəlif istiqamətlərdə atılan bütün bu addımları xalqla

məsləhətləşmələr apararaq etmişəm. Mənim bölgələrə çoxsaylı səfərlərim və insanlarla ünsiyyətdə olduğum zaman insanların əhval-ruhiyyəsini görmək imkanlarım olubdur. Bölgələrdəki vəziyyətlə çox yaxından tanışam və göstərilən bütün təşəbbüslər, atılan bütün addımlar Azərbaycan xalqı tərəfindən dəstəklənmişdir.

Son 5 il ərzində Azərbaycan siyasi islahatların aparılmasında çox böyük bir yol keçmişdir. Mən dəfələrlə demişəm və bu gün də təkrarlamaq istəyirəm ki, Azərbaycanda siyasi sistem təkmilləşməlidir, bütün inkişaf etmiş demokratik ölkələrdə mövcud olan müsbət təcrübə Azərbaycanda tətbiq olunmalıdır. Bizim beynəlxalq təşkilatlarla əməkdaşlığımızın bir istiqaməti bundan ibarətdir. Bizə sərf edən, bizim üçün məqbul olan, Azərbaycan xalqına yad olmayan müsbət təcrübə Azərbaycanda tətbiq edilməlidir.

Beləliklə, ölkə müasirləşir. Bu təkcə infrastruktur layihələri ilə, yaxud da ki, iqtisadi artımla ölçülmür. Bizim siyasi sistemimiz müasirləşməli, təkmilləşməlidir. Mən çox şadam ki, 5 il ərzində Azərbaycanda demokratiyanın inkişafı üçün, siyasi islahatların aparılması üçün çox gözəl şərait yaradılmış və bu istiqamətdə çox önəmli addımlar atılmışdır. Bu yaxınlarda keçirilmiş prezident seçkiləri bunun əyani sübutudur. Mən şübhə etmirəm ki, bizim bu istiqamətdə siyasətimiz bundan sonra da uğurla davam etdiriləcək və Azərbaycanın hərtərəfli inkişafı təmin olunacaqdır.

Siyasi islahatlar iqtisadi islahatlarla tamamlanmalıdır. Azərbaycanda həm siyasi, həm də iqtisadi islahatlar paralel şəkildə aparılır və hesab edirəm ki, bizim uğurumuzun əsas səbəbi məhz bundan ibarətdir. Biz siyasi islahatları artıq yaranmış çox güclü iqtisadi təməl üzərində qururuq. Əgər bu iqtisadi təməl olmasa, siyasi islahatları aparmaq o qədər də asan olmayacaqdır. Əgər demokratik inkişaf baxımından ən öndə gedən ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, onların tam əksəriyyətində iqtisadi inkişaf çox yüksək səviyyədədir. O ölkələrin tam əksəriyyəti dünyada inkişaf etmiş ölkələr kimi

tanınır. Bizim də məqsədimiz ondan ibarətdir ki – mən bu barədə artıq demişəm, bəzən bu, təəccüb doğura bilər, amma mən inanıram – Azərbaycan gələcəkdə inkişaf etmiş ölkələrin sırasına daxil olunmalıdır və daxil olacaqdır. Çünki bunu etmək üçün bizim bütün imkanlarımız var: istedadlı insanlar, çox açıq-aydın, şəffaf siyasət, siyasi islahatlar, iqtisadi güc, təbii ehtiyatlar, bizim coğrafi vəziyyətimiz. Əminəm ki, bu vaxta qədər aparılan siyasət bizə bu imkanı yaradacaqdır.

Biz çalışmalıyıq, əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Baxmayaraq ki, bu nailiyyətlər də çox böyükdür, ancaq biz irəliyə baxmalıyıq, gələcəyə baxmalıyıq. Azərbaycanın uğurlu inkişafını təmin etmək üçün, Azərbaycanda bundan sonra da sabit inkişafı təmin etmək üçün, Azərbaycan xalqının bundan sonra da təhlükəsizlik şəraitində yaşaması üçün biz hər gün çalışmalıyıq. Hamı – cəmiyyətin bütün üzvləri, bütün Azərbaycan xalqı çalışmalıdır. Bu həmrəylik bu gün Azərbaycanda var. Bizim uğurlarımız insanların, Azərbaycan xalqının dəstəyi və birbaşa iştirakı olmadan mümkün deyil və mən bir daha demək istəyirəm ki, bizim uğurlarımızın əsas mənbəyi Azərbaycan xalqının fəaliyyətidir, Azərbaycan xalqının iradəsidir.

Bir sözlə, siyasi sahədə islahatları bundan sonra da davam etdirəcəyik və artıq son 5 il ərzində görülən işlər deməyə əsas verir ki, biz bu yoldan kənara çıxmayacağıq.

O ki qaldı, iqtisadi islahatlara, bir daha demək istəyirəm ki, iqtisadi və siyasi islahatların paralel şəkildə aparılması bizə böyük uğurlar gətiribdir. 2003-cü ildən etibarən, Azərbaycanda çox böyük iqtisadi proqramlar icra olunmağa başlamışdır və bu gün Azərbaycanda elə bir sahə yoxdur ki, o sahə üçün xüsusi konkret proqram olmasın. Hər bir istiqamət üzrə biz konkret iş cədvəli ilə fəaliyyət göstəririk, hər istiqamət üzrə konkret proqramlar, onların maddi təminatı var, çox işlək icra mexanizmləri var. Bir sözlə, Azərbaycanın hərtərəfli inkişafı üçün bütün şərait yaradılıbdır.

Son 4 il ərzində Azərbaycan dünya miqyasında iqtisadi artım sürətinə görə birinci ölkədir. Son 4 il ərzində iqtisadi artım, yəni ümumi daxili məhsulun artımı baxımından bizdən yuxarı ölkə olmamışdır. Bu, böyük nailiyyətdir. Bütövlükdə, 5 il ərzində Azərbaycan iqtisadiyyatı, Azərbaycanda ümumi daxili məhsul 2,7 dəfə artmışdır. Mən deyə bilərəm ki, dünya miqyasında bu, görünməmiş bir nəticədir. 2008-ci ilin yekunlarına görə, adambaşına düşən ümumi daxili məhsul təxminən 6 min dollar təşkil edəcəkdir. Bu, yaxşı göstəricidir, ancaq gələcəkdə daha da artacaqdır. Çox sevindirici haldır ki, Azərbaycanda ümumi daxili məhsulla bərabər, sənaye istehsalı da artıbdır. Sənaye istehsalı son 5 il ərzində 2,7 dəfə artıbdır. Bizim dövlət büdcəmiz son 5 ildə 10 dəfədən çox artıbdır. Əgər 2003-cü ildə Azərbaycanın dövlət büdcəsi 1,2 milyard dollar təşkil edirdisə, 2008-ci ildə icmal büdcə 15 milyard dollara bərabərdir. 2009-cu ilin dövlət büdcəsində daha da böyük artım nəzərdə tutulubdur. Azərbaycanın valyuta ehtiyatları böyük həcmdə artıbdır. 2003-cü ildə bizim valyuta ehtiyatlarımız 1,6 milyard dollar səviyyəsində idi. Bu ilin oktyabr ayına olan məlumata görə isə, Azərbaycanın ümumi valyuta ehtiyatları 17 milyard dollar təşkil edir. Gələn illərdə bu məbləğ artacaqdır. Son 5 il ərzində Azərbaycan iqtisadiyyatına 44 milyard dollar sərmayə qoyulmuşdur. Bu da bütün müstəqillik dövründə qoyulan sərmayələrin 77 faizini təşkil edir. Yəni Azərbaycan həm xarici investorlar üçün cəlbedici ölkə kimi maraq doğurur, həm də çox şadam ki, Azərbaycana böyük həcmdə daxili investisiyalar qoyulur. Burada, əlbəttə ki, dövlət investisiyalarının payı daha çoxdur, ancaq özəl, yerli şirkətlərin qoyduğu sərmayə də mühüm rol oynayır. Bu çox vacibdir. Çünki bu, ölkəmizin hərtərəfli inkişafına, Azərbaycanda güclü sahibkarlıq sinfinin yaranmasına xidmət göstərəcəkdir. Orta sinfin yaranması artıq reallıqdır və Azərbaycanın bundan sonrakı illərdə hərtərəfli inkişafı bu amillərlə ölçüləcəkdir.

Qeyri-neft sektorunun inkişafında böyük uğurlar əldə edilibdir. Bu gün biz böyük iftixar hissi ilə deyə bilərik ki,

iqtisadiyyatımız artıq çoxşaxəlidir. Biz özümüzü əsas ərzaq məhsulları ilə təmin edirik və Azərbaycanda istehsal olunan emal məhsulları başqa ölkələrə ixrac edilir. Onların bir çoxu beynəlxalq, Avropa sertifikatı alıbdır. Bu nə deməkdir? O deməkdir ki, Azərbaycan iqtisadiyyatı ancaq və ancaq enerji resurslarından asılı olmayacaqdır. Bu gün də asılı deyil və bölgələrdə gedən quruculuq işləri, yeni iş yerlərinin yaradılması, yeni zavodların, fabriklərin açılması – bütün bunlar görülən işlərin praktik nəticələridir.

Hər il sahibkarlığın inkişafına böyük məbləğdə vəsaitin ayrılması, güzəştli şərtlərlə kreditlərin verilməsi, kənd təsərrüfatının inkişafı üçün dövlət tərəfindən ayrılan subsidiyalar, alınan texnika və bütövlükdə sahibkarlara Prezident tərəfindən verilən mənəvi-siyasi və əməli-praktik dəstək qeyri-neft sektorunun inkişafında çox böyük dönüş yaratmışdır. Mən şübhə etmirəm ki, növbəti 5 il ərzində bu istiqamətdə daha da böyük işlər görüləcəkdir. Artıq bu son 5 il ərzində görülən işlər, onların bir neçəsi növbəti illərdə özünü göstərəcəkdir.

Bir sözlə, iqtisadi sahədə biz bu uğurlarla fəxr edə bilərik. Mən çox şadam ki, indi Azərbaycan iqtisadi cəhətdən öz müstəqilliyini tam şəkildə təmin edibdir. Ərzaq təhlükəsizliyinin təmin olunması üçün əlavə tədbirlər planı hazırlanır. Bu gün biz özümüzü əsas ərzaq məhsulları ilə 90–95 faiz civarında təmin edirik. Növbəti illərdə qısa müddət ərzində tam təmin edəcəyik.

Mən çox şadam ki, iqtisadi sahədə göstərilən səylər və əldə edilmiş nailiyyətlər dünya tərəfindən və beynəlxalq maliyyə qurumları tərəfindən də bəyənilir və dəstəklənir. Bunun sübutu dünyanın aparıcı maliyyə qurumu olan Dünya Bankının 2008-ci il üzrə hesabatıdır. O hesabatda Azərbaycan dünyada bir nömrəli islahatçı ölkə kimi tanınır. Bu bizim səylərimizə, siyasətimizə verilən çox böyük qiymətdir. Çünki bu islahatlar qeyri-neft sektorunda aparılıbdır. Bu islahatlar biznesin inkişafı üçün şərait yaradır, Azərbaycanda iqtisadiyyatın liberallaşmasına xidmət göstərir. Bu siyasət, islahatlar imkan

verir ki, Azərbaycanda insanlar daha da yaxşı yaşasınlar. Ona görə biz bu qiymətə çox böyük əhəmiyyət veririk.

Azərbaycanda şəffaflıq təmin edilir. Neft-qaz hasil və ixrac edən ölkə üçün bu çox vacibdir. Deyə bilərəm ki, bizim uğurlu neft strategiyamızın əsas istiqamətlərindən biri də məhz şəffaflıqdır. Keçən il Azərbaycan Dövlət Neft Fondu Birləşmiş Millətlər Təşkilatı tərəfindən şəffaflığa görə mükafatla təltif edilibdir. Azərbaycan xalqı bilir ki, ölkəyə nə qədər vəsait daxil olur və bu vəsait necə xərclənir.

Bir sözlə, biz bundan sonra da iqtisadi sahədə bu siyasəti davam etdirəcəyik. Bütün konkret proqramlar öz həllini tapacaqdır. Bizim son 5 il ərzindəki təcrübəmiz onu göstərir ki, biz nəyi planlaşdırmışıqsa, nəyi bəyan etmişiksə, onu da icra etmişik və bəzi hallarda vaxtından tez etmişik. Bununla bərabər, deyə bilərəm ki, son 5 ildə sosial məsələlərin həllinə böyük diqqət göstərilibdir. Çünki keçid dövründə yaşayan ölkələrdə və köklü, əsaslı iqtisadi islahatların aparılması şəraitində insanların həyat səviyyəsi pisləşə bilər və biz bunu tarixdən də bilirik. Uzaq və yaxın tarixdən də bilirik ki, köklü islahatlar müvəqqəti olaraq insanların yaşayış səviyyəsini endirir. Azərbaycanda isə biz bunun əksini görürük. Biz köklü iqtisadi islahatlar aparmaqla bərabər, sosial məsələlərin həllində böyük işlər görmüşük. Son 5 il ərzində minimum pensiyanın məbləği 4 dəfə artırılmışdır. Minimum əməkhaqqı 8 dəfə, orta əməkhaqqı 3,6 dəfə artırılmışdır. Bu gün dövlətdən birbaşa ünvanlı sosial yardım alan insanların sayı 600 minə çatmışdır. Dövlət ehtiyacı olan vətəndaşlarının yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün öz köməyini göstərir və biz gələcəkdə bu siyasəti davam etdirəcəyik. Azərbaycanda yoxsulluğun azaldılması məni çox sevindirir.

Əgər 2003-cü ildə yoxsulluq şəraitində yaşayanların sayı 49 faiz idisə, 2007-ci ilin yekunlarına görə, bu rəqəm 16 faizə düşübdür. Mənə verilən proqnoz hesablamalara görə, bu ilin yekunlarına görə daha da aşağı düşəcəkdir. Bu nəyi göstərir? Onu göstərir ki, Azərbaycanda uğurlu iqtisadi inkişaf, iqtisadi

islahatlar və neft strategiyamız ilk növbədə, insanların yaşayış səviyyəsinin yaxşılaşmasına xidmət edir. Bu onu göstərir ki, Azərbaycanda sürətlə inkişaf edən ölkələrə xas olan təbəqələşmə prosesi getmir. Əksinə, Azərbaycanda orta sinif yaranır. Azərbaycanda iş yerləri açılır və mən hesab edirəm ki, görülən bütün işlərin içində yoxsulluğun azaldılması xüsusi yer tutur. Bizim iqtisadi artımımız çox sürətlidir və bir də demək istəyirəm ki, 4 il ərzində dünya miqyasında biz lider ölkə olmuşuq. Əminəm ki, növbəti illərdə bu liderliyi saxlayacağıq.

Bizim böyük infrastruktur layihələrimiz həyata keçirilir. Son 5 il ərzində 4 beynəlxalq aeroport istismara verilibdir. 8 elektrik stansiyası tikilibdir. Minlərlə kilometr yollar salınıbdır. Qazlaşdırma prosesi uğurla gedibdir. Əgər 2003-cü ildə Azərbaycanda qazlaşdırma 62 faiz idisə, bu gün 85 faizdir. Su kəmərləri çəkilir. Yəni bütün bu infrastruktur layihələri Azərbaycanı gücləndirir. Bununla bərabər, insanların yaşayış səviyyəsinin qalxması, yoxsulluq içində yaşayanların vəziyyətinin yaxşılaşması – bu mənim üçün az əhəmiyyət kəsb etmir, bəlkə daha da böyük əhəmiyyət kəsb edir. Çünki bizim bütün siyasətimiz Azərbaycan xalqının yaxşı yaşamasına, Azərbaycanın möhkəmlənməsinə yönəldilibdir.

Mən demək istəyirəm ki, həyata keçirilən işlərin nəticələrini görmək çox böyük xoşbəxtlikdir. Mən xatırlayıram ki, 2003-cü ildə, hələ prezident seçkiləri ərəfəsində çıxışlarımın birində bəyan etmişdim ki, əgər Azərbaycan xalqı mənə etimad göstərsə, söz verirəm ki, növbəti 5 il ərzində Azərbaycanda 600 min yeni iş yerləri açılacaq və beləliklə, böyük sosial bəla olan işsizlik Azərbaycanda, demək olar, aradan qaldırılacaqdır.

Böyük qürur hissi ilə deyə bilərəm ki, son 5 il ərzində Azərbaycanda 741 min yeni iş yerləri açılmışdır ki, onlardan da 531 mini daimi iş yerləridir. Bu iş yerləri həm insanların rifah halının yaxşılaşmasına xidmət edir, həm də bölgələrdə gedən proseslərə güclü təkan verir. Bəzi hallarda vəziyyəti dərindən bilməyənlər, yaxud da ki, uğurlarımıza kölgə salmaq istəyən qüvvələr bizim iqtisadi inkişafımızı daha çox, sadəcə, neft amili

ilə bağlayırlar. Düzdür, Azərbaycanda neft hasilatı artıbdır və ümumi daxili məhsulda onun çəkisi böyükdür. Hər bir ölkənin inkişafı üçün müəyyən əsas istinad nöqtəsi vardır. Bizim üçün də bu, təbii ehtiyatlardır. Ancaq bizim rayonlarımızın iqtisadi göstəricilərinə baxın: son 5 il ərzində əksər rayonlarda iqtisadi artım 2 dəfədən çox olubdur. Bəzi rayonlarda ümumi daxili məhsul 2,5 dəfə, 2,7 dəfə, 3 dəfə artıbdır. Bizim rayonlarda neft hasilatı yoxdur. Yəni nəyin hesabına artıbdır? Bax, yaradılan iş yerlərinin hesabına, qoyulan investisiyaların hesabına, açılan zavodların, fabriklərin hesabına. Bu gün Azərbaycanda işləmək istəyən iş tapa bilər.

Bu gün Azərbaycanda biz digər problemlə, qanunsuz miqrasiya ilə üzləşirik. Bu gün Azərbaycana işləmək üçün başqa ölkələrdən gələn işçi qüvvəsinin sayı günü-gündən çoxalır. Xüsusilə bu məsələni tənzimləmək üçün bu yaxınlarda Dövlət Miqrasiya Xidməti yaradılmışdır. Yəni budur, Azərbaycanın bugünkü reallıqları. 2003-cü ildən 2008-ci ilə qədər keçdiyimiz yol bütün istiqamətlərdə özünü büruzə veribdir.

Mən bu gün əldə edilmiş bütün uğurlardan danışa bilmərəm. Əgər danışsam, bir neçə saat vaxt lazım olacaqdır. Sadəcə olaraq, əsas məqamları bir daha Azərbaycan xalqının diqqətinə çatdırmaq istəyirəm. Son 5 il ərzində Azərbaycanda 1600 yeni məktəb tikilibdir. 1600 məktəb! Yüzlərlə məktəb təmir olunubdur. Bütövlükdə, Azərbaycanda 4500 məktəb var. Yararsız vəziyyətdə olan məktəblər sökülüb, onların yerinə ən müasir standartlara cavab verən məktəblər tikilibdir. Bütün məktəblərdə kompyuterləşmə prosesi aparılır və bütün məktəblər internetə qoşulur. Əgər 5 il bundan əvvəl 1000 şagirdə 1 kompyuter düşürdüsə, indi 29 şagirdə 1 kompyuter düşür. Budur bizim gələcəyimiz. Bizim gənc nəslimiz bilikli, savadlı olmalıdır, vətənpərvərlik ruhunda tərbiyə edilməlidir. Azərbaycanın gələcəyi üçün hazırlıqlı, peşəkar, Vətəni sevən, Vətənə bağlı olan kadrların hazırlanması bizim üçün prioritet məsələdir.

Mən insanların sağlamlığının qorunması üçün görülən işləri qeyd etmək istəyirəm. Son 5 il ərzində 240-dan çox tibb müəssisəsi yaradılıb və onların böyük əksəriyyəti dünyanın ən yüksək standartlarına cavab verir. Təkcə Bakıda deyil, bölgələrdə müasir, dünya səviyyəsində olan tibb xidmətinin yaradılması Azərbaycan xalqının sağlamlığının qorunmasına verilən töhfədir.

Bu gün biz içməli su məsələsini uğurla həll edirik. Xüsusi təmizləyici qurğuların tikilməsi, su kəmərlərinin çəkilməsi insanların həyatının keyfiyyətini, sağlamlığını yaxşılaşdıracaqdır. Biz genofondumuza həmişə böyük diqqətlə yanaşmalıyıq. Elə etməliyik ki, Azərbaycanda insanlar sağlam olsunlar, gənc nəsil həm fiziki cəhətdən, həm də mənəvi cəhətdən sağlam olsun.

Son 5 il ərzində Azərbaycanda bütün bölgələrdə 14 müasir olimpiya idman kompleksi tikilmişdir. Təxminən 20-yə yaxın idman kompleksi hələ tikilməkdədir. Bütün bu idman komplekslərində uşaqlar ən yüksək səviyyədə idmanla məşğul olurlar. Orada bütün şərait – açıq, qapalı meydançalar, üzgüçülük hovuzları var. Budur Azərbaycanın gələcəyi. Azərbaycanın gəncliyi bütün bu imkanlardan istifadə etməlidir.

Bir daha demək istəyirəm ki, Azərbaycanın hərtərəfli uğurlu inkişafı artıq reallıqdır. Mən heç şübhə etmirəm ki, növbəti 5 il ərzində biz bütün bu müsbət meyilləri daha da möhkəmləndirəcəyik və Azərbaycanı yeni uğurlara doğru aparacağıq.

Bizim daxili və xarici siyasətimizin uğurla aparılması üçün enerji təhlükəsizliyi məsələləri də öz həllini tapıbdır. Biz qarşımıza qoyduğumuz bütün məsələləri həll etmişik. Azərbaycan bu gün enerji təhlükəsizliyi məsələlərini 100 faiz həll edibdir. Bilirsiniz ki, dünyada bu, artıq çox böyük danışıqlar mövzusudur və narahatlıq yaradan məsələdir. Azərbaycanda ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə keçən əsrin 90-cı illərinin ortalarında başlanmış və bu gün uğurla icra edilən neft strategiyamız ölkəmizə böyük uğurlar gətiribdir.

Planlaşdırdığımız bütün məsələlər öz həllini tapıbdır, baxmayaraq ki, bunu etmək o qədər də asan deyildi.

Bu gün Bakı–Tbilisi–Ceyhan neft kəməri istismardadır, tam gücü ilə işləyir. Son 5 il ərzində kəmərin tikintisi başa çatmışdır. Bu gün Bakı–Tbilisi–Ərzurum qaz kəməri uğurla istismardadır, fəaliyyət göstərir. Son 5 il ərzində Azərbaycan qazı idxal edən ölkədən qazı ixrac edən ölkəyə çevrilibdir və bu gün biz həm özümüzü təmin edirik, həm də başqa ölkələrə qaz ixrac edirik. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərlərinin məntiqi davamı olan Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisinə başlamışıq. Bu layihə həm bizim üçün, həm qonşularımız üçün, həm bölgə üçün, həm də dünya üçün tarixi əhəmiyyət daşıyır. Bizim və bu layihədə iştirak edən bütün ölkələrin təşəbbüsü və birgə səyləri nəticəsində bu nəhəng layihəni başlamışıq. Vaxtilə Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, Bakı–Tbilisi–Qars layihələri sadəcə olaraq, kağızda idi. Sadəcə, bir niyyət idi, bir fikir idi. Bəziləri bunu əfsanə adlandırırdılar. Amma bu əfsanə artıq gerçəkliyə çevrilibdir. Kim bunu edibdir?! Biz etmişik! Biz öz siyasətimizlə, regional əməkdaşlıq çərçivəsində və qonşu dövlətlərin fəal iştirakı ilə bütün bu uğurlu addımları təmin etmişik. Bu layihələr Azərbaycanın uzunmüddətli, uğurlu və dayanıqlı inkişafını təmin edəcəkdir.

Son 5 il ərzində Azərbaycanda neft-qaz hasilatı xeyli dərəcədə artmışdır. Əgər 2003-cü ildə neft hasilatı 15,4 milyon ton idisə, bu il Azərbaycanda neft istehsalı 50 milyon tondan çox olmalıdır. 2003-cü ildə Azərbaycanda 5,5 milyard kubmetr qaz hasil edilirdi, bu ilin sonuna qədər Azərbaycanda qaz hasilatı 20 milyard kubmetrdən çox olacaqdır. Bu, qısa bir müddət ərzində böyük artımdır. Biz bütün imkanlarımızı – həm siyasi, həm iqtisadi, həm də texniki səfərbər etmişik və bütün bu işlərdə məqsədyönlü siyasət aparmışıq. Biz qarşımıza məqsəd qoymuşuq və bu məqsədə doğru uğurla irəliləmişik. Bu gün biz neft ixracının şaxələndirilməsini təmin etmişik. Azərbaycanın 7 neft və qaz kəməri vardır. Onların hamısı işlək vəziyyətdədir və

bu kəmərlər vasitəsilə təbii resurslarımızı istənilən istiqamətə ixrac etmək mümkündür.

Enerji siyasətimiz bizə iqtisadi müstəqillik verdi, bizə imkan verdi ki, ölkədə quruculuq-abadlıq, infrastruktur layihələrini uğurla icra edək. Bizə arxayınlıq verdi. Müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük dəyərdir. Ancaq müstəqilliyi əldə etmək onu qoruyub saxlamaqdan, möhkəmləndirməkdən daha asandır. Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil ölkədir, biz həm daxildə, həm də xaricdə müstəqil siyasət aparırıq. Bizim siyasətimiz Azərbaycan xalqının maraqlarına xidmət edir. Azərbaycan xalqının maraqlarının qorunması, Azərbaycan dövlətinin möhkəmləndirilməsi, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi mənim üçün və bilirəm ki, hər bir Azərbaycan vətəndaşı üçün ən başlıca vəzifədir, ən başlıca məqsəddir.

Əziz dostlar, mən bu gün andiçmə mərasimində son 5 il ərzində mənə göstərilən dəstəyə görə, inama görə, etimada görə doğma xalqıma bir daha minnətdarlığımı bildirirəm.

Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da Vətənimizin uğurlu inkişafı üçün, Azərbaycanın çiçəklənməsi üçün mən əlimdən gələni əsirgəməyəcəyəm, Azərbaycan xalqına bundan sonra da xidmət edəcəyəm.

Eşq olsun Azərbaycan xalqına!

Yaşasın Azərbaycan!

* * *

*Heydər Əliyev sarayında Azərbaycan Respublikası Prezidentinin təntənəli andiçmə mərasimi başa çatdıqdan sonra Gülüstan sarayında ziyafət verilmişdir.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ZİYAFƏTDƏ NİTQİ

*Gülüstan sarayı*

*24 oktyabr 2008-ci il*

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Mən bu gün sizin hamınızı ürəkdən salamlayıram. Mənə göstərdiyi böyük etimada görə bu axşam bütün Azərbaycan xalqına bir daha öz dərin minnətdarlığımı bildirmək istəyirəm.

Bu gün andiçmə mərasimində son 5 ildə görülən işlər və gələcək planlar haqqında öz fikirlərimi kifayət qədər bildirmişəm. Həqiqətən, Azərbaycan 5 ildə böyük bir yol keçmişdir. 5 ildə ölkəmiz möhkəmlənmiş, öz beynəlxalq mövqelərini gücləndirmişdir. Ölkə daxilində aparılan islahatlar, istər siyasi, istərsə də iqtisadi islahatlar Azərbaycanı daha da inkişaf etdirmiş və deyə bilərəm ki, Azərbaycan öz inkişafında yeni pilləyə qalxa bilmişdir.

5 ildə ölkədə ictimai-siyasi sabitlik, təhlükəsizlik daha da möhkəmlənmişdir. Azərbaycan xalqı sülh, təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşayır. Sabitliyin möhkəmlənməsi bizim inkişafımız üçün çox böyük rol oynayır.

Sabitlik olan yerdə inkişaf da var. Bizim iqtisadi inkişafımızın təməlində XX əsrin 90-cı illərinin ortalarından ulu öndər Heydər Əliyevin başladığı iqtisadi və siyasi islahatlar dayanır. Bu gün Azərbaycan bu yolla gedir. Azərbaycan öz strateji seçiminə sadiqdir, Azərbaycanda Heydər Əliyev siyasi xətti davam etdirilir və əminəm ki, gələcək inkişafımız üçün yeni imkanlar açacaqdır.

Biz böyük qürur hissi ilə deyə bilərik ki, 5 ildə Azərbaycan həm iqtisadi inkişaf, həm beynəlxalq mövqelərimizin möhkəmlənməsi baxımından, həm siyasi islahatların aparılması, həm də demokratiyanın inkişafı baxımından, sözün əsl mənasında, böyük inkişaf yolu keçmişdir. Biz növbəti illərdə əldə edilmiş uğurlarla kifayətlənməməliyik. Baxmayaraq ki, 5 ildə infrastruktur layihələrinin həyata keçirilməsi və əsaslı islahatlar nəticəsində ölkə böyük dərəcədə öz potensialını gücləndirmişdir.

Ancaq biz gələcəyə baxmalıyıq. Biz gələcəyə həm böyük nikbinliklə, həm də böyük ümidlərlə baxırıq. Bizi gələcəkdə nələr gözləyir, o bizdən asılıdır, Azərbaycan xalqından asılıdır. Biz öz seçimimizi etmişik. Azərbaycan artıq müasir ölkədir. Ancaq müasirləşmə prosesinin limiti, hüdudları yoxdur. Bu, əbədi bir prosesdir. Bu gün Azərbaycan demokratik ölkədir. Amma demokratiyanın da sonu yoxdur. Bu, sonsuz bir prosesdir. Biz növbəti illərdə ölkəmizin müasirləşməsi ilə bağlı əlavə tədbirlər görəcəyik.

Azərbaycanda yeni informasiya-kommunikasiya texnologiyalarının tətbiq olunması istiqamətində yeni layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Təhsil, səhiyyə sahəsində, bütün sosial məsələlərin həlli üçün konkret proqramlar icra olunacaqdır. Regional inkişaf proqramının ikinci mərhələsi artıq hazırlanır. 2009–2013-cü illəri əhatə edən geniş, konkret regional inkişaf proqramı yəqin, gələn ilin əvvəlində qəbul ediləcəkdir. Bu da öz növbəsində, növbəti 5 ildə ölkədə mövcud olan əsas iqtisadi və infrastruktur məsələlərinin, sosial problemlərin həlli üçün əsas rol oynayacaqdır.

Biz növbəti 5 ildə xarici siyasətdə müstəqil xəttimizə sadiq qalacağıq. Azərbaycan növbəti illərdə də dost ölkələrlə ikitərəfli münasibətlərin inkişafı üçün öz təşəbbüslərini irəli sürəcəkdir, beynəlxalq təşkilatlarda iştirakımız fəal olacaqdır. Əminəm ki, beynəlxalq təşkilatlarla əməkdaşlığımız uğurlu olacaq və bu əməkdaşlıq, indi olduğu kimi, qarşılıqlı maraqlar əsasında qurulacaqdır.

Bir sözlə, mən növbəti 5 ili açıq görmək istəyirəm. Qarşımızda üfüqlər açıqdır. Bizim siyasətimiz də çox aydın və birmənalıdır. Azərbaycan xalqının milli maraqları təmin olunmalıdır, Azərbaycanda dövlətçilik daha da möhkəmlənməlidir. Dövlət quruculuğunda əlavə tədbirlər görülməli, qanunun aliliyi tam bərqərar olmalıdır. Azərbaycan öz dövlət müstəqilliyini möhkəmləndirməlidir. İqtisadi, enerji, nəqliyyat və ərzaq təhlükəsizliyi tam şəkildə təmin olunmalıdır. Artıq bunun böyük hissəsi təmin edilibdir. İnsanların yaşayış səviyyəsi, rifah halı daha da yaxşılaşmalıdır. Minimum əməkhaqqı, minimum pensiyaların məbləğləri artırılmalıdır. İşsizlik tamamilə aradan qaldırılmalıdır. Biz növbəti 5 ildə Azərbaycanda yoxsulluğa son qoymalıyıq. Digər böyük layihələr, planlar var, onlar konkret xarakter daşıyır. Mən əminəm ki, nəzərdə tutulmuş bütün məsələlər Azərbaycan xalqının dəstəyi ilə həllini tapacaqdır.

Keçən 5 ilin təcrübəsi onu göstərir ki, nəzərdə tutduğumuz bütün məsələlər həll edilib, 2003-cü ildə verilən vədlərin hamısı 5 il ərzində yerinə yetirilibdir. Elə bir məsələ yoxdur ki, biz onu 5 il bundan əvvəl elan edək və həll edə bilməyək. Elə məsələ yoxdur. Mən əminəm ki, növbəti 5 il ərzində də atacağımız addımlar uğurlu olacaq, Azərbaycanı daha da gücləndirəcək, ölkəmizin dünya miqyasında önəmini daha da artıracaqdır.

Mən bu gözəl gündə bu badəni bizim bütün uğurlarımızın səbəbkarı olan Azərbaycan xalqının şərəfinə qaldırmaq istəyirəm. Azərbaycan xalqının dəstəyi olmasaydı, mənə inamı, etimadı olmasaydı, biz heç bir məsələni həll edə bilməzdik. Azərbaycan xalqına minnətdaram ki, 5 il ərzində mənim fəaliyyətimi dəstəkləmişdir. Bu mənə güc vermişdir, əlavə imkanlar vermişdir ki, biz Azərbaycanın müstəqil həyatını təmin edək.

Bütün Azərbaycan xalqını bir daha əmin etmək istəyirəm – bunu 5 il bundan əvvəl də demişdim –mən bundan sonra da hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam, Azərbaycanın hərtərəfli inkişafına öz töhfəmi verəcəyəm.

Azərbaycan xalqının şərəfinə!
Güclü Azərbaycan naminə!

***

*Sonra respublikanın incəsənət ustaları geniş konsert proqramı ilə çıxış etdilər.*

*Ziyafətdə Azərbaycanın dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, xarici ölkələrin Bakıdakı səfirləri, tanınmış ziyalılar, siyasi partiyaların, ictimai təşkilatların, ölkə ictimaiyyətinin nümayəndələri iştirak edirdilər.*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*24 oktyabr 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 24-də andiçmə mərasimindən sonra ailə üzvləri ilə birlikdə Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ölkəmizi siyasi-iqtisadi böhran burulğanından xilas edərək sabitlik, iqtisadi tərəqqi, dünya birliyinə inteqrasiya yoluna çıxarmış Heydər Əliyevin abidəsini ziyarət etdi.*

*Dövlət başçısı ulu öndərin məzarı önünə əklil qoydu, onun ruhu qarşısında baş əydi.*

*Sonra prezident İlham Əliyev və ailə üzvləri görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət etdilər və üstünə gül dəstələri qoydular.*

## ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM

*24 oktyabr 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 24-də ailə üzvləri ilə birlikdə xalqımızın müqəddəs and yeri olan Şəhidlər xiyabanını ziyarət etmişdir.*

*Dövlət başçısı Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən oğullarının əziz xatirəsini ehtiramla yad etdi, «Əbədi məşəl» abidəsinin önünə əklil qoydu.*

## GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 oktyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də dövlət başçısının andiçmə mərasimində iştirak etmək üçün ölkəmizdə səfərdə olan Gürcüstan prezidenti Mixeil Saakaşvili ilə görüşmüşdür.*

*Prezident Mixeil Saakaşvili dövlət başçısına təbriklərini çatdırdı.*

*Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirdi.*

*Görüşdə iki ölkə arasında münasibətlərin hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

# RUSİYA FEDERASİYASI PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ SERGEY NARIŞKİN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 oktyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkini qəbul etmişdir.*

*Dövlət başçısını prezident seçilməsi münasibətilə təbrik edən Sergey Narışkin Rusiya prezidenti Dmitri Medvedevin təbriklərini, salamlarını və dərin hörmətini bir daha prezident İlham Əliyevə çatdırdı.*

*Sergey Narışkin dedi ki, «Cənab Prezident, dövlət başçısı seçilməyiniz Rusiya üçün də əlamətdar hadisədir. Rusiyanın strateji tərəfdaşı və mehriban qonşusu olan Azərbaycana məhz Sizin yenidən rəhbərlik etməyiniz bizim üçün də fəxrdir».*

*Prezident İlham Əliyev Rusiya prezidenti Dmitri Medvedevin salamlarına və səmimi təbriklərinə görə minnətdarlığını bildirdi, özünün də salamlarını və ən xoş arzularını Rusiyanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

*Görüşdə ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, qarşılıqlı əlaqələrin bundan sonra daha da möhkəmlənəcəyinə əminlik ifadə olundu.*

## TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ CƏMİL ÇİÇƏK İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 oktyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də Türkiyə Respublikası Baş nazirinin müavini Cəmil Çiçəyi qəbul etmişdir.*

*Cəmil Çiçək prezident seçilməsi münasibətilə dövlət başçısına Türkiyə prezidenti Abdullah Gülün, Baş nazir Rəcəb Tayyib Ərdoğanın, Türkiyə Böyük Millət Məclisinin sədri Köksal Toptanın və ümumən türk xalqının təbriklərini çatdırdı. O belə bir fərəhli gündə – andiçmə mərasimində ölkəsinin təmsilçisi kimi iştirak etməkdən məmnunluğunu söylədi. Baş nazirin müavini Türkiyənin BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsinə Azərbaycanın dəstək verdiyinə görə prezident İlham Əliyevə minnətdarlıq etdi.*

*Cəmil Çiçək Türkiyə prezidenti Abdullah Gülün, Baş nazir Rəcəb Tayyib Ərdoğanın, TBMM-in sədri Köksal Toptanın təbrik məktublarını dövlət başçısına təqdim etdi.*

*Prezident İlham Əliyev Türkiyə prezidenti Abdullah Gülün, Baş nazir Rəcəb Tayyib Ərdoğanın, Türkiyə Böyük Millət Məclisinin sədri Köksal Toptanın təbriklərinə görə minnətdarlığını bildirdi, özünün də ən xoş arzularını onlara və dost, qardaş türk xalqına çatdırmağı xahiş etdi.*

*Dövlət başçısı Türkiyənin BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsini əlamətdar hadisə kimi qiymətləndirdi.*

## POLŞA PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ PYOTR KOVANSKİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 oktyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də Polşa Prezident Administrasiyasının rəhbəri Pyotr Kovanskini qəbul etmişdir.*

*Pyotr Kovanski prezident İlham Əliyevə prezident seçkilərində qələbəsi münasibətilə Polşa prezidenti Lex Kaçinskinin təbrikini və salamlarını çatdırdı.*

*Prezident İlham Əliyev salama və təbrikə görə minnətdarlığını bildirdi, özünün də salamlarının Polşa prezidentinə çatdırılmasını xahiş etdi.*

*Qəbulda Azərbaycan–Polşa münasibətlərinin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrin bundan sonra daha da möhkəmlənəcəyinə və genişlənəcəyinə əminlik bildirildi.*

## NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ ORTA ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ROBERT SİMMONS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 oktyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də NATO Baş katibinin Cənubi Qafqaz və Orta Asiya üzrə xüsusi nümayəndəsi Robert Simmonsu qəbul etmişdir.*

*Andiçmə mərasiminin iştirakçısı olmaqdan məmnunluğunu bildirən Robert Simmons NATO-nun Baş katibi Yaap de Hoop Sxefferin təbrik məktubunu dövlət başçısına təqdim etdi.*

*Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirdi, onun xoş arzularının NATO-nun Baş katibinə çatdırılmasını xahiş etdi.*

*Görüşdə Azərbaycanla NATO arasında əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.*

## *bp* ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU ENDRYU İNQLİS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 oktyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də bp şirkətinin icraçı direktoru Endryu İnqlisi qəbul etmişdir.*

*Dövlət başçısını təbrik edən Endryu İnqlis andiçmə mərasimində iştirak etməsindən məmnun olduğunu söylədi. O, prezident İlham Əliyevin mərasimdə əhatəli çıxış etdiyini xüsusi vurğuladı.*

*Dövlət başçısı təbrikə görə minnətdarlığını bildirdi. Andiçmə mərasimindəki çıxışına toxunan prezident İlham Əliyev ölkəmizdə son 5 ildə təkcə neft-*qaz sektorunda *deyil, hər bir sahədə, o cümlədən təhsil, səhiyyə, infrastrukturun inkişafı, siyasi və digər sahələrdə böyük irəliləyişlərin olduğunu qeyd etdi.*

*Dövlət başçısı Azərbaycanda əldə olunan bütün bu nailiyyətlərin əsasında uğurlu enerji siyasətinin və zəngin enerji resurslarının dayandığını dedi. bp şirkəti ilə ölkəmizin artıq on 5 il əməkdaşlıq etdiyini bildirən prezident İlham Əliyev bu əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyinə əminliyini söylədi.*

## DÖVLƏT BAYRAĞI MEYDANINDA İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*27 oktyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Dövlət bayrağı meydanında inşaat işlərinin gedişi ilə tanış olmuşdur.*

*Bakıda Dövlət bayrağı meydanının yaradılması haqqında prezident İlham Əliyevin 2007-ci il noyabrın 17-də imzaladığı Sərəncama uyğun olaraq, həmin il dekabrın 30-da Bakının Bayıl qəsəbəsində – Hərbi Dəniz Qüvvələrinin bazası yaxınlığında Dövlət bayrağı meydanının təməli qoyulmuşdur.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, Dövlət bayrağı meydanı mütəxəssislər tərəfindən yüksək peşəkarlıqla hazırlanmış xüsusi layihə əsasında yaradılır. Azərbaycanın «Azenko» şirkəti tərəfindən aparılan tikinti işlərinə xarici mütəxəssislər də cəlb edilmişdir. 20 min kvadratmetr ərazisi olacaq meydanda bütün lazımi infrastruktur yaradılacaqdır. Burada ucaldılacaq Dövlət bayrağının dayağının hündürlüyü 162 metr, bayrağın özünün isə ölçüsü 35x70 metr, sahəsi 2450 kvadratmetr, çəkisi 250 kiloqram olacaqdır. Bayrağın ucalacağı dayağın 96 metrlik hissəsində tikinti-quraşdırma işlərinin başa çatdığı bildirildi.*

*Prezident İlham Əliyev inşaat işləri aparılan ərazini gəzdikdən sonra Dövlət bayrağı meydanının layihəsinə baxdı, tikintinin keyfiyyəti və texniki parametrləri ilə maraqlandı, işlərin yüksək standartlara uyğun görülməsi ilə bağlı tapşırıqlarını verdi.*

## RƏSSAMLAR İTTİFAQININ ƏSASLI TƏMİR EDİLMİŞ VƏ YENİDƏN QURULMUŞ BİNASI İLƏ TANIŞLIQ

*28 oktyabr 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 28-də Respublika Rəssamlar İttifaqı binasının əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Memarlıq abidəsi olan bu bina 1926-cı ildə tikilmişdir. Rəssamlar İttifaqı binanın birinci mərtəbəsində yerləşir. Burada həm də Vəcihə Səmədova adına sərgi salonu fəaliyyət göstərir. Ötən müddətdə binada əsaslı təmir və bərpa işləri aparılmamışdı. Prezident İlham Əliyevin tarixi binaların əsaslı təmir və bərpası ilə bağlı imzaladığı sərəncama uyğun olaraq, keçən ilin martında burada ilk dəfə yüksək səviyyədə bərpa və yenidənqurma işləri görülmüşdür.*

*Rəssamlar İttifaqının sədri Fərhad Xəlilov görülən işlər barədə prezident İlham Əliyevə məlumat verdi. Dövlətimizin başçısı sərgi salonunda nümayiş etdirilən rəsm əsərlərinə də baxdı.*

*Prezident təmir və bərpa işlərindən razı qaldığını bildirdi.*

## PAYTAXTDA YENİDƏN QURULMUŞ M.F.AXUNDOV BAĞI İLƏ TANIŞLIQ

*28 oktyabr 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 28-də paytaxtda yenidən qurulmuş Mirzə Fətəli Axundov adına bağla tanış olmuşdur.*

*Bakı şəhərində parkların və xiyabanların əsaslı bərpası ilə əlaqədar dövlət başçısının tapşırıqlarına uyğun olaraq 2008-ci ilin may ayında Axundov adına bağda yenidənqurma işlərinə başlanılmışdı. 1300 kvadratmetr ərazisi olan bağ qısa vaxt ərzində tamamilə yeni görkəm almışdır. Burada müasir işıqlandırma sistemi yaradılmış, 3 mindən artıq gül və dekorativ kollar əkilmişdir. Ətrafda yaşayan sakinlərin istirahəti üçün bağda 20 ədəd yaraşıqlı oturacaq qoyulmuşdur.*

*Prezident İlham Əliyev bağda görülmüş yenidənqurma işlərindən razılığını bildirdi.*

## YAZIÇILAR BİRLİYİNİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ APARILMIŞ BİNASI İLƏ TANIŞLIQ

*28 oktyabr 2008-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 28-də Yazıçılar Birliyinin əsaslı təmir və yenidənqurma işləri aparılmış binası ilə tanış olmuşdur.*

*1915-ci ildə tikilmiş və paytaxtın memarlıq abidələrindən olan bu bina indiyədək heç vaxt əsaslı təmir edilməmişdi. Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq, 2007-ci ilin martından başlayaraq burada əsaslı təmir və yenidənqurma işləri aparılmış, binanın klassik memarlıq üslubu və daxili quruluşu tamamilə qorunub saxlanılmışdır. Gecələr binanın fasadını işıqlandırmaq üçün xüsusi sistem quraşdırılmışdır.*

*Yazıçılar Birliyinin sədri Anar təmir və yenidənqurma işləri barədə prezident İlham Əliyevə məlumat verdi. Dövlətimizin başçısı binanın əvvəlki və indiki vəziyyətini əks etdirən fotostendə, xalqımızın ümummilli lideri Heydər Əliyevin foyedə qoyulmuş büstünə baxdı. Sonra prezident İlham Əliyev Yazıçılar Birliyinin ayrı-ayrı iş otaqları, yaradılan şəraitlə tanış oldu.*

*Ümumi sahəsi 1915 kvadratmetr olan üçmərtəbəli binada 50-dək otaq və geniş iclas salonu vardır. Bir sıra ədəbi nəşrlərin redaksiyaları da burada yerləşir. Dövlətimizin başçısı vaxtilə Xalq şairi Səməd Vurğunun işlədiyi otağa da baxdı.*

**A n a r** (*Yazıçılar Birliyinin sədri*): Cənab Prezident, mən bir daha Sizə səmimi təşəkkür etmək istəyirəm. Bu binanın qədimliyi saxlanılmaqla əsaslı təmir olunması çox böyük işdir. Bu bina elə bil təzədən yarandı. Siz hər şeyi etdiniz ki, işlər vaxtında görülsün. Çox sağ olun. Prezident seçilməyiniz

münasibətilə Sizi təbrik edirik. Güman edirəm ki, qarşıdakı 5 ildə Azərbaycan, o cümlədən mədəniyyətimiz daha da inkişaf edəcəkdir. Biz, yazıçılar həmişə Sizinləyik.

**İlham Əliyev:** Sağ olun. Mən də sizi bu binanın yenidən gözəl vəziyyətə gətirilməsi ilə əlaqədar təbrik edirəm. Tarixi binadır. Həm xarici gözəlliyi var, həm də daxildən çox gözəl tikilibdir. Bu çoxdan Yazıçılar Birliyinin ixtiyarına verilmişdi. Amma indi binaya yeni həyat verilibdir. Bu həm Yazıçılar Birliyinin normal fəaliyyəti üçün lazımdır, həm də bizim tarixi abidələrimizin bərpası baxımından çox böyük əhəmiyyətə malikdir. İndi Bakı şəhərində, demək olar ki, bütün tarixi binalar həm daxildən, həm də xaricdən təmir olunur, onların əvvəlki görkəmi qaytarılır. Elə bu binanın bərpasının da çox böyük mənası var. Həm funksional baxımdan, həm də ki, bizim tarixi dəyərimizdir. Sizə yeni yaradıcılıq uğurları arzulayıram.

*Prezident İlham Əliyev binanın lazımi avadanlıqla təmin edilməsi ilə bağlı müvafiq tapşırıqlarını verdi.*

## ABŞ-ın TİCARƏT NAZİRİNİN MÜAVİNİ CON SALLİVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 oktyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da ABŞ-ın Ticarət nazirinin müavini Con Sallivanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ABŞ–Azərbaycan ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev ABŞ nümayəndə heyətinin Azərbaycana bu səfərinin ölkələrimiz arasında geniş əlaqələrin tərkib hissəsi olan iqtisadi əməkdaşlıq məsələlərini müzakirə etmək baxımından yaxşı imkan yaratdığını qeyd etdi. Prezident İlham Əliyev vaxtın qısa olmasına baxmayaraq, nümayəndə heyətinin səfər proqramının zəngin olmasının əhəmiyyətini xüsusi vurğuladı və səfərin ikitərəfli əlaqələrin daha da genişlənməsinə töhfə verəcəyinə əminliyini söylədi.*

*ABŞ Ticarət nazirinin müavini Con Sallivan ABŞ prezidenti Corc Buşun Azərbaycan prezidentini yenidən dövlət başçısı seçilməsi münasibətilə təbrik etdiyini vurğuladı və ticarət naziri Karlos Qutyerresin və özünün təbriklərini dövlətimizin başçısına çatdırdı. O, Dünya Bankının Azərbaycanda həyata keçirilən iqtisadi islahatlarla bağlı hazırladığı hesabata toxunaraq dedi ki, Cənab Prezident, Sizin həyata keçirdiyiniz proqramlar və siyasət nəticəsində Azərbaycanda sağlam biznes üçün çox yaxşı mühit yaradılmışdır.*

*Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi. Azərbaycanda mövcud olan biznes mühitinin Dünya Bankı kimi*

*aparıcı beynəlxalq maliyyə qurumu tərəfindən yüksək qiymətləndirilməsinin önəmini vurğuladı. Bunu ölkəmizdə həyata keçirilən uğurlu iqtisadi siyasətin nəticəsi kimi dəyərləndirən* prezident *İlham Əliyev bildirdi ki, Azərbaycanda* indi *əsas diqqət iqtisadi islahatların daha da genişlənməsinə və enerji amilindən asılılığın maksimum dərəcədə azaldılmasına yönəldilmişdir.*

## KƏND TƏSƏRRÜFATI İŞÇİLƏRİNƏ

Hörmətli kənd təsərrüfatı işçiləri!

Sizi – Azərbaycanın əməksevər insanlarını Kənd təsərrüfatı işçiləri günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Ölkəmizdə kəndli əməyi bütün dövrlərdə şərəfli hesab edilməklə yanaşı, həm də ən yüksək diqqət və hörmətə layiq görülmüşdür. Kənd təsərrüfatının iqtisadiyyatımızın mühüm tərkib hissəsi kimi, böyük inkişaf yolu keçməsi bu sahədə çalışan işçilərin gərgin və fədakar əməyinin nəticəsidir.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə – keçən əsrin 70-80-ci illərində aqrar sektorun inkişafına, kənd təsərrüfatı işçilərinin əməyinin qiymətləndirilməsinə xüsusi diqqət göstərilirdi. O dövrdə respublika rəhbərliyinin uzaqgörən siyasəti və böyük səyi nəticəsində ölkəmizdə aqrar-sənaye kompleksi sürətlə inkişaf etmişdir.

XX əsrin 90-cı illərinin əvvəllərində ölkəni bürümüş dərin tənəzzül iqtisadiyyatın digər sahələri kimi, kənd təsərrüfatını da əhatə etmişdir. Aqrar-sənaye kompleksi tamamilə dağılmış və böyük inkişaf potensialı olan kənd təsərrüfatı ölkə iqtisadiyyatının zərərlə işləyən sektoruna çevrilmişdir.

Yalnız ümummilli lider Heydər Əliyevin Azərbaycanın siyasi rəhbərliyinə qayıdışından sonra bu sahədə əsaslı dönüş yarandı. Keçən əsrin 90-cı illərinin ortalarında kənd təsərrüfatında köklü dəyişiklikləri nəzərdə tutan torpaq islahatları həyata keçirildi. Bu tədbirlər kənddə yeni iqtisadi münasibətlərin formalaşmasına, kəndlinin əməyə olan marağının artmasına şərait yaratdı.

Hazırda kənd təsərrüfatında özəl bölmənin payı 99,7 faizə çatır. Aqrar sektor keçid dövrünün sınaqlarına və çətinliklərinə baxmayaraq inkişaf edir, ölkənin ərzaq təminatı sahəsində çox

mühüm strateji vəzifəni yerinə yetirir. Aqrar sahədə sahibkarlığın inkişafı kənddə orta təbəqənin formalaşması prosesinə təkan verir.

Ölkəmizdə iqtisadi inkişafın sürətlənməsi və maliyyə resurslarının artması aqrar sektorun dəstəklənməsi istiqamətində daha təsirli tədbirlərin görülməsi üçün əlavə imkanlar yaradır. Son 5 ildə kənd təsərrüfatı üzrə əsas kapitala investisiyaların həcmi 7 dəfə, kredit qoyuluşları isə 8 dəfə artmışdır. Aqrar sahədə güzəştli kreditləşdirmə imkanlarının genişlənməsi, kənd təsərrüfatı istehsalçılarına subsidiyaların verilməsi, onların texnika, gübrə və kimyəvi vasitələrlə təminatının yaxşılaşdırılması öz müsbət nəticələrini göstərməkdədir.

Hazırda regionların, o cümlədən kəndlərin infrastrukturu, enerji təminatı yaxşılaşdırılır, yeni yollar, kommunikasiya xətləri çəkilir, sosial-mədəni obyektlərin tikintisi uğurla davam etdirilir. Görülən işlər kənd ərazilərində təkcə iqtisadi deyil, həm də sosial-ictimai fəallığın artması ilə müşayiət edilir.

Əhalinin ərzaqla etibarlı təminatına dair Dövlət Proqramının qəbulu ilə Azərbaycanda aqrar islahatların yeni mərhələsinə başlayırıq. Bu proqram həm də dövlətin kənd təsərrüfatına, kəndə və kəndliyə münasibətini əks etdirir. Biz aqrar sektorda istehsal həcmini artırmaqla yanaşı, bu sahədə yüksək məhsuldarlığa və səmərəliliyə, qabaqcıl texnologiyaların tətbiqinə, emal müəssisələri şəbəkəsinin genişləndirilməsinə, ən əsası isə, yerli məhsullarımızın rəqabət qabiliyyətinin artırılmasına nail olmalıyıq.

Dövlət kənd təsərrüfatı istehsalçılarının maraqlarına xidmət edən iqtisadi siyasəti bundan sonra da davam etdirəcəkdir. Aqrar sektorun inkişafına mane olan amillər ardıcıl tədbirlər nəticəsində aradan qaldırılacaq, onun maliyyə təminatı və kreditləşdirilməsi mexanizmi təkmilləşdiriləcəkdir. Kənd təsərrüfatı məhsulları istehsalçıları üçün tətbiq edilən vergi güzəştləri müddətinin uzadılması da nəzərdə tutulur.

İnanıram ki, regionların inkişafı, işsizliyin və yoxsulluğun azaldılması, ərzaq təminatı sahəsində reallaşdırılan proqramlar

kənd əməkçilərinin həyatında müsbət dəyişiklikləri daha da dərinləşdirəcəkdir. Biz aqrar sektorun inkişafı istiqamətində bütün imkanlarımızı səfərbər etməklə yanaşı, kənd təsərrüfatı istehsalçılarından da keyfiyyətli məhsul, mütərəqqi təsərrüfatçılıq vərdişləri, yüksək işgüzarlıq və təşəbbüskarlıq gözləyirik.

Kənd təsərrüfatı yalnız iqtisadi fəaliyyət növü deyildir. O həm həyat tərzi, həm də xalqımızın uzun illərdən bəri yaşatdığı təsərrüfatçılıq ənənəsidir. Bu ənənəni yeni nəslə ötürmüş, çoxillik bilik və təcrübələrini onlara öyrətmiş kənd təsərrüfatı işçilərinə, bütün ömrünü torpağa həsr etmiş veteranlarımıza fədakar əməklərinə görə təşəkkürümü bildirirəm.

Əminəm ki, bu peşə bayramını növbəti illərdə daha böyük nailiyyətlərlə qeyd edəcəyik. Sizi bir daha kənd təsərrüfatı işçiləri günü münasibətilə təbrik edir, fəaliyyətinizdə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 oktyabr 2008-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MOSKVAYA SƏFƏRİ

*1 noyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Moskvaya səfərə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev noyabrın 1-də Moskvaya gəlmişdir.*

*Azərbaycan dövlətinin başçısını Vnukovo hava limanında Rusiya hökumətinin yüksək vəzifəli nümayəndələri qarşıladılar.*

## AZƏRBAYCAN VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN MOSKVADA GÖRÜŞÜ

*2 noyabr 2008-ci il*

*Noyabrın 2-də Azərbaycan prezidenti İlham Əliyev Rusiya prezidentinin Moskva yaxınlığındakı «Mayendorf» iqamətgahına gəlmişdir. Dövlətimizin başçısını burada Rusiya prezidenti Dmitri Medvedev səmimiyyətlə qarşılamışdır.*

*Sonra iqamətgahda Azərbaycan prezidenti İlham Əliyevin və Ermənistan prezidenti Serj Sarkisyanın görüşü keçirilmişdir.*

## AZƏRBAYCAN, ERMƏNİSTAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN GÖRÜŞÜ

*2 noyabr 2008-ci il*

*Noyabrın 2-də Azərbaycan və Ermənistan prezidentlərinin görüşü başa çatdıqdan sonra Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin iştirakı ilə danışıqlar üçtərəfli formatda davam etdirilmişdir.*

*Sonra görüşə Azərbaycan, Ermənistan və Rusiyanın Xarici işlər nazirləri qoşulmuşlar.*

## AZƏRBAYCAN, ERMƏNİSTAN VƏ RUSİYA PREZİDENTLƏRİ BƏYANNAMƏ İMZALAMIŞLAR

*2 noyabr 2008-ci il*

*Noyabrın 2-də Rusiya dövləti başçısının «Mayendorf» iqamətgahında üçtərəfli formatda görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyev, Ermənistan prezidenti Serj Sarkisyan və Rusiya prezidenti Dmitri Medvedev Bəyannamə imzalamışlar.*

*Bəyannamənin imzalanmasında ATƏT-in Minsk qrupunun həmsədrləri iştirak etmişlər.*

*Rusiya Federasiyasının Prezidenti kütləvi informasiya vasitələrinin nümayəndələrini Bəyannamənin mətni ilə tanış etmişdir.*

### Səfər başa çatdı

*Noyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Moskvaya işgüzar səfəri başa çatmışdır.*

*Azərbaycan dövlətinin başçısını Vnukovo hava limanında Rusiya Federasiyası Hökumətinin yüksək vəzifəli nümayəndələri səmimiyyətlə yola salmışlar.*

***

*Prezident İlham Əliyev həmin gün axşam Bakıya qayıtmışdır.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının*

*rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşılamışlar.*

## POLŞA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LEX KAÇİNSKİYƏ

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan–Polşa münasibətləri dinamik inkişaf yolundadır. Genişlənən siyasi dialoqumuz, bir çox sahələri əhatə edən səmərəli əməkdaşlığımız xüsusən enerji təhlükəsizliyi məsələlərində intensiv qarşılıqlı işimizlə yeni məzmun kəsb etməkdədir.

Ümidvaram ki, ikitərəfli münasibətlərimizin dərinləşdirilməsi istiqamətində birgə səylərimiz həm də beynəlxalq strukturlar və regional layihələr çərçivəsində tərəfdaşlığımızın möhkəmlənməsinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Polşa xalqına əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 noyabr 2008-ci il*

**MALDİV RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MƏHƏMMƏD NAŞİDƏ**

Hörmətli cənab Prezident!

Maldiv Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Maldiv arasındakı münasibətlər xalqlarımızın iradə və məramına uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında öz inkişafını davam etdirəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Maldiv xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 noyabr 2008-ci il*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

Hörmətli cənab Barak Obama!

Amerika Birləşmiş Ştatlarının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Seçkilərdə qazandığınız qələbə dost Amerika xalqının şəxsən Sizə, tutduğunuz siyasi xəttə böyük inam və etimadının aşkar sübutudur.

Biz Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında münasibətlərə xüsusi əhəmiyyət veririk. Bu münasibətlər böyük təkamül yolu keçmiş, dostluq və əməkdaşlığımız hazırkı strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

Bu gün bir çox sahələrdə, xüsusən də enerji təhlükəsizliyi məsələlərində ölkələrimizin sıx əməkdaşlığı, həyata keçirdiyimiz irimiqyaslı transmilli layihələrdə ABŞ-ın yaxından iştirakı və hərtərəfli dəstəyi müvəffəqiyyətimizin əsas amillərindən biridir.

Biz xalqımızın ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün ATƏT-in Minsk qrupunun həmsədri olan Amerika Birləşmiş Ştatlarının səylərini alqışlayır, münaqişənin beynəlxalq hüquq normaları və prinsipləri əsasında tezliklə öz həllini tapacağına, Ermənistanın təcavüzünə son qoyulacağına və işğal edilmiş torpaqlarımızın azad ediləcəyinə böyük ümidlər bəsləyirik.

Əminəm ki, ölkələrimiz arasındakı dostluq münasibətləri bundan sonra da uğurla inkişaf edəcəkdir.

Bir daha Sizə təbriklərimi yetirir, möhkəm cansağlığı, səadət, dost Amerika xalqının rifahı naminə fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 noyabr 2008-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ RƏSMİ SƏFƏRİ

*5 noyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün dəvəti ilə noyabrın 5-də bu ölkəyə rəsmi səfərə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev noyabrın 5-də Ankaraya gəlmişdir.*

*Azərbaycan Respublikasının və Türkiyə Respublikasının dövlət bayraqları ilə bəzədilmiş Esenboğa hava limanında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Türkiyənin Energetika və Təbii Ehtiyatlar naziri Hilmi Gülər, Ankara valisi Kamal Önal və digər rəsmi şəxslər böyük hörmətlə qarşıladılar.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi.*

*Qardaş ölkədə yaşayan soydaşlarımız prezident İlham Əliyevi hərarətlə salamladılar və xanımı Mehriban Əliyevaya gül dəstəsi təqdim etdilər.*

## ANITQƏBİRİ ZİYARƏT

*5 noyabr 2008-ci il*

*Noyabrın 5-də Azərbaycan prezidenti İlham Əliyev Esenboğa hava limanından birbaşa Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəyə – Anıtqəbirə gəlmişdir.*

*Dövlətimizin başçısı böyük Atatürkün məzarını ehtiramla ziyarət etdi.*

*Prezident İlham Əliyevin adından məzarın önünə əklil qoyuldu, türk dünyasının böyük oğlunun əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.*

*Dövlətimizin başçısı Xatirə kitabına ürək sözlərini yazdı:* «Türkiyə Cümhuriyyətinin qurucusu böyük öndər Mustafa Kamal Atatürkün məzarı önündə baş əyirəm.

Böyük Atatürkün xatirəsinə Azərbaycan xalqının dərin hörmətini bildirirəm. Mustafa Kamal Atatürkün əziz xatirəsi Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır».

## ÇANKAYA KÖŞKÜNDƏ RƏSMİ QARŞILANMA MƏRASİMİ

*5 noyabr 2008-ci il*

*Noyabrın 5-də Türkiyə Respublikası Prezidentinin iqamətgahında – Çankaya köşkündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Türkiyənin və Azərbaycanın dövlət bayraqları ilə bəzədilmiş iqamətgahın qarşısında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Türkiyə Respublikasının Prezidenti Abdullah Gül Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi böyük hörmət və ehtiramla qarşıladı.*

*Azərbaycan prezidentinin şərəfinə toplardan yaylım atəşi açıldı.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndi.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Prezident İlham Əliyev türk əsgərlərini salamladı.*

*Türkiyə Respublikasının rəsmi şəxsləri prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri prezident Abdullah Gülə təqdim edildi.*

*Sonra Azərbaycan və Türkiyə prezidentləri xanımları Mehriban Əliyeva və Hayrünnisə Gül ilə birgə xatirə şəkli çəkdirdilər, Çankaya köşkündən ətrafı seyr etdilər.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN TƏKBƏTƏK GÖRÜŞÜ

*Çankaya köşkü*

*5 noyabr 2008-ci il*

*Noyabrın 5-də Türkiyə Respublikası Prezidentinin iqamətgahında – Çankaya köşkündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün təkbətək görüşü olmuşdur.*

*Görüşdə dost və qardaş ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə daim genişlənməsindən məmnunluq ifadə olundu, Azərbaycan prezidentinin növbəti seçkilərdəki qələbəsindən sonra ilk rəsmi səfərini Türkiyəyə etməsi ikitərəfli əlaqələrin yüksək səviyyədə olmasının yaxşı nümunəsi kimi qiymətləndirildi.*

*Söhbət zamanı ikitərəfli münasibətlərin siyasi, iqtisadi və bütün sahələrdə daha da inkişaf edəcəyinə əminlik ifadə olundu. Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin həm iki ölkə, həm xalqlarımız üçün, həm də regionda sülhün və sabitliyin təmin olunması baxımından böyük önəm daşıdığı vurğulandı.*

## AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Çankaya köşkü*

*5 noyabr 2008-ci il*

*Noyabrın 5-də Çankaya köşkündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün təkbətək görüşündən sonra dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.*

## AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN BƏYANATLARLA ÇIXIŞLARI

*Noyabrın 5-də Çankaya köşkündə geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Abdullah Gül mətbuat nümayəndələri qarşısında bəyanatlarla çıxış etmişlər.*

### Türkiyə prezidenti Abdullah Gülün bəyanatı

Dəyərli mətbuat nümayəndələri!

Bugünkü qonağımız dəyərli dostumuz, qardaşımız, Azərbaycanın cümhurbaşqanı hörmətli İlham Əliyevdir. Ona və nümayəndə heyətindəki çox dəyərli nazirlərə, digər üzvlərə – hamısına bir daha «Xoş gəlmisiniz!» deyirəm. Bildiyiniz kimi, Azərbaycanda prezident seçkiləri keçirildi. Bu seçkilərdən sonra hörmətli Əliyev ilk rəsmi səfərini Türkiyəyə etdi. Buna görə bütün türk xalqı böyük qürur duyur və ona çox təşəkkür edirəm. Keçirilmiş seçkilərə görə də onu təbrik edirəm. Doğrudan da bu seçkilər bütün bölgəyə örnək olacaq şəkildə keçirilmişdir. Seçkiləri müşahidə edənlərin hamısının bu məsələlərlə bağlı rəyləri və açıqlamaları Azərbaycanın dostları və qardaşları kimi, bizi də məmnun etmişdir.

Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr hər hansı digər iki ölkənin əlaqələrindən çox üstün səviyyədədir. Biz daim bir millət düşüncəsi ilə hərəkət etmişik. Bu baxımdan hər zaman yüksək səviyyəli səfərlərimiz və əlaqələrimiz olmuşdur. Bu səfər də xüsusi bir məna daşımaqdadır. Həm hörmətli prezident İlham Əliyevin ikinci dəfə seçilməsindən sonra ilk rəsmi səfər etməsi, həm də yeni mərhələdə Qafqazda çox önəmli bir dövr

yaşamağımız bizə onunla bu bölgənin məsələlərini, problemlərini geniş şəkildə müzakirə etmək imkanı vermişdir. Bunun da hər iki ölkə üçün çox böyük faydası və xeyiri vardır.

Bildiyiniz kimi, biz son dövrlərdə Qafqazda önəmli hadisələrin şahidi olduq. Bununla əlaqədar bir çox görüşlər, səfərlər oldu. Hörmətli Baş nazirimizin və mənim səfərlərim oldu. Mənim Ermənistana etdiyim səfərdən sonra, sentyabrın 10-da Bakıya səfərim zamanı bölgənin məsələlərini geniş şəkildə müzakirə etmişdik. İndi də hər şeyi təkrar yenidən nəzərdən keçirmək fürsətimiz oldu. Bununla yanaşı, onu da ifadə etmək istəyirəm ki, biz birlikdə Qafqazın problemləri ilə cəsarətlə məşğul olmağa başladıq və Qafqazın bütün liderləri bu problemləri həll etmək əzmlərini nümayiş etdirirlər. Bunun çox yaxşı irəliləyiş olduğu qənaətindəyik.

Bir-birinə çox bənzəyən mədəniyyətləri olan bu bölgənin xalqlarının sülh, əmin-amanlıq və sabitlik içərisində yaşaması və əməkdaşlığı genişləndirməsi hamımızın xeyrinədir. Bununla bağlı Türkiyə Qafqazda Sabitlik və Əməkdaşlıq Platformasını ortaya qoymuşdur. Bunu başda Azərbaycan olmaqla, Qafqazdakı bütün ölkələr dəstəkləmişdir. İnanırıq ki, görüşlər, dialoq və qarşılıqlı anlaşma şəraitində yaradılacaq mühit Qafqazdakı problemlərin həllinə yol açacaqdır. Şübhəsiz ki, bu çərçivədə başda Dağlıq Qarabağ münaqişəsi durur. Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı da yeni bir mərhələnin başlandığını deyə bilərəm. Hörmətli Əliyevin və Sarkisyanın bir neçə gün əvvəl Moskvada görüşü də səmərəli keçmişdir. Türkiyə bu görüşləri dəstəklədi və bunun davamının olacağına inanırıq. Bu istiqamətdə hər kəsin əlindən gələn köməyi göstərməsini arzu edirik.

Təbii ki, siyasi, enerji sahələri ilə bağlı məsələləri də geniş şəkildə müzakirə etdik. Türkiyə və Azərbaycanın çox qürur duyduğu böyük layihələr – Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft-qaz və Bakı–Tbilisi–Qars dəmir yolu layihələri ilə bağlı məsələləri bir daha nəzərdən keçirdik. Bildiyiniz kimi, neft və təbii qaz boru xətləri uğurla fəaliyyət göstərir. Diq-

qətimizi dəmir yolunun çəkilişinin başa çatdırılmasına yönəltmişik. Şübhəsiz ki, bu böyük layihələrdə Gürcüstanın çox böyük payı vardır. Ümumiyyətlə, bu hamımızın xeyrinədir. Bu böyük layihələr sülhün, sabitliyin təminatı üçün bölgədəki bütün ölkələrə açıqdır. Bunu hamımız dəfələrlə demişik.

İki ölkə arasındakı ikitərəfli əlaqələr yüksək səviyyədə, ən yaxşı şəkildə davam etməkdədir. İqtisadi-ticarət əlaqələrimiz yaxşıdır. Ticarət dövriyyəsinin həcmi getdikcə artmaqdadır. Sərmayələr qarşılıqlı şəkildə artır. Azərbaycanın Türkiyəyə qoyduğu sərmayələr diqqəti çox çəkməkdədir və Türkiyənin neft sənayesinə qoyulan sərmayələr hər kəs tərəfindən dəstəklənməkdədir. Türkiyə iş adamlarının Azərbaycandakı sərmayələrinin həcmi daim artır. Onlara göstərilən etimada görə hörmətli Prezidentə və dostlarımıza bir daha təşəkkür edirəm. Bu əməkdaşlığımız, şübhəsiz ki, davam edəcəkdir. Biz bu məsələlərə ən yüksək səviyyədə böyük etimad göstəririk.

Hörmətli Prezidentin bu səfərinin önəmli olduğunu, bütün əlaqələrimizi bir daha nəzərdən keçirərkən hər şeyin ən yaxşı şəkildə davam etdiyini görməkdən duyduğum məmnunluğu ifadə edirəm. Bir daha «Xoş gəlmisiniz!» deyirəm.

Biz təkbətək görüşümüzdə apardığımız söhbətlərdə ABŞ-da keçirilmiş prezident seçkiləri barədə də danışdıq. Amerikada seçkilərin rəsmi nəticələri hələ elan edilməmiş olsa da, biz Barak Obamanın ABŞ-a prezident seçilməsini, təbii ki, müsbət şəkildə, diqqətlə izlədik. Bunun həm Amerika xalqı üçün, həm də dünyada sülh və sabitlik, təhlükəsizlik üçün xeyir gətirməsini arzu edirik. Ümid edirəm ki, bütün dünyada yeni bir mərhələ başlayacaqdır.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident, əziz qardaşım!
Hörmətli mətbuat nümayəndələri!

Cənab Prezident, ilk növbədə, məni rəsmi səfərə dəvət etdiyinizə görə Sizə və bütün türk xalqına öz minnətdarlığımı bildirmək istəyirəm. Mən Türkiyədə yenidən olmağımdan çox məmnunam və Siz qeyd etdiyiniz kimi, prezident seçkilərindən sonra bu mənim ilk rəsmi səfərimdir və təbiidir ki, bu səfər Türkiyəyədir. Bu bizim aramızda olan münasibətləri, münasibətlərimizin nə qədər yüksək səviyyədə olmasını göstərir.

Türkiyə–Azərbaycan ikitərəfli münasibətləri Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra yaranmışdır. Ancaq ondan əvvəl bizim xalqlarımız əsrlər boyu bir yerdə yaşamışlar, yaratmışlar, bir-birinə dəstək olmuşlar. Bu gün isə Türkiyə–Azərbaycan münasibətləri çox sürətlə inkişaf edir və mənim səfərim, onun uğurlu nəticələri deməyə əsas verir ki, biz gələcək illərdə də bu gözəl dinamikanı saxlayacaq, bütün sahələrdə əlaqələrimizi daha da gücləndirəcəyik.

Bizim əlaqələrimiz çoxşaxəlidir, bütün sahələri əhatə edir. Həm siyasi, həm iqtisadi, mədəni, həm də enerji, ticarət, nəqliyyat sahələrində – bütün sahələrdə biz bu əməkdaşlıqdan çox məmnunuq və bütün istiqamətlərdə yaxşı nəticələr var. Bu gün müzakirə etdiyimiz məsələlər həm ikitərəfli münasibətlərin gələcək perspektivlərinə təkan verəcək, həm də bölgədə gedən vəziyyətə öz müsbət təsirini göstərəcəkdir. Sirr deyil ki, bu gün Türkiyə–Azərbaycan əlaqələri regionda gedən proseslərə çox ciddi və müsbət təsir göstərir.

Bizim birgə təşəbbüslərimiz – istər siyasi, istər iqtisadi, istərsə də enerji sahəsində göstərilən təşəbbüslər bölgədə sülhün möhkəmlənməsinə, əməkdaşlığın dərinləşməsinə və sabitliyin tam bərqərar olunmasına xidmət göstərir. Türkiyə tərəfindən bu yaxınlarda irəli sürülmüş Qafqazda Sabitlik və Əməkdaşlıq Platformasının da əsas mahiyyəti ondan ibarətdir ki, bu bölgədə yaşayan bütün ölkələr bir-biri ilə normal münasibətlər qura bilsinlər, narahatlıq yaradan məsələlər həll olunsun, qarşıdurmaya son qoyulsun və bölgədə sülh təmin edilsin. Əlbəttə ki, bunu etmək üçün bölgədə, ilk növbədə Ermənistan–

Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapmalıdır. Bu məsələnin ədalətli həll edilməsi üçün göstərdiyi səylərə görə biz Türkiyəyə daim minnətdarıq, Türkiyənin bu işlərdə fəal olmasını alqışlayırıq. Qafqazda gedən proseslərdə Türkiyənin fəal olmaq təşəbbüslərinə biz çox böyük ümidlərlə baxırıq. Hesab edirik ki, bunun çox gözəl nəticələri ola bilər və ilkin xoş məqamların əlamətlərini görürük. Mən hesab edirəm ki, bu məsələnin həlli üçün səylər davam etdirilməlidir. Hesab edirəm ki, bu yaxınlarda Moskvada imzalanmış Birgə Bəyannamə mümkün olan sülh razılaşması üçün yaxşı əsasdır. Bəyannamənin əsas mahiyyəti ondan ibarətdir ki, orada beynəlxalq hüquq normaları öz yerini tapır və beynəlxalq hüquq normaları çərçivəsində qəbul edilmiş qərarlar, qətnamələr dəstəklənir. Məsələnin mərhələli yollarla həll olunmasına diqqət göstərilir və hesab edirəm ki, bu, məsələnin həlli üçün çox yaxşı əsas ola bilər.

Azərbaycanın dünya birliyi, tərəfindən tanınan ərazi bütövlüyü bərpa olunmalıdır və işğal altına düşmüş torpaqlar işğalçılardan boşaldılmalıdır. Bir milyondan artıq azərbaycanlı öz doğma torpaqlarına qayıtmalıdır. Ümid edirəm ki, bölgədə yaranan yeni vəziyyət və Türkiyənin bu işlərə ciddi müdaxiləsi, Rusiyanın vasitəçilik missiyasına yeni təkan verməsi, Minsk qrupunun digər həmsədrləri Amerika və Fransanın fəallığı – bütün birgə səylər məsələnin həllinə gətirib çıxaracaqdır.

Ancaq bununla bərabər, bölgə inkişaf edir, Azərbaycan inkişaf edir və Türkiyə–Azərbaycan münasibətləri çox konkret layihələrlə zənginləşdirilir. Enerji layihələri, nəqliyyat layihələri – bunlar bizim təşəbbüsümüzlə baş tutubdur. Bütün bunları etmək üçün çox böyük səylər göstərilibdir. Çox mürəkkəb geosiyasi vəziyyətdə biz bunu bacardıq. Bu onu göstərir ki, biz qarşıya qoyduğumuz bütün məsələləri birgə səylərlə, birgə iradə ilə, Türkiyə–Azərbaycan qardaşlığı əsasında həll edirik. Bu layihələr gələcəkdə həm yeni imkanlar açacaq, həm iqtisadi mənfəət gətirəcək və artıq gətirir və bölgədə əməkdaşlığın

dərinləşməsinə təkan verəcəkdir. Bu məsələlərlə bağlı bizim aramızda fikir ayrılığı yoxdur.

Bu gün beynəlxalq məsələlər də geniş müzakirə olundu və mən də hörmətli prezident Abdullah Gülün Barak Obamaya göndərdiyi təbriklərinə qoşuluram. Ümid edirəm ki, Amerika–Azərbaycan münasibətləri bundan sonra da sürətlə inkişaf edəcək və mən yeni seçilmiş prezidentə uğurlar diləyirəm.

Göstərilən qonaqpərvərliyə və xoş, səmimi münasibətə görə həm əziz qardaşım, cənab Prezident, Sizə, həm də bütün türk yoldaşlarımıza bir daha öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bundan sonra da iki qardaş ölkə əl-ələ verib uğurla irəliyə gedəcəkdir.

Təşəkkür edirəm.

## DÜNYA ŞÖHRƏTLİ ALİM-HƏKİM İHSAN DOĞRAMACI İLƏ GÖRÜŞ

*5 noyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Türkiyəyə rəsmi səfəri çərçivəsində Hacəttəpə Universitetinin xəstəxanasında dünya şöhrətli alim-həkim, Azərbaycanın böyük dostu, professor İhsan Doğramacıya baş çəkmişdir.*

## AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*Çankaya köşkü*

*5 noyabr 2008-ci il*

*Noyabrın 5-də Ankarada Türkiyə Respublikası Prezidentinin iqamətgahında – Çankaya köşkündə Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Dövlət başçıları ziyafətdə nitq söylədilər.*

### Türkiyə prezidenti Abdullah Gülün nitqi

Hörmətli Prezident!

Dəyərli dostum!

Hörmətli xanım əfəndi!

Xanımlar və bəylər!

İlk növbədə, hamınıza «Xoş gəlmisiniz!» deyirəm.

Dəyərli dostumuz hörmətli İlham Əliyev yenidən prezident seçildikdən sonra ilk rəsmi səfərini Türkiyəyə edir. Bununla bağlı böyük xoşbəxtlik, böyük qürur hissi keçiririk. Göstərdiyi bu yaxın münasibətə görə bir daha ona təşəkkürümü bildirirəm. Həm zati-alilərinə, həm xanımına, həm də bütün azərbaycanlı dostlarımıza bir daha «Xoş gəlmisiniz!» deyirəm.

Hörmətli Prezidentimiz ikinci dəfə bu vəzifəyə seçilmişdir. Bunu biz də böyük bir sevinclə izlədik. Bu münasibətlə zati-alilərini bir daha təbrik edirəm, həm Azərbaycan, həm bütün türk dünyası, həm də bölgəmiz və dünya üçün xeyirli olmasını diləyirəm, ona uğurlar arzu edirəm.

Azərbaycan müstəqil olduqdan sonra sabit və diqqətli siyasəti ilə bütün dünyada böyük hörmət qazanmışdır. Burada hörmətli Heydər Əliyevi rəhmətlə anırıq. O, Azərbaycanın gələcəyini ən mükəmməl şəkildə müəyyən etdiyi kimi, Türkiyə və Azərbaycan arasındakı əlaqələri də ən dəqiq ifadə etmiş, biz «bir millət, iki dövlətik» demişdir. Bu anlayış və təfəkkür çərçivəsində Azərbaycan və Türkiyə yollarına davam etməkdədir. Hörmətli İlham Əliyev də Azərbaycanı eyni şəkildə bu istiqamətdə irəli aparmışdır. Bu gün Azərbaycan daha da çiçəklənmiş, daha qüdrətli, Silahlı Qüvvələri, iqtisadiyyatı, demokratiyası daha güclü bir dövlətdir. Biz bütün bunlarla fəxr edirik.

Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr bir millət olmaq anlayışı çərçivəsində həm siyasi, həm iqtisadi, həm də mədəni sahələrdə ən mükəmməl şəkildə davam etməkdədir. Siyasi məsləhətləşmələrimiz ən yüksək səviyyədə həyata keçirilir. Ən yüksək səviyyədə səfərlər edilir. Hörmətli prezidentlərimiz, baş nazirlərimiz, nazirlərimiz, yeri gəldikdə, protokoldan xaric görüşlər keçirərək, qəlbdən-qəlbə necə bağlı olduğumuzu da nümayiş etdirirlər.

Xüsusilə bu günlərdə, Qafqazdakı son hadisələrdən sonra Türkiyə və Azərbaycan bölgədə yeni bir mövqe nümayiş etdirməkdə, sabitliyin və sülhün bərqərar olması üçün böyük səy göstərməkdədir. Türkiyənin Qafqazda Sabitlik və Əməkdaşlıq Platforması təşəbbüsünə ən güclü və ilk dəstəyi Azərbaycan vermişdir. Hörmətli Prezident və dəyərli dostumuz bugünkü mətbuat konfransında bunu bir daha təsdiq etmişdir. Şübhəsiz ki, Qafqazda sülh, sabitlik və əmin-amanlığın olması üçün Dağlıq Qarabağ probleminin sülh yolu ilə, ədalətli və hüquqi zəmin əsasında, Birləşmiş Millətlər Təşkilatının prinsipləri çərçivəsində həll olunması lazımdır. Son vaxtlar Qafqazda meydana gələn müsbət atmosfer, qarşılıqlı görüşlər yeni bir ab-havanın yaranmasının da əlamətidir. Ümidvarıq və inanırıq ki, bu gözəl ab-havada bütün problemlər sülh yolu ilə

həll olunacaq və bütün ölkələr bir-biri ilə daha sıx əməkdaşlıq edəcəklər.

Biz Azərbaycanla iqtisadi sahədə də çox böyük layihələri həyata keçirmişik. Bəzilərinin vaxtilə «bu əfsanədir, həyata keçməz» dedikləri Bakı–Tbilisi–Ceyhan neft boru kəməri bir ildən çoxdur böyük uğurla fəaliyyət göstərməkdə, Qafqazın və Orta Asiyanın nefti bu kəmər vasitəsilə bütün dünyaya nəql olunmaqdadır. Bakı–Tbilisi–Ərzurum qaz boru xətti də uğurla fəaliyyət göstərir. Hamımızın birlikdə təməlini qoyduğumuz Bakı–Tbilisi–Qars dəmir yolunun da ən qısa müddətdə tamamlanacağına və beləliklə, nəqliyyatın daha asanlaşacağına ümid edirik. Bu istiqamətdə Azərbaycan, Türkiyə və Gürcüstan çox böyük iş görür. Azərbaycanın Türkiyəyə sərmayə qoymasını böyük bir təqdirlə qarşılayırıq. Xüsusilə özəlləşdirmə proqramlarına göstərdiyi maraq Türkiyə tərəfindən də dəstəklənməkdədir. Türk iş adamlarının, inşaatçıların Azərbaycandakı fəaliyyətlərinə göstərilən dəstəyə görə, yaratdığınız şərait və etimad üçün təşəkkürümü bildirirəm.

Ticarətimizin getdikcə artdığını görməkdən də böyük bir məmnunluq duyuruq.

Mədəniyyət sahəsindəki əlaqələrimiz çox təbiidir. Azərbaycan türkdilli dövlətlərin zirvə toplantılarına ən çox önəm verən və maraq göstərən ölkədir. Türkdilli dövlətlərin qarşıdakı zirvə toplantısını Azərbaycanda keçirəcəyik. Parlamentlərin sədrləri isə yaxın vaxtlarda Türkiyədə toplaşacaqlar. Azərbaycan bu istiqamətdəki fəaliyyətlərə çox böyük dəstək verir. Bundan böyük məmnunluq duyuruq və Sizə minnətdarıq.

Mən bu səfərin mühüm bir zamanda həyata keçirildiyini vurğulamaq istəyirəm. Qafqazda baş vermiş bütün hadisələrdən sonra bu gün təkrar çox mühüm bir məsləhətləşmə apardıq, bütün məsələləri müzakirə etdik. Bir daha gördük ki, bütün məsələlərdə Azərbaycan və Türkiyə ortaq bir mövqeyə malikdir və böyük bir həmrəylik nümayiş etdirir.

Bu səfəriniz dostluğumuzu və qardaşlığımızı daha da möhkəmləndirmiş, gücləndirmişdir. Sizə bir daha «Xoş gəl-

misiniz!» deyirəm. Bütün azərbaycanlı qardaşlarımıza türk qardaşlarının məhəbbətlərini, sevgi və salamlarını çatdırıram.

Badəmi Sizin uğurunuz şərəfinə qaldırıram.

**Azərbaycan prezidenti İlham Əliyevin nitqi**

Hörmətli cənab Prezident!

Hörmətli Hayrünnisə xanım!

Hörmətli cənab Baş nazir!

Əziz dostlar!

İlk növbədə, əziz dostum, prezident Abdullah Gülə məni Türkiyəyə dəvət etdiyinə görə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Təsadüfi deyil ki, prezident seçkilərindən sonra mənim ilk rəsmi səfərim məhz Türkiyəyədir. Bu təbiidir, iki ölkə arasında mövcud olan dostluq, qardaşlıq münasibətlərinin təzahürüdür. Bu çox önəmlidir. Türkiyə–Azərbaycan əlaqələri həm ölkələrimiz, xalqlarımız üçün, həm də bütün bölgə üçün çox böyük əhəmiyyət daşıyır.

Əziz dostum cənab Prezident öz nitqində ikitərəfli münasibətlərin, demək olar ki, bütün sahələrini əhatə etdi. Bu doğrudan da hərtərəfli münasibətlərdir, bütün sahələri əhatə edir, elə bir sahə yoxdur ki, orada Türkiyə–Azərbaycan münasibətləri inkişaf etməsin. Çox böyük məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, biz bütün sahələrdə uğurları görürük. Praktik əməkdaşlığın gözəl nəticələrini görürük. Bizim birgə təşəbbüslərimiz – istər siyasi sahədə, istər iqtisadi, istərsə də enerji, nəqliyyat sahələrində irəli sürülmüş təşəbbüslər həm ölkələrimizi gücləndirir, həm iki ölkə arasında olan münasibətləri yeni pilləyə qaldırır, həm də yaşadığımız bölgədə əməkdaşlığın, sabitliyin möhkəmlənməsinə gətirib çıxarır. Bu gün tam qətiyyətlə deyə bilərəm ki, Türkiyə və Azərbaycanın birgə fəaliyyəti bölgədə sabitləşdirici amilə çevrilibdir. Bizim iştirakımız olmadan, razılığımız olmadan bölgədə heç bir layihə – istər siyasi, istər iqtisadi və başqa layihələr icra oluna bilməz.

Məhz bizim təşəbbüsümüzlə bölgə üçün və dünya üçün böyük əhəmiyyət daşıyan enerji, nəqliyyat layihələri çox uğurla gerçəkləşir. Bu uğurun təməlində iki ölkə arasında olan münasibətlər dayanır, iki xalqın iradəsi, bir-birimizə olan dostluq-qardaşlıq duyğuları dayanır. Ən əsası bundan ibarətdir. Türk və Azərbaycan xalqları əsrlər boyu bir yerdə yaşamışlar. Biz bir millət – iki dövlətik. Ancaq bu gün biz iki müstəqil dövlətik. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra, ilk növbədə bizi Türkiyə dəstəkləmişdir. Ən çətin anlarımızda Türkiyə daim bizim yanımızda olubdur. Bu gün də belədir. Ancaq bu gün Azərbaycan da güclənibdir. Azərbaycan da ikitərəfli münasibətlərə öz töhfəsini verir və bir-birimizi dəstəkləməyimiz, əlbəttə ki, bizi gücləndirir. Bunu biz bölgədə gedən proseslərdə görürük, geniş mənada beynəlxalq müstəvidə görürük.

Bu fürsətdən istifadə edib, bütün türk xalqını bu yaxınlarda Türkiyənin Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bu, böyük qələbədir, böyük uğurdur. Böyük səsçoxluğu ilə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmək böyük nailiyyətdir. Bu, Türkiyənin artan imkanlarını, təsir imkanlarını göstərir. Bu, Türkiyəni gücləndirir və Azərbaycanı gücləndirir.

Qarşımızda duran məsələlər uğurla həll olunur və biz bölgədə, Cənubi Qafqazda sülhün bərqərar olunmasında Türkiyənin rolunu alqışlayırıq, bunu bəyənirik, dəstəkləyirik. Türkiyənin Cənubi Qafqaz bölgəsində gedən proseslərdə fəal iştirakını biz böyük sevinclə qarşılayırıq və görəndə ki, bu təşəbbüslər artıq bölgədə vəziyyətin müsbət istiqamətdə dəyişməsinə gətirib çıxarır, sevincimiz daha da artır. Türkiyə tərəfindən irəli sürülmüş Qafqazda Sabitlik və Əməkdaşlıq Platformasının ilkin əlamətlərini biz görürük. Ümid edirik ki, bu təşəbbüs və bölgədə yaşanan digər hadisələr, digər təşəbbüslər Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə gətirib çıxara bilər. Bu münaqişə

yalnız beynəlxalq hüquq normaları əsasında həll oluna bilər. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır və işğaldan əziyyət çəkən Azərbaycan vətəndaşları öz doğma torpaqlarına qayıtmalıdırlar. Bu məsələnin həlli yolları ilə bağlı fikir artıq dünyada daha da aydın görünür. Daha da aydın görünür ki, beynəlxalq hüquq normaları əsas şərtdir. Çox sevindirici haldır ki, nəhayət, Ermənistan tərəfi də bunu qəbul etməyə başlamışdır. Bunun əyani sübutu bu yaxınlarda Moskvada Rusiya, Ermənistan və Azərbaycan prezidentlərinin imzaladığı Birgə Bəyannamədir.

Bir sözlə, bölgədə sülhün, sabitliyin tam bərqərar olunması bizim qarşımızda yeni imkanlar, yeni üfüqlər açacaqdır. Əgər Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz həllini taparsa, yeni imkanlar açılacaqdır. Bölgədə əməkdaşlıq, bölgədə yaşayan xalqların bir-biri ilə əlaqələrinin qurulması, ölkələrarası münasibətlər – bütün bunlar öz həllini tapa bilər. Bizim niyyətimiz xoş niyyətdir. Bir daha demək istəyirəm ki, son illər ərzində bölgədə irəli sürülmüş Türkiyə–Azərbaycan təşəbbüsləri yalnız əməkdaşlığa yönəldilibdir. Ümid edirəm ki, növbəti illərdə biz bu təşəbbüslərin daha da böyük nəticələrini görəcəyik.

Mən bu gün çox şadam ki, yenidən qardaş Türkiyədəyəm, yenidən öz dostlarımın arasındayam. Bizim şəxsi münasibətlərimiz də çox səmimidir, çox gözəldir. Həm əziz dostum Prezidentlə, həm əziz dostum Baş nazirlə çoxsaylı görüşlərimiz – həm Bakıda, həm Ankarada, İstanbulda, digər şəhərlərdə – bizim aramızda olan münasibətləri daha da gücləndirir, eyni zamanda, iki ölkə arasındakı, sözün əsl mənasında, qardaşlıq əlaqələrini gücləndirir. Bu çox sevindirici haldır. Mən tam əminliklə deyə bilərəm ki, bəlkə də dünyada Türkiyə–Azərbaycan münasibətləri qədər ikinci belə səmimi və yaxın münasibətlər yoxdur. Bu, böyük bir dəyərdir, böyük bir nemətdir. Təbii ki, bu münasibətlər dərin tarixi əsaslar üzərində qurulubdur. Ancaq bununla bərabər, bizim birgə siyasətimiz, bir-birimizə olan münasibət, bir-birimizə göstərilən dəstək, əlbəttə ki, bu münasibətləri daha da gücləndirir.

Mən bütün türk xalqına yeni uğurlar, yeni qələbələr, xoşbəxtlik və rifah arzulayıram!

## TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*6 noyabr 2008-ci il*

*Noyabrın 6-da Ankarada – Baş nazirin iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın görüşü olmuşdur.*

*Görüşdə seçkilərdən sonra prezident İlham Əliyevin ilk rəsmi səfərini Türkiyəyə etməsinin əhəmiyyəti vurğulandı, bu səfərin ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə xidmət etdiyi bildirildi.*

*Söhbət zamanı ikitərəfli əlaqələrin bölgədə işbirliyinin güclənməsi baxımından önəmi də vurğulandı və qarşılıqlı əməkdaşlığın bundan sonra da bütün sahələrdə genişlənəcəyinə əminlik ifadə olundu.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNDƏ

*6 noyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyəyə rəsmi səfərinin ikinci günü – noyabrın 6-da Türkiyə Böyük Millət Məclisinə – (TBMM) gəlmişdir.*

*Dövlətimizin başçısını TBMM Sədrinin müavini Nevzat Pakdil və Türkiyənin Energetika və Təbii Sərvətlər naziri Hilmi Gülər parlamentin binası önündə böyük hörmət və ehtiramla qarşıladılar.*

*Prezident İlham Əliyev parlamentin iclas salonuna gəldi.*

*TBMM Sədrinin müavini xanım Güldal Mumcu Azərbaycan prezidentini millət vəkilləri adından salamladı.*

*Dövlətimizin başçısı parlamentdə nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli millət vəkilləri!

Hörmətli Baş nazir, əziz dostlar!

Mən çox şadam ki, yenidən qardaş ölkədəyəm. Bildiyiniz kimi, Azərbaycanda ötən ay keçirilmiş prezident seçkilərindən sonra mən ilk rəsmi səfərimi Türkiyəyə edirəm. Bu, əlbəttə ki, təbii haldır. Ancaq bununla bərabər, bu, bizim münasibətlərimizin nə qədər yüksək səviyyədə olmasını göstərir. Həqiqətən, Türkiyə–Azərbaycan münasibətləri dünyada bir örnəkdir. İnanmıram ki, dünyada başqa ölkələr tapılsın ki, onların arasında münasibətlər belə səmimi, belə gözəl olsun. Bizim münasibətlərimiz dərin tarixi köklər üzərində qurulubdur. Əsrlər boyu bizim xalqlarımız birlikdə

yaşamış, yaratmışlar. Ancaq sonralar dünyada gedən proseslər nəticəsində biz bir-birimizdən ayrı düşmüşdük. Yalnız Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra Türkiyə–Azərbaycan münasibətləri yenidən qurulmağa başlamışdır. Bu gün iki müstəqil ölkə bir-birinə dəstək verməklə ikitərəfli münasibətlərin inkişafına xidmət göstərir, eyni zamanda, bölgədə gedən proseslərə bizim təsir imkanlarımız güclənir.

Bizim münasibətlərimiz çoxşaxəlidir. Siyasi əlaqələr çox yüksək səviyyədədir, birgə imzalanmış sənədlər gözəl hüquqi baza yaradır. İqtisadi sahədə ticarət dövriyyəsi artır və çoxlu türk şirkətləri Azərbaycanda, Azərbaycan şirkətləri Türkiyədə fəaliyyət göstətir. Bu gün biz artıq qarşılıqlı sərmayələrdən danışa bilərik. Bu da çox önəmlidir. Azərbaycana qoyulan sərmayələr bizim iqtisadiyyatımızı gücləndirir və biz çox şadıq ki, bu sərmayələrin böyük hissəsi Türkiyədən gəlir. Son müddət ərzində Azərbaycan şirkətləri də Türkiyəyə sərmayə qoymağa başlamışdır. Bu bir tərəfdən, Azərbaycanın artan imkanlarını göstərir, digər tərəfdən, yenə də demək istəyirəm ki, bütün bunların təməlində bizim aramızda olan dostluq, qardaşlıq münasibətləri dayanır.

Bizim birgə səylərimiz, təşəbbüslərimiz nəticəsində bölgədə çox önəmli və transmilli layihələr icra olunur. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin uğurlu fəaliyyəti həm bölgədə sabitliyin möhkəmlənməsinə, əməkdaşlığın dərinləşməsinə xidmət göstərir, həm də bizim iqtisadi imkanlarımızı gücləndirir. Bu gün biz artıq Şərq–Qərb enerji dəhlizinin uğurlu fəaliyyətini müşahidə edirik. Onun əsasında da bizim təşəbbüslərimiz dayanır. Hər kəs bilir ki, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi çox mürəkkəb geosiyasi vəziyyətdə həyata keçirilmişdir. Uzun danışıqlardan, bəzi hallarda uzun mübahisələrdən və edilən təzyiqlərdən sonra biz, nəhayət, bu layihənin həyata keçirilməsinə nail ola bilmişik. Biz əfsanəni gerçəyə çevirmişik. Bizim iradəmiz, xalqlarımızın birgə fəaliyyəti, siyasi rəhbərliyin uğurlu və müdrik siyasəti

nəticəsində bu, artıq reallıqdır və hər kəs bu reallıqla hesablaşmalıdır. Bu, sadəcə, bir enerji layihəsi, yaxud da ki, iqtisadi layihə deyildir. Bunun çox böyük mənası var. Bu, xalqlarımızı uzun illər bundan sonra üçün iqtisadi maraqlarla birləşdirir, bizim önəmimizi artırır. Artıq bölgədə Şərq–Qərb enerji dəhlizi və enerji təhlükəsizliyi məsələləri Türkiyə və Azərbaycanın iştirakı olmadan həll oluna bilməz.

Xəzər dənizinin təbii ehtiyatları dünya enerji bazarı üçün yeni mənbədir və bunun önəmi getdikcə artacaqdır. Bu mənbənin başında biz dayanmışıq və əlbəttə ki, bunun gözəl nəticələrini biz ondan sonrakı layihələrdə də görürük. Biz «Şahdəniz» layihəsinin uğurla icra olunmasını birlikdə qeyd etmişik. Bu gün Azərbaycan qazı Türkiyə bazarına daxil olur. Bir neçə il bundan əvvəl Azərbaycan təbii qazın idxalı ilə məşğul idi. Bu gün biz bunu ixrac edirik və qardaş Türkiyəyə ixrac olunur. Əminəm ki, növbəti illərdə Azərbaycanda qaz ehtiyatlarının işlənilməsi nəticəsində biz buna daha da böyük həcmdə nail olacağıq. Biz öz siyasətimizlə, öz layihələrimizlə bir-birimizi gücləndiririk və belə də olmalıdır. Belə olan halda, bölgədə və dünyada bizim imkan dairəmiz daha da genişlənəcək, təsir imkanlarımız artacaqdır. O cümlədən, iqtisadi və enerji siyasətimizin uğurla aparılması ilə biz öz siyasi maraqlarımızı daha da dolğun şəkildə müdafiə edəcəyik.

Bu gün biz Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi ilə məşğuluq. Bu da tarixi bir layihədir ki, Türkiyə və Azərbaycan üzərindən Avropanı Asiya ilə birləşdirəcəkdir. Türkiyəni Azərbaycanla dəmir yolu ilə birləşdirəcəkdir. Bunun çox böyük tarixi və əlbəttə ki, iqtisadi və siyasi önəmi vardır.

Bütün bu layihələr, deyə bilərəm ki, son illər ərzində tamamlandı. Mən xatırlayıram, 4 il bundan əvvəl, 2004-cü ildə bu kürsüdən Məclis qarşısında çıxış edərkən, bu layihələr barədə danışarkən onların uğurlu icrası haqqında fikirlər söyləmişdim. Ancaq o zaman Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, Bakı–Tbilisi–Qars layihələri nə icra olunmuşdu, nə də ki, icrası başlanmışdı. Bu gün isə bunlar

reallıqdlr. Biz tarix baxımından qısa müddət ərzində, müştərək səylərlə, birgə iradə ilə dostluğumuzun, qardaşlığımızın möhkəmlənməsi ilə bunu bacardıq. Mən heç şübhə etmirəm ki, bundan sonra qarşıda duran bütün məsələlər eyni uğurla həll olunacaqdır.

Bu gün Türkiyə–Azərbaycan birliyi bölgədə sabitləşdirici amildir. Cənubi Qafqazda yaşanan hadisələr bizim hamımızı düşündürür və narahat edir. Biz Azərbaycanda şadıq ki, Türkiyə bu məsələlərlə bağlı çox fəal siyasət aparır. Cənubi Qafqazda sabitlik və əməkdaşlıq təşəbbüsü ilə çıxış edən Türkiyə bölgədə gedən proseslərə daha ciddi şəkildə müdaxilə edəcəkdir. Bu müdaxilənin ancaq və ancaq müsbət nəticələri olacaqdır. Biz buna çox böyük önəm veririk, bu təşəbbüsləri alqışlayırıq. Əminəm ki, bu təşəbbüslər və bölgədə yerləşən digər ölkələrin xoş niyyəti nəticəsində Cənubi Qafqazda sabitlik və sülh təmin olunacaqdır. Buna böyük ehtiyac var. Biz çox həssas bölgədə yaşayırıq, çox mürəkkəb tarixi dövrdə yaşayırıq və bizim siyasətimizdən bölgənin, geniş mənada bölgənin gələcək taleyi, sabitliyi asılıdır.

Cənubi Qafqazda yaşanan son gərgin hadisələr bir daha onu göstərir ki, bu bölgədə sülh çox həssas məsələdir. Bölgədə əslində sülh bərqərar olunmayıbdır. Atəşkəs rejimi mövcuddur. O da imkan vermir tam əminliklə deyək ki, artıq vəziyyət sabitləşibdir. Cənubi Qafqazda və ümumən bölgədə ən böyük təhlükə mənbəyi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Uzun illərdir ki, münaqişə öz həllini tapa bilmir. 20 ilə yaxındır ki, Azərbaycan torpaqları işğal altındadır. Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti, etnik təmizləmə siyasəti, Azərbaycan torpaqlarının 20 faizinin işğal olunması 1 milyondan artıq azərbaycanlının öz doğma torpaqlarında qaçqın, köçkün vəziyyətinə düşməsi ilə nəticələnibdir. Bizim ərazi bütövlüyümüz pozulubdur. Bütün beynəlxalq hüquq normalarını pozan Ermənistan, əfsuslar olsun, hələ ki, beynəlxalq davranış qaydalarına riayət etmir. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 4 qətnaməsini icra

etmir. Bu qətnamələrdə Ermənistan qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılması nəzərdə tutulubdur. Bu yaxınlarda Birləşmiş Millətlər Təşkilatının Baş Məclisində Türkiyənin dəstəyi ilə qəbul olunmuş qərar erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılmasını tələb edir. O qərar da icra olunmur. Yəni biz burada beynəlxalq hüquq normalarına olan laqeyd münasibəti görürük. Biz ümid edirik ki, bölgədə yaranan yeni vəziyyət münaqişə ilə bağlı olan və məşğul olan bütün tərəfləri daha da fəallaşdıracaqdır. Ümid edirəm ki, Ermənistanın yeni rəhbərliyi bölgədə gedən prosesləri düzgün təhlil edəcək və yeni yaranmış reallıqlarla barışmalı olacaqdır. Bunun nəticəsində Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapa bilər.

Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır və işğaldan, etnik təmizləmə siyasətindən əziyyət çəkən Azərbaycan vətəndaşları öz doğma torpaqlarına qayıda biləcəklər. Bunu etmək üçün, əlbəttə ki, Ermənistan tərəfi siyasi iradə göstərməli və beynəlxalq hüquq normalarına tam şəkildə riayət etməlidir.

Son aylar ərzində bölgədə gedən proseslər, göstərilən təşəbbüslər, Türkiyə tərəfindən irəli sürülmüş təşəbbüs, ondan sonra Rusiyada üç ölkənin prezidentlərinin görüşü və bu görüş nəticəsində qəbul edilmiş siyasi Bəyannamə bizim nikbinliyimizi bir az artırır. Çünki Bəyannamədə məsələnin beynəlxalq hüquq normaları əsasında həll olunması qeyd edilir. Digər tərəfdən, Bəyannamədə məsələnin mərhələli yollarla həll edilməsi təsdiq olunur.

Bu həmişə Azərbaycanın mövqeyini əks etdirmişdir.

Biz həmişə demişik ki, məsələ mərhələli yollarla həll olunmalıdır. İlk növbədə işğal edilmiş ərazilər işğalçı qüvvələrdən boşaldılmalı, Azərbaycan vətəndaşları o bölgələrə qayıtmalıdırlar. Ondan sonra Dağlıq Qarabağın gələcək statusu haqqında söhbət aparıla bilər. Ancaq o da aydındır ki, bu status Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Bir sözlə, bu məsələnin həll olunmaması, əlbəttə ki, bölgədə əlavə gərginliyin böyüməsinə gətirib çıxarır. Ancaq bununla bərabər, biz hesab edirik ki, atılan addımlar və gələcəkdə atılacaq addımlar məsələnin həllinə gətirib çıxara bilər. Bir daha demək istəyirəm ki, Türkiyənin bu işlərə çox ciddi yanaşması bizi çox sevindirir, ruhlandırır. Biz Türkiyənin mövqeyini bəyənirik, dəstəkləyirik və əminəm ki, növbəti aylarda biz yeni siyasi addımların şahidi olacağıq.

Bütövlükdə bölgədə sülh vəziyyətinin yaranması bizim birgə fəaliyyətimizdən asılıdır. Bizim birgə fəaliyyətimiz təkcə bölgədə gedən proseslərlə məhdudlaşmır. Biz bu gün beynəlxalq müstəvidə öz səylərimizi birləşdiririk. Bütün beynəlxalq təşkilatlarda Türkiyə və Azərbaycan vahid mövqedən çıxış edir. Bu fürsətdən istifadə edərək, mən bu yaxınlarda Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi münasibətilə Türkiyəni, bütün türk xalqını ürəkdən təbrik etmək istəyirəm. Bu, böyük qələbədir, böyük uğurdur. Bu sizin uğurunuzdur, bu bizim uğurumuzdur.

Biz xaricdə yaşayan soydaşlarımızın birgə fəaliyyəti üçün də əməli-praktik işlər görürük. Azərbaycanda keçirilmiş Türkiyə–Azərbaycan diaspor təşkilatları rəhbərləri forumunun nəticələrini biz çox yüksək qiymətləndiririk. Xaricdə yaşayan soydaşlarımız indi vahid mövqedən çıxış edirlər, birgə tədbirlər keçirirlər. Ölkələrimiz, xalqlarımız haqqında dəqiq, dolğun, ədalətli məlumatı çatdırırlar. Bəzi hallarda bizim haqqımızda süni şəkildə yaradılan mənfi rəy bizim maraqlarımıza təsir göstərir. Əminəm ki, biz xaricdəki diaspor təşkilatlarının birgə fəaliyyəti nəticəsində ölkələrimiz, xalqlarımız, xalqlarımızın tarixi, mədəni irsi, zəngin mədəniyyəti haqqında dünya birliyinə daha dolğun məlumatın çatdırılmasına nail olacağıq. Biz buna çox böyük önəm veririk və mən çox şadam ki, birgə səylərimiz təkcə ikitərəfli müstəvidə deyil, eyni zamanda, bütün dünyada özünü göstərir.

Biz yaranmış vəziyyətə, əlbəttə ki, reallıq nöqteyi-nəzərindən yanaşmalıyıq. Bu gün reallıq belədir ki, Türkiyə və

Azərbaycanın güclənməsi, bizim iqtisadi və siyasi potensialımızın artması nəticəsində bölgədə yeni vəziyyət yaranıbdır. Biz bu gün Xəzər dənizi–Qara dəniz əməkdaşlıq çərçivələrini genişləndiririk. Deyə bilərəm ki, bu gün enerji təhlükəsizliyi məsələləri dünyanın gündəliyində ön sıralardadır. Bu gün nəqliyyat təhlükəsizliyi məsələləri uğurla həll edilir. Bütün bu işlərdə Türkiyə və Azərbaycanın mövqeyi həlledici rol oynayır. Bizim birliyimizdən həm gələcəyimiz asılıdır, həm bölgədə gedən proseslər asılıdır, həm də ki, ölkələrimizin artan siyasi çəkisi və bunun nəticəsində bizim maraqlarımızın daha dolğun şəkildə müdafiə olunması asılıdır.

Mən çox şadam ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra Türkiyə–Azərbaycan münasibətləri yüksələn xətlə inkişaf edir, davam edir. Mənim bu səfərim bunun əyani sübutudur. Bizim aramızda çox səmimi dostluq münasibətləri vardır. Biz bu münasibətlərə çox böyük önəm veririk, onları çox vacib amil hesab edirik. Mən şübhə etmirəm ki, növbəti illərdə bizim birgə səylərimiz ölkələrimizi daha da gücləndirəcəkdir.

Hörmətli millət vəkilləri, bu gün mən Azərbaycanda son illər ərzində gedən proseslər haqqında da sizə qısaca olaraq öz fikirlərimi bildirmək istəyirəm. Son 5 il ərzində Azərbaycan uğurlu yol keçmişdir. Azərbaycanda siyasi islahatlar çox uğurla aparılmışdır. Azərbaycan dünya birliyinə uğurla inteqrasiya etmişdir. Bizim dünya birliyinə inteqrasiya siyasətimiz çox aydındır, çox dəqiqdir. Bizim üçün, tariximiz üçün, millətimizin mentaliteti üçün məqbul olan bütün müsbət təcrübələri Azərbaycanda tətbiq etməyə çalışırıq. İstər iqtisadi, istər siyasi, yaxud da ki, sosial sahədə. Biz öz gələcəyimizi dərin və zəngin tarixi köklər üzərində qururuq. Bizim üçün milli-mənəvi dəyərlərimiz, ənənələrimiz başlıca rol oynayır. Bu möhkəm mənəvi zəmin üzərində Azərbaycan müasirləşir, yeniləşir və Azərbaycanda aparılan siyasi və iqtisadi islahatlar ölkəmizi gücləndirir.

Bizim müstəqillik tariximiz birmənalı olmamışdır. Müstəqilliyimizin ilk illəri Azərbaycan üçün çox ağır keçmişdir.

Hətta deyə bilərəm ki, ilkin mərhələdə bizim gələcək müstəqilliyimiz şübhə altına düşmüşdü. Ölkədə gedən xoşagəlməz proseslər, daxili çəkişmələr, hətta vətəndaş müharibəsi, torpaqlarımızın bir hissəsinin işğal altına düşməsi və bütövlükdə qeyri-sabit vəziyyət Azərbaycanın gələcəyini qeyri-müəyyən edirdi. Ancaq bu gün biz gələcəyə çox böyük ümidlərlə, çox böyük nikbinliklə baxırıq. Azərbaycan bu gün tam şəkildə müstəqil siyasət aparır. Bizim müstəqil siyasət aparmaq imkanlarımız möhkəm iqtisadi əsas üzərində qurulubdur. Çünki iqtisadi müstəqillik olmasa, siyasi müstəqillikdən söhbət etmək mümkün deyildir. Bu gün müstəqil siyasət aparmaqla Azərbaycan bölgədə öz mövqelərini möhkəmləndirir. Bizim xoşməramlı təşəbbüslərimiz rəğbətlə qarşılanır. Son illər ərzində Azərbaycanda siyasi islahatların dərinləşməsi, demokratiyanın inkişafı istiqamətində çox böyük işlər görülüb və bütün dünya bunun şahididir.

Bununla bərabər, iqtisadi islahatlar uğurla aparılır. Bəli, Azərbaycanın çox zəngin təbii ehtiyatları vardır. Neft, qaz və başqa təbii ehtiyatlarımız Azərbaycanın uğurlu inkişafını, ən azı, növbəti 100 il ərzində təmin edəcəkdir. Bütün hesablamalar göstərir ki, təbii qaz ehtiyatları, ən azı, 100 il müddətində bizə kifayət edəcəkdir. Amma bununla bərabər, uğurlu enerji siyasətinin aparılması ilə bərabər, biz iqtisadiyyatın digər sahələrinin inkişafına çox böyük diqqət göstəririk. Bu gün iqtisadiyyatımız çoxşaxəlidir. Qeyri-neft sektorunun inkişafına böyük önəm verilir.

İqtisadi islahatların aparılmasında Azərbaycan çox böyük uğurlar əldə edibdir. Bunun ən gözəl təzahürü ondan ibarətdir ki, bu il, 2008-ci ildə Dünya Bankı tərəfindən aparılan tədqiqata əsasən, Azərbaycan dünya miqyasında bir nömrəli islahatçı ölkə kimi tanınıbdır. Bu, böyük bir nəticədir. Bu onu göstərir ki, bizim iqtisadi islahatlarımız çox müsbətdir, iqtisadiyyatımız tam liberallaşıbdır. Ümumi daxili məhsulda özəl sektorun payı 85 faiz təşkil edir. Çox geniş özəlləşdirmə siyasəti aparılmışdır. Azərbaycan son 4 il ərzində iqtisadi artım sürəti baxımından

dünya miqyasında birinci ölkədir. 4 il ardıcıllıqla bizim iqtisadiyyatımız dünyada ən yüksək sürətlə artıbdır. Son 5 il ərzində bütövlükdə iqtisadiyyat 2,7 dəfə artıbdır.

Azərbaycanda son 5 il ərzində sənaye istehsalı təxminən 3 dəfə artıbdır. Azərbaycanda böyük maliyyə resursları yaradılır. Bu gün bizim maliyyə resurslarımız təxminən 20 milyard dollara bərabərdir. Son 5 il ərzində büdcə xərcləri 10 dəfə artıbdır. Sosial ödəmələr 10 dəfə, minimum əməkhaqqı 8 dəfə, orta əməkhaqqı 4 dəfə artıbdır. Demək olar ki, Azərbaycanda işsizlik problemi əsasən həll olunmuşdur. Son 5 il ərzində 740 min yeni iş yerləri açılmışdır və onların tam əksəriyyəti bölgələrdə, qeyri-neft sektorundadır. Biz Dünya Bankı ilə birlikdə yoxsulluğun azaldılması üçün çox vacib addımları atırıq və son 5 il ərzində Azərbaycanda yoxsulluğun səviyyəsi 49 faizdən 16 faizə düşmüşdür. Bu bir tərəfdən, Azərbaycanda gedən sosial siyasətin əlaməti kimi göstərilə bilər, digər tərəfdən – o da çox önəmlidir – onu göstərir ki, Azərbaycanda neftdən gələn gəlirlər cəmiyyətdə ədalətli şəkildə bölünür. Əminəm ki, növbəti illərdə bütün bu uğurlu nəticələr davam edəcəkdir.

Əlbəttə ki, problemlər də var, hər bir ölkədə olduğu kimi, Azərbaycanda da bu problemlər var. Biz bu problemlərin həlli üçün çalışırıq. Hər bir sahə üçün xüsusi proqramlar icra olunur və son 5 il ərzindəki uğurlu fəaliyyətimiz deməyə əsas verir ki, gələcəkdə də bu müsbət meyillər davam edəcək, Azərbaycan daha da güclənəcək, müasirləşəcək və dünya birliyində daha da möhkəm yer tutacaqdır.

Bütün bunları etmək üçün həm siyasi iradəmiz, konkret proqramlarımız var, həm də bizim dostlarımız var. Dünyada bizim dostlarımızın sayı artır. Ancaq bu dostların arasında, həmişə olduğu kimi, Türkiyənin xüsusi yeri, xüsusi rolu var. Mən əminəm ki, bundan sonra da Türkiyə–Azərbaycan münasibətləri, dostluq, qardaşlıq üzərində qurulan münasibətlər daim inkişaf edəcək, xalqlarımıza sülh, rifah, əmin-amanlıq gətirəcəkdir.

Əziz dostlar, mənə bu fürsəti verdiyinizə görə sizə bir daha öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, Türkiyə–Azərbaycan münasibətləri uğurla inkişaf edəcəkdir.

Yaşasın Türkiyə–Azərbaycan dostluğu, qardaşlığı!

## ANKARADA HEYDƏR ƏLİYEV KÜÇƏSİNİN AÇILIŞI MƏRASİMİ

*6 noyabr 2008-ci il*

*Noyabrın 6-da Ankaranın Batıkənd məhəlləsində Heydər Əliyev küçəsinin açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, habelə Türkiyənin Energetika və Təbii Sərvətlər naziri Hilmi Gülər və xanımı, Ankara Böyük Şəhər Bələdiyyəsinin sədri Melih Gökçek mərasimdə iştirak edirdilər.*

*Mərasimə toplaşanlar dövlətimizin başçısını və xanımını hərarətlə salamladılar.*

*Prezident İlham Əliyev və Ankara Böyük Şəhər Bələdiyyəsinin sədri Melih Gökçek Heydər Əliyev küçəsinin açılışını bildirən lövhə üzərindən örtüyü götürdülər. Lövhənin üzərində* «Heydər Əliyev küçəsinin açılışı Azərbaycan Prezidenti İlham Əliyev və Ankara Böyük Şəhər Bələdiyyəsinin sədri Melih Gökçek tərəfindən 2008-ci il noyabrın 6-da olmuşdur!» *sözləri yazılmışdır.*

*Dövlətimizin başçısına məlumat verildi ki, uzunluğu 900 metrə yaxın olan bu küçəyə 2008-ci ilin iyununda ulu öndər Heydər Əliyevin adı verilmişdir. Ətrafda Heydər Əliyev adına ibtidai məktəb, həmçinin Heydər Əliyev parkı, yaşayış evləri, ofislər və inzibati binalar yerləşir. Ətraf ərazi abadlaşdırılmışdır.*

*Ankaralılar türk dünyasının böyük oğlu Heydər Əliyevin xatirəsini əziz tuturlar və küçəyə onun adının verilməsi də böyük şəxsiyyətə olan hörmət və məhəbbətin nümunəsidir.*

## Heydər Əliyev parkı ilə tanışlıq

*Noyabrın 6-da Azərbaycan prezidenti İlham Əliyev Ankarada Heydər Əliyev parkı ilə tanış oldu.*

*Parka toplaşan sakinlər, məktəblilər prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hörmətlə qarşıladılar. Onların əllərində türk dünyasının böyük oğulları – Atatürkün və Heydər Əliyevin portretləri var idi.*

*Səkkiz hektara yaxın ərazisi olan parka 2008-ci ilin iyun ayında ümummilli lider Heydər Əliyevin adı verilmişdir. Parkın girişində xüsusi hazırlanmış lövhədə ulu öndərin tərcümeyi-halı yazılmışdır. Buraya istirahətə gələnlər xalqımızın dahi oğlunun həyat və fəaliyyəti barədə məlumat ala bilirlər.*

*Parkda iki müasir fəvvarə quraşdırılmış, 11 minədək gül, 15 min ağac əkilmiş, 35 min kvadratmetr sahədə çəmənlik salınmışdır. Uşaqların əylənməsi üçün xüsusi qurğular quraşdırılmışdır. Sakinlərin istirahətinin səmərəli təşkili, idmanla məşğul olmaları üçün də lazımi şərait yaradılmışdır.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva ulu öndərin parkdakı əzəmətli abidəsi önünə gül dəstələri qoydular və xatirə şəkli çəkdirdilər. Abidənin müəllifi Azərbaycan heykəltəraşı Natiq Əliyevdir.*

## Heydər Əliyev adına məktəblə tanışlıq

*Noyabrın 6-da Azərbaycan prezidenti İlham Əliyev Ankaranın Batıkənd məhəlləsində Heydər Əliyev adına ibtidai məktəbdə olmuşdur.*

*Məktəbin binasının həyətində şagirdlər, valideynlər, məhəllə sakinləri prezident İlham Əliyevi, xanımı Mehriban Əliyevanı səmimiyyətlə qarşıladılar.*

*Məktəblilərin ifasında Azərbaycanın və Türkiyənin milli rəqsləri, xalq mahnıları böyük maraq doğurdu.*

*Azərbaycan prezidenti məktəblə tanış oldu.*

*Ankara valiliyi ilə Azərbaycan Respublikasının Türkiyədəki səfirliyi arasında imzalanmış protokola uyğun olaraq «Qardaş qurum» layihəsi çərçivəsində 2006-cı il yanvarın 17-dən məktəbə ulu öndər Heydər Əliyevin adı verilmişdir. Hazırda məktəbdə 1440 şagird təhsil alır.*

*Prezident İlham Əliyev şagirdlərə ölkənin layiqli vətəndaşları olmaları üçün yaxşı təhsil almalarını tövsiyə etdi və məktəblə tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı:* «Heydər Əliyev məktəbinin öyrəncilərinə yaxşı oxumaq arzulayıram. Məktəbin müəllimlərinə uğurlar diləyirəm. Yaşasın Türkiyə–Azərbaycan dostluğu, qardaşlığı!».

## Səfər başa çatdı

*Noyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına rəsmi səfəri başa çatmışdır.*

*Azərbaycanın və Türkiyənin dövlət bayraqları ilə bəzədilmiş Esenboğa hava limanında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Türkiyənin «Energetika və Təbii Sərvətlər naziri Hilmi Gülər, Ankara valisi Kamal Önal və digər rəsmi şəxslər böyük hörmət və ehtiramla yola saldılar.*

* * *

*Dövlətimizin başçısı həmin gün axşam Bakıya qayıtmışdır.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

# TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAH RƏİSİ İLKƏR BAŞBUĞUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 noyabr 2008-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı İlkər Başbuğun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələri əhatə etdiyini, o cümlədən hərbi sahədə uğurlu işbirliyinin yaradıldığını vurğuladı. Yenidən prezident seçildikdən sonra ilk rəsmi səfərini Türkiyəyə etdiyini bildirən dövlətimizin başçısı səfərin yüksək səviyyədə keçdiyini, görüşlər zamanı ikitərəfli münasibətlərimizin bir daha təhlil olunduğunu və gələcək üçün yeni planların müzakirə edildiyini qeyd etdi. Prezident İlham Əliyev general İlkər Başbuğun Türkiyə Baş Qərargahının rəisi vəzifəsinə təyin olunandan sonra ilk dəfə Azərbaycana səfər etməsinin əhəmiyyətindən danışaraq əmin olduğunu bildirdi ki, bu səfər hərbi əməkdaşlıq sahəsindəki uğurların daha da artmasına xidmət edəcəkdir.*

*Ordu generalı İlkər Başbuğ yeni vəzifəyə təyin olunduqdan sonra ilk dəfə Azərbaycana səfər etməsindən məmnunluğunu bildirdi. O, yenidən prezident seçilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi, Azərbaycan xalqının rifahı naminə prezident İlham Əliyevə uğurlar arzuladı. İlkər Başbuğ bir millət, iki dövlət olan Azərbaycanla Türkiyənin bütün*

*istiqamətlərdə, o cümlədən hərbi sahədə əməkdaşlığının daha da möhkəmlənəcəyinə əminliyini ifadə etdi.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ**

Hörmətli Dmitri Anatolyeviç!

Vladiqafqazda törədilmiş terror aktı nəticəsində insanların həlak olması haqqında xəbər məni dərindən sarsıtdı.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların qohumlarına və yaxınlarına səmimi başsağlığı verir, xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, 7 *noyabr 2008-ci il*

## QEYDLƏR

**1. Qazax** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 699 km$^2$, əhalisi 93,7 min nəfərdir. – 5–15,69.

**2. Ağstafa** – Azərbaycan Respublikasında inzibati rayon. 1939-cu ildə təşkil edilmişdir. 1959-cu ildə ləğv edilib, ərazisi Qazax rayonuna verilmiş, 1990-cı ildə yenidən bərpa olunmuşdur. Sahəsi 1503,7 km$^2$, əhalisi 84,6 min nəfərdir. – 5,16–20,36.

**3. Tovuz** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Qazax rayonuna verilmiş, 1964-cü ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1942 km$^2$, əhalisi 160 min nəfərdir. – 5,21–30,31.

**4. Heydər Əliyev,** Heydər Əlirza oğlu (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış,

Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Büro üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri

seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçilmişdir.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 5,16,18,21,22,23,24,27,33,39,40,41,42,45,

46,51,60,72,74,78,83,84,87,109,110,20,123,125,147,163,179,180, 192,198,199,211,243,247,285,300,341–343.

**5. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası, fondun strukturunda bir sıra qurumlar fəaliyyət göstərir. – 10,17,56,107,108,165,180, 181,207,208,209,210,211,212.

**6. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–93-cü illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik

ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 10,56,76,88, 129,130,134,138,147,148,160,165,172,177,179,180,190,207,209, 211,212,215,313,342.

**7. İSESKO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycridir. Azərbaycan dövləti İSESKO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 10,152–158,207,211.

**8. YUNESKO –** BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir.

Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 10,207,211.

**9. Ömər Eldarov,** Ö m ə r H ə s ə n o ğ l u (d.1927) – görkəmli Azərbaycan heykəltəraşı. Azərbaycan MEA-nın həqiqi üzvü. Rəssamlıq Akademiyasının rektoru. Heykəltəraşlığın müxtəlif janrlarında (monumental abidə, portret, büst, qorelyef və s.) əsərlər yaradır. I çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 16.

**10. Toğrul Nərimanbəyov**, T o ğ r u l F ə r m a n o ğ l u (1930–2013) – rəssam. Azərbaycan və SSRİ Xalq rəssamı. Məişət, portret, mənzərə və natürmort janrlarında, monumental boyakarlıq, illüstrasiya və teatr rəssamlığı sahəsində fəaliyyət göstərirdi. Yaradıcılığında monumental boyakarlıq mühüm yer tutur. «Qobustan kölgələri» (F.Qarayev), «Yeddi gözəl» (Q.Qarayev), «Min bir gecə» (F.Əmirov) baletlərinə verdiyi bədii tərtibat Azərbaycan teatr rəssamlığının qiymətli nümunələrindəndir. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı olmuş. Azərbaycan Respublikasının «Şərəf» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 15.

**11. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b -l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə Federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 20,31,71,161,206.

**12. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 79,4 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik

orqanı Türkiyə Böyük Millət Məclisidir. – 20,31,38, 42,57,161,195,196,220,221,261,289,311,342,344.

**13. Zərifə xanım Əliyeva,** Z ə r i f ə Ə z i z q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalının redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 21,70, 91,114,171,177,285.

**14. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 25,26,54,69,80,142, 166,231,251,298.

**15. Beynəlxalq Valyuta Fondu** (BVF) – beynəlxalq valyuta-maliyyə təşkilatı; BMT-nin ixtisaslaşmış orqanı. BMT-nin Bretton–Vudsda keçirilən konfransının qərarına əsasən (1944) yaradılmış, 1947-ci ildən əməliyyatlara başlamışdır. Mənzil-qərargahı Vaşinqtondadır. 189 dövlət BVF-nin üzvüdür. İşçilərinin sayı 133 ölkədə 2500 nəfərdir. Kvotaların ümumi həcmi 383 milyard dollardır. Ehtiyat ayrılmaları üçün qəbul edilən əlavə öhdəliklər 600 milyard dollardır.

BVF-nin maliyyə resursları üzv-ölkələrin üzvlük haqlarından – SDR-lə (beynəlxalq hesablaşma vahidləri) ifadə olunan kvotadan formalaşır. Kvota ölkənin iqtisadi potensialı və dünya ticarətindəki mövqeyindən asılı olaraq müəyyən edilir. 1992-ci ildən Azərbaycan Respublikası BVF-nin üzvüdür. – 25,26,54,142.

**16. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT-nin Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 26, 136,143,274,324.

**17. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi

gəlirlərin toplanmasını, səmərəli idarəetməsini, gələcək nəsillər üçün saxlanmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 26,141,247,274.

**18. Cəlilabad rayonu** (1967-ci ilədək Astraxanbazar rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Qərbdə İranla həmsərhəddir. Sahəsi 1441 $km^2$, əhalisi 209,3 min nəfərdir. – 30.

**19. Gəncə –** Azərbaycan Respublikasında şəhər. Sahəsi 110 $km^2$, əhalisi 330 min nəfərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir, salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–323) salındığını qeyd etmişlər. – 31–38,183,245.

**20. Kürdəmir** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1632 $km^2$ , əhalisi 110 min nəfərdir. – 31,39–40.

**21. Şah Abbas məscidi,** G ə n c ə c ü m ə m ə s c i d i– Azərbaycan memarlıq abidəsi. 1606-cı ildə Azərbaycan alim və memarı Şeyx Bəhaəddin tərəfindən inşa edilmişdir. Məscid minbərinin üzərində oyma bəzəkləri olan ağac şəbəkəçilik sənətinin nadir nümunələrindəndir. – 32–33.

**22. Qurani-Şərif,** ə l - Q u r a n – müsəlmanların müqəddəs kitabı. Quranı Allah Cəbrayıl vasitəsilə Məhəmməd əleyhüssəlama göndərib. Quran qafiyəli nəsrlə yazılmış 114 surə və 6200-dən çox ayədən ibarətdir. «Məkkə surələrinə» (610–622, Məkkə, 90 surə) və «Mədinə surələrinə» (622–632, Mədinə, 24 surə) bölünür. – 33,82.

**23. Ramazan bayramı –** müsəlman aləmində orucluq bitəndən sonra keçirilən bayram. Qurani-Kərim oruc tutmağı islamın vacib əməllərindən biri hesab etmiş və insanlarda yol

verilmiş xataların oruc tutmaqla bağışlanmasını təsbit edir. Bu bayram bir də ona görə əzizdir ki, məhz Qurani-Kərim müqəddəs ramazan ayında nazil olmuşdur. – 37, 80, 82,94.

**24. Ucar** – Azərbaycan Respublikasında inzibati rayon. 1939-cu ildə təşkil edilmişdir. Sahəsi 867 $km^2$, əhalisi 85,2 nəfərdir. – 38.

**25. Yevlax** – Azərbaycan Respublikasında inzibati rayon. 1935-ci ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Ağdaş, Bərdə, Goranboy rayonlarına verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1537 $km^2$, əhalisi 117,5 min nəfərdir. – 38.

**26. İpək Yolu**, Böyük İpək Yolu – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək Yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa İttifaqının iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 38.

**27. Ziya Məmmədov,** Z i y a A r z u m a n o ğ l u (d.1952) – dəmiryolçu-mühəndis. 1996–2005-ci illərdə Azərbaycan Dövlət Dəmiryol İdarəsinin rəisi, 2005-ci ildən isə Azərbaycan Respublikasının Nəqliyyat naziridir. – 38,218.

**28. Cavid Qurbanov,** C a v i d Q ə n b ə r o ğ l u (d.1958) – mühəndis. 2007-ci ildən «Azəryolservis» Açıq Səhmdar Cəmiyyətinin, 2015-ci ildən «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədri, Texnika elmləri üzrə fəlsəfə doktoru, 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Təbii Ehtiyatlar, Energetika və Ekologiya məsələləri daimi Komitəsinin üzvüdür. – 38.

**29. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 42,45,185,193,261,287,318,325.

**30. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imza-ladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla müba-

rizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 42,199,259,261.

**31. Saatlı** – Azərbaycan Respublikasında inzibati rayon. 1943-cü ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilib ərazisi Sabirabad rayonuna verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1180,5 $km^2$, əhalisi 102 486 nəfərdir. – 43,60–71.

**32. Sabirabad** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1469,6 $km^2$, əhalisi 167, 6 min nəfərdir. – 43,72–81.

**33. Moskva** – Rusiya Federasiyasının paytaxtı. Sahəsi 2561,5 $km^2$, əhalisi 12,3 milyon nəfərdir. Ölkənin siyasi, inzibati və mədəni mərkəzi, mühüm nəqliyyat qovşağıdır. Əsası 1147-ci ildə Suzdal knyazı Yuri Dolqoruki tərəfindən qoyulmuşdur. – 45,206,303–306,317,320,328.

**34. Ramazan ayı** – Qurani-Kərimin nazil olduğu ay. – 50–55.

**35. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** A l l a h - ş ü k ü r  H ü m m ə t  o ğ l u (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 50.

**36. Rusiya,** R u s i y a   F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 56,69,86,185,189,193,203,261,288,303–306,320,328,345.

**37. Svetlana Orlova** (d.1954) – iqtisad elmləri namizədi. Rusiya Federasiyası Şurasının sədr müavini (2001–2013). – 56.

**38. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 73 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci il mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 60,264.

**39. Qusar** (1938-ci ilədək Hil rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1542 km$^2$, əhalisi 92,6 min nəfərdir. – 69,89,98–108.

**40. Xaçmaz** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Quba və Qusar rayonlarına verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1046 km$^2$, əhalisi 162,1 min nəfərdir. – 69,109–114.

**41. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 325,6 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 71,117,161,192,218,298–299, 310–311,318,320.

**42. Quba** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 2575 km$^2$, əhalisi 161,4 min nəfərdir. – 86–97.

**43. Quba soyqırımı** – 1918-ci ildə ermənilər tərəfindən törədilən soyqırım. 2007-ci ildə Quba şəhər stadionunun təmiri üçün qazma işləri aparılarkən kütləvi qəbiristanlıq aşkar edilmişdir. Qəbiristanlıqda insan başları və bədənləri ayrı-ayrı basdırılmışdır. Sümüklərin antropoloji tədqiqatı onların müsəlmanlara aid olduğunu təsdiqləmişdir. Bu məzarlıq Qüdyalçayın sağ sahilində iki quyuda aşkarlanmışdır. Ermənilər bu qətliamın izini itirmək üçün belə etmişlər. – 91–92.

**44. Füzuli** (1959-cu ilədək Qaryagin rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 km$^2$, əhalisi 125,4 min nəfərdir. – 68,120–128.

**45. İspaniya** – Cənub-Qərbi Avropada dövlət. Sahəsi 504,8 min km$^2$, əhalisi 47,3 milyon nəfərdir. İnzibati ərazisi 17 muxtar vilayətə daxil olan 50 əyalətə bölünür. İspaniya konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı Korteslərdir (ikipalatalı parlament, Konqress və Senat). Mərakeş sahilindəki Seuta və Melilya anklav şəhərləri İspaniyanın mülküdür. Paytaxtı Madriddir. – 115,116.

**46. I Xuan Karlos** (d.1938) – 1975–2014-cü illərdə İspaniya kralı. 1975-ci ildə diktator Frankonun ölümündən sonra kral elan edilmişdir. – 115.

**47. Xose Luis Rodriges Sapatero** (d.1960) – İspaniya siyasətçisi. 2004–2011-ci illərdə İspaniyanın Baş naziri olmuşdur. – 115.

**48. Beyləqan** (1989-cu ilə qədər Jdanov rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1939-cu ildə təşkil edilmişdir. Ərazisi 1131,1 km$^2$, əhalisi 81,7 min nəfərdir. – 121, 129–137.

**49. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 km$^2$, əhalisi 194,8 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni qəsbkarları tərəfindən işğal edilmişdir. – 121,138–146.

**50. «Aqrolizinq»** – 2004-cü ildə təsis edilmişdir. Şirkət ölkənin Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxildir. Təşkilatın ölkənin 55 rayonunda xidmət məntəqələri vardır. – 81.

**51. Əlixan Məlikov** (d.1951) – mühəndis. 2000–2009-cu illərdə «Azəriqaz» Qapalı Səhmdar Cəmiyyətinin sədri vəzifəsində çalışmışdır. – 121,138.

**52. «Azəriqaz» İstehsalat Birliyi** –«Azəriqaz» İstehsalat Birliyinin əsas vəzifəsi respublikanın istehlakçılarını fasiləsiz, keyfiyyətli və təhlükəsiz təbii qazla təmin etmək, abonentlərə yüksək səviyyəli xidmət göstərmək, qaz şəbəkəsini beynəlxalq standartlara uyğun yenidən qurmaqdan ibarətdir. –121,138.

**53. Dağlıq Qarabağ Muxtar Vilayəti –** Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988–92-ci illərdə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 126,127,133,135,136,137,138,143,146,199,232,233,244,247, 248,267,268,317,320,324,328,334,335.

**54. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 126,248,306,320.

**55. İslam Konfransı Təşkilatı** (İKT) – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv-dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. Hazırda İslam Əməkdaşlıq Təşkilatıdır. – 152,158.

**56. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Aİ-yə digər qitələrdə yerləşən dənizaşırı əraziləri ilə birlikdə 27 dövlət daxildir (2007).

Aİ-nin yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan

hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv-dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ-nin üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. – 159.

**57. Peter Semnebi** (d.1959) – İsveç səfiri. 2006–2011-ci illərdə Semnebi Avropa İttifaqının Cənubi Qafqaz üzrə nümayəndəsi olmuşdur. – 159.

**58. Biləsuvar** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1938-ci ilədək Biləsuvar rayonu, 1938-ci ildən Puşkin rayonu adlanmışdır. 1963-cü ildə ləğv edilərək ərazisi Cəlilabad rayonu ilə birləşdirilmiş, 1964-cü ildə yenidən müstəqil rayon olmuşdur. SSRİ-nin süqutundan sonra – 1991-ci ildə rayona öz tarixi adı qaytarılmışdır. Sahəsi 1397 $km^2$, əhalisi 99200 nəfərdir. – 160–169.

**59. Astara** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilib Lənkəran rayonuna verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Cənubda və qərbdə İranla həmsərhəddir. Sahəsi 616,4 $km^2$, əhalisi 105,2 min nəfərdir. – 168.

**60. Lənkəran** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1539,4 $km^2$, əhalisi 221 min nəfərdir. – 168,179–194.

**61. Masallı** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 721 $km^2$, əhalisi 212 min nəfərdir. – 170–178.

**62. İkinci dünya müharibəsi** (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 62 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 176,189.

**63. Zaqatala –** Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Şimal-şərqdə Dağıstanla, cənub-qərbdə Gürcüstanla həmsərhəddir. Sahəsi 1348 km$^2$, əhalisi 125 min nəfərdir. – 183,245.

**64. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun tikintisinə 2007-ci ildə başlanılmışdır. Yolun uzunluğu 826 km-dir. – 184,185,245,278,317,325,333.

**65. Dmitri Medvedev** (d.1965) – Rusiya dövlət və siyasi xadimi, 2008–2012-ci illərdə Rusiya Federasiyasının Prezidenti, 2012-ci ilin may ayından Baş naziridir. – 189,288,304,305, 306,345.

**66. Abdullah Gül** (d.1950) – Türkiyə dövlət və siyasi xadimi, iqtisad elmləri doktoru, professor. 1991-ci ildə TBMM-in üzvü seçilmişdir. Abdullah Gül Rəcəb Tayyib Ərdoğanla Ədalət və İnkişaf Partiyasının yaradıcılarından biridir. 2007–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin Prezidenti olmuşdur. – 195,220,289,314–321,323–329.

**67. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyə siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Respublikasının Prezidenti seçilmişdir. – 196,221,289,330.

**68. Finlandiya,** F i n l a n d i y a R e s p u b l i k a s ı – Şimali Avropada dövlət. Sahəsi 338 min km$^2$, əhalisi 5,4 milyon nəfərdir. İnzibati ərazisi 11 lyaniyə (əyalətə) bölünür. Aland adaları isə muxtar ərazidir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Helsinki şəhəridir. – 197.

**69. Tarya Halonen** (d.1943) – Finlandiyanın ictimai və siyasi xadimi. Müxtəlif illərdə Ədliyyə, Sosial Müdafiə və Xarici İşlər nazirliklərinə başçılıq etmişdir. 2000–2012-ci illərdə Finlandiya Respublikasının Prezidenti olmuşdur. – 197.

**70. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublikanın sahəsi 5,5 min km$^2$, əhalisi 439,8 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi var. – 198.

**71. Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksi** – 2008-ci ildə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə Qala Tarix-Etnoqrafiya Qoruğunun ərazisində açıq səma altında yaradılmış muzey kompleksi. – 207–210.

**72. Qala** – Azərbaycan Respublikasında ərazi vahidi, qəsəbə. Qala Abşeron yarımadasının şimal-şərqində yerləşir. Qala ən qədim yaşayış məskəni – Tunc dövrünə aiddir. Qala kəndində çox qədim memarlıq və arxeoloji abidələr – 5 məscid, 3 hamam, 4 ovdan, sərdabələr, kurqanlar mövcuddur. Əhalisi 4200 nəfərdir. – 207–212.

**73. Buzovna** – Abşeron yarımadasında kənd (1937-ci ildən qəsəbə). Buzovna qədim yaşayış məntəqələrindəndir. Buzovna qəsəbəsinin yaxınlığında e.ə. 3-cü minilliyə aid Qədim Buzovna yaşayış yeri, cənub-şərqində isə Tunc və Dəmir dövrlərinə (e.ə.II–I minilliklər) aid yaşayış yeri aşkar edilmişdir. Buzovnada orta əsr abidəsi – türbə (1562–63), Nəsrani məscidi (XVII əsr), Aşağı məscid (XVIII əsr) və iki hamam (XIX əsr) indi də qalmaqdadır. Buzovnada yaşı bilinməyən «Əli ayağı» ziyarətgahı, islamaqədərki dövrdə mövcud olmuş Alban kilsəsi yerləşir. Əhalisi 30 min nəfərdir. (2013). – 208.

**74. Şağan** – Abşeron yarımadasında ən qədim yaşayış mərkəzlərindən biri. Şağanda hələ b.e. 3000 il əvvəl əhali məskunlaşmışdır. Burada bir sıra tarixi - memarlıq abidələrini – XII əsrin sonu – XIII əsrin əvvəllərində tikilmiş qalanı, 1320–21-ci illərə aid qubala-türbəni (Alban abidəsi), 1889-cu ildə

tikilən məscidi və s. qeyd etmək olar. Əhalisi 3800 nəfərdir. – 208.

**75. Zirə** – Abşeronda qədim kəndlərdən biri. Kənddə Tunc dövrünə aid yaşayış yeri, XVII əsrə aid məscid, XVI–XVII əsrlərə aid qəbiristanlıq var. Əhalisi 12 min nəfərdir (2013). – 208,209.

**76. Türkan –** Abşeron rayonunda kənd. Türkan kəndi ən qədim tarixə malikdir. Türkanda iki qəbiristanlıq var. Bunlardan biri yeni qəbiristanlıqdır ki, burada ən qədim qəbirin yaşı bir əsrə bərabərdir. Digər qəbiristanlıq isə Tunc dövrünə aiddir. Bura memarlıq abidələrindən türbə (XVIII əsr), məscid (XIX əsr) aiddir. Əhalisi 16,3 min nəfərdir. – 208.

**77. Qobustan** – Azərbaycanın şərqində alçaq dağlıq sahə, uzunluğu 100 km, eni 80 km-ə yaxındır. Qobustan yaxınlığında, Qobustan qoruğu ərazisində zəngin qayaüstü təsvirlərlə yanaşı, Daş dövründən başlamış orta əsrlərədək çoxlu ibtidai insan düşərgəsi, qədim yaşayış məskəni, kurqanlar və s. arxeoloji abidələr vardır. Onların beşində Mezolit, dördündə Neolit, yeddisində Tunc, birində antik və beşində orta əsrlər dövründə yaşayış olduğunu göstərən mədəni təbəqə və maddi qalıqlar aşkar edilmişdir. – 208.

**78. Azərbaycan Dövlət Tibb Universiteti** – respublikada tibb mütəxəssisləri hazırlayan ali məktəb. 1919-cu ildə Bakı universitetinin nəzdində tibb fakültəsi, 1920-ci ildə isə həmin fakültənin əsasında müstəqil tibb institutu yaradılmışdır. Universitetin 8 fakültəsi var. Bu təhsil ocağında 6700 tələbə təhsil alır. – 213.

**79. Polşa,** P o l ş a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati

cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 219,262,290,307.

**80. Əlcəzair,** Ə l c ə z a i r X a l q D e m o k r a t i k R e s p u b l i k a s ı – Şimali Afrikada dövlət. Sahəsi 2382 min km$^2$, əhalisi 40,4 milyon nəfərdir. İnzibati ərazisi 48 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Xalq Məclisidir. Paytaxtı Əlcəzair şəhəridir. – 222.

**81. Əbdüləziz Buteflika** (d.1937) – Əlcəzair dövlət xadimi, 1999-cu ildən Əlcəzair prezidenti. – 222.

**82. Avstriya,** A v s t r i y a R e s p u b l i k a s ı – Mərkəzi Avropada, Dunay hövzəsində dövlət. Sahəsi 83,8 min km$^2$, əhalisi 8,66 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Vyanadır. – 223.

**83. Haynz Fişer** (d.1938) – Avstriya dövlət və siyasi xadimi. Hüquqşünas, professor. 2004–2016-cı illərdə Avstriyanın Federal prezidenti olmuşdur. – 223.

**84. Türkmənistan,** T ü r k m ə n i s t a n R e s p u b l i k a- s ı – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min km$^2$, əhalisi 5,8 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabaddır. – 224.

**85. Qurbanqulu Berdıməhəmmədov** (d.1957) – Türkmənistan dövlət xadimi. 2007-ci ildən Türkmənistan Respublikasının Prezidentidir. – 224.

**86. Çexiya,** Ç e x i y a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min km$^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar Palatası) parlamentdir. Paytaxtı Praqadır. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. – 225.

**87. Vatslav Klaus** (d.1941) – 2003–2013-cü illərdə Çexiyanın prezidenti olmuşdur. – 225.

**88. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ) – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 238.

**89. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 243,245,247,249,278, 317,325,332.

**90. Bakı–Tbilisi –Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Türkiyə ərazisindən keçir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 243,245,249,278,317,325.

**91. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi** – BMT-nin əsas orqanlarından biri. BMT üzvü olan bütün dövlətlərdən ibarətdir. BMT üzvlərinə və ya BMT Təhlükəsizlik Şurasına hər cür məsələlərə və işlərə tövsiyələr vermək səlahiyyəti var.

Baş Məclisin qərarları tövsiyə xarakteri daşıyır, yəni hüquqi cəhətdən üzv-dövlətlər üçün məcburi deyil. Məclisin hər il növbəti sessiyası olur. Baş Məclisin nəzdində onun funksiyalarını həyata keçirmək üçün 7 əsas komitə var. – 248,268,335.

**92. «Azərenerji» –** dövlət şirkəti. Elektrik sistemləri avadanlıqlarının texniki istismarı, elektrik enerjisinin ötürülməsi, bölüşdürülməsi, generasiya güclərinin və şəbəkələrinin planlaşdırılması və inkişaf məsələlərini həll edir. – 250.

**93. Sergey Lebedev** (d.1948) – Rusiya dövlət xadimi, RF Xarici Kəşfiyyat Xidməti direktoru (2000–2007), ordu generalı. 2007-ci ildən MDB-nin icraçı katibidir. – 259,261.

**94. Mixeil Nikolozoviç Saakaşvili** (d.1967) – hüquqşünas, 2003–2013-cü illərdə Gürcüstan Respublikasının Prezidenti, 2000–2001-ci illərdə Gürcüstanda Ədliyyə naziri, Vahid Milli Hərəkat Partiyasının sədri, «məxməri inqilab»ın liderlərindən biri olmuşdur. Hazırda Ukraynanın Odessa vilayətinin qubernatorudur. – 261,287.

**95. Sergey Narışkin** (d.1954) – Rusiya dövlət xadimi. 2008–2011-ci illərdə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 2011-ci ildən Rusiya Federasiyası Dövlət Dumasının sədridir. – 261,288.

**96. Cəmil Çiçək** (d.1946) **–** hüquqşünas. 2011–2014-cü illərdə Türkiyə Böyük Millət Məclisinin sədri olmuşdur. – 261,289.

**97. Fərhad Abdullayev**, F ə r h a d S a h i b o ğ l u (d.1958) – hüquqşünas, hüquq elmləri namizədi. 2003-cü ildən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədridir. Əməkdar hüquqşünas və Azərbaycan Respublikası Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın üzvüdür. – 262.

**98. Lex Kaçinski** (1949–2010) – 2002–2005-ci illərdə Varşavanın meri, 2005–2010-cu illərdə Polşanın prezidenti olmuşdur. 2010-cu il aprelin 10-da Smolensk yaxınlığında təyyarə qəzasında həlak olmuşdur. Haqq və Ədalət Partiyasının liderlərindən biri idi. – 290,307.

**99. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 291.

**100. Robert Simmons** (d. ? )– Amerika siyasətçisi. 2004–2010-cu illərdə NATO Baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi. Pobert Simmons həmçinin Rusiya–NATO və Ukrayna – NATO-nun başqa təşkilatlarla cərəyan edən münasibətlərinə, inteqrasiyaya, partnyorluğuna cavabdeh olub. – 291.

**101. Yaap de Hoop Sxeffer (**d.1948) – Niderland siyasi xadimi. – 291.

**102.** ***bp,*** «B r i t i ş h P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 292.

**103. Endryu İnqlis** (d.1960) – britaniyalı mühəndis. 2004–2007-ci illərdə *bp*-nin əvəzedici direktoru, kəşfiyyat və istehsalat biznesi üzrə Baş direktoru olmuşdur. – 292.

**104. Vəcihə Səmədova** (1924–1965) – Azərbaycan boyakarı. Azərbaycanın Əməkdar incəsənət xadimi. Portret, mənzərə və tematik tablolar çəkmişdir. V. Səmədovanın mənzərə və tematik tabloları zəngin milli, lakonikliyi və kompozisiya aydınlığı ilə fərqlənir. Bakıda Vəcihə Səmədova adına sərgi salonu var. – 294.

**105. Fərhad Xəlilov,** F ə r h a d   Q u r b a n   o ğ l u (d.1946) – Xalq rəssamı. 1987-ci ildən Azərbaycan Rəssamlar İttifaqının sədridir. Yaradıcılığında Abşeron motivləri əhəmiyyətli yer tutur. Çimərliklər və Abşeron görüntüləri, həmçinin Abşeron yarımadasının yaşayış məntəqələri buna misal ola bilər. Fərhad Xəlilov «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 296.

**106. Anar,** R z a y e v   A n a r   R ə s u l   o ğ l u (d.1938) – görkəmli yazıçı, publisist, dramaturq, ictimai xadim, Azərbaycanın Xalq yazıçısı. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Azərbaycan və SSRİ Ali Sovetlərinin deputatı olmuşdur. 1995–2005-ci illərdə Milli Məclisin deputatı və Mədəniyyət məsələləri komitəsinin sədri, 1987-ci ildən Azərbaycan Yazıçılar Birliyinin sədridir. Əsərləri dünyanın bir çox ölkələrində nəşr olunmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 296.

**107. Səməd Vurğun,** S ə m ə d Y u s i f o ğ l u V ə k i -l o v (1906–1956) – böyük Azərbaycan şairi, ictimai xadim. Azərbaycanın Xalq şairi Səməd Vurğunun yaradıcılığı XX əsr Azərbaycan şeirinin inkişafında mühüm rol oynamışdır. Səməd Vurğun Azərbaycan Yazıçılar İttifaqının məsul katibi, sədri, Azərbaycanın Xarici Ölkələrlə Mədəni Əlaqələr Cəmiyyətinin sədri, Azərbaycan MEA-nın vitse-prezidenti olmuşdur, iki dəfə SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür. – 296.

**108. Corc Buş** (d.1946) – ABŞ-ın 43-cü prezidenti (2000–2008). ABŞ-ın 41-ci prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel Universitetini (incəsənət, tarix bakalavrı), 1975-ci ildə isə Harvard Universitetini (incəsənət magistri) bitirmişdir. «Spektrum-7 Enerci Korporeyşn» firmasının yaradıcısıdır. 1994-cü ildən Texas ştatının qubernatoru olmuşdur. – 298.

**109. Artur Rasizadə,** A r t u r T a h i r o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləmişdir. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 303,306,311.

**110. Ramiz Mehdiyev,** R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin 1-ci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq

Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. – 303,306,311.

**111. Hacıbala Abutalıbov,** H a c ı b a l a İ b r a h i m o ğ-l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. – 303,306,311.

**112. Maldiv,** M a l d i v R e s p u b l i k a s ı – Cənubi Asiyada Maldiv adalarında dövlət. Sahəsi 298 min km$^2$, əhalisi 341 min nəfərdir. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Şurasıdır. – 308.

**113. Məhəmməd Naşid** (d.1964) – 2008–2012-ci illərdə Maldivin prezidenti olmuşdur. – 308.

**114. Barak Obama** (d.1961) – ABŞ-ın 44-cü prezidenti (2008–2016-cı illərdə). 2004–2008-ci illərdə Demokratlar Partiyasından ABŞ Senatının üzvü olmuşdur. 2009-cu ildə Nobel Sülh mükafatına layiq görülmüşdür. ABŞ-da ilk afroamerikalı prezidentdir. – 309–310.

**115. Hilmi Gülər** (d.1949) **–** türk siyasətçisi, texnika elmləri doktoru. Bir neçə dəfə Türkiyə hökumətlərində Enerji və Əlvan Metallurgiya naziri olmuşdur. TBMM-in 22 və 23-cü çağırışlarında Ədalət və İnkişaf Partiyasından millət vəkili olmuşdur. – 311,331,343.

**116. Mustafa Kamal Atatürk,** Q a z i M u s t a f a K a- m a l (1881–1938) –Türkiyənin dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk prezidenti (1923–1938). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «Kamalçılar hərəkatı»na – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» Fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soyadı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 312.

**117. İhsan Doğramacı** (1915–2010) – türkdilli ölkələrin Milli Pediatriya Cəmiyyətləri Birliyinin Fəxri prezidenti, elmlər doktoru, professor. 1963–65-ci illərdə Ankarada Uşaq Sağlamlığı İnstitutunun direktoru, 1977–93-cü illərdə institutun icraçı direktoru, 1992-ci ildən isə Fəxri prezidenti, 1968–73-cü illərdə Pediatorların Tibb Assosiasiyasının prezidenti, 1959-cu ildən YUNİSEF-in İcraiyyə Komitəsinin üzvü, iki dəfə Bilkənd Universitetinin sədri və rektoru, 1975-ci ildən isə universitetin Fəxri rektoru olmuşdur. İ.Doğramacı Azərbaycan MEA-nın Fəxri üzvü, Azərbaycan Dövlət Tibb Universitetinin Fəxri doktoru olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif edilmişdir. – 322.

**118. Türkiyə Böyük Millət Məclisi** (TBMM) – Türkiyənin Ali qanunverici orqanı. Parlament 1920-ci il aprelin 23-də yaradılmışdır. BMM-nin ilk sədri M.K.Atatürk olmuşdur. – 331–340.

## Şəxsi adlar göstəricisi

**Abdullayev Alyoş** – 15
**Abdullayev Fərhad** – 262
**Abutalıbov Hacıbala** – 303,306,311
**Ağalarov Canəli** – 200
**Ağaliyev Nazir** – 100–101
**Ağayeva Gültəkin** – 133–134
**Anar** – 296
**Aslanova Zəminə** – 75,76
**Atatürk Mustafa Kamal** – 312
**Babayev Oqtay** – 43
**Barat Vüsal** – 9–10
**Başbuğ İlkər** – 344
**Berdıməhəmməd Qurbanqulu** – 224
**Bədəlov Ağaverdi** – 209
**Bəşirov Aydın** – 200
**Buş Corc** – 298
**Buteflikay Əbdüləziz** – 222
**Cabbarov Siraqəddin** – 66,67,68,69,70
**Çiçək Cəmil** – 261,289
**Doğramacı İhsan** – 322
**Eldarov Ömər** – 16
**Əhmədov Gülhüseyn** – 66,67,70
**Əhmədov Tağı** – 202,205
**Əl-Tuveycri Əbdüləziz** – 158
**Ələsgərov Sədrəddin** – 146
**Əliyev Heydər** – 5,16,18,21,22,23,24,27,33,39, 40,41,42,45,46,51,60,72,74,78, 83,84,87,109,110,120,123, 125,147,163,179,180,192,198, 199,211,243,247,285,300, 341–343
**Əliyeva Afaq** – 34
**Əliyeva Mehriban** – 10,56,76,88,129,130,134, 138,147,148,160,165,172, 177,179,180,190,207,209, 211,212,215,313,342

**Əliyeva Zərifə xanım** – 21,70,91,114,171,177,285
**Ərdoğan Rəcəb Tayyib** – 196,221,289,330
**Əsədullayeva Nailə** – 171–172
**Əzizova Sevil** – 129,130
**Fişer Haynz** – 223
**Gökçek Medih** – 341
**Gül Abdullah** – 195,220,289,314–321,323–329
**Gül Hayrunnisə** – 313
**Gülər Hilmi** – 311,331,343
**Günəşli Həsən** – 88
**Hacıyev Atabala** – 176
**Halonen Tarya** – 197
**Hüseynov Nəcməddin** – 15
**Hüseynov Rauf** – 7
**Xəlilov Fərhad** – 294
**I Xuan Karlos** – 115
**İnqlis Endryu** – 292
**Kaçinski Lex** – 290,307
**Kələntərli Kamal** – 190
**Klaus Vatslav** – 225
**Kovanski Pyotr** – 262,290
**Quliyeva Səadət** – 147,149,150
**Qurbanov Cavid** – 38
**Qutyerres Karlos** – 298
**Lebedev Sergey** – 259,261
**Lenarçiç Yanez** – 258
**Mahmudova Almaz** – 148
**Medvedov Dmitri** – 189,288,304,305,306,345
**Mehdiyev Ramiz** – 303,306,311
**Məlikov Əlixan** – 121,138
**Məmmədov Oqtay** – 62
**Məmmədov Ziya** – 38,218
**Məmmədova Əzizə** – 148,149,150
**Məmmədova Həqiqət** – 110
**Məmmədova Yasəmən** – 19
**Məsməliyev Məmməd** – 17,18,19
**Mirzəyev Sahibəli** – 164,165
**Mumsu Güldal** – 331

**Nağdəliyev Zeynal** – 68
**Nağıyev Nəsib** – 23
**Neqroponte Con** – 117
**Naşid Məhəmməd** – 308
**Nərimanbəyov Toğrul** – 15
**Narışkin Sergey** – 261,288
**Obama Barak** – 309–310,318,321
**Orlova Svetlana** – 56
**Onal Kamal** – 311
**Paşayev Ataxan** – 199
**Paşazadə Hacı Allahşükür** – 50
**Rasizadə Artur** – 303,306,311
**Saakaşvili Mixeil** – 261,287
**Sadıqova Xalidə** – 32
**Sallivan Con** – 298–299
**Sarkisyan Serj** – 304,317
**Sapatero Xose** – 116
**Semnebi Peter** – 159
**Səməd Vurğun** – 296
**Səmədov Ağadadaş** – 189
**Səmədova Vəcihə** – 294
**Sxeffer Yaap** – 291
**Simanduyev Boris** – 93–94
**Simmons Robert** – 291
**Stasiak Vladislav** – 219
**Şahin Mahmud Əli** – 57
**Şərifov Abid** – 202,204
**Şirəliyev Oqtay** – 215
**Şirəliyeva Firəngiz** – 151
**Talışlı Mirhaşım** – 190
**Toptan Koksal** – 289
**Umudov Firdovsi** – 13

## Coğrafi adlar göstəricisi


**Abşeron (*yarımada*)** – 207,208
**Afina** –165
**Agcabədi** – 121
**Ağdam** – 121,138–146
**Ağstafa** – 5,16–20,36
**Almaniya** – 20,31,71,161,206
**Amerika(*qitə)*** – 250
**Amerika Birləşmiş Ştatları** – 71,117,161,192,218,298–299, 310–311,318,320
**Ankara** – 328,341–343
**Araz çayı** – 62
**Asiya** – 185
**Astara** – 168
**Avropa** – 27,42,43,46,185,250
**Avstriya** – 223
**Bakı** – 11,17,19,69,78,84,85,89,104, 119,133,153,154,155,167, 178,195,196,197,203,204, 213,216,217,218,220,221, 222, 223,224,245,284,297, 302,307,308,310,317,328
**Balaqusar (*kənd)*** – 107
**Beyləqan** – 121,129–137
**Biləsuvar** – 160–169
**Buzovna** – 208
**Cəlilabad** – 30
**Cənubi Qafqaz** – 144,291,327,334
**Çexiya** – 225
**Çin** – 31,71,218
**Dağlıq Qarabağ** – 126,127,133,135,136,137, 138,143,146,199,232,233, 244,247,248,267,268,317,

320,324,328,334,335
**Əlcəzair** – 222
**Finlandiya** – 197
**Füzuli** – 68,120–128
**Fransa** – 320
**Gəncə** – 31–38,183,245
**Gomuşçu (*Saatlıda kənd*)** – 71
**Gürcüstan** – 42,45,185,193,261,287,318, 325
**Hindistan** – 31
**Hollandiya** – 16
**Horadiz** – 68,120–128
**Xaçmaz** – 69,109–114
**Xəzər dənizi** – 184,192,337
**Xocavənd** – 129
**İran** – 71
**İspaniya** – 115,116
**İstanbul** – 328
**İtaliya** – 71
**Kür çayı** – 62,168
**Kürdəmir** – 31,39–40
**Qafqaz** – 6,317,320,324
**Qalaqayın (*Sabirabadda kənd)*** – 73,74
**Qala** – 207–212
**Qara dəniz** – 337
**Qaradağlı** – 129
**Qazax** – 5–15,69
**Qırmızı qəsəbə** – 93–96
**Qobustan** – 208
**Quba** – 86–97
**Qusar** – 69,89,98–108
**Quzanlı** – 68
**Lənkəran** – 168,179–194
**Maldiv** – 308
**Masallı** – 170–178

**Mərdəkan** – 208
**Moldova** – 45
**Moskva** – 45,206,303–306,317,320,328
**Miyanku (*kənd*)** – 193
**Naxçıvan MR** – 198
**Naxçıvan** – 245
**Orta Asiya** – 291,325
**Pekin** – 40,165
**Polşa** – 219,262,290,307
**Rusiya** – 56,69,86,185,189,193,203, 261,288,303–306,320,328, 345
**Saatlı** – 43,60–71
**Sabirabad** – 43,72–81
**Səpnəkəran (*kənd*)** – 180
**Şağan** – 208
**Şirvan (*şəhər)*** – 147–151
**Şüvəlan** – 209
**Tatarıstan** – 200
**Tokio** – 165
**Tovuz** – 5,21–30,31
**Türkan** – 208
**Türkmənistan** – 224
**Türkiyə** – 20,31,38,42,57,161,195,196, 220,221,261,289,311–343,344
**Ukrayna** – 45,203
**Vladiqafqaz** – 345
**Yaponiya** – 31,199
**Yevlax** – 38
**Yunanıstan** – 31
**Zaqatala** – 183,245
**Zelenodolsk** – 200
**Zirə** – 208,209
**Ucar** – 38

## MÜNDƏRİCAT

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
QAZAX, AĞSTAFA VƏ TOVUZ RAYONLARINA
SƏFƏRİ

*24 sentyabr 2008-ci il.............................................................................5*

RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*24 sentyabr 2008-ci il.............................................................................9*

AĞSTAFADA HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN
AÇILIŞI MƏRASİMİ

*24 sentyabr 2008-ci il ...........................................................................16*

ZƏRİFƏ ƏLİYEVA PARKI İLƏ TANIŞLIQ

*24 sentyabr 2008-ci il ...........................................................................21*

RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ
İLƏ GÖRÜŞ

*24 sentyabr 2008-ci il...........................................................................23*

GƏNCƏ ŞƏHƏRİNDƏ VƏ KÜRDƏMİR RAYONUNDA
MÜALİCƏ-DİAQNOSTİKA MƏRKƏZLƏRİNİN
AÇILIŞI MƏRASİMİ

*24 sentyabr 2008-ci il...........................................................................31*

GƏNCƏ İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ
İLƏ GÖRÜŞ

*24 sentyabr 2008-ci il...........................................................................34*

KÜRDƏMİRDƏ ÜMUMMİLLİ LİDER
HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*24 sentyabr 2008-ci il* ........................................................................39

KÜRDƏMİR OLİMPİYA İDMAN KOMPLEKSİNİN
AÇILIŞI MƏRASİMİ

*24 sentyabr 2008-ci il*........................................................................40

QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNDƏ MÜQƏDDƏS RAMAZAN
AYI MÜNASİBƏTİLƏ İFTAR SÜFRƏSİ MƏRASİMİ

*25 sentyabr 2008-ci il* ........................................................................50

RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ
SƏDR MÜAVİNİ SVETLANA ORLOVANIN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 sentyabr 2008-ci il*........................................................................56

TÜRKİYƏNİN ƏDLİYYƏ NAZİRİ MEHMET
ƏLİ ŞAHİN İLƏ GÖRÜŞ

*25 sentyabr 2008-ci il*........................................................................57

AZƏRBAYCAN QADINLARININ III QURULTAYININ
İŞTİRAKÇILARINA

*26 sentyabr 2008-ci il*........................................................................58

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
SAATLI VƏ SABİRABAD RAYONLARINA SƏFƏRİ

*26 sentyabr 2008-ci il* ........................................................................60

RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*26 sentyabr 2008-ci il*........................................................................62

SABİRABAD RAYONUNDA ULU ÖNDƏRİN ABİDƏSİNİ ZİYARƏT

*26 sentyabr 2008-ci il* ........................................................................72

RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*26 sentyabr 2008-ci il.........................................................................75*

RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*27 sentyabr 2008-ci il.........................................................................82*

AZƏRBAYCAN RESPUBLİKASI PROKURORLUQ ORQANLARININ ƏMƏKDAŞLARINA

*27 sentyabr 2008-ci il.........................................................................83*

AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

*27 sentyabr 2008-ci il.........................................................................85*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
ŞİMAL BÖLGƏSİNƏ SƏFƏRİ

*27 sentyabr 2008-ci il .......................................................................86*

RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ
İLƏ GÖRÜŞ

*27 sentyabr 2008-ci il.........................................................................88*

QUBADA QIRMIZI QƏSƏBƏNİN SAKİNLƏRİ İLƏ
GÖRÜŞ

*27 sentyabr 2008-ci il.........................................................................93*

PREZİDENT İLHAM ƏLİYEVİN
QUSAR RAYONUNA SƏFƏRİ

*27 sentyabr 2008-ci il.........................................................................98*

RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ
İLƏ GÖRÜŞ

*27 sentyabr 2008-ci il.......................................................................100*

XAÇMAZDA RƏSM QALEREYASI İLƏ TANIŞLIQ

*27 sentyabr 2008-ci il*..........................................................................*109*

RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ
İLƏ GÖRÜŞ

*27 sentyabr 2008-ci il*..........................................................................*110*

İSPANİYA KRALI ƏLAHƏZRƏT I XUAN KARLOSA

*2 oktyabr 2008-ci il* ...........................................................................*115*

İSPANİYA KRALLIĞI NAZİRLƏR ŞURASININ SƏDRİ
ZATİ-ALİLƏRİ CƏNAB XOSE LUİS RODRİGES SAPATEROYA

*2 oktyabr 2008-ci il* ..........................................................................*116*

ABŞ DÖVLƏT KATİBİNİN MÜAVİNİ CON NEQROPONTENİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 oktyabr 2008-ci il* ...........................................................................*117*

AZƏRBAYCAN GƏNCLƏRİNİN
V FORUMUNUN İŞTİRAKÇILARINA

*3 oktyabr 2008-ci il* ...........................................................................*118*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN FÜZULİ, BEYLƏQAN, AĞDAM
RAYONLARINA VƏ ŞİRVAN ŞƏHƏRİNƏ SƏFƏRİ

*4 oktyabr 2008-ci il* ...........................................................................*120*

BEYLƏQANDA XOCAVƏNDLİ MƏCBURİ KÖÇKÜNLƏR ÜÇÜN
SALINMIŞ QƏSƏBƏNİN AÇILIŞI MƏRASİMİ

*4 oktyabr 2008-ci il* ..........................................................................*129*

PREZİDENT İLHAM ƏLİYEVİN
AĞDAM RAYONUNA SƏFƏRİ

*4 oktyabr 2008-ci il* ...........................................................................*138*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
ŞİRVAN ŞƏHƏRİNƏ SƏFƏRİ

*4 oktyabr 2008-ci il ............................................................................147*

İSLAM ÖLKƏLƏRİNİN ALİ TƏHSİL VƏ ELM NAZİRLƏRİNİN
IV KONFRANSININ İŞTİRAKÇILARINA

*6 oktyabr 2008-ci il ............................................................................152*

İSLAM ÖLKƏLƏRİNİN ALİ TƏHSİL VƏ ELM NAZİRLƏRİNİN
BAKIDA KEÇİRİLƏN
IV KONFRANSININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*6 oktyabr 2008-ci il ............................................................................154*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ
NÜMAYƏNDƏSİ PETER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 oktyabr 2008-ci il ............................................................................159*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
CƏNUB BÖLGƏSİNƏ SƏFƏRİ

*7 oktyabr 2008-ci il ............................................................................160*

RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*7 oktyabr 2008-ci il ............................................................................164*

MASALLI İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ
İLƏ GÖRÜŞ

*7 oktyabr 2008-ci il ............................................................................171*

ZƏRİFƏ ƏLİYEVA ADINA ELMİ-TƏDQİQAT GÖZ XƏSTƏLİKLƏRİ
İNSTİTUTU FİLİALININ
AÇILIŞI MƏRASİMİ

*7 oktyabr 2008-ci il ......................................................................177*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN LƏNKƏRAN ŞƏHƏRİNƏ SƏFƏRİ

*8 oktyabr 2008-ci il ..........................................................................179*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ

*9 oktyabr 2008-ci il ..........................................................................195*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*9 oktyabr 2008-ci il ..........................................................................196*

FİNLANDİYANIN XARİCİ TİCARƏT VƏ İNKİŞAF NAZİRİ PAAVO VYAYURYUNENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*9 oktyabr 2008-ci il ..........................................................................197*

MİLLİ ARXİV İDARƏSİNİN YENİ BİNASININ İSTİFADƏYƏ
VERİLMƏSİ MƏRASİMİ

*9 oktyabr 2008-ci il ..........................................................................198*

«CABBAR HƏŞİMOV» TANKERİNİN İSTİFADƏYƏ
VERİLMƏSİ MƏRASİMİ

*9 oktyabr 2008-ci il ..........................................................................200*

BAKI METROSUNUN «NƏSİMİ» STANSİYASININ
AÇILIŞI MƏRASİMİ

*9 oktyabr 2008-ci il ..........................................................................202*

«AZƏRBAYCAN» NƏŞRİYYATINDA
RƏNGLİ OFSET ÇAP KOMPLEKSİ İLƏ TANIŞLIQ

*9 oktyabr 2008-ci il ..........................................................................206*

QALA ARXEOLOJİ-ETNOQRAFİK MUZEY- KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*10 oktyabr 2008-ci il* ........................................................................*207*

PAYTAXTDAKI KLİNİKİ TİBBİ MƏRKƏZİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRA AÇILIŞI MƏRASİMİ

*10 oktyabr 2008-ci il* ........................................................................*213*

PAYTAXTA GƏTİRİLƏN YENİ SƏRNİŞİN AVTOBUSLARINA BAXIŞ

*10 oktyabr 2008-ci il* ........................................................................*218*

POLŞA PREZİDENTİ ADMİNİSTRASİYASININ MİLLİ TƏHLÜKƏSİZLİK BÜROSUNUN RƏHBƏRİ VLADİSLAV STASİAKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 oktyabr 2008-ci il* ........................................................................*219*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ

*13 oktyabr 2008-ci il* ........................................................................*220*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*13 oktyabr 2008-ci il* ........................................................................*221*

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA

*13 oktyabr 2008-ci il* .......................................................................*222*

AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB HAYNZ FİŞERƏ

*13 oktyabr 2008-ci il* ........................................................................*223*

TÜRKMƏNİSTAN PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB QURBANQULU BERDIMƏHƏMMƏDOVA

*13 oktyabr 2008-ci il* ........................................................................ *224*

ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB VATSLAV KLAUSA

*13 oktyabr 2008-ci il* ........................................................................ *225*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ
NAZİRLƏR KABİNETİNİN 2008-ci İLİN DOQQUZ AYINDA SOSİAL-İQTİSADİ İNKİŞAFIN YEKUNLARINA HƏSR
OLUNMUŞ GENİŞ İCLASI

*13 oktyabr 2008-ci il* ........................................................................ *226*

YEKUN NİTQİ ........................................................................ *234*

ATƏT-in DEMOKRATİK TƏSİSATLAR VƏ İNSAN HÜQUQLARI
BÜROSUNUN RƏHBƏRİ YANEZ LENARÇİÇİ İLƏ GÖRÜŞ

*16 oktyabr 2008-ci il* ........................................................................ *258*

MDB İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ – İCRAÇI KATİB SERGEY
LEBEDEV İLƏ GÖRÜŞ

*16 oktyabr 2008-ci il* ........................................................................ *259*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN ANDİÇMƏ MƏRASİMİ

*24 oktyabr 2008-ci il* ........................................................................ *260*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN ANDİÇMƏ MƏRASİMİNDƏ NİTQİ

*24 oktyabr 2008-ci il* ........................................................................ *264*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ZİYAFƏTDƏ NİTQİ

*24 oktyabr 2008-ci il* ........................................................................ *281*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*24 oktyabr 2008-ci il* ........................................................................ *285*

ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM

*24 oktyabr 2008-ci il* ..........................................................................*286*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ
MİXEİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞ

*24 oktyabr 2008-ci il* ..........................................................................*287*

RUSİYA FEDERASİYASI PREZİDENTİ ADMİNİSTRASİYASININ
RƏHBƏRİ SERGEY NARIŞKİN İLƏ GÖRÜŞ

*24 oktyabr 2008-ci il* ..........................................................................*288*

TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ
CƏMİL ÇİÇƏK İLƏ GÖRÜŞ

*24 oktyabr 2008-ci il* ..........................................................................*289*

POLŞA PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ
PYOTR KOVANSKİ İLƏ GÖRÜŞ

*24 oktyabr 2008-ci il* ..........................................................................*290*

NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ ORTA ASİYA ÜZRƏ
XÜSUSİ NÜMAYƏNDƏSİ
ROBERT SİMMONS İLƏ GÖRÜŞ

*24 oktyabr 2008-ci il* ..........................................................................*291*
*bp* ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU
ENDRYU İNQLİS İLƏ GÖRÜŞ

*24 oktyabr 2008-ci il* ..........................................................................*292*

DÖVLƏT BAYRAĞI MEYDANINDA İNŞAAT İŞLƏRİNİN
GEDİŞİ İLƏ TANIŞLIQ

*27 oktyabr 2008-ci il* ..........................................................................*293*

RƏSSAMLAR İTTİFAQININ ƏSASLI TƏMİR EDİLMİŞ VƏ YENİDƏN
QURULMUŞ BİNASI İLƏ TANIŞLIQ

*28 oktyabr 2008-ci il* ..........................................................................*294*

PAYTAXTDA YENİDƏN QURULMUŞ M.F.AXUNDOV BAĞI İLƏ TANIŞLIQ

*28 oktyabr 2008-ci il ..........................................................................295*

YAZIÇILAR BİRLİYİNİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ APARILMIŞ BİNASI İLƏ TANIŞLIQ

*28 oktyabr 2008-ci il ..........................................................................296*

ABŞ-ın TİCARƏT NAZİRİNİN MÜAVİNİ CON SALLİVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 oktyabr 2008-ci il ..........................................................................298*

KƏND TƏSƏRRÜFATI İŞÇİLƏRİNƏ

*30 oktyabr 2008-ci il ..........................................................................300*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN MOSKVAYA SƏFƏRİ

*1 noyabr 2008-ci il ..........................................................................303*

AZƏRBAYCAN VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN MOSKVADA GÖRÜŞÜ

*2 noyabr 2008-ci il ..........................................................................304*

AZƏRBAYCAN, ERMƏNİSTAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN GÖRÜŞÜ

*2 noyabr 2008-ci il ..........................................................................305*

AZƏRBAYCAN, ERMƏNİSTAN VƏ RUSİYA PREZİDENTLƏRİ BƏYANNAMƏ İMZALAMIŞLAR

*2 noyabr 2008-ci il ..........................................................................306*

POLŞA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB LEX KAÇİNSKİYƏ

*4 noyabr 2008-ci il* ........................................................................*307*

MALDİV RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD NAŞİDƏ

*4 noyabr 2008-ci il* ........................................................................*308*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ YENİ SEÇİLMİŞ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

*5 noyabr 2008-ci il* ........................................................................*309*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ RƏSMİ SƏFƏRİ

*5 noyabr 2008-ci il* ........................................................................*311*

ANITQƏBİRİ ZİYARƏT

*5 noyabr 2008-ci il* ........................................................................*312*

ÇANKAYA KÖŞKÜNDƏ RƏSMİ QARŞILANMA
MƏRASİMİ

*5 noyabr 2008-ci il* ........................................................................*313*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ
PREZİDENTİ ABDULLAH GÜLÜN GÖRÜŞÜ

*5 noyabr 2008-ci il* ........................................................................*314*

AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN GENİŞ
TƏRKİBDƏ GÖRÜŞÜ

*5 noyabr 2008-ci il* ........................................................................*315*

AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN
BƏYANATLARLA ÇIXIŞLARI

*5 noyabr 2008-ci il* ........................................................................*316*

DÜNYA ŞÖHRƏTLİ ALİM-HƏKİM İHSAN DOĞRAMACI İLƏ GÖRÜŞ

*5 noyabr 2008-ci il ........................................................................322*

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ
RƏSMİ QƏBUL

*5 noyabr 2008-ci il ........................................................................323*

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*6 noyabr 2008-ci il ........................................................................330*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ
BÖYÜK MİLLƏT MƏCLİSİNDƏ OLMUŞDUR

*6 noyabr 2008-ci il ........................................................................331*

ANKARADA HEYDƏR ƏLİYEV KÜÇƏSİNİN
AÇILIŞI MƏRASİMİ

*6 noyabr 2008-ci il*
*...................................................................................................3*
*41*

TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAH RƏİSİ
İLKƏR BAŞBUĞUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*7  noyabr 2008-ci il .......................................................................344*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

*7 noyabr 2008-ci il ........................................................................345*

*Q E Y D L Ə R ...........................................................................346*

*Şəxsi adlar göstəricisi.....................................................................375*

*Coğrafi adlar göstəricisi .................................................................379*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompyuter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x108 1/32. Ofset kağızı 1. Şərti çap vərəqi 25,75. Uçot vərəqi 26,25 Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.